__________Milli Kitabxana__________

**NƏZAKƏT ƏZIZOVA**

# *HÜSEYN CAVID DRAMATURGIYASINDA QADINLARIN TIPLƏRI VƏ CAVIDIN MƏHƏBBƏT KONSEPSIYASI*

**BAKI - «Elm» - 2005**

**Elmi Redaktoru:**

**f.e.n. X. ƏLİYEV**

**Məsləhətçiləri:**

**f.e.d.prof. Ş. SALMANOV**

**f.e.d. prof. Z. ƏSGƏRLİ**

«H.Cavid dramaturgiyasında qadınların tipləri və Cavidin məhəbbət konsepsiyası» əsərində böyük Cavidin əsərlərinin xronologiyası, qısa məzmunu, dramlardakı qadınların tipləri, yaş psixologiyası, mövqeyi, taleyi, xarakteri, məhəbbətin resepti, Cavidin uzaqgörənliyi, dərinliyi və bu barədəki mülahizələrindən bəhs edilmişdir.

**4603000000**
**029-2005**

**© "SABAH", 2005**

*"Əzizova Nəzakət məhərrəm qızı 1952-ci il sentyabr ayının 7-də Naxçıvan MR. Şərur rayonunun Çərçiboğan kəndində anadan olub. 1967-ci ildə 8 illik kənd, 1969-cu ildə isə Şərur rayonundakı orta məktəbi bitirib.*

*1979-cu ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirdikdən sonra 1988-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında baş kitabxanaçı, 1994-cü ildən isə Ədəbiyyat Institutunda baş labarant vəzifəsindən böyük elmi işçi vəzifəsinədək yüksəlib.*

*2000-ci ildə "Hüseyn Cavid dramaturgiyasında Insan, Iblis, Tanrı konsepsiyası("Şeyx Sənan", "Iblis", "Peyğəmbər")"mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi, alimlik dərəcəsi almışdır.*

*Nəzakət Əzizova bədii yaradıcılığa məktəb illərindən başlamışdı. Onun hələ məktəbli ikən yazdığı "Mən məktəbə gedirəm", "Yaz" adlı şerləri ilk dəfə Naxçıvanda nəşr olunan "Şərq qapısı"qəzetində dərc edilmişdir.*

*1992-ci ildə müəllifin "Gözlərimin günahı"və "Könlümün yükü" adlı kitabları işıq üzü görmüşdür.*

*2000-ci ildə nəzakət Əzizovanın H. Cavid dramaturgiyasında "Insan, Iblis, Tanrı ("Şeyx Sənan", "Iblis", "Peyğəmbər")" elmi monoqrafiyası, 2002-ci ildə "Rəngarəngdir ləçəkləri çiçəyin", "Nağıl kimi şipşirindir bu dünya" (toplu), 2003-cü ildə "Bənövşəli görüşlər" adlı kitabları oxucuların ixtiyarına verilmişdir.*

*Nəzakət Əzizovanın şer və hekayələri "Azərbaycan", "Ulduz","Azərbaycan qadını", "Ümid çırağı" jurnallarında, "Bakı", "Azərbaycan müəllimi", "Ədəbiyyat", "Milli birlik", "Şəhriyar", "vətən səsi", "Vətəndaş", "Diyar", "Həftə içi", "Həqiqətlər və faktlar", "Vicdanın səsi" qəzetlərində dərc edilmişdir.*

*Şairə, nasir, ədəbiyyatşünas, Azərbaycan Yazıçılar Birliyinin üzvü Nəzakət Əzizovanın "Nağıllar, hikmətlər" adlı kitabı onun öz oxucuları ilə yeni görüşüdür.*

# M Ü N D Ə R İ C A T

*Ön söz*............................................................. 3

I fəsil

*Hüseyn Cavid drammaturgiyasında qadına və məhəbbətə münasibət. Romantik və mistik məhəbbətə meyl*............. 8

II fəsil

*Hüseyn Cavidin qadın qəhrəmanlarının həyatında məhəbbətin uşaqlıq, gənclik və kamillik mərhələləri. Yaşın məhəbbətə təsiri. Qorxu, hissiyyat, təmas*................................ 54

III fəsil

*Saray və əyan qadınlarının dünyagörüşündəki ümumi və fərqli cəhətlər. Qısqanclığın və xəyanətin səbəbləri, həssaslıq və hərislik*...................................... 90

IV fəsil

*Məğrur qadınların ruhu (xasiyyəti, oxşarlığı), ağlı və psixologiyası. Halallıq, sədaqət, məhəbbət və xoşbəxtlik*......... 116

*Nəticə*.............................................................. 180

*Rezöme*............................................................ 184

*The Resume*...................................................... 188

*Istifadə edilmiş ədəbiyyat*....................................... 192

*Məqalələr*......................................................... 197

*Məqalələrin mündəricatı*.................................

***Dünyanı qadınlar idarə edir,***
***ancaq həmişə kişilərin adı çəkilir.***
**H. Heyne.**

# ÖN SÖZ

İnsan cəmiyyətinin yaranması qadınla bağlıdır. Zaman-zaman dünyaya insan gətirən qadına çox adi münasibət olmuşdur. Əzilən, iztirab çəkən qadına işıq yolu göstərmək əsrlər boyunca müşkül işə çevrilmişdir.

İslamiyyətdən əvvəl qadın kişinin şəhvətinə məhkum olunan adicə bir varlıq idi. Kəbinsiz qadınlar ən adi canlı kimi başqasının zövqünə, şəhvətinə uyğun olaraq alınıb, satılırdı. Adəm peyğəmbərin dövründən Həzrət İsanın dövrünədək qadınlar ancaq kölə hüququnda yaşamışdılar. Həzrət Məhəmmədin Məkkədən Mədinəyə /622/ hicrət etdiyi illərdə artıq qadınlarda öz varlıqlarına qarşı inam, ümid qığılcımları doğulmağa başlamışdı. Belə ki, "Qüreyş ordusu ilə bərabər gəlmiş qadınlar əllərindəki qavalları, cərgələri dolanaraq çalır, hərb nəşidləri söyləyirdilər. Bədrdə ölənlər haqqında şerlər söyləyir, bununla əsgərlərə cəsarət və qüvvət verməyə çalışırdılar" (38.s.351).

XVIII əsrdə burjua inqilablarının əzici təsirindən sonra ilk dəfə Yunanıstanda feministlər hərəkatı başlanmışdı. XVIII - XIX əsrlərdə Avropada, Rusiyada maarifçilik hərəkatının genişlənməsi qadınların elmə, maarifə üz tutması həmin qanunauyğun prosesin nəticəsi idi. XIX əsrin axırlarında XX əsrin əvvəllərində Şərq qadınları köləliyə qarşı öz səslərini ucaltmağa başladılar.

Həmin dövrdə Suriyada, Misirdə, Türkiyədə qadın hərəkatları genişlənməyə başladı. Bu dövrdə Misirdə "Əl-Fətət"/Qız/, "Ənisül Cəlisə" /Həmsöhbət/, "Fətət üş Şərki" /Şərq qızı/, Suriyada "Əl Hüsnət" /Gözəl/ jurnalları nəşr

edilmişdir.

Azərbaycanda başqa xalqlara nisbətdə qadın azadlığı uzun müddət ləngimişdi. Bu məsələlər yalnız Azərbaycan Rusiyanın tərkibinə daxil olandan sonra yada düşmüşdü.

Qadının səviyyəsi, maariflənməsi hər şeydən əvvəl xalqın tərəqqisidir. Bu nöqteyi-nəzərdən cəmiyyətin intellektual cəhətdən yüksəlişində qadının mütləq rolu danılmazdır.

Nənələrimiz, Azərbaycan tarixinə Tomris, Nüşabə, Mehrican xanım, Tuti Bikə kimi dövlət başçıları, Sara Xatun kimi diplomatlar, Məleykə Könüldaş kimi şairələr bəxş etmişlər.

Xalqımızın ruhunu, dilini, adət-ənənəsini qoruyub inkişaf etdirən də məhz qadınlarımızdır.

XIX əsrdə ziyalılarımız ədəbiyyatda qadınlarımızı ağıllı, fərasətli, namuslu, ailəsini, təsərrüfatını idarə edən, nəcabətini qoruyan xanımlar kimi təsvir etmişlər. XX əsrin əvvəllərində, maarifpərvər şair və pedaqoqlarımız; S.Ə. Şirvani, H.B. Zərdabi, M.F. Axundov, N.B. Vəzirov, M.M. Nəvvab, M.T. Sidqi, N. Nərimanov, Hüseyn Cavid qadınlarımızdakı qüsurları onların savadsızlığında axtarırdılar.

Azərbaycan ziyalıları "Şərqi Rus", "Həyat", "Irşad", "Təkamül","Təzə həyat", "Tərəqqi", "Səda", "Sədai-həqq", "Sədai-vətən", "Iqbal", "Açıq söz" həm Azərbaycan, həm də rus dilində nəşr edilən "Kaspi", "Baku", "Proqress", "Yeni Füyüzat", "Molla Nəsrəddin", "Şəlalə", "Işıq", "Dirilik" və s. jurnallar öz səhifələrində qadın azadlığı, qadının maariflənməsi, milli mədəniyyətin inkişafı və s. məsələləri mərkəzə çəkib təhlil edirdilər.

Bu dövrdə artıq kişilərlə birlikdə qadınlar da /Şəfiqə xanım Əfəndizadə/ qadınları maarifə, mədəniyyətə çağırırdılar. 1917-1920-ci illərdə ictimai-siyasi durum qadın təhsili və azadlığı uğrunda mübarizənin yeni mərhələsini açdı. Oxumuş qadınlarımız milli mədəniyyətlərin tərəqqisində mühüm rol

oynamağa başladılar. Həmin illərdə "Doğma xalqının tərəqqisinə çalışan, gələcək nəsilə ana dilində təlim-tərbiyə vermək arzusu ilə yaşayan ziyalılar yeni üsulla məktəblər açmağa çalışırdılar" (63.s.19).

H. Cavidin ədəbiyyatımıza gəldiyi illər burjua-feodal zülmünün aradan qaldırılması, kapitalizmin imperializm mərhələsinə keçid mərhələsi, iqtisadi mədəni inkişafa, əxlaqa, mənəviyyata meyllik dövrü idi. Bu dövrdə millətçilik, şovinizm, mövhumatçılıq, cəhalət, ətalət pislənilirdi. Millətləri ittifaqa-dostluğa, qardaşlığa, sülhə-beynəlmiləl ideyalara səsləyirdilər.

"Asiyanın oyanması" yavaş-yavaş realizm və romantizm cərəyanlarının inkişafına təkan verirdi. Bu dövrdə, "müasirləşmək", "mədəniləşmək", "maariflənmək" ideyaları təbliğ edilirdi. Romantiklər insanın daxili gözəlliklərinə ən ümdəsi də hiss və duyğularının gözəlliklərinə öz münasibətlərini bildirir, onların mühakiməsinə daha geniş yer verirdilər. Realistlərə nisbətən romantiklər qəlbin, ruhun azadlığı uğrunda mübarizədə daha fəal iştirak edirdilər.

Ideal həyat axtarıcılığı ilə yanaşı yeni şer üslubu da yaranmağa başlamışdı.

Romantizmin xüsusiyyəti onun ideya məzmununda, nəzəri-estetik prinsipində bədii idrak və sənətkarlığında idi. Romantiklər klassik irsdən bəhrələnə-bəhrələnə romantik şerin nəzəri estetik formalarını yaradırdılar.

Qəzəl, qəsidə, həcv, məddahçılıq zəifləməyə başlamışdı. Əski şerin yıxılması, yenisinin yaranmasına şərait yaradırdı. Mövhumatçı, epiqonçu şairlər sıradan çıxırdılar. Romantiklər Şərqin bədbəxtliyini sxolastik, köhnə, ilahiyyatçı fəlsəfələrdə görür, Şərqin Qərbə nisbətindəki bədbəxtliklərini onların kasıblığı, ətaləti ilə bağlayır, yeni fikirləri təbliğ edir və bu yolda ədəbiyyatı mübarizə vasitəsi sayırdılar.

Romantiklərin əsas mövzuları milli azadlıq ideyaları

bədbəxt adamların hüquqlarının müdafiəsi, xalqın azad gələcəyinin, xüsusən də qadın azadlığının tərənnümü idi. Onlar qadın əsarətinə, çadra əleyhinə çıxır, dilənçilərin, xəstələrin, qızların faciəsini ədəbiyyatda əks etdirirdilər.

Yeri gəlmişkən kəbin qadınla kişi arasında onların bir-birinə qayğısı, diqqəti, məhəbbəti və sədaqəti arasında möhürlənmiş sənəddir.

Cavid addımbaşı bu möhürlü sənədə biganə olanları məsuliyyətli olmağa, qanuna, el adətinə diqqətli olmağa çağırır.

Bu barədə Hüseyn Cavid cəmiyyətdə mövqe tutmaq istəyən, uca, dəyanətli qadına özünün "Qadın" şerində yazmışdır:

Anasız millət, əvət öksüzdür
Sənin aləmdə (ailəndə) vəzifən, hissən
Nə böyük, həm nə ağırdır bilsən?! (4.s.39).

Cavidin qadınla bağlı o zamankı şerləri onun gələcək dramlarındakı qadın obrazlarının mikromiqyaslı nümunələri idi. "Onun /H. Cavidin N.Ə/ 1913-cü ildə çap olunan ilk kitabının "Keçmiş günlər" adlandırılması da təsadüfü deyildir. Əslində "Keçmiş günlər" geniş mənada tarixi yaddaş və hətta uzaq gələcəyin də əsası olan bir yaddaşdır. Və elə bu vaxt "Iqbal" qəzeti H. Cavidi Qafqazın ən füsünkar mühərrir və şairlərindən biri hesab edirdi. Çünki şairin qələmində Şəfiqənin /"Məsud və Şəfiqə"/ ağrıları dil açır, açılmadan solan bir gözəlin qüssəsi dalğalanır. /"Otuz yaşında"/ öz sevgilisinə çatmayan gənc oğlanın hönkürtüləri eşidilir /"Gecəydi"/, uyuyan qadını mübarizəyə çağırış nidaları səslənirdi /"Qadın"/. Bu əsərlərin oxucuları H. Cavidin obrazlarına təəccüblənmirdilər, onları arayıb-axtarmağa vaxt sərf etmirdilər. Çünki, "Kiçik sərsəri" də "Öksüz Ənvər"də elə hamının tanıdığı adamlardır" (20.s.12).

H. Cavid elə ilk şerlərində Şərq qadınının halına acımış, onu düşdüyü vəziyyətdən çıxarmaq üçün yollar axtarmışdı. Onun

"Qadın", "Qız məktəbində", "Şərq qadını", "Vərəmli qız", "Bir qızın son fəryadı" və s. şerləri öz səciyyəsinə görə bu qəbildən olan əsərlərdəndir.

Şairin Şərq qadınının miskin taleyinə həsr etdiyi şeri elə həmin qadının öz dili ilə qələmə alınmışdır:

"Pək gözəlsən"- qaniçən sultanlar
Məni əyləncə yapar
Çox zamanlar da bağışlar birinə,
"Ən nəfis işvəli bir qüvvə"- deyə
Oh, nə miskincə həyat!?
Yeri gəldikcə atarlar Nilə,
Yaxud atəşgədəyə.. (4.s.57).

XX əsrin əvvəllərində artıq romantiklərin əsərlərində lirik, epik və dram janrı xüsusi inkişaf mərhələsinə qədəm qoymuşdu. Ziyalılar təbiəti insana tabe etmək, təbiəti fəth etmək, panislamizm, pantürkizm ideyalarına öz münasibətlərini aydınlaşdırırdılar. Ağıla, kamala güclü meyl yaranmağa başlamışdı. Ziyalılar təkcə qoluzorluları, ruhaniləri deyil, həmçinin müasir ruhda tərbiyə almış kimi görünən Ediliyaları /C. Cabbarlı "Sevil"/ xalqımızın milli mentalitetinə yadd olanları da kəskin tənqid edirdilər.

Tərəqqi, təkamül-ağlın möcüzələri ilə bağlı yazılar nəşr edilirdi.

Cavidin yaratdığı sənət əsərlərinin hamısında elm var idi. Ağılla, idrakla, müdrüklüklə bağlı idi Cavidin yaratdıqları. Cavidi qeyri-adi edən onu bir çoxlarından üstünlüyü də yalnız bu ağılla, dərrakə ilə, fəhmlə bağlı incəliklər, zəriflikər idi.

H. Cavid, S. Vurğun, C. Cabbarlı, S. Hüseyn, M. Müşfiq və b. ədiblərimiz milləti qüvvətli olmağa, həyat mübarizəsində qalib gəlməyə, millətlər arasında dostluğa, qardaşlığa səsləyirdilər.

Onların hər birinin, xüsusən də H. Cavidin məsləki, məzhəbi insana məhəbbət, qadına məhəbbət, insanlar arasında

məhəbbət, maarifə, mədəniyyətə can atma, mütərəqqi ideyalara meyl, bədxahlığa, iblisliyə ikrah hissi, insanlaşdırmağa çağırış idi.

# I FƏSİL

## H. CAVİDİN DRAMLARINDA QADINA VƏ MƏHƏBBƏTƏ MÜNASİBƏT. ROMANTİK VƏ MİSTİK MƏHƏBBƏTƏ MEYL

Qadın azadlığının əzəl carçılarından olan H. Cavid hər iki dövrün, Oktyabr inqilabından əzəlki və sonrakı dövrün banisidir. H. Cavidin qadın psixologiyasına səyahətdə bir məqsədi var idi. O, qadın psixologiyasını öyrənməklə onu vaxtaşırı düşdüyü bəlaların cəngindən xilas etmək istəyirdi. Vaxtı ilə akademik M. Cəfər haqlı olaraq Cavidin fəlsəfi faciə, tarixi və ailə dramlarından ibarət əsərlərini təhlil edərkən onları "xarakterlər dünyası" (4.s.5) adlandırmışdır. H. Cavid beynəlmiləlçi bir şair-dramaturq olduğu üçün o bütün millətlərə sülh arzusuyla yazıb, yaratmışdır.

Doğrudan da Hüseyn Cavid öz dramaturgiyasında bir millətin yox, bir çox millətlərin adət-ənənələrini ifa edən nümayəndələrin konfliktindən, xarakterindən bəhs etmişdir.

XX əsr Azərbaycan ədəbiyyatına on beş orijinal əsər bəxş etmiş hünərvər H. Cavidin yaradıcılığı iki dövrü, Oktyabr inqilabından əvvəlki və Oktyabr inqilabından sonrakı sovet dövrünü əhatə edir. Nadir ədəbi simalardan olan H.Cavidin dram əsərləri istər ictimai məndərəcəsinə görə, istərsə də milli və bəşəri məzmununa görə xüsusi mövqeyi olan əsərlərdəndir. H. Cavid bu əsərlərini bir çox təxəllüslərlə; Müxbir, Növrəs, Qədirşünas, Gülçin, Arif, Hüseyn, Salik, H. Cavid, H. Naxçıvanlı, H.R. Naxçıvani, H. Rasizadə, H.S. Rasizadə Naxçıvani, H.C. Hüseyn Cavid, Hüseyn Rasizadə Naxçıvani (60.s.103) və s. imzalarla yazıb yaratmışdır. Rasizadə-moizə oxuyan, Tanrıdan gələnləri danışan, bir yolu olan, haqq yolunun yolçusu deməkdir. Cavid bunu dərrakəli şəkildə özünə fa-

miliya-soyad etmişdir. Özü də ölüncə bu müqəddəs əməlində nəsillikcə ruhani olduğunu isbat etmiş nəticədə Tanrı səviyyəsinə qalxıb, ulduza çevrilmişdir.

1936-cı ildə Hüseyn Cavidin əsərləri külliyatının birinci iki cildinin çapdan çıxacağı haqqında məlumat verilmişdir (Bax: Q. Məmmədli. Cavid ömrü boyu. Həyat və yaradıcılıq salnaməsi. Bakı. Yazıçı, 1982,s.278): Həmin incilər aşağıdakılardır; 1."Balaxanı yollarında"; 2. "Ana"; 3. "Maral"; 4. "Şeyda"; 5. "Ata qatili"; 6. "Şeyx Sənan"; 7. "Iblis"; 8. "Uçurum"; 9. "Afət"; 10. "Peyğəmbər"; 11. "Topal Teymur"; 12. "Knyaz"; 13. "Səyavuş"; 15. "Azər"; 16. "Xəyyam"; 17. "Şəhla"; 18. "Iblisin intiqamı"; 19. "Koroğlu" ssenarisi və yerdə qalan 3 pyesin adı naməlumdur.

Həmin külliyyata əsasən Cavidin dörd cildliyində əsərlərin xronologiyasını belə qruplaşdırmaq lazımdır:

## BİRİNCİ DÖVR

1."Keçmiş günlər". Buraya onun on üç şeri daxil edilmişdir. Əsasən 1905-1913-cü illər arasındakı şer yaradıcılığının cəmidir.

2. "Bahar şəbnəmləri" adı altında on doqquz, "Unudulmuş şerlər" adlı kitabında isə şairin 36 şeri toplanmışdır.

3. Dağıstan xalqının həyatından bəhs edən "Ana"draması Cavidin ilk səhnə əsəridir. Bu dram 1910-cu ildə yazılmış 1913-cü ildə nəşr edilmişdir.

4. Cavidin ikinci səhnə əsəri "Maral" dramının da mövzusu Dağıstan xalqının həyatından alınmışdır. Bu dramın yazılma tarixi 1912, nəşr tarixi isə 1917-ci ildir.

5. "Şeyx Sənan" faciəsini H Cavid 1914-1915-ci illər arasında Naxçıvanda yazmışdır. Həmin faciə kitab kimi 1917-ci ildə nəşr edilmişdir.

6. "Şeyda" sayca Cavidin altıncı dram əsəridir. 1913-cü ildə

nəşr edilmişdir.

7. Ailə-məişət problemlərinə həsr edilmiş "Afət" faciəsi 1906-1909-cu illərdə yazılmışdır.

8. Cavidin şah əsəri olan "Iblis" faciəsi 1918-ci ildə qələmə alınmışdır.

9. "Uçurum" dramı dramaturqun sayca 9-cu əsəridir. Bu dram 1917-ci ildə yazılıb, 1926-ci ildə nəşr edilmişdir. Sonrakı əsərləri isə 1920-1936-cı illəri-BOS-inqilabından sonrakı illəri əhatə edir.

H. Cavid eyni vaxtda bir neçə əsər üzərində paralel işlədiyi üçün bu əsərlərdə həm paralellik, həm də ardıcıllıq izlənilmişdir. Onun ikinci dövr yaradıcılığını əhatə edən əsərləri aşağıdakılardır:

10. "Peyğəmbər" dramı 1922-1923-cü illər arasında yazılmış 1923-cü ildə nəşr edilmişdir.

11. "Topal Teymur" 1925-ci ildə yazılmış 1926-cı ildə nəşr edilmişdir.

12. "Knyaz" 1928-1929-cu illərdə yazılıb nəşr olunmuşdur.

13. "Səyavuş" 1932-ci ildə yazılmışdır.

14. "Xəyyam" pyesini Cavid gənc yaşlarından yazmağa başlamış 1936-cı ildə tamamlamışdır.

15. "Iblisin intiqamı" üzərində Cavid 1936-cı ilin avqust, 1937-ci ilin mart ayınadək işləmişdir. "Telli saz" 1931-1932-ci illər arasında yazılmışdır. "Dəli Knyaz", "Koroğlu" adlı əsərləri itirilmişdir

Bir pərdəli "Ana" dramındakı hadisələr Dağıstan ərazisində otlu, ağaclı kiçicik bir bağçada, kasıb bir daxmada baş vermişdir. Əsərin qəhrəmanı Səlma ana üç ay nigarançılıq keçirdikdən sonra oğlu Qanpoladdan məktub almışdır. O, məktubu oxutdurmaq üçün qonşuya gedir. Ismət evdə öz-özünə çəkdiyi hicran əzablarından danışır. Bu vaxt guya Ismətə vurulmuş dəliqanlı Orxan dostu Izzətlə peyda olub, özünün Ismətə olan sevgisindən söhbət açmaq istəyir. Evdə qarmon

çalan Ismətin Orxandan xəbəri yoxdur. Orxan Ismətin məhəbbətini qazanıb, onun nişanlısı Qanpoladdan ayırmaq üçün yollar arayır. Beləliklə Orxan daxmaya keçib, öz eşqini Ismətə anladır.

**Orxan**

Bütün qızlar əsir ikən eşqimə
Mən sənin eşqindən batmışam qəmə (4.s.224).

Məhəbbətin gənclik mərhələsində olan Ismət barmağındakı nişan üzüyünü göstərib, ölüncə Qanpolada sadiq qalacağını bildirir. Orxan özünü öldürməklə hədələyəndə Ismət fərqinə varmadan ona xəncər verir. Səlma ananın məktubu oxudub qayıtması Izzətlə Orxanda çaşqınlıq yaradır. Onlar tələsdikləri üçün xəncəri atıb, həyətdə gizlənirlər. Bu vaxt Ismətin qardaşı Səlim gəlib xəncəri görür və onun nə üçün yerdə olduğunu bacısından soruşur. Ismət müxtəlif hərəkətlərlə xəncərdən xəbərsiz olduğunu söyləyir. Səlim xəncərin hansısa bir cinayətlə bağlı olduğunu bildirir, eyni zamanda Qanpoladın hicranıyla bağlı Ismətin özünü öldürmək istədiyindən şübhələnib qorxur və xəncərin haradan bura düşməsini aydınlaşdırmaq istəyir. Ismət qardaşının əl çəkməyəcəyini görüb, anladır ki, Xəncər Orxanındır. Ismətdən rədd cavabı aldığı üçün xəncəri verib, onu öz əlləriylə öldürməsini diləmişdir. Səlim bacısından bu acı xəbərləri eşidən kimi bacısına tapşırır ki, hadisədən Səlma ananı xəbərdar etsin. Məktubu oxudub qayıdan Səlma ana oğlu Qanpoladın gəlməsini bilib, çox sevinir və Isməti muştuluqlayır. Ismət də öz növbəsində bu xəbəri ata-anasına çatdırmaq üçün öz evlərinə tələsir. Qanpoladın gəlişiylə bağlı xəbəri gizləndiyi yerdən eşidib bilən Orxanı qısqanclıq hissləri bürüyür. Dostu Izzət Orxanı başa salır ki, hələ nə isə əldə etmək üçün vaxt var. Xəyanət nəticəsində türməyə düşən və indi azadlığa buraxılan

Qanpoladın gəlib çıxma xəbərini Səlim Səlma anaya çatdıranda Səlma ana sevincək Səlimin muştuluğuna bir gümüş kəmər bağışlayır.

Bu vaxt lap yaxınlıqda tapança səsi eşidilir. Orxan öz dostları Izzət və Muradla birlikdə Qanpolada atəş açırlar. Murad qaçıb, Səlma ananın evində ondan sığınacaq istəyir. Bu vaxt Səlim içəri girib ondan qaçan çərkəz Muradın Qanpoladın qatili olduğunu Səlma anaya söyləyir. Səlma ana acı xəbərdən şiddətlə ağlayıb Allaha üz tutur. Yaralanmış Qanpoladı gətirirlər. Öz qatillərindən intiqam alan Qanpolad anası Səlmanın, sevgilisi Ismətin qarşısında mərdi-mərdanə ölür və ölərkən qatili bağışlamağı anasına vəsiyyət edir.

Yeganə oğlunu itirən Səlma ana oğlu Qanpolad kimi mərddir. Onun mərdliyini düşməni Murad da etiraf edir, mənən ananın qarşısında cılızlaşır, özünə ölüm diləyir. Qanpolad öz əvəzinə iki nəfəri öldürüb, öz qisasını aldığına görə həm ananın qarşısında, həm də sevgilisi Ismətn qarşısında ərliyini təsdiq edir.

Ismət qan tökülməsin deyə həqiqəti qardaşından gizlətmək istəsə də sonda deməyə məcbur olur.

Ismət gəncdir, gözəldir, şuxdur. O, əhdinə, vəfasına sədaqətlidir. Məhəbbət qəlbin zərifliyindən, mənəviyyatın zənginliyindən yaranır. Ismətin Qanpolada məhəbbətində saflıq, təmənnasızlıq vardır. Qanpoladın dostları Orxan onun dostları Izzətlə Murad düşmənçilikdən əlavə həm də sadəcə qudurğandılar. Onlar cəmiyyətin yüz illərlə qoruduğu adət-ənənəyə biganədirlər.

"Ana" dramında H.Cavidin öz qəhrəmanlarına, eyni zamanda qadın qəhrəmanlarına münasibəti neytraldır. O, hadisələri olduğu kimi əks etdirmişdir.

H. Cavidin "Ana" dramındakı Səlma ana M. Qorkinin "Ana" romanındakı inqilabçı Pelegiya Nilovna kimi mübariz deyil. Pelegiya Nilovna kütləni ayağa qaldırmaqla oğlunu arxalı,

dayaqlı, əyilməz edir. Səlma ana isə oğlu Qanpoladın sonuncu vəsiyyətinə əməl etməklə onun ruhuna dinclik bəxş etmək istəyir.

Ömrünün müdrik çağlarını yaşayan Səlma ana daxilinə qapılan, haqqa, ədalətə inanan, barışdıran müdrik ana obrazıdır. Ana qatil çərkəs Muradı ona görə daha güclüyə (Allaha) göstərərək azadlığa buraxır ki, son nəfəsində oğlu bunu ondan diləmişdir. Ana intiqamının yolunu oğul məhəbbəti çəpərləmişdir.

"Murad özünü dərk edib, peşmançılıq içərisində boğulsa da, ən tragik şəxsiyyət anadır. Səlmanın qəlbində ana məhəbbətindən doğan intiqam hissi ilə verdiyi sözü yerinə yetirmək borcu arasında gedən toqquşma onun tragizminin əsasında dayanır" (17.s.4).

Qanpolad "Ismət" deyə-deyə dünyasını dəyişir. Ismət Qanpoladın ölüm ayağındakı mərdliyini son dəqiqəsində də "Ismət" deyib qiyyə çəkdiyini tezliklə unuda bilməyəcəkdi. Beləliklə, Ismətin bundan sonrakı təmənnasız saf məhəbbəti mistik məhəbbətə çevrilmişdir.

Teyflər, ölülərin rəqsi, qara geyimli mələk göyün dərinliyindəki qaranlıqlar və s. mistik anlamlar H. Cavidin demək olar ki, bütün dramlarında mütləq xəttlərdən biri kimi hərəkətdə verilir, hadisələrin açılmasında xüsusi əhəmiyyət kəsb edir.

Ölüm mələkləri sevgililər üçün əbədi səadət gətirməyə gəlir. Bir qayda olaraq onlar sonda yüksəkliklərə doğru qoşurlar.

Bu əsərdəki hər iki qadının Səlma ananın və Ismətin məhəbbəti Qanpoladın ruhuna olan məhəbbətlə-mistik məhəbbətlə tamamlanmışdır.

H. Cavidin "Maral" pyesi də "Ana" pyesi kimi Dağıstan xalqının həyatından götürülmüşdür. Əsər 1912-ci ildə yazılmış, xronologiyaya görə Cavidin ikinci dram əsəridir. "Maral" dramındakı hadisələr şişman 48 yaşlı Turxan bəyin padşah

sarayı kimi döşənmiş evində baş verir.

Maral başıaşağı yəni fikri özündə olan ağıllı bir qızdır. O, ağıllı olduğu qədər də zərif və gücsüzdür. Maral gücsüz olduğu üçün özünə yer tapa bilmir, çırpınır.

16 yaşlı Maral cəh-cəlallı evdə Nazlı bacıya öz həyatını danışır.

"Maral - Iki sənə əvvəl böylə məşum qara günü kim xatırladı? Məsud bir göyərçin kimi saf və azadə yaşayırdım; məktəbi bitirmək üzrə ikən zavallı babam tərki-həyat etdi. Yüz yerdən görücü gəlməkdə ikən, yox olası Turxan bəy bəla ildırımı kimi üstümüzü aldı. Artıq onun adı gəlincə hər kəs susmağa başladı. Hətta Arslan da, sevgili Arslan da sükuta məcbur oldu" (4.s.268).

16 yaşlı gənc və gözəl Maral öz yaşıdı Arslan bəyə deyil, özündən 22 yaş böyük olan Turxan bəyə verilmişdir.

Gümüş cığara qutusunu bilərkəndən unudan Arslan bəy onu götürmək üçün qayıdanda Maralı görür. Öz həyatını əzilmiş sarı çiçəklə müqayisə edən Maraldan onun əllərini öpmüş çiçəyi istəyir.

"Arslan bəy. /Gülü alıb qoxuluyaraq/ Ah, bilsəniz bu yadigara... əvət, əllərini öpmüş olan bu munis gülə, ömrüm olduqca pərəstiş edəcəyəm. Həm də son nəfəsimdə bunu qoxlayaraq dünyadan gedəcəyəm. /Pərəstişkarənə və məftunanə baxışlardan sonra, haman dışarı fırlar/" (4.s.280) .

"Turxan bəy /laübalı/. Ey nə yapalım, əzizim, ömür keçdikcə eşqin sevdanın keçəcəyini də hər kəs söylər durur? Fəqət yalan! Həm də çox böyük bir yanlış... Bir şam yanıb, əriyib də sönmək üzrə ikən nasıl şiddətli bir nur saçarsa, qoca bir könül də eşqə, məhəbbətə qarşı o dərəcə böhranlı bir hərarət, xəyala sığmaz bir şiddət göstərir" (4.s.270).

Turxan bəy hər şeyi para ilə ölçən bir zəngindir. Qohumluq əlaqələrinə görə Turxan bəyin evinə gedib, gələn Arslan bəy isə kasıbdır. Öz var dövlətiylə Turxan bəy Maralı özünə tabe

etmək istəyir. Arslan bəy isə dalğın və boynu bükük Maralın mənən əzilməsindən iztirab çəkir.

Turxan bəyin oğlu Cəmil bəy 27 yaşındadır. Özü də təbiət vurğunudur. O, nişanlı qız olan Humaya aşiqdir. Humay nişanlı olduğu üçün Cəmildən uzaq olmaq istəyir. Bu arada Humaya teleqram verirlər. Məlum olur ki, onun nişanlısı Şahmar bəyi rus qızı rədd etdiyi üçün intihar etmişdir. Cəmil Humay tərəfindən rədd edildikdən sonra xəstələnir, sayıqlayır... Nişanlısı Şahmar bəydən xəyanət görən Humay Cəmilə baş çəkmək istəyir. Cəmil Humayın ona olan məhəbbətinə inanmır.

"Cəmil bəy /böhranlı/. Xayır. Xayır. Sən bəşər deyilsən, Humay!.. Ah! Sən əcəlin pənceyi-qəhrində mələyən, fəlakət zəncirində inləyən bir əsiri qurtarmaq üçün Allah tərəfindən göndərilmiş şəfqətli, mərhəmətli bir mələksən /hər ikisi məhzun və məmnun bir halda baxışırlar/"(4.s.296).

Humay açıq-saçıq gəzən bir qızdır. Onun açıq-saçıqlığıyla bağlı söhbətlər evdən kənara çıxmış, dükana, bazara yayılmışdır. Odur ki, Qazı Humaya görə Turxan bəyə şikayət edir.

"Qazı /birdən-birə bağıraraq/, nə söyləyim ki, xalqın arasında yeni bidət qoyursunuz. Gəlinin islam qızı olduğu halda bir xristiandan seçilmir. /Qayət sinirli/ Ah... Ah o... Müsəlmanlıq böylə gedərsə, çox sürməz ki, ev eşiyimiz Lut şəhri kimi yerin dibinə keçər" (4.s.301).

Arslan bəylə sövdələşib qaçmaq istəyən Maralı Turxan bəy tapançayla vurub öldürür. Turxan bəyi yaralayan Arslan bəy qaçır. Sonda Turxan bəy Cəmil bəylə onun dostu olan Nadirin sabit və əzici nəzərləri altında qalır.

Humayla Cəmilin arasında dostluq, mərhəmət, mehribanlıq, qarşılıqlı anlaşma var. Humay Marala nisbətən yaşlıdır. Az-çox dünyagörüşü vardır. Nişanlısı rus qızına görə intihar etdikdən sonra o, Cəmilin ona ərə getmək təklifini qəbul edir.

Humay subaylıq həyatının sıxıntı və məşəqqətlərindən

xəbərdar olduğu üçün öz mərhəməti ilə məhəbbət qazanaraq Cəmilə ərə getmişdir. Humay da Ismət /"Ana"/ kimi məhəbbətin gənclik mərhələsindədir. Maral isə onlara nisbətdə məhəbbətin uşaqlıq mərhələsindədir. Onun cəmi on altı yaşı vardı. O, atasını itirdikdən sonra həyatın acılarından qorxduğu üçün Turxan bəyə ərə getmişdi. Şəriətdən, el qınağından qorxmadan Arslan bəyə qoşulub qaçmaq istə-yən Maral el tənəsinin zərbəsini duymamışdı. O, ondan, onun gözəlliyindən, gəncliyindən zövq alan Turxan bəyə zərbə vurmaq üçün Arslan bəyə qoşulub qaçmağa razılıq vermişdi. Onu Arslan bəyə tərəf itələyən qüvvə Arslanın gəncliyi, gözəlliyi və onu qiymətləndirmək qabiliyyəti idi.

Maralın dalğınlığında bir şairanəlik, bir gözəllik gizlənmişdi. Bu gözəllik onun Arslan bəyə olan təmənnasız məhəbbəti idi. "Maral azadlığı, sərbəstliyi dünyanın bütün ne"mətlərindən üstün tutan, təmiz qəlbli, azad ruhlu, sevməyi, duymağı bacaran bir gəncdir" (17.s.40).

Cəmillə Humay Borjomidə istirahət edərkən rastlaşmışlar. Buradakı təbiət gözəllikləri evdən, ailədən uzaq qayğısızlıqlar onların bir-birinə maraq yetirməsinə şərait yaratmışdır. Maral qapalı saxlandığı üçün azadlığa can atır. O, bu azadlığı Arslana qovuşmaqla əldə etmək fikrinə düşsə də Turxan bəy tərəfindən qətlə yetirilir.

Dramda qadınların ailə qurarkən üzləşdikləri bərabərsizliklər kişilərin qadınlara bir əşya kimi baxmaları hallanır. Məhəbbətdə yaşın, dünyagörüşün, təhsilin yeri, qadınların dünyagörüşündəki ziddiyyətlər ön plana çəkilir.

Indiyə qədərki mənbələrə əsasən bilirik ki, böyük Cavid sırf məhəbbət əsəri olan "Şeyx Sənan" faciəsini 1912-1914-cü illərdə Naxçıvanda olarkən yazmışdır.

"Bir gün ondan /Caviddən-N.Ə/ xəbər aldım ki, əsərlərnin içərisində ən çox sevdiyi hansıdır? O dedi: "Şeyx Sənan"(66.s.232).

"Cavid Şərqin və Qərbin dahi sənətkarlarından Dantenin "Ilahi komediya"sını, Hötenin "Faust"unu, Tolstoyun əsərlərini, Sədinin, Hafizin, Xəyyamın şerlərini çox sevirdi. Müəllimi Rza Tofiqi hörmətlə xatırlayırdı. Filosoflardan Spinozanı, Spanseri çox oxumuşdur"(66.s.233).

Cavidin çoxlu ədəbi düşmənləri olduğu kimi çoxlu sayda dostları da olmuşdur. Onlardan ən çox Abdulla Şaiqi və Abbas Mirzəni, güllərdən isə Qızılgülü qiymətləndirmişdir. "Gözəllik Cavid üçün elə bil hava-su idi. O, dəfələrlə mənə deyərdi ki, gözəllik insanın təbiətində, insanın əməlində, insanın böyüklüyündədir. Insa nın insana verdiyi xeyirdədir. Əgər istər təbiətdəki gözəllik, istərsə də insanlardakı gözəllik xeyirli bir şeyə yaramırsa, mən onu gözəl saymıram. Ondan tam zövq almıram.

Mən /Cavid özünü deyir-N.Ə./ Promoteyi Zevsdən daha çox qiymətləndirirəm. Çox zaman Prometeyin obrazı mənim gözümün qarşısında canlanır. Çünki Prometey insana xidmət etmək üçün çarmıxa çəkilmişdir. Bax, bu əbədi gözəllik deməkdir. Əgər bir insan, bir sənətkar xalq üçün, vətən üçün, insanlar üçün çarmıxa çəkilirsə, bu, o deməkdir ki, o yaşayır, o, gözəllərin gözəlidir.

Mişginaz! Əgər mənim yazı-pozum xalqa xidmət etmirsə, onda mən ən bədbəxt sənətkaram, bədbəxt adamam, onda mən nəyə lazımam? "(8.s.34-35).

Bildiyimiz kimi elə böyük Cavid öz idealları uğrunda da qurban getmiş, yazdığı kimi yaşamış, böyük şəxsiyyətini qeyri-adi ölümüylə təsdiq etmişdir.

H. Cavid ortodoksal, yəni ardıcıl baxışları olan, bütöv şəxsiyyət idi. Onun aləmində hər şey bütöv idi. Onda yarımçıq heç nə yox idi. Elə Cavidin əsərlərinin cəmi də sistemli bütöv bir dünyanı andırır: Bütöv, narahat, keşməkeşli mübarizələrlə dolu sonsuz və nəhayətsiz dünyanı.

Yuxarıda qeyd etdik ki, Şeyx Sənan Cavidin ən çox sevdiyi

əsərlərindəndir. Özünün də yazılma tarixi 1912-1914-cü illərdir.

"Şeyx Sənan"ın 1912-1914-cü illərdə yazıldığını güman edən tədqiqatçılar səhv edirlər. Qulam Məmmədlinin «Cavidin həyat və yaradıcılıq salnaməsi» kitabının 81-ci səhifəsində Əziz Şərifin qeydlərindən oxuyuruq:

"Şeyx Sənan"ın 1914-1915-ci illərdə yazıldığı həqiqətə ən yaxın ehtimal edilməlidir" (59.s.81).

H. Cavid 1910-1912-ci illər arasında "Şeyx Sənan"la bağlı material toplamışdır. Qulam Məmmədlinin qeydlərinə əsasən o, bu məqsədlə "Tarixi islamiyyət" kitabının 2-ci cildinin, ərəblərin Şimali Iraqa və Qafqaza yürüşlərindən bəhs edən əsərləri oxumaq üçün tanışlarından istəmişdir.

"Şeyx Sənan" "Açıq söz" qəzetinin 1916-cı il yanvarın 1-dən fevralın 3-dək olan nömrələrində dərc edilmişdir.

Buradakı hər söz "Ağıldan və təbdən" /Ə.Şərif/ yaradılmışdır.

"Şeyx Sənan"ı vaxtsız nəşr etdim. Daha münasib vaxtda buraxmalıydım, çünki o, nəşr edildiyi günlərdə siyasət aləmi həyəcanlı dəqiqələr keçirirdi. Xalq da təbii bütün ruhuyla müharibəni tə"qib edirdi. Zatən bu bir qanundur". Siyasət rol oynayarkən, ədəbiyyat susar. Təbii susmalıdır da" (36.s.203).

"Bir dəfə "Şeyx Sənan" əsərinə baxandan sonra /Xumar rolunu Mərziyə xanım Davudova oynayırdı/ Cavid Əfəndiyə dedik:

_ Cavid Əfəndi, Xumar xarici görkəmcə Mişginaz xanıma oxşayır.

_ Təkcə xarici görkəmcə yox, - dedi, həm də mənəviyyatca. Yoxsa, mən Xumarı belə məsum, belə sevimli yarada bilməzdim. Və o da Sizi istəyəndə ağladıb, güldürə bilməzdi"(56.s.370).

Hərəkətin canı fikirdir. "Şeyx Sənan"dakı fikir beynəlmiləlçilik, yaxud da bir din, "Islam dini" uğrundakı fi-

kirdi. Bəşərə xidmətdən irəli gələn fikirdir, inqilabi fikirdir. Dinlə bağlı köklü inqilabdır.

Turanda doğulub, Iranda yaşayan, sonra ruzi dalınca Iranı tərk edən Sənan Ərəbistana gəlmiş, burada müəllimi Şeyx Kəbirin qızı ilə tanış olmuşdu. Sənanın sonrakı taleyi də məhz bu ilk tanışlıqdan sonra başlamış, uzaqgörən Şeyx Kəbirin Şeyx Sənanın yuxusunu yozduğu kimi sonda Gürcüstanda xristian qızı Xumarın məhəbbəti ilə sona yetmişdir.

Məhəbbət əsərlərinin uğursuz taleyi əsərin adındakı düyündən başlanır. "Əsli və Kərəm"də Əsli erməni qızıdır, Kərəm müsəlman oğludur. "Bahadır və Sona"da həmçinin. "Şeyx Sənan" əsərində də düyün məhz Sənanın şeyxliyindən başlanmışdır.

Şeyx rütbəsinə çatınca Sənan şəriət, mərifət, həqiqət mərhələlərindən keçmiş sonra isə məhz qadınla-Xumarla təriqət mərhələsinə çataraq nura yüksəlmişdir.

"Şeyx Sənan"da müsəlman Sənan xristian Xumarla ona görə eşq əlaqəsinə girmişdir ki, iki din; xristian-müsəlman dini arasında dostluq, qohumluq, qardaşlıq əlaqəsi yarada bilsin.

Din sözü qəlbən, hissiyyatlarla inanmaq mənasındadır. Inam insanın insana, iman insanın Tanrıya şəksiz inamıdır. Dinlər arasında qohumluq şəksizdir, ona görə ki, bütün millətlərin atası tək olan Tanrıdır. Islam özü də bu yeganə yola, Tanrıya-daha ucada olana, səcdəgaha səmimi məhəbbətlə inanmaq mənasındadır.

Millətlər arasında dil ayrılığı din ayrılığı ilə birləşdiyi üçün çaşqınlıqlar yaranmışdır.

Məhəbbətə, ruhun varlığına inanan Cavid Sənanla Xumarın bu dünyada daxilən səadətə çatdıqlarını, yaxın gələcəkdə, o biri dünyada isə ruhlarının birləşib xoşbəxt olacaqlarını göstərmək üçün sonda onların ruhunun birlikdə göylərə uçduğunu göstərmişdir. Ruh gözə görünmür. Ancaq əsərdə heç bir dinə

qaim olmayan dərviş onları görə bilir.

**Şeyx Sənan**

/Xumarı qolları arasına alaraq/
Enməyiz, enməriz, xayır, yalnız
Ərşi-əlayə yüksəlib ucaryız.
Ucarız, həqqə doğru bərqəsa,
Nətəkim uçdu həzrəti-Isa (5.s123).

"Şeyda" sayca Cavidin altıncı dram əsəridir. Əsər 1911-1912-ci illərdə qələmə alınmışdır.

Əsərin ilk variantında əsərin adı "Rəmzi" adlandırılmışdır. H. Cavid bu pyesi də "Şeyx Sənan"la paralel işləmişdir. Əsərdə fəhlələrin acı məişəti, ümidsizlikləri təsvir edilmişdir. Əsərin əvvəlində Maks Müller /rəssam, alman/ özünə ev axtaran mühərrir Şeydaya təklif edir:

"Maks Müller: Sən bir həftədir ki, oda arıyırsan; bizim evdəki boşboğaz yəhudi dəllal oturduğu odanı boşaltmış, Rusiyaya gedir. Bu gün oraya köçərsən"(5.s.142).

Şeyda bu təklifə razılaşır. Azacıq sonra məlum olur ki, Şeydanın yazdığı inqilabi marş fəhlələrin əlinə keçmişdir. Bunu aydınlaşdıran mətbəə müdiri Məcid Əfəndi Şeydanı işdən qovur.

"Məcid Əfəndi: Öylə isə daha burada sənlik bir iş yox. Ah, məni Nikolayın jandarmalarına təslim etməkmi istəyirsən? Söylə burası mətbəəmi, yaxud inqilab ocağımı? (5.s.147) - deyəndə, fəhlələr qəti surətdə bildirirlər ki, onlar azadlıq üçün yalvarmayacaqlar, indi onu tələb edəcəklər, haqq alınar, verilməz, lakin baş mürəttib Məsud ağaların çox güclü olduğunu bildirir.

Inqilabın vüsətiylə tamamlanan bu pyesdə inqilabdan əvvəlki fəhlələrin acı məişəti, ümidsizlikləri təsvir edilmişdir. Işdə bir

qolunu itirmiş Qara Musanın bədbəxtliyi onu caniyə çevirmiş, o, gənc Şeyda ilə Rozanın qatili olmuşdur. Bu dünyada xoşbəxt olmayanlar cənnət arzusuyla dünyalarını dəyişmişlər.

Əsərdəki Roza ömrünün uşaqlıq mərhələsini yaşayır. Rozanın anası Mariya xanım isə yaşının gənclik mərhələsindədir.

"Cavidin şerlərinin və pyeslərinin yazılma müddətini, bitkin halda meydana çıxma tarixini dəqiq müəyyən etmək çətindir. Əsərlərin xronoloji izinə düşmək bir də ona görə çətindir ki, müəllif onları yazıb, amma çoxunun üstündən illər keçəndən sonra çapa verib. Xüsusilə səhnə əsərlərinin "bətn dövrü" sürəkli olub, bəziləri bir neçə variantda yazılıb, səhnə təcəssümünü isə çox sonralar tapa bilib"(62.s.40).

Yuxarıda qeyd olunduğu kimi H. Cavid əksər əsərlərini həm paralel, həm də ideya ardıcıllığı ilə işlədiyindən / “Şeyx Sənan”, "Iblis", "Peyğəmbər"/ onların xronoloji ardıcıllığı pozulmuşdur. Bir fəslin adında qeyd olunduğu kimi-inqilabdan əvvəlki və sonrakı dövrlərə bölüb, tədqiqatı elə bu ardıcıllıqla davam etdirəcəyik.

H. Cavidin inqilabdan əvvəlki dördüncü dram əsəri "Uçurum" dur. Bu dramı H. Cavid 1917-ci ildə qələmə almışdır.

...Göyərçinlə Cəlal təzəcə evlənmişlər. Cəlal dostları ilə Fransaya gedib, iş təcrübəsini artırmaq istəyir. Göyərçini uşaqla tək qoyub getmək istədiyinə görə Göyərçin Cəlaldan incisə də, onu öz yolundan döndərə bilmir. Göyərçinlə Cəlalın arasında səmimiyyət, hörmət vardır. Lakin Göyərçin bir qadın kimi Cəlalı cəzb etmir. O, Cəlalı nəinki məhəbbətiylə, hətta öz körpə uşağıyla, gəncliyi ilə də özünə bağlaya bilmir. Cəlalla Göyərçinin körpə uşaqları onların məişət davası zamanı balkondan düşüb həlak olur. Əxlaqsız Cəlalla Göyərçin arasında anlaşılmazlıqlar, uçurumlar yaranır.

Ailə-məişət çərçivəsində təsvir edilən bu dramda istedadın çiçəklənməsində qadının rolu, qadınların həyata, ailəyə,

Vətənə, əxlaqa baxışındakı ziddiyyətlərdən, dostların xəyanətindən bəhs edilir. Bu dramda H. Cavidin yaradıcılıq xətrinə ailəsini atıb, gedənlərə münasibəti mənfidir.

Əsərdəki, hər iki qadın Anjel və Gövərçin ömrünün gənclik mərhələsindədir.

H. Cavidin şah əsəri olan "Iblis" faciəsi 1918-ci ildə qələmə alınmışdır. Əsərin qısa məzmunu belədir: "Şəfqət bacısı Rəna öz atasının qatilini axtarır. Bu qatil Ibn Yəmindir. Rənaya aşiq olan iki qardaş Arif və Vasif bir-birindən xəbərsiz ayrı-ayrılıqda qatili tapıb, cəzalandırmaq və bununla Rənanın məhəbbətini qazanmaq istəyirlər. Arifin mehriban arvadı Xavər ərinin bu hərəkətinə-başqa birisinə uymasına mane olmaq istərkən Arif sərxoş olduğu halda dəlicəsinə öz arvadını boğub öldürür. Nəhayət, qatil Ibn Yəmin tutulub əsgəri qaçaq olan Elxan tərəfindən cəzalandırılır. Bir-birini tanımayan iki qardaş, "iki məcnun" Ariflə Vasif Rənaya sahib olmaq üçün vuruşurlar. Arif uşaqlıqdan itirdiyi və həsrətini çəkdiyi qardaşı Vasifi tanımadan öldürür" (11.s.114).

Hiyləgərliyin, qorxaqlığın, tənbəlliyin, xəyanətin, xainli-yin mayasında haramlıq var. Haram nəfsə meyllik olan yerdə xoşbəxtlik, səadət olmaz. Bədbəxtlər özündən bədbəxti görəndə şadlanıb öz bədbəxtliyini unudurlar. Iblislər təmiz adamları ləkələyirlər ki, onların ötkəm, inamlı səslərini batırsınlar. "Iblis" faciəsindəki Iblis belə bədbəxtlərin ümumiləşdirilmiş obrazıdır. Iblisin vətəni, ailəsi, nəsli, xeyirxahları yoxdur. O, Arifi, Vasifi qısqandırmaqla Rənanı əldən ələ salır. Iblis sadəlövh Arifi, Vasifi, Rənanı, Xavəri və b. iştirakçıları bədbəxt görəndə şadlanır, qəhqəhə çəkir, mənən dincəlir, onların bədbəxtliyini sirlə, sehrlə-Allahla, mistika ilə əlaqələndirir. Iblis hər dəfə peyda olanda qeyri-adi qiyafələrdə qeyri-adi gülüşlərlə, qeyri-adi hökmranlıqla gəlib, qorxunun gücünə ətrafdakıların düşüncələrinə hakim olmaq istəyir, çaşqınlıq yaradır, nəhayət, öz məqsədinə nail olur.

"Iblis" faciəsində Iblis həm mifik, həm də həyati obrazdır. O, hər dəfə göydən gələn bəla kimi rəngbərəng, od rəngi saçan (Günəş) ridasını yelləyərək peyda olur və yerdəkilərin hərəkətinə istiqamət verib, yenə də çəkilib gedir ki, bu da Iblisin göydən yerə nazil olması hər şeydən əvvəl günəş sisteminin həmişə yox, müxtəlif vaxtlarda yerə və insanların bir-birinin münasibətlərinə aktiv təsiri ilə əlaqələndirildiyi üçündür. Planetlərin yerdəyişməsi ilə bağlı belə manevrlər bu gün də var və həmin hadisələrdən yenə insanlar bu və ya digər təsirə məruz qalırlar.

"Iblis" faciəsində insanların daxilindəki təlatümlərlə (tamah, həsəd, şəhvət, qəzəb, paxıllıq, təkəbbür, nifaq) təbiətin arasındakı təlatümdə oxşarlıq, eynilik vardır. Bu bənzəmə, bu oxşarlıq insanın içərisindəki dərdi, kədəri daha da artırır. Buradakı dərd təkcə insanın deyil, yerin-göyün dərdidir.

"Iblis" faciəsinin ilk pərdəsi Bağdad civarında ağaclıqda təsvir olunur. Alovlar içində dəhşətli müharibə səhnələri görünür. Ikinci tərəfdən təbiət qan ağlayır. Tufan qopub.

**İblis**

\məmnun qəhqəhələrlə\
*Dəryalara hökm etmədə tufan,*
*Səhraları sarsıtmada vulkan,*
*Sellər kimi axmaqda qızıl qan,*
*Canlar yıxar, evlər yıxar insan...*
*/qəhqəhə/(5.s.254).*

"Iblis" obrazıyla bağlı ədəbi tənqiddəki müxtəlif münasibətləri ümumiləşdirsək və təsnif etsək, bir-birinə tamamilə əks olan iki mövqe ilə rastlaşmış olarıq: Bir mövqeyə görə, Iblis şər qüvvələri ifadə edir və təbii ki, mənfi obrazdır. Di-gər mövqeyə görə Iblis şər qüvvələrin ittihamçısı və deməli,

müsbət qəhrəman kimi çıxış edir"(40.s.19).

Qeyd etmək vacibdir ki, Iblis şər qüvvələri ittiham edəndə barışdırmaq yox, qarışdırmaq və yeni-yeni bəlalar törətmək məqsədi güdür. Bu səbəbdən də iblisliklə bağlı hissləri ifşa etmək Tanrıya xidmət kimi qiymətləndirilməlidir.

Təəssüf ki, bir çox tədqiqatçılar məhz bu incəliyi görə bilmirlər. ""Iblis" ona görə hər bir cinayətdə iştirak edir ki, bu cinayətlərin əsil səbəbkarı", onlara şərait yaradan, insanı cinayətlərə sürükləyən Iblisin özüdür-naqis ictimai mühitdir" (40.s.19). Yaxud da Iblisin qəsdən bəyan etdiyi kimi Allahdır, daha ucadakıdır. Ucada olandır. Iblis də məhz bu kökdən çıxış edir, özünün Allaha olan ədavətini həyata keçirir.

H. Cavidin "Iblis"i nifaq salmaqla insanın həqiqiliyini, ucuz həzz verməklə, nəfsinin zəifliyini imtahan edən sərt, mətin ruhdur, mələkdir. O, öz ağıl və zəhmətindən deyil, başqasının zəhməti və təcrübəsi ilə əldə etdiyi ağıl və sərvətdən asan yolla istifadə etmək istəyən insanlara tükürpədən amiranə gülüşlərlə gülür. Onların tez-gec bədbəxt olacaqlarına haqq qazandırır və inanır.

Dünya romantizm tarixini vərəqləyərkən Iblislərin hamısının insanı bədbəxtliyə sürüklədiyi aşkarlanır. Onların məqsədləri bir olsa da getdikləri yol həmişə müxtəlif və orijinal səciyyə daşımışdı.

Qədim Yunanıstanda demoniklik, iblislik, dahilik mənasında işlənmişdir. Romantiklər çətinlik qarşısında qalan insan taleyini həll edərkən iblislikdən istifadə etmişlər.

"Peyğəmbər" pyesində isə göydən enən mələk vasitəsi ilə müşküllər açılaraq həll edilmişdir.

Cavidin bütün əsərlərində ikililik vardır. Şübhəçilik və inam fəlsəfəsi, biri digərinin ardı və yekunu olan əsərlərin hamısındakı bu ideyalar "Iblis" faciəsində-aldanmışlar və axtarışlar dünyasında həll edilir. Sonda halallığa, Allaha inam qalib gəlir və bu ideyalar da öz əksini H. Cavidin "Peyğəmbər"

dramında tapmışdır.

Dünyanın nur, işıq başlanğıcı Tanrıdır (Saturn). Tanrı təkdir prinsipi də elə bu istiqamətdəki baxışlardan yaranmışdır. Bu nöqteyi nəzərdən qəti demək olar ki, oddan törənmişlər (Mars) nurun tərkibindən ayrılaraq uzun uzadı tərəqqi keçir və kamilləşərək kainatı dövr edir və təmizlənmiş halda yenidən nura qovuşur. Qüdrətin sirrini özündə gəzdirən insanın da daxilində bu prosses daim olaraq dövr edir.

Günah ittihamçısı olan "Iblis" faciəsində ilk pərdə açıl-dıqda bir neçə zabit durbinlə uzaqlara müharibə səhnələrinə baxırlar. Durbinin gözlərinin birində Iblis-mars, digərində Mələk-saturn görünür. Cavid məhz bu nöqtədən Iblis, yoxsa Peyğəmbər; - daha dəqiq desək Allah haqlıdır probleminin həllinə başlamış və Iblisin törətdiyi qanlı müharibələr, ədalətsizliklər, əxlaqa və mənəviyyata zidd hadisələr, əzablar çözüldükcə çözülmüşdür.

Aləmləri qarışdırmaq üçün həqiqət axtaran Iblis sonda ifşa edilmişdir.Nəhayət böyük Cavid durbinin ikinci gözündəki şəxsi Mələyi-peyğəmbəri Allahı aydınlaşdırmışdır. Beləliklə o, özünün "Peyğəmbər" pyesini doğurmuşdur. Dünyada harmoniya yaradan, dünyanı barışığa, din birliyinə, bir yola, Tanrı yoluna çağıran "Peyğəmbər"ə üstünlük vermişdir. Qarışdırana "bizdən deyil, ona lənət", barışdırana "rəhmət" demişdir.

"Iblis" faciəsində qarışdıranlar, suyu bulandıranlar aşkar edildikdən sonra səbəblər saf-çürük edilir. Yaralar görünür və sağalmaq ehtimalı yaranır. "Peyğəmbər"də isə daxili ziddiyyətlər örtülü qalır. Bir daha yaraların dərinə işləməsinə şərait yaranır. Nəticədə sağala biləcəklərdə də öz kökünə doğru xəstələnmə ehtimalı yaranır. "Olum, yoxsa ölüm?" "Iblis"? yoxsa "Peyğəmbər"? (26.s.239) dəki problemlər də məhz bu baxımdan konkretləşə bilmir. Problem bu gün də dünyanı özü kimi, xristian-müsəlman dini kimi öz paralelliyini qoruyur. Əbədi mübarizə isə həmişə xaosa qarşı harmoniyadır. Iblisə qarşı peyğəmbərdir. Üçüncü orta yol dünyanın və insanın öz

daxili dünyasıdır ki, buna da hər kəs öz üzərində nəfsinə qalib gəlməklə, ümumharmoniya prinsiplərinə əməl etməklə, vətəndaşlıq intizamına xoşluqla, dərrakə ilə tabe olmaqla nail ola bilər. Dünyanın və insanın daxili dünyası hissiyyatların, qıcıqların, qısqanclıqların-xaosa məxsus dünyasıdır ki, bu dünya bitsə, yaşayış özü adiləşər, mənasızlaşar, maraq itər, doğulan və yaşayan hər bir kəs mübarizəsiz cənnət xülyasına düşər. Lakin cənnət də cəhənnəm də məhz bu xaosun aydınlaşdırılması nəticəsində qazanılmalı və qiymətləndirilməlidir.

Cavidin yerdə qalan bütün küllüyatı "Iblis"lə "Peyğəmbər" arasındakı harmoniyaya, haqqa, ədalətə qarşı zidd hadisələrdir. Beləliklə demək olar ki, Cavidin şah əsəri "Iblis"dir.

H. Cavid bütöv şəxsiyyətidir. O öz yaradıcılığı boyunca yerdən göyə qədərki problemləri bir sistem halında həll etmişdir. Onun hər bir əsərindəki konkret nəticə də halallıq, zəhmətə və məhəbbətə bağlılıq, sülh, dostluq, qardaşlıq-beynəlmiləl ideyalar insanlığa və insanlaşdırmağa çağırışdır.

"H. Cavidin "Iblis" əsərində insanın Iblis qarşısında aciz qalması, Iblisin insan taleyini həll etməsi, "Şeyda" əsərində qara geyimli mələk, "Şeyx Sənan"da göyə uçan mələklər, "Peyğəmbər"də göydən enən mələk vasitəsi ilə müşküllərin açılması, çətinliklərin aradan qaldırılması təsadüfi deyildir"(45.s.17). "Müqəddəs dinimizə görə Allah birdir. Fələk doqquzdur. 1.Qar; 2. Yağış; 3. Bulud; 4. Ildırım; 5. Külək; 6. Mələklər; 7. Pəri; 8. Fəriştə; 9. Huri-qılman. Fələklərin gördüyü işləri bilavasitə Allahla bağlı deyil və Allah bütün şər işlərdən xəbərsizdir" (54.s.26).

"Afət" faciəsi Sovet hakimiyyətinin ilk illərində qadınlarla kişilərin hüquq bərabərliyinin ziddinə yazılmış bir əsərdir. Ən güclü qadın ən zəif kişiyə də bərabər deyil. Bu Sovet hökumətinin qadınları da kişilərlə bərabər istismar etmək üçün siyasəti idi.

Afət çox yüksək avropasayağı (Alfranqa) bir ailəyə mənsub imiş. Fəlakət nəticəsində evləri dağılmış, işıqları sönmüş, var-yoxları əldən çıxmış və babası fəqir düşüncəli Afəti Özdəmirə vermişdir. Bir qız atası olan Özdəmir də sərxoşluğa qurşanmış, Afət də bu səbəbdən ondan get-gedə soyuyaraq Qaratay kimi oyunbaza, macəraçıya qurşanmağa məcbur olmuşdur. "Afət" faciəsinin qısa məğzi budur.

Ilk baharda, gözəl mənzərəli məhtablı bir gecədə ətrafdakılar incə və həzin bir roman səsinə dalmışlar. Özdəmir bəy ailəsi ilə; xanımı Afət, qızı Alagözlə Xandəmirgilə qonaq dəvət edilmişlər. Afət ev yiyəsi Xandəmirin qızı Altunsaçla, qızlığı Alagözlə bağçanı gəzib, dolaşmış, bu vaxta qədər isə Özdəmir təkbaşına bir şüşə konyak içib, ikincisini tələb etməkdədir. Bağçadan qayıdan Afət ərindən çox doktor Qaratay üçün nigarançılıq keçirir... Bu arada yarımsərxoş, şad və məmnun doktor Qaratay gəlib çıxır. Ev sahibi maarif müdiri Xandəmir həm Afətə qulluq göstərmək üçün, həm də doktor Qaratayın hörmətini xüsusi ilə qeyd etmək üçün yarım qəhqəhəylə:

"Xandəmir. Fəqət mən söz saxlayamam, gecikdiyiniz üçün sevgili Afəti çox darıltmışsınız... Bilməm, Sizdə nə görmüş ki, əsla ayrılığınıza dayanamayır" (5.s.346).

Elə ilk addımında doktor Qaratay Xandəmirin savadsız olduğunu, savadsız ola-ola maarif müdiri işlədiyini, az maaşla çox zəngin olduğunu Afətə anlatmaq istəyir. Əvvəldə Xandəmirə rişxənd edən Qaratay sonda onun qızıyla evlənmək istəyəcəkdir. Afət bu yerlərə gəlmədir. Özdəmirin arvadı Alagözün anası Allah rəhmətinə gedəndən sonra Özdəmir Afətlə evlənmiş və hadisələrin baş verdiyi yerə köçüb gəlmişdir. Bu səbəbdən doktor Qaratay Afətə Xandəmir haqda məlumat verməyi özünə borc bilir. Afət Qaratayın yarımsərxoş olduğunu bildiyi üçün onu ehtiyatlı olmağa çağırır.

*"Afət. Aman. Sus. Görünüb azacıq sərxoşsan.*
*Doktor /yarım qəhqəhəylə/. Sərxoş idim, fəqət ayıldım.*
*Özdəmir /Içəridən şiddətli qəhqəhəylə/ Xandəmir!*
*Doktor. Iştə onun səsini eşitdim də ayıldım (5.s.346).*

Dəqiq və zərif sözlə bağlı hissi emosiyalar, siqnallar Afətdən Qarataya, Qarataydan Afətə sirayət edir. "Əvət kölgəndən ayrılmaz ərinin səsi, Özdəmir bəyin nərəsi məni ayıltdı" (5.s.347).

"Kölgədən ayrılmaz ərinin səsi" bu atmacanı "Afət" hamıdan yaxşı anlayır. Elə bu anlamı təzələmək xətrinə yarımsərxoş doktorun atmacasına Afət ürəkdən gələn ləzzətlə, süzgün baxışlarla etiraz etmək istəyir.

Afət /süzgün baxışla/ Qaratay.

Bu bir kəlmə nəvazişdən sonra Qaratay Afətin ona bəxş edəcəyi gələcək həzlərin məğzini duyur. Duyduğu üçün də Afətin əlini əlləri içinə alıb, Afətsayağı hərarətlə sözə sözlə cavab verir.

Doktor /Onun əllərini yakalar/. Afət!..(5.s.347).

Bir şey qəti aydındır. Afət Özdəmiri sevmir. Özdəmir yaşlıdır, atadır, üstəlik xasiyyətcə çox həssas və ağırdır...

Özdəmir Afət tərəfindən sevilmədiyi üçün qısqanclıqdan içkiyə qurşanmışdır. Indi o, Afətin xəyanət edəcəyinə inanır.

Afət Qaratayı sevir və onunku olmaq istəyir. Qaratay cavandır, subaydır, gözəl və hiyləgərdir. Qaratay isə Afətin gözəlliyindən sadəcə istifadə etmək istəyir.

Qadın mürəkkəb məxluqdur. O, onun məhəbbətini qazana bilməyən, izzəti-nəfsini saya salmayan tərəf müqabili üçün təhlükə, onu sevən, qiymətləndirən, diqqət və qayğı göstərən tərəf üçün isə arxa, dayaq, ana, bacı, sevgili, həyatını şam kimi əridən qurbandır. Qaratay qadındakı bu incəliyi duya bilmədiyi üçün Afətlə oyuna atılır... Qaratay hiyləgərdir. Oyunbazdır. Qaratay həyat yoldaşı kimi Afətə etibar etməz və bu səbəbdən

də o, elə əzəldən Alagözü gözaltı eyləyib, Xandəmirin var-dövlətindən bəhrələnmək fikrindədir.

Fikirlərimizi geniş açıqlamazdan əvvəl bir şeyi cəsarətlə qeyd etmək lazımdır ki, "Afət" pyesinin əksər tədqiqatçıları Cavidin fikirlərini dağa-arana endirməklə çox vaxt çaşqınlıq yaratmışlar.

Bu çaşqınlığı aradan qaldırmaq üçün ən əvvəl pyesin yazıldığı və yenidən işlənmə tarixinə nəzər salmaq kifayətdir.

"Afət" 1906-1909-cu illərdə yazılmış 1917-1920-ci ilərdə yenidən işlənmiş, 1921-ci ildə başa çatmışdır.

Pyesdə Böyük Oktyabr Sosialist inqilabının gətirdiyi azadlıqla-anarxiya hələ tam dərk edilmir. Özdəmir bu çaşqınlıqdan öz həyatını itirib, "geridə qalmış" bu kişi nə qədər keflidirsə, bir o qədər də ayıqdır. Odur ki, o bağçada olan Afəti görmədən də qısqanıb, içməyə başlamışdır. Afət bunu hiss eləsə də, bir qadın kimi özünü bilərəkdən onda qoymur.

Qaratayın Afətə münasibəti məhəbbət münasibəti deyil. Məclisdə Afətin ərinə olan mənfi münasibətini duyan Qaratay onun əri barəsində xoş sözlər demir. Bununla o, Afətin ərinə olan münasibətini öyrənib, bilir. Afət ərinə yox, Qarataya yaxın olduğunu hiss etdirmək üçün onu ehtiyatla səsləyir.

*"Afət. Aman, sus! Görünür azacıq sərxoşsan.*

Doktor. Iştə onun səsini eşitdim, ayıldım. Əvət, kölgəndən ayrılmaz ərinin səsi, Özdəmir bəyin nərəsi məni ayıltdı"(5.s.347). Hər şəraitə uyğun Qaratay artıq Afətin dalısınca gəlir. Bunu hamıdan çox Özdəmir hiss edir, görür. Lakin o, bu yolda onlara mane olmaq fikrində deyil. O, öz fikrini açıqlamaqla onu da bildirmək istəyir ki, "Mən işin içindəyəm", yaxud da "mən axmaq deyiləm, məni axmaq yerinə qoymayın". Özdəmir hətta Qaratayı ürəkləndirir də.

"Özdəmir /Sürəkli və istehzalı qəhqəhələrlə gülür, dürlü

hərəkətlər və əl işarətləri ilə. Əvət, qadın hər şeydir. O, gah bir çiçək... gah bir kələbəkdir. O, həm bir mələk, həm də.. bir ördəkdir"(5.s.348).

Özdəmir bununla da əl çəkmir. Hadisələrə bir az da aydınlıq gətirir.

"Özdəmir /Acı qəhqəhələrlə/. Ah, bəxtiyar doktor!

Sənə, sənin gözəl taleyinə qibtə edirəm"(5.s.348). Ev yiyəsi Xandəmir onu sakitləşdirmək üçün şahmat oynamağa çağıranda da Özdəmir "keflənir".

Özdəmir /Afəti yarım baxışla süzür, mənalı bir qəhqəhəylə/ mən çoxdan mat olmuşam (5.s.348) deyir. Afətin haqqında təkcə əri Özdəmir bu fikirdə deyil. Özdəmirin bədbəxt olmasını ətraf da Afətlə izah edir. Həyat yaşamaq uğrunda mübarizədir.

Özdəmir bu mübarizəyə hazır, möhkəm və dözümlü bir kişidir. O, hələlik istehza edir. Elə buna görə də sonacan Afəti və Qaratayı ələ salıb, gülməsin deyə əvvəlcədən qətlinə fərman veilir. Afətin arzusuyla Qaratay zəhər təşkil edir. Və Özdəmir tərksilah edilir. Afət üçün maneələrdən ən böyüyü Özdəmir sıradan çıxır. Afət hələ inanmır ki, Qaratay onu başqalarına dəyişməyəcək. Hələlik Afət sınaqdan keçirilir. Və Afət özünün ilk qurbanını – Özdəmiri Qarataya təslim edir. Bu işlərə də səbəb sosial qorxudur. Cəmiyyətin milyon illərlə qurduğu sosial qanunlara qarşı gedən Afətlə Qaratay bunu yaxşı bildiyi üçün bu silaha əl atmağa borcludurlar. Afət "ərli qadın" borcundan çıxmaq üçün Özdəmiri zəhərləyir və cəmiyyətdə dul qadın kimi müstəqillik əldə edir. Yalnız bundan sonra Afət Qaratayın namizədliyini özünə aşkarlaya bilir. Lakin neyləsə də onun kimliyi ətrafa bəlli olur.

"Yavuz. Əmin ol ki, Özdəmiri səfil edən həm Afətdir, həm onun oynaqlığıdır (5.s.350). Artıq Özdəmir təkcə Afəti yox, həm də doktor Qaratayı cəmiyyətə təqdim etmədədir. Bundan qorxan Qaratay geri çəkilmir, əksinə qəti qərar qəbul etmək istəyir.

*"Doktor. Xeyir, bu işə bir nəhayət verməli...*
*Ya o, ya mən!.. Başqa dürlü olamaz.*

Afət. Mən bütün mənliyimi, bütün həyat və səadətimi yolunda fəda etməyə hazıram. Hətta sənin uğrunda cinayətdən belə çəkinməm. Ancaq bu qədər var ki, aldadılmaq istəməm, aldandığımı duysam, məhv olaram. Həm də çox kinliyəm, anlayırmısan? Məni aldatmaq istəyənləri əsla əhv etməm. Iki gözüm olsa belə intiqam alıram, intiqam!..

Əvət, mən çox kinliyəm. Məni təhqir edənlər Əzrailin qucağına atılmış olurlar"(5.s.350).

Afət bilir ki, Qaratay "Müsyö Fırıldaq" əxlaqsızdır. Bunu bilə-bilə ondan sədaqət, vəfa tələb edir. Ondakı eşqin əbədiyyətinə əmin olmaq istəyir.

Afət ailəli qadın olmasına baxmayaraq subay Qaratayın diqqətini cəlb etməyə çalışmışdır. Afətin "məni qurtar" yalvarışlarından sonra Qaratay ona yol göstərmişdir.

Afət onun bu qorxusunu duyub, onunla şərt kəsmişdir... "Aldatsan öldürərəm". Bunu o, Qarataya tam sahib olmaq üçün edir.

Afət Qaratayı sevir. Qaratay Özdəmir kimi yaşlı deyil. Qaratay Özdəmir kimi sərt deyil, üstəlik hər şeyə inanan və qorxaqdır.

Bir az vaxt keçəndən sonra Qaratay da Afətə qarşı sərtləşəcək. Bunu indidən hiss edən Afət "Aldatsan öldürərəm"-deyir.

Qaratay yüksək adam deyil. Şəxsiyyətində cılızlıq, cəmiyyətin gözündən pərdə asmaq istəyi vardır. O, elə cəmiyyəti aldatmaq, özünü təmizə çıxarmaq üçün əsərin əvvəlində Özdəmiri zəhərləmək üçün Afətə dərman verir, yol göstərir. Afəti heç vaxt aldatmamağa, onunla evlənməyə söz verir. Hamısını dolaşdıran Qaratayın yolunu sonda tale özü

düyünə salır... Işin üstü açılanda Qaratayla Afətin bütün işlərindən xəbərdar olduğu üçün Xandəmirdən qorxan və buna görə də onun qızı Altunsaçla evlənmək istəyən Qaratayla iylənib atılmış Afət arasında konflikt yaranır.

Şəxsiyyət tapdananda qiyam edir. Qaratayın xətrinə Özdəmiri zəhərləyən Afət artıq Qaratayı tanımışdır. Bu dəfə Afət Özdəmir kimi hərəkət edib, Qaratayı cəmiyyətə təqdim edir və özünü murdarlıqlardan təmizləmək üçün əvvəl Qaratayı güllələyir, sonra da özünü Özdəmiri zəhərləyən kimi zəhərləyib, öldürür.

Sual oluna bilər ki, Afət nə üçün Özdəmiri zəhərləyən kimi Qaratayı zəhərləmir? Yaxud da özünü də Qaratay kimi güllələmir? Adətən cinayətkarları güllələyirlər. Bununla Afət Qaratayın cinayətkar olduğunu isbata çalışmışdır. Özdəmir Afətə görə səhv edib, Afət də Qarataya görə... Elə bu səbəbə görə də Afət özünü güllələmir, zəhərləyir.

Afətlə Qaratayın arasındakı məhəbbət qarşılıqlı deyil. Onların arasındakı  məhəbbət qarşılıqlı olsaydı, onlar öz məhəbbətləriylə çirkinlikləri boğar, halallıqla, xoşbəxtliyə, səadətə çatardılar.

"Afət" dramında Özdəmirlə Afətin bir-birindən yaxa qurtarması, Qaratayla Afətin birinin digərindən istifadə etməsi və sondakı bədbəxtlikləri göz önündədir. Afət Qaratayı öz məhəbbətinə inandıra bilərdi. Qaratay Afəti qiymətləndirmək fikrindən uzaq olduğu üçün Afət onu cəzaya layiq bilir. Afət bu addımıyla öz şəxsiyyətini təsdiq edə bildiyi kimi Qaratayın da şəxsiyyətsizliyini isbat edir.

Dramda Altunsaç-Qaratay qolu da maraqlıdır. Altunsaç təmiz, qonaqpərvər, mehriban qızdır. Təmizlik onun gözlərini elə qapamışdır ki, o, doktor Qaratayın daxili acgöz-lüyünü, mənəviyyatsızlığını görə bilmir.

Altunsaç Xandəmirin yeganə varisidir. Qaratay Altunsaça evlənməklə həm Xandəmirin şahidliyindən qorunmaq, həm də var-dövlətinə sahib olmaq arzusundadır.

Afətin nə qızlığı Alagözə, nə də rəqibi Altunsaça pislik etmək niyyəti yoxdur. Afət Altunsaçı bədbəxtlikdən xilas etdiyi kimi, Alagözə də analıq münasibəti bəsləyir.

Ərtoğrulla Alagöz bir-birlərinə, əsərdə deyildiyi kimi, qəlb ilə, ruh ilə bağlıdırlar. Ərtoğrul onu "əzəmət və ehtişam" heykəlinə bənzədir.

"Afət" faciəsi sovet hakimiyyətinin ilk ziddiyyətli illərinə, yeniləşməyə, qadın-kişi hüququnun bərabərliyinə həsr edilmişdir. Qeyd etmək lazımdır ki, qadınla kişi nə fizioloji, nə də bioloji cəhətdən bərabər deyildir. Bunu biz Özdəmirin monoloqunda aydınca eşidirik:

"Özdəmir: /Sərxoşca istehzalı qəhqəhələrlə/.

Fəqət mən... Mən isə yeniləşdim; əski qafamla bərabər yeniləşdim; daha doğrusu, məni yeniləşdirdilər. Sevgili rəfiqəm, bu gözəl Afət məni yeniləşdirdi. Iştə onu da bu doktor, doktor Qaratay yeniləşdirmiş!../Qəhqəhə/ əvvət, o yeniləşdirmiş..."(5.s.355).

"Ərtoğrul. Nə yapalım, çox uğraşdım, bir dürlü yeniləşmədim, əvət yenə əski cocuqluq, yenə əski dəlilik"(5.s.361).

"Afət. /Müstəhir qəhqəhələrdən sonra, ciddi/ Ah, zavallı qadınlar! Bütün mühit və qanunlar onlara düşmən; Bütün təbiət və kainat düşmən!.. Çünki zəifdirlər, onun üçün də haqsızdırlar. Fəqət erkəklər həm məsum, bütün satqınlıqları ilə mə"sum, bütün azğınlıqları ilə məsumdurlar...

Çünki bütün qanunları yapan onlar!.. Onunçün də haqsız deyillər... Haqsız olsalar belə haqlı görünürlər"(5.s.365).

Afət ömrünün kamillik mərhələsindədir, Altunsaçla, Alagöz isə gənclik.

# H. CAVİDİN İNQİLABDAN SONRAKI DRAMLARINDA QADINA VƏ MƏHƏBBƏTƏ MÜNASİBƏT. ROMANTİK VƏ MİSTİK MƏHƏBBƏTƏ MEYL

H. Cavidin "Peyğəmbər" pyesi tarixi dramdır. Əsər dörd pərdədən ibarətdir. "Bisət", "Dəvət", "Hicrət", "Nüsrət".

Məhəmməd peyğəmbər bəşər tarixinin gedişində yeni mərhələ təşkil edən islam dininin banisidir.

Islamın yaradılması uğrunda Məhəmməd peyğəmbər Ərəbistan ərazisində Mədinə və Məkkə ətrafında 84 döyüş əməliyyatı keçirmiş, bunların 19-u sülh yolu ilə; yəni qan tökül-mədən həll edilmişdir. 23 il ərzində Allah tərəfindən mələk Cəbrayıl vasitəsi ilə Məhəmməd peyğəmbərə müqəddəs vəhylərin /ayələrin/ göndərilməsi onu bu işə istiqamətləndirmişdir.

Ərəbistanda olmuş hərc-mərclikləri, müxtəlif əqidəli adamları bir din altında birləşdirmək Məhəmməd Peyğəmbərə nəsib olmuşdur.

Dramda Məhəmmədin gəncliyi, kamilliyi öhdəsinə düşən allah əmrinə sədaqəti xanımı Xədicəyə-xüsusilə qadınlara yüksək münasibəti öz əksini tapmışdır.

Dramda obrazı yaradılan Peyğəmbər islam dininin banisi Məhəmməd Peyğəmbərdir. 23 il müddətində Məhəmməd Peyğəmbərə nazil olmuş vəhylər Quranda toplamışdır. Peyğəmbərin taktiki gedişləri ona gələn vəhylər əsasında təyin edilirdi.

Məhəmməd Peyğəmbər vahid allah ideyası ilə islam dünyasını birliyə, dostluğa, sülhə səsləyirdi. "Peyğəmbər" dramında H. Cavid Məhəmmədin qadınlara, xanımı Xədicəyə, ona vurulmuş Şəmsaya və digər qadınlara münasibətini daha qabarıq planda işləmişdir.

"Insan saflaşdıqca fəal idraka, Peyğəmbər və mələk

mənsəbinə yiyələnə bilər (68.s.58).

H. Cavidin yaratdığı Peyğəmbər obrazı "Şeyx Sənan"dakı Sənan, "Iblis" faciəsindəki iblislikdən təmizlənmiş inamlı Insan obrazının ən kamil nümunəsidir.

Əsərin əvvəlində Məhəmməd hələ adicə kişidir. Aydın və ulduzlu bir gecə. Məkkə yaxınlığında Hira dağı. Ətrafda mağaralar, yalçın qayalar, enişlər, qorxunc uçurumlar... Peyğəmbər əli alnında dərin düşüncələrə dalmış... O, gecənin sükutunu oxşayan həzin və bayıldıcı bir ud zümzüməsi dinləyərək uyuyur kimi, özündən getmiş. Bu sırada pənbə, mavi, bənövşə nurlar içində altun qanadlı füsunkar bir mələk enər və ilahi bir ahənglə Peyğəmbərə xitab etməyə başlar (6.s.7).

Məhəmməd mələklə ünsiyyətə girənə qədər ona tapşırılan ağır, çətin, məsuliyyətli və son dərəcə şərəfli bir işin ağırlığı altında gərginlik keçirir. Hər zülmə qatlaşır. Hər şeyi allahın adından deməklə yanaşı, həm də bu ideyalar uğrunda canla-başla çalışır.

Məhəmməd ona gələn vəhylər əsasında xürafatı, əski bütləri yıxıb inqilab edir... "Islam partiyası"nın-Tanrı yolunun, bir yolun əsasını qoyur. Bu yolda mələk ona yardımçı olur. Allaha qovuşmaq istəyən Məhəmmədə haqqın yolunu göstərir.

**Mələk**

*O da mümkün, düşün də haqq yolu tut,*
*Atalardan qalan nə varsa unut!*
*Yıx xürafatı, əski bütləri qır,*
*Kim yol azmışsa, haqqa doğru çağır.*
*Nərdivanlar yapıb könüllərdən,*
*Parla, yüksəl vücudi-mütləqa sən (6.s.10).*

Əsərin Dəvət adlanan hissəsində Topalla, Nəim bütsatan Ixtiyara öz etirazlarını bildirirlər. Aldıqları bütlər onların

inamını doğrultmamışdır. Oğul istəyən Topalın qızı olmuşdur. O zamankı adət-ənənə isə qızları hətta diri-diri qəbrə qoymağa da icazə verirdilər.

Bütpərəstliyin əleyhinə çıxan Məhəmmədi daş-qalaq edirlər. Onu "sərsəri-məcnun" adlandırıb, başına tikanlı kol-kos, daş-kəsək tullayırlar.

**Birinci rəis**

/ortayaşlı top saqqallı, Peyğəmbəri
görər-görməz istehzalı qəhqəhələrlə/
*Buna bax, halətü rəftarına bax,*
*Göydən enmiş, sözü kəskin, parlaq!*
*Əski adətlərə kin bəslər imiş!*
*Tanrıdan gəlmiş o, Peyğəmbər imiş!(6.s.21).*

Məhəmməd Tanrı kəlamlarına haqq donu geyindirə-geyindirə keçmişlə-skletlə, gələcəklə mələklə götür-qoy edir. Peyğəmbərin dul və yaşlı qadınla evlənməsinə dodaq büzənlərlə, onu ələ salanlarla Peyğəmbərin qohum-əqrabaları arasında baş verən narazılıqlar əsərin "Dəvət" -Peyğəmbərin islama çağırması hissəsində verilir.

Bu hissədə uca boylu, xurmayı saçlı şərqçi, müğənni Şəmsa rəisin qaynının toy mərasimində iştirak edir. Toydan gedənlər Məhəmmədi ələ salıb gülürlər.

Tarix boyu rəislər təkcə Məhəmməd Peyğəmbəri ələ salıb gülməyib, onlar bütün peyğəmbərləri beləcə təhqir edib alçatmaq istəmişlər. Məhəmməd isə hər məqamda qadının halına acımış ona inanmışdır.

**Peyğəmbər**

/müztərib və həyəcanlı/

*Qadın, qadın?! Onu duymaq, duyurmaq istərkən*
*Yaxar düşüncəmi bir şölə, bir zəhərli tikən.*
*Bütün həyatı çiçəkləndirən fəqət o... neçin?!*
*Neçin əyilsin o, bilməm neçin sürüklənsin?!*
*Qadın gülərsə, bu issız mühitimiz gələcək*
*Sürüklənən bəşəriyyət qadınla yüksələcək (6.s.47-48).*

Pyesin 3-cü hissəsində həm Mələyin, həm də Skletin təklifinə müvafiq olaraq Peyğəmbər qılıncı özünü müdafiə etmək üçün, Quranı isə Allah kəlamlarının təbliği üçün qəbul edir.

Əsərin 4-cü hissəsi qalibiyyət, zəfər mənasını verən... "Nüsrət" adlandırılmışdır.

8 il müddətində Mədinədə ana qohumları tərəfindən böyük qüvvə toplayan Məhəmməd məkkəlilərlə ittifaqa girmək istəyir. Peyğəmbərin qüvvətlənməsi, onun alqışlarla qarşılanması Şəmsada qısqanclıq hissləri oyadır. Hamı Peyğəmbərə təzim edir. Şəmsa ilə ikinci rəisdən başqa hamı Məhəmmədi alqışlayır.

Şəmsa özünə güvənən məğrur və populyar bir müğənnidir. Onun gözəlliyinə pərəstiş və etina etməyən Peyğəmbərin qüru-ru Şəmsanı təhqir edir. Şəmsa Məhəmməd basılanda ona kömək edir, qüvvətlənəndə ondan intiqam almaq istə-yir.

Məhəmməd Şəmsanı "Vəhşi səhralar çiçəyi" (6.s.59) adlandırır.

Şəmsa "intiqam almalıyam" desə də, sona qədər Məhəmməddən intiqam ala bilmir. Peyğəmbərin Şəmsaya yox, tanrısına olan böyük məhəbbəti onu sarsıdır.

Məkkəyə varid olan Məhəmmədə Şəmsa şərbət yerinə zəhər vermək istəyəndə ifşa edilir, zəhər kasasını içməyə məcbur edilir.

Peyğəmbər vahid tanrı ideyasını həyata keçirmək yolu ilə peyğəmbərləşir.

Məhəmmədin qadınlara, xüsusən Xədicəyə və Şəmsaya münasibətini ikinci fəsildə daha geniş şərh edəcəyik.

Xədicə xanımın Məhəmmədin həyatında çox böyük yeri olmuşdur. O, ömrünün kamillik mərhələsində Şəmsa isə ömrünün gənclik mərhələsini yaşayan qadınlardandır.

"Peyğəmbər" pyesini H.Cavid 1922-1923-cü illərdə qələmə almışdı. Cavid şəriət müəllimi işləyərkən islamın tarixini mükəmməl öyrənmiş və bu əsəri yaza bilmişdir. Islam qəlbindəkinə, damardakı qəlibin içindəki, qandakı hissiyyatlara səmimi sevgi, inam deməkdir. Hissiyyatlar göydən (Günəşdən) yerə endiyi üçün Tanrı yolu-ucadakına yol, Səcdə-gah yolu-mənasında işlənmişdir. Cavid özü də bu dinə qaim olmuş "Peyğəmbər" dramından çıxış edərək "Sevgilim Tanrıdır" kəlamı ilə öz dünyagörüşünü yekunlaşdırmışdır.

H. Cavidin inqilabdan sonrakı yaradıcılığına daxil olan əsərlərindən ikincisi "Topal Teymur"dur.

"Topal Teymur" da "Peyğəmbər", "Knyaz", "Xəyyam" pyesləri kimi tarixi dramdır. Bu əsər 1925-ci ildə yazılıb tamamlanmış, 1926-cı ildə nəşr edilmişdir.

Iki qardaş – Topal Teymurla Yıldırım Bəyazid arasındakı narazılıqlar kəskinləşib, müharibə vəziyyəti yaratmışdır. Əmir Teymur sülh yaradıb, qardaşı ilə münasibətlərini sahmana salmaq istəsə də, Yıldırım Bəyazid onu saymır.

Müharibə vaxtı Orxan Olqanı Moskvadan Teymur sarayına gətirmişdir. Orxanla Olqa bir-birlərini sevirlər. Orxan ailəlidir. Almasla onun bir uşaqları da vardır. Orxan gedərkən Olqanı da özüylə bərabər aparır. Yıldırım Bəyazid Əmir Teymurun düşməni Qara Yusifi himayə edir. Üstəlik Bağdad sultanı Əhməd Cəlayiri də Əmir Teymurun əleyhinə cəlb etmişdir. Yıldırım Bəyazid Əmir Teymura qarşı hər yerdə saymazlıq göstərmişdir. Onun elçisinə əhəmiyyət verməmişdir və s.

"Teymur /kinli/ Saymazlıq və soyuqluq. Nə gülünc həqarət! /Hiddətlə yerindən qalxar/ Ah, saymazlıq və soyuqluq... Nə böyük cəsarət!.. Mən ondan qardaşca məhəbbət bəklərkən iştə aldığım cavab! Qara Yusiflə Əhməd Cəlayir məni gözəl tanıyırlar, fəqət Yıldırım!..

Yıldırım isə şərab düşkünü... Zərər yox, o da ayıldıqdan sonra tanıyar. Mən Irana ayaq basdım, ən böyük cəngavərlər qarşımda durmayıb, Mazandaran çaqqalları kimi ormanlara qaçdılar. Moskvaya hücum etdim, rus knyazları qorxudan şimal ayıları kimi ürküşüb, dağılmağa başladılar. Hindistana yürüdüm. Sultan Mahmud ordusu Qanq nəhri kənarındakı qaplanlar kimi oxlarıma şikar olub, diz çökdülər.

Əvət bir gün gələr ki, məğrur Yıldırım da paytaxtı Bursada Topal Teymuru qarşılar və o zaman... iştə o zaman sərxoşluğun nəticəsini və mənim kim olduğumu həqqilə anlar" (6.s.107).

Teymur ordusunda itaət vardır...

"Teymur. /Ağbuğaya/ Cəsur Aqbuqa! Ordudan çox məmnun oldum. Bir də bir neçə gün sonra Misirə doğru hərəkətə başlarız. Oğullarımızdan Pir Məhəmməd Mirzə Hindistanı, Şahrux, Mirzə Xarəzmi və Türküstanı, Miranşah isə Azərbaycanı və Gürcüstanı idarə edər. Digər sərdarlar da hökumətimizə tabe olan başqa ölkələrə baxar"(6.s.115).

Üçüncü pərdə Bursada Yıldırım Bəyazid sarayında süslü bir salonda baş verir. Sultanın nədimləri-Cücə-Əmir Teymur qiyafətində maskara çıxarır. Şamlı qız ərəb rəqsi edir, Əmir Teymurdan gəlmiş məktuba Yıldırımın cavabı hazırlanır. Əmir Teymur Yıldırım Bəyaziddən Qara Yusiflə Əhməd Cəlayiri istəmişdir. Məktubda rədd cavabı qət"i və qaba cümlələrlə ifadə edilmişdir. Dördüncü pərdədə hadisələr daha da kəskinləşmişdi. Əmir Teymurun ordusu Sivaş qalasini alt-üst etmiş, Yıldırımın oğlu öldürülmüşdür. Bu vaxta qədər isə Orxanla Olqa Yıldırım Bəyazidin hüsnü-rəğbətini qazanmış, üstəlik hər ay Orxan Əmir Teymura xəbərlər göndərmişdir. In-

di isə yenidən Əmir Teymurun yanına qayıdır. Teymur Yıldırım Bəyazidə qalib gəlməkdədir. Yıldırımın ordusu özbaşınalıq edir. Öz qardaşı haqqında çalışan qadını döyüb, öküzünü, qızını aparmışlar.

Əmir Teymur Yusifi tələb edir. Əks təqdirdə Yıldırım Bəyazidə müharibə elan edir. Dramın beşinci pərdəsi Ankara arasında Əmir Teymurun çadırı ətrafında dövr edir. Növbətçilər söhbət edirlər.

"Ikinci növbətçi: Gülərsən ya... heç atalardan eşitmədinmi? Çingizin anası bir qadın ola-ola at belinə mindi. Bütün qonşu ölkələri sıxışdırdı və qocaman bir səltənət qurdu.

Nə fərqi var. Qadın qadındır. Bu da o cinsdən, bu da o nəsildən. Aslanın erkəyi dişisi olmaz (6.s.144).

Söhbət hərb meydanında əri Orxanı axtaran Almasdan gedir.

Sarayda isə Orxan Əmir Teymura məlumat verir:

"Orxan. Bursadakı işlər məlum. Hər ay xəbər yazıb, göndərmişəm. Son həftələrdə isə Anadoludakı bəylərə gözəl rütbələr vəd etdim. Həpsini tərəfimizə keçirdim. Oradakı tatar və türkmənlərin başçılarını çağırdım, məhəbbətlərini qazandım. Bütün Anadolu əsgəri bizim tərəfdə, imdicə təslim olurlar. Yalnız Rumeli sancak bəyləri, yeniçərilər və Serb əsgərləri Yıldırım itaətində. Fəqət, orduda pozuqluq olunca, onlar da bir şey yapamazlar, copuq şaşırarlar" (6.s.145).

"Teymur. Ollqayı, o dəyərli yadigarı mükafat olaraq sənə bağışladım. Fəqət qəlbin onun, düşüncə və biləklərin bizim olsun (6.s.147).

Almas. Əvət, sən böyüksən, bütün dünyaya hökm edə bilərsən; fəqət  Orxanın qəlbinə deyil. Unutma ki, mən anayam" (6.s.147).

Almas ömrünün gənclik dövründədir. O, ana olduğu üçün Orxanı bağışlayır. Bütün bu dövrdə Əmir Teymurun yanında olan şair Kirmani "Teymurnamə"ni yazmaqda davam edir. Yeri

gəldikcə müharibəyə öz nifrətini bildirir. Basılmış Yıldırım Bəyazid Əmir Teymurun hüzuruna gətirilir. Əmir Teymur qardaşını bağışlayır. Yıldırımı kor abdal, özünü isə dəli bir topal adlandırır.

Teymurun xanımı Dilşad xanım ahıl çağlarını yaşayır. Olqa ömrünün gənclik dövründədir.

H. Cavidin beş pərdəli "Knyaz" faciəsi 1928-1929-cu illərdə yazılmışdır. Hadisələr Gürcüstan xalqının həyatından götürülmüşdür. Əsər inqilabın ilk illərində yazılmışdır. Buradakı qadınlardan Jasmenlə Lena ömürlərinin gənclik dövrlərini yaşayırlar.

Həyat yoldaşını itirmiş Knyaz qızıyla yaşıd olan erməni qızı Jasmenlə ailə qurur. Inqilab baş verdikdən sonra Knyaz dayısı Soloman və öz ailəsi ilə birlikdə Berlinə qaçır. Burada onun sərvətini Knyazın yaxın adamı olan sosialist Şakro öz casusu vasitəsi ilə oğurlayır.

Bayırda alman milli marşı çalınır. Arvadını və sərvətini itirən Knyaz əvvəl inqilabçıları, sonra da özünü atəşləyir. Sevgilisi Jasmeni əlindən alınan Anton Knyazın hərəmi olmuş Jasmenlə qovuşur, bununla da knyazın faciəsini şiddətləndirir. Anton bu taleyi knyazlara, qeysərlərə ən şanlı mükafat hesab edir.

"Səyavuş" faciəsi də "Knyaz" faciəsi kimi beş pərdəli dram əsəridir. Iran tacidarı Keykavusun arvadı öləndən sonra o, Suriya kralının qızı Südabə ilə evlənib, onu özünə baş hərəm sayır. Südabə Qoca Keykavusu yox, onun oğlu gənc Səyavuşu sevir. Səyavuş xain qadını rədd edir. Səyavuş atası tərəfindən bəraət alır. Südabə məhbəsə salınır.

**Südabə**

(həzin bir ah ilə)
*Qarşımda diz çöksə bütün yer üzü*
*Yenə Səyavuşda könlümün gözü*

*Məhbəsdə inlərkən düşündüm onu*
*Eşqimin həp odur, əvvəli sonu (6.s.298).*

Südabənin xəyanət edəcəyini bilən Səyavuş dayısı Turan padşahı türk Əfrasiyabın yanına gedir. Burada o, dayısı qızı gənc Firəngizlə əhdi-peyman bağlayır. Səyavuşla Firəngiz xoşbəxt ola bilərdi. Lakin hakimiyyət davası aparan Əfrasiyabın razılığı ilə onun qardaşı Kərşivəz Səyavuşu qılıncla qətlə yetirib, Firəngizin real məhəbbətini mistik məhəbbətə çevirir.

H. Cavid "Xəyyam" pyesini gənclik dövründən yazmağa başlamış 1936-cı ildə onu tamamlamışdır. Bu pyesin baş qəhrəmanı Şərqin böyük mütəfəkkiri, filosof, astronom, astroloq, riyaziyyatçı, psixoloq, həkim, müəllim, güclü yaddaşa malik Ömər Xəyyamdır. "Xəyyam uzun müddət ərzində riyazi təhlillə məşğul olmuş və öz fikirlərini qısaca şərh etməyə vərdiş eləmişdir" (68.s.241).

Sevda hələ Xəyyamı görməmiş onun şerlərini sevmiş, öz səadətini Xəyyama məhəbbətdə tapmışdır. Sevda bəxtinə baxdırmaq üçün Xəyyamın yanına gedərkən onu Xəyyamın dostu Sabbah ilə səhv salır. Cadugər, əfsunçu Sabbah ona şirinlik duası yazıb, özünə bağlamaq istəyir. Sevda Sabbahdan ikrah edərək üz çevirir. Sevdanın saray əhli olduğu aydınlaşır.

Sarayda Xacə Nizam buzlu şərbət içmək istəmədiyi üçün Sevda öz qədəhini onunla dəyişir. Səbbah tərəfindən zəhərlənməli olan Xacə Nizamın yerinə Sevda zəhərlənib ölür. Elə bu vaxt zəlzələ baş verir. Rəmzi, Vəfa, Səfa da zəlzələdən ölürlər. Xəyyam onun gözlərinə görünən Sevdanın mistik xəyalı ilə ömrünü başa vurur...

"Iblisin intiqamı" dramı H. Cavidin əlimizdə olan sonuncu dramıdır. Bu əsər ideyaca "Iblis" faciəsinin davamıdır. Bəzi surətlər istisna edilməklə əsas obrazlar burada öz adlarıyla fəaliyyət göstərirlər. Arif, Iblis, Rəna və s.

Burada Iblisin ən yaxın göməkçiləri şeytanlardır. "Iblis" faciəsində olduğu kimi "Iblisin intiqamı" pyesində də Arif Rənaya xəyanət üzrə köklənmişdir. Rəna Simanı Arifə qısqandığı üçün ondan intiqam almaq istəyir. Bu yolda Iblis Rənaya yardımçıdır. Əsərin ikinci pərdəsi Madriddə baş verir. Göy guruldayır, şimşək çaxır... Iblis professor qiyafəsindədir.

Ispaniyanın paytaxtı Madrid şəhərindəki ən böyük universitet xəstəxanaya çevrilmişdir. Müharibədir. Əli silahlı qızlar, oğlanlar, patrondaşlı dəliqanlılar o yan-bu yana keçirlər.

Ema ilə sevgilisi Kastilyo növbədən sonra görüşürlər. Emanın rəfiqəsi Natella ilə Kastilyonun yolu birdir. Natella Sovet Ittifaqından göndərilmiş hədiyyələr haqqında Kastilyoya məlumat verir:

"Iblis - Talesiz bir professor... Gözlərim zəhərli qaz və başqa kimya təcrübələrində kor olmuş" (7.s.148).

Arifi axtaran Rəna onu Sima ilə birlikdə görür. Iblisə şeytanlar italyan tipli, yapon qılıqlı 1-ci, 2-ci, 3-cü, 4-cü və s. şeytanlar Hitler Almaniyasında baş vermiş əhvalatlardan xəbər verirlər.

Rəna özünə aydınlaşdırır ki, Ariflə Sima ancaq yaralılara xidmət etmək üçün əlbir olmuşlar. Rəna da bu yolda onlara yardımçı olur. Onlar birlikdə faşizmin əleyhinə mübarizəyə qoşulurlar. Iblis çox şaddır. Əmək qəhrəmanları ilə faşizm cəngavərləri bir-birini məhv etmədədir.

Şeytanlar növbə ilə Iblisə texnika və silahla gücləndirilmiş orduların qalibiyyətlərindən xəbər verirlər. Tuncər əməkçi xalqın nümayəndəsidir. Qabarlı əllərin, tərli alınların haqqını qoruyan bir qəhrəmandır. Müxtəlif millətlərdən olan əsgərlər bir-birlərinə atəş açırlar. Atəşin qurbanlarından biri də Kastilyodur.

Pyesin üçüncü pərdəsi Belçikada baş verir. Müxtəlif millətlərdən olan nümayəndələr rəyasət heyətinə məxsus masa ətrafında əyləşmişlər. Sədr ingilis lordudur. O, müxtəlif

xalqların nümayəndələrinə, o cümlədən Simaya və Roma papası tərəfindən göndərilmiş Iblisə söz verir. Insanlar hər tərəfdən Iblisi dəstəkləməkdədirlər. Iblis Ingilişərif xətrinə nümayəndələri sülhə çağırır. "Papa həzrətləri məni buraya qarışdırmaq üçün yox, barışdırmaq üçün göndərmişdir" (7.s.160).

Dördüncü pərdə Isveçrədə parlaq və şöhrətli bir salonda baş verir. Sol masada Ariflə Rəna, sağda alman, italyan və yapon nümayəndələri, ortada ingilis lordu əyləşmişdir.

Iblis ingilis lordu ilə həmsöhbətdir. Onların danışığından məlum olur ki, Lord Simaya vurulmuşdur. Heç vaxt siyasi müvazinəti gözdən qaçırmadan ingilisə Iblis öz rəğbətini bildirir.

Simanın rəğbət hissi Sovet nümayəndə heyətinədir. Arif Simanın mövqeyini alqışlayır.

"Arif (xüsusi) – sən bir günəşsən ki, səmimi könüllər ancaq sənin kölgəndə isinə bilər" (7.s.164).

Rəqs başlanır. Alman, italyan, yapon nümayəndə heyətləri Simanı rəqsə dəvət edirlər. Sima hər üçünü rədd edir. Nümayəndələr müharibə və qalibiyyət zəfəri xətrinə badə qaldırırlar.

*"Arif. Eşq olsun fəlakətlərdən səadət umanlara!*
*Eşq olsun məzlum qanilə bəslənən kor vicdanlara"*
*(7.s.166).*

Beşinci pərdə Isveçrədə yüksək və möhtəşəm üslub ilə süslənmiş böyük bir adada baş verir. Gecədir. Sima ən zərif qiyafədə düşüncələrə dalmışdır.

Alman, yapon və italyan nümayəndələri birlikdə Simaya eşq elan edirlər. Iblis də öz növbəsində Simaya yaxınlaşır. Simanın rəğbəti əməkçilərədir. Sonda Simaya maskalı şəxslər hücum edirlər. Tuncər onların maskasını yırtanda italyan, yapon, ingi-

lis lordunu tanıyır. Onları öz əməkçilərinə verib, cəzalandırmalarını tələb edirlər. Maskalı xainlər ifşa olunurlar.

Hər bir əməl insanın aldığı tərbiyənin nəticəsidir. Insanlar həmişə öz dövründəki zəmanəyə uyğunlaşmağa çalışırlar.

H. Cavidin "Iblisin intiqamı" əsərində Sima şərin özünü imtahan edən, bədxahlığa düşmən olan ittihamçıdır. O, burada çox vaxt ancaq xeyirxahlıqla bədxahlıq hissini aydınlaşdırmağa xidmət edir. Sima harda olmasından asılı olmayaraq, əməkçi xalqın, fəhlə kəndli hökumətinin marağını güdməkdədir. Sima obrazı H. Cavidin əzəlki qadın obrazlarından xeyli fərqli, inkişaf etmiş mübariz bir obrazdır. Oxucu Simanı öyrəndikcə gözləri qarşısında öz həmkarlarının əməyini tərənnüm edən, əməkçi xalqın tərəfini saxlayan zəhmətkeş deputat obrazını xatırlayır. Zamanın süzgəcindən süzülüb gələn Sima artıq nə zavallı Maraldır, nə dəliqanlı əlində qalan Ismətdir, nə də öz məhəbbətinin intiqamını almağa can atan Afətdir. Sima bu qadınlardan fərqli öz xoşbəxtliyini xalqının, millətinin xoşbəxtliyi hesab edən gözüaçıq, ziyalı, hünərvər qeyrət çəkən mübariz qadın obrazıdır. Bu obraz bizim müasirimizdir. Inqilabın yetirməsidir.

"Telli saz" 1931-1932-ci illərdə yazılmışdır. Pyesdən üç parça əlimizdədir.

"Dəli Knyaz", "Knyaz" faciəsinin əsasında yazılmışdır. H.Cavidin "Azər" poeması isə 1920-1937-ci illər arasında qələmə alınmışdır. Bu epopeyada H. Cavidin fəlsəfi fikirləri bir küll halında toplanmışdır.

"Mən bu əsərə avtobioqrafik deyəndə Cavidin salamat qalmış və indiyədək diqqət yetirilməmiş bir qeyd dəftərçəsindəki sözlərinə arxalanıram: "Azər" - dən şeriyyət və sənət umanlar əkin tarlasında çiçək arayanlara bənzər. "Azər" yorğun bir dimağın məhsuludur. Daha doğrusu, bir taqım qırıq-tökük təəssüratdan başqa bir şey deyildir. "Azər"i mütaliə edənlər yalnız müəllifin məğzini görmüş olurlar"(36.s.176).

Yuxarıda qeyd etmişdik ki, Cavid əksər əsərlərini yazarkən onlarda bir paralellik, həm də bir ardıcılığı izləmişdir. Şairin "Azər" epopeyası da bu qəbil əsərlərdən biridir. H. Cavid bu poemanı düz 17 ilə yazmışdır. Poemanın qəhrəmanı 30 yaşlı Azərdir. Azər yalçın qayalar arasında oturub düşünür. Dənizdə batan günəşin son qızartısı, Azərin ayaqları altında süd kimi Ay işığının nuru hiss olunur. Azərin çiynində pencək var. Yay gecəsidir. O, mavi buludlarla, qucaqlaşmış dənizin, yalçın qayaların arasında oturub düşünür... Elə poemanın adı da belədir. "Azər düşünürkən".

Azərin ruhunu kölgəli böhran bürümüşdür. Insanlar onun halını duymadığı üçün o, dərdini ulduzlarla bölüşmək istəyir. Lakin dilsiz və sakit göylər də onun halını duymur. Azərlə bərabər yer-göy sükuta qərq olur. Şairin qəhrəmanı Azər tək-tənha, xeyirdən-şərdən uzaq məzar kimi dar bir qəfəsdə ömür sürür. Ətrafındakılara qoşulmayan Azəri cəmiyyət "Sərsəm, dəli, xudbin" deyə ittiham edir. Hətta arif hesab olunanlar da ona yan baxırlar. Mömünlər Azərin danışığını "küfr, hədyan" hesab edirlər. Dinsizlər onun imanına, yəni yüksək inamına, Allaha olan inamına şübhə edirlər. Ona görə də Azər mümkün qədər insanlardan uzaq dolanır. Başqalarından fərqli gecələr gəzməyə çıxır, həmdəmi də sayrışan ay, pənbə buludlardır. Azər ay işığıyla söhbət edə-edə gedir. "Zülmətə nur" üstün gəlmədədir. Bütün bu detalları biz, Cavidin öz həyatındakı ağrılarla eyniləşdiririk. Dan ulduzu bakirə qız kimi Azərə gülümsünür. Azər tək deyildir. Ətrafda bu tablonu kətana köçürmək istəyən bir rəssam da var. Azərin arıqlığı, tənhalığı ona vurğun bir aşiqi xatırladır. Rəssam maraqlanır. Kimsən, hardan gəlib, hara gedirsən? Azər cavab verir ki, zənginləri narahat edə biləcək bir yoxsulam. Arifəm, sakitəm, dərd əhliyəm.

Rəssam onun şəklini çəkmək istəyir. Azər razılaşır. Rəsm hazır olanda rəssam Azərdən şəklə görə pul istəyir. Azər-Bu, mənə yox, bir cocuğa bənzəyir-deyə rəsmdən imtina edir. Bu-

rada "sənətdən başqa hər şey var" – deyir. Azər yoluna davam edir. Yoluna əlifba kitabı əlindən alınmış bir yetim uşaq çıxır: Şair sual edir.

*Söylə dərdin nə?.. Cocuq iç çəkərək*
*Dedi: "Annəm, ögey annəm döyəcək,*
*Verəcək bəlkə müəllim də cəza !" (4.s.149).*

Sonrakı söhbətlərində o da məlum olur ki, uşağın atası işsizdir. Azər kitab almaq üçün uşağa pul verir, bu vaxt hadisəyə şahid olan ikinci uşaq da gəlib pul istəyir.

*Sənə layiqmi dilənmək, ay oğul,*
*Durma get, haydı, çalış, bir iş bul (4.s.149).*

Eşidənlər havayı pul qazanmaq istəyən 13 yaşlı üzlü, sırtıq uşağı yox, Azəri "qaba insan" adlandırırlar. Azər yoluna davam edir, gəlib bir məscidə çıxır. Şivən səsi eşidib, məscidin içinə girir. Görür ki, biri üzünü dırnağıyla cırır, o, biri üzünə palçıq sürtür, o birisi zülüm-zülüm ağlayır... Sonra şeyx minbərə çıxır.

*Əl verir-söylədi-fəryadü fəğan.*
*Yetişir inlədiniz, ağladınız,*
*Dul qadınlar kimi yas saxladınız.*
*Gəlin artıq azacıq kəndinizə*
*Qanlı göz yaşları cənnətdə sizə*
*Əbədi zövq, səadət verəcək.*
*Olacaq həmdəminiz huri, mələk (4.s.150).*

Şeyxin bu xoş sözlərinə görə ona çoxlu nəzir-niyaz verilir. Sadədil hissə uyan abdallar zülməti görmüş kimi aydınlaşırlar. Azər dərd çəkir.

*Yurdu sarmış qabalıq, yaltaqlıq,*
*Yüksəliş varsa, səbəb alçaqlıq (4.s.151).*

Şeyx cavab verir.

*Ən gözəl dindir iştə dini-həyat*
*Başqa yol yox, ya fənn, ya mövhumat*
*(4.s.151).*

"Azər. /əlini Şeyxin qarnına vuraraq istehzalı təbəssümlə/

*Bax, həqiqət də, bəlkə haq da budur,*
*Səni hər kim döyursa tanrın odur.*
*Din için, firqə, ya siyasət için*
*Nerdə bəslənsə bir ədavət, kin,*
*Nerdə qan, ya ölüm, əməl görsən.*
*Buna yalnız səbəb sənin mə"dən (4.s.152).*

Azər camaata üz tutur:

*Mütəvəkkil duran bu mə"bədlər*
*Hər kütübxanə, məktəb olmalıdır (4.s.152).*

Azər yoluna davam edir. Bir-bir, iki-bir onun qarşısına çıxanlar, hərə bir söz deyib gedir. Biri deyir ki, kaş heç aclıq olmayaydı. Biri deyir ki, kaş quş olub uçaydım, bu bəşərin şər işlərini görməyəydim. Biri dərvişliyə üstünlük verir. Azər cavab verir ki, kimin qüvvəti varsa o qalib olacaq. Başqa yol yoxdur. Və yenə də yoluna davam edir. Sanki Azər dünya səyahətinə çıxıb, nəyisə özünə aydınlaşdırmaq istəyir. Son baharın acı nəşəsiylə qoşa addımlayır. Azər haqqında söz-söhbət gəzir.

*"Orta Qərbə varılmış da, yol iriyor nəhayətə"(4.s.157)*

Əslində bu bioqrafiya Cavidin özünün gəzdiyi yerlərin coğrafiyası, özünün təəssüratlarıdır... Dörd tərəf ancaq və ancaq qüvvətə tapınmaqdadır. Azər Qərbə doğru irəlilədikcə qadınların acınacaqlı halları ilə qarşılaşır. Bir tikə çörək üçün özünü satan qadınlar "mədəniyyətdə çarpışan vəhşət" (4.s.162) lə qarşılaşırlar.

*Ipəkli pərdə açıldıqda qönçə solmuşdu,*
*Səbəb cinayətə bir kinli şəhvət olmuşdu (4.s.162).*

Sonra Azər Moskvadan gələn müğənnilərə, rəqqasələrə qulaq asıb, tamaşa edir, əhsən deyir, zövq alır. Nil yavrusu Şəmsanın Qərbə gəlib çıxmasını onun atasının taleyi ilə bağlı olduğunu öyrənir. Şəmsa vətəninin cəlladı olan ingilis lordunun təklifiylə onunla oynayır, onun evinə gedir. Və azacıq keçməmiş Şərqin afəti əsmər Şəmsa "qatil" sifəti ilə həbs edilir.

Azər Berlində gördüyü bu səhnələri-Şəmsanı "tikanlıqda çiçək" (4.s.175) adlandırır və yoluna davam edir. Şərqi oxunur. Azər düşünür.

*Saldı gözdən, illərcə Sən"an kimi*
*Qapısında çoban olduğum gözəl (4.s.177)*

Azər axşamın qəribliyində qonşu bağçadan gələn ney səsini dinləyir. Bağçaya girib, ney çalan kor neyzəni görür. Kor neyzən Azərə öz dərdini açır.

*Bilmədim vuruldum yenə bir qıza,*
*Əridim ürəkdən qan sıza-sıza,*
*Söyləsəm dərdimi aya, yıldıza*

*Yıldızlar gülümsər, ay axıb gedər*
*Dinləməz halımı yan alıb gedər*
*(4.s.181-182).*

Qızının üzünü açan adamı, neyçalanı Bəbir xan tutdurub, qollarını bağlatdırır.

*Ah, bu rəzillik nə demək*
*O qız sənə eşmi!? - dedi" (4.s.184)*

deyib, onun gözlərinə mil çəkdirir... Kor neyzən yenə öz taleyini naləli səslə Azərə nəql edir...

*Bədbəxt adam hönkür-hönkür*
*Cocuq kimi ağlıyordu;*
*Azər dedi: çox gülüncdür*
*Bu ağlamaq Şərqi yordu (4.s.185).*

"Azər"poemasında müəllif qəhrəmanlarını müxtəlif yollardan keçirə-keçirə dünyanı öz oxucusuna tanıdır. Və

*Şərq uğraşır yalnız "ölməyim"deyə*
*Qərb elləri maildir öldürməyə (4.s.185)*

qənaətinə gəlir.

Ixtiyarları, gəncləri dinləyə-dinləyə Azər insan haqqında düşünür. Bilir ki, dünyada nə varsa, insanın da mayasında ondan var.

*Sən nə mələksən, nə də qaplansan,*
*Nə gülsən, nə tikan... yalnız insansan.*
*Çalış, parla, yüksəl! Unutma ancaq,*
*Yaşamaq bir haqsa, yaşatmaq da haqq*
*(4.s.187).*

Azər yenə də yoluna davam edir. Zəngin uşaqların güzaranı ilə kasıb uşaqların güzaranını müqayisə edir. Sərxoşun qızğın və çılğıncasına köpəyi söyməsini seyr edir.

Xəstə, sağlam adamların bir-birilə öpüşməsinə irad tutur. Çarşabın atılmasıyla hələ hər şeyin düzəlməyəcəyini bildirir. Insanlara elmi, mərifəti tövsiyyə edir, ruhun azadlığına çağırır.

*Qorxun, ağzın ləkələrdən qorxun*
*Ev yıxan təhlükələrdən qorxun*
*(4.s.194)*

-məsləhətini verir.

Sonra Azər sevgilisindən vəfa görməyən gəncin özünü öldürməsi səhnəsi ilə rastlaşır.

Azər dəniz kənarına gəlir. Iki-üç qadın gəzişən oğlanlarsa qızlara "zəmanəniz zınqıldasın" - deyə irad tuturlar. Azər etiraz edir:

*Hər saçmaya aldanmayın "Həqq və həqiqət" deyə*
*Onlar sizi sürükləyir sönüklüyə, heçliyə.*
*Əsrin yavruları olun... əvət, ancaq cəsarət*
*Ancaq çəlik qollar verir insanlara səadət.*
*Çırpınış sükutdan gözəl, gülüş iniltidən xoş*
*Günəş kölgədən uğurlu... çalış nura doğru Qoş*
*(4.s.201).*

*Cahan igid ərlərindir, qorxaq gözə çöp düşər*
*Qorxu-sinsi bir mərəz ki, azar, azar öldürər,*
*Nəşəsiz bir ömrü ancaq mübarizə güldürər(4.s.202).*
*Azər yoluna davam edir, vəhşi qadınla rastlaşır.*
*Bir qadın çıxdı yaşıl camlıqdan*
*Üz-gözündən yağaraq kin, üsyan,*
*Onu bulmuşdu çobanlar üryan,*
*Bənzəyir bayquşa, lakin insan.*

*Örtən ancaq o bürüşmüş cəsədi*
*Bir qarış kirli və yırtıq bezdi.*

**Bir göylü**

*Bu qadın, bəlli sağır ya dilsiz.*

**Qadın**

/şaşqın və həyəcanlı/
*Bir suçum yox, məni öldürməyiniz ! (4.s.203)*
*Çarpışırkən quduran millətlər,*
*Bizi məhv etdi ağır dəhşətlər,*
*Atdılar atəşə dilsiz qızımı.*
*Südəmər yavrumu, şən yıldızımı*
*Təkcə bir körpəcə-oğlum qaldı*
*Yolda canilər əlimdən aldı.*
*Parçalarkən onu...uf, yandı dilim?*
*Mən o gündən bəri insan deyilim (4.s.204).*

On illərlə ot, ələf yeyib, meşələrdə gizlənən vəhşi qadının həmdəmi canavarlar, qaplanlardır. Onu bir kəndə qalmaq üçün aparırlar. Burada da bir tikə çörək üçün insanların arasında görünəndə onu daş, kəsəklə vurub, oğurladıqlarına görə kirli donuz kimi döyürlər. Azər "çaldığı milyonlarla süslü saraylar yapanların" (4.s.205) belə təhqir edilmədi-yini deyib, günahı yoxsulluq olan dilənçi qadını müdafiə edir. Azər yenə yoluna davam edir. Yaşamaq üçün ətrafdakılar bir-birilə mübarizə aparırlar. Azər yenə yoluna davam edir. Makina səsinə bir evə keçir. Səlmanın özüylə, anasıyla danışır. Səlmanı qorxulardan uzaqlaşdıraraq onu "sənət yuvasına" aparır. Səlmanın şərqiləri ətrafa yayılır. Azər millətinə xidmətdən dərin nəfəs alır.

*...Almaslar, incilər qarşımda söndü,*
*Gözəllər yanımda xəyala döndü.*
*Büllur qəhqəhələr susmuş göründü,*
*Susmuş kamançalar ilhama gəldi (4.s.211).*

"Azər" epopeyası "təmiz hava udmaq" məqsədiylə yaradıcılıq stolundan baş qaldırıb, bir hovur dincəlmək istəyən, tənha filosof sufi şairin səyahət düşüncələridir.

Azər istər dəniz kənarında oturub dincələrkən, istər rəssamla söhbət edərkən, istərsə də evi yandırılmış "oğru qadın" haqqında mühakimələrində bir filosof kimi çıxış edir, fikirlərini ümumiləşdirir. Azərin gördükləri, seyr etdikləri oxucunu da sarsıdır, düşündürür. Ona yol göstərir.

Cavid yaşadığı illər ərzində bir an da olsa, özünün həyat, insan, dünya ilə bağlı düşüncələrindən xilas ola bilməmişdir. "Azər" poeması da şairin təkcə gəzdiyi anların küll halındakı toplusudur, yazılmış əsərlərinin mikromiqyaslı görümləridir.

# II FƏSİL

# H. CAVİDİN QADIN QƏHRƏMANLARININ HƏYATINDA MƏHƏBBƏTİN UŞAQLIQ, GƏNCLİK VƏ KAMİLLİK MƏRHƏLƏLƏRİ. YAŞIN MƏHƏBBƏTƏ TƏSİRİ. QORXU, HİSSİYYAT, TƏMAS.

Məhəbbət etik və estetik həzz mənbəyidir. Məhəbbət ürəyin qayğılarıdır. Məhəbbət ikiyə bölünmüş yarımların bir-birinə vəfa, sədaqət, diqqət uğrunda mübarizəsidir. Məhəbbət ruhi uyğunluqdur. Vəcddir, həzz mənbəyidir.

Məhəbbət qarşılıqlı maraqlar üzərində qurulanda məhəbbətdir. Məhəbbət tərəfmüqabilə yüksək inam, ehtiram, ehtiyac deməkdir. Məhəbbətdə sevənlər nəticəni yüksək estetik həzzlə əldə etməyə və bu davamiyyəti qorumağa çalışırlar. Məhəbbətdə tərəflərin bir-birinə heyranlığı əsas şərt-dir. Birincinin heyrətinə ikincinin məftunluğu məhəbbət deməkdir.

Məhəbbət ancaq dərin köklər üzərində qurulanda yaşaya bilər. Məhəbbətin dadı, qəlbin dərinliyindəki macəraların, sınaqların tarixi ilə bağlı olan həqiqi hiss və duyğularla bağlıdır. Məhəbbətdə hər kəsin öz fərdi yolu, fərdi bağlılığı olur. Məhəbbətdəki bənzərliklər, başqalıqlar günəşdəki zərrələr qədər rəngarəngdir.

Məhəbbət pillə-pillə, mərhələ-mərhələ dərk etməkdir. Məhəbbət insanın özündən və ətrafından daha ucada dayanan bir zirvədir, bir ləzzət mənbəyidir ki, insan daima bu həzzə, bu həvəsə, bu ləzzət mənbəyinə can atır. Bu zirvəni qorumaqla özü ilə sevgilisinin arasında tapdığı həyat eşqini, ruh yüksəkliyini daima əldə saxlamaqla, gələcəyə bu hiss ilə qorxusuz getməyə can atır.

Məhəbbət daha çox şüurla bağlı olan hissdir. Oğlanlarda bu

hiss on dörd, qızlarda on iki yaşında yarana bilər.

Ehtirasda bu çox vacib element deyil.

Məhəbbətin ilkin dövrü daha çox ünsiyyət kimi qeydə alınmışdı.

Məhəbbət dil tapana qədər iztirab..., dil tapandan sonra həzzdir. Buradakı hər hansı qıcıq fərdidir.

Intiqam yaxınlıq inamı bir-birinə bağlayan, yaxınlaşdıran, doğmalaşdıran ünsüyyət vasitəsidir.

Sevmək könüllü xeyirxah, mehriban intim istəkdir. Sev-giyə qarşılıqlı cavab məhəbbətdir. Sevgi hissi qohumluq hissindən üstündür.

Sevmirəm-yəni nə xeyirxah, nə də bədxah olmaq istəmirəm deməkdir. Məhəbbətdə neytrallıq adi vəziyyətdir.

Məhəbbətdə sevən tərəf qüdrətlidir. Sevən ən adi papağı, ən adi xəncəri, ən adi atı, insanı öz şərəfli varlığı ilə qeyri adi edə bilir.

Ən uca dağın başındakı qar öz zirvə məqamına görə seçilir, qeyri-adilik taxtına çıxır, mənsub olduğu çevrəsindən, mühitindən öz yüksəkliyi ilə seçilir, zirvə mövqeyi əldə edir.

Məhəbbətdə sevilmək istəyən mütləq sevənin tədqiqi ilə məşğul olur, onu öyrənir və bu ecaz məşğuliyyətindən tükənməz həzz və ləzzət qazanır.

Məhəbbətdə ehtiraslı məqamlar, məhəbbətlə bağlı hissləri düşüncələri sığallayır, xəfifləşən hissləri duruldur. Insan yenidən allah tapşırığı ilə bağlı məsələlərin həllinə, öz iş-gücünə cəlb olunur.

Insan dünyanın zərrəsidir. Məhəbbətlə bağlı olan xəfif və lətif hisslər özü də zaman keçdikcə kamilləşmə prosesi keçirir. Nəticədə kamil hiss kimi insan həyatını tənzimləyir.

H. Cavid dramaturgiyasında bu məsələlər nizamlı şəkildə qeydə alınmışdır. Lakin bu məsələlər bəşəriyyət qədər böyük olduğundan bir küll halında dərk edilə bilməz.

Allah məfhumunu reallaşdırsaq, onu bəşəriyyətin cəmi kimi

qəbul etmək doğru olar. Bəşəriyyəti dərk etmək üçün dünyanın bir zərrəsi olan insanı dərk etmək lazımdır. Bu insan məfhumundakı aparıcı hiss özü məhəbbətdir.

Cavidin bütün əsərləri nəticə etibarı ilə insana məhəbbətlə bitmişdir.

Bu hiss olmayanda insan şüurunda bədbəxtliklərlə bağlı olan, onu ruhdan salan pessimistliklər yaranır.

Məhəbbət məfhumu konkret şəxsiyyətlə bağlı məfhumdur.

Məhəbbət pillə-pillə, mərhələ-mərhələ dərk etməkdir. Məhəbbət hissi nifrət, kin, dostluq, qardaşlıq hissindən ucadır və onlardan əvvəl yaranmışdır.

Ibtidai insanlar məhəbbətin nə olduğundan xəbərsiz yaşamışlar.

Çəmənzəminlinin romanlarında göstərildiyi kimi qədim insanlar öz ataları, qardaşları və oğulları ilə evlənə bilirdilər. Məhəbbətin yaranması, eləcə də başqa ruhi hisslərin meydana gəlməsi insanın şüurca inkişaf etməsiylə bağlı olmuşdur.

Antik dövrdə ancaq fiziki yaxınlıqla bağlı məhəbbətlər olmuşdur.

B.e.ə. VI-əsrdə şairə qadın Sapfonun nəğmələrində səmimi hisslərdən yox, qadının qadına olan odlu ehtirasından söhbət getmişdir. 25 əsr bundan əvvəl isə ancaq kişinin kişiyə olan ehtirasından ruhi məhəbbət haqqında söhbətin izləri vardır. Orta əsrlərdə şəxsi məhəbbətdən danışmaq nadir hadisə idi.

Məhəbbətdə həm bədən, həm ürək, həm də ruh həzz alır. Insanın kamilləşməsində, özünüdərkində, dünyagörüşünün formalaşmasında məhəbbətin danılmaz rolu vardır.

Antik adamlar iki cür məhəbbət tanıyırdılar; 1**. Ilahi** (səcdə edilməli) məhəbbət. 2.**Hissi** məhəbbət.

Məhəbbət-deyəndə daha çox cinslər arasındakı hissi məhəbbət nəzərdə tutulur ki, bu birlikdəki bir-birinə əks cinslər-iki qanad-məhəbbətin şəxsən yaradıcıları hesab olunurlar. Burada tərəflər bir-birini öyrənməklə dünyanı, insanı və

Allahı dərk edirlər. Belə məhəbbətdə tərəflərin ardıcıllığı uzun yolları ikilikdə qət etmələri onların həm də şəxsiyyət kimi formalaşdıqlarına zəmanət verir.

Məhəbbətdə yer ilə göy birləşir. Məhəbbət göylərin duasıdır. Məhəbbət-sirdir, hiyləsiz, təmənnasız azad duyğudur.

Məhəbbətdə böyüklük, səxavət, istedad, xeyirxahlıq və incə ağıl vardır.

Məhəbbət həqiqəti, xeyirxahlığı və gözəlliyi özündə birləşdirən ilahi duyğudur.

Məhəbbətdə təmizlik, təknigahlılıq həm də malın, mülkün, ailənin-geniş anlamda dövlətin bütövlüyüdür. Bu mənada M. Füzuli məhəbbəti ideallaşdırmışdı. Ona görə də hətta bütün varlığı ilə sevsə belə M. Füzuli Məcnunu öz Leylisi ilə qeyri-qanuni cəmiyyətin-Allahın icazəsi olmadan qovuşdurmadı, qovuşdura bilmədi.

Qeyd edək ki, Füzuli bu işə etiraz elədi, ağladı, cəmiyyətə bu işi nöqsan saydı. Onu da qeyd edək ki, "Leyli və Məcnun" əsərində də ilk səhv addımı Leyli atdi. O, Ibn-Səlama ərə getməklə Məcnunun faciəsini və məhvini tezləşdirdi.

Əzəldə baş tutmayan sevgi sonda Ibn Səlama mənsub olduğu üçün ona da xoşbəxtlik bəxş etmədi. Məhəbbətdə insan elə bilmədiklərinə görə xoşbəxt olur. Məhəbbətdə çoxbilmişlik, çoxgörmüşlük insanın nəinki məhəbbət hissini parçalayıb iflicləşdirir. O, hətta insanın ümumi sağlamlığında da neqativ iz buraxır. Əsl məhəbbətdə sevənlər arasında üçüncülər peyda ola bilmir.

Məhəbbətdə xoşbəxt olan kəs daşı sındırır, bədbəxtin başında isə daş sındırırlar.

Məhəbbət insanın vərdişlərini, ruhunu kamilləşdirən, idrakını dərinləşdirən, onu yaşamağa ruhlandıran bir hissdir. Həyatın və ədəbiyyatın əsas aparıcı qüvvəsi məhəbbətdir. "Şopenhaura görə məhəbbət canlı varlıqları səadət xülyası ilə aldadaraq, onları öz məqsədləri üçün alətə çevirən bəsit fizioloq-

ji instinkdir" (27.s.286-287).

Məhəbbət müxtəlif cinslərdə olan dərin intim hissdir, aşiqin məşuqla birliyi, bütövlüyüdür. Məhəbbətdə dərin həyəcan, bütövlük və sədaqət ən yüksək mənəvi kamillikdir.

Məhəbbət nə yarandıqda, nə də söndükdə ağıl və iradə ilə proqramlaşdırılmır.

Ən yüksək nemət, ən kamil nəşə məhəbbətin bəxş etdiyi həzlərdir.

Qadınla kişini bir-birinə bağlayan, onları bir-birinə bərabərləşdirən qüvvə məhəbbətdir.

Məhəbbətdə qadın ömrünün mərhələləri təbiətin fəsilləri kimi dörd yerə bölünür:

Uşaqlıq, gənclik, kamillik, qocalıq.

Qadınların tiplərindən, psixologiyasından, yaş mərhələlərindən, məhəbbətə münasibətindən, məhəbbət mülahizələrindən söz açmazdan əvvəl qeyd etmək lazımdır ki, qadını, yaxud da kişini fəsillərdə olduğu kimi necə varsa, eləcə də qəbul etmək doğrudur. Bunun əksinə çalışanlar, bu mübarizədə mütləq uduzurlar.

Kişilərdə sevgi məhəbbət hissləri bioloji amillərlə, qadınlarda isə bu hal psixoloji amillərlə bağlı inkişaf etmişdir.

Cavidin "Maral" dramındakı Maral 16 yaşlı bir gəlindir. O, dramlardakı başqa qadın tipləri ilə müqayisədə hələ ömrünün uşaqlıq mərhələsini yaşayır. Maral nə dünya-görmüş Nazlı bacı kimi düşünə bilir, nə də həyatın isti so-yuğuna az-çox bələd olan gənc Humaya bənzəmir.

Maral hər şeyi arzularda olduğu kimi təbii ardıcıllıqla görmək istəyir. Turxan bəylə onun arasındakı böyük yaş fərqi Maralın uşaq təbiətini yaralayır, onu mənən öldürür. Maral bu sıxıntıdan qurtarmaq üçün çırpınır. Arslan bəyin Marala olan məhəbbəti onu azadlığa, xoşbəxtliyə səsləyir. Maralda Turxan bəyə qarşı ikrah hissiylə yanaşı qorxu hissi də vardır. Turxan bəy Maralı dərk etmək hissindən uzaqdır. O, öz ərlik borcunu

Maralı tam təmin eləməkdə görür, öz var-dövləti ilə öyünür.

Maral özündən iyirmi iki yaş böyük olan Turxan bəyin hansı zəhmətlər hesabına qazandığı var-dövlətə qarşı biganədir. Bu yolda onun zəhmətlərinə qiymət vermək hissindən uzaqdır. Maral həyatında heç nə qazanmayan uşaqlıq dövrünü yaşayan, atası öldükdən sonra ac qalmaq, yoxsullaşmaq Turxan bəyə ərə getməklə bu qorxudan azad olmağa çalışan qadın obrazıdır.

Arslan bəyin məhəbbəti dar ayaqda Marala arxadır, dayaqdır, güvənc yeridir. Maral Arslan bəylə özünü azad, güclü və xoşbəxt hesab edir. O, Arslan bəyi öz ürəyində hiss etdikcə qüvvətlənir, yoxsulluqdan yaranmış qorxu hissləri unudulur. Məhəbbət ölümdən güclüdür. Maral ilk səhvini anlayan kimi öz zəkasına, könlünə uyğun həyat tərzinə həmyaşıdı Arslan bəyin məhəbbətinə qovuşmaq üçün qərar verir. Və bu yoldan onu nə Nazlı bacı, nə də Turxan bəyin gülləsi döndərə bilmir. Maral ömrünün gənclik mərhələsini yaşasa da aldığı həzzləri seçə bilir, qəti addım atmağa qadirdir.

Arslan bəy hər sahədə Marala taydır. O, öz məhəbbətini xilas etmək üçün ölümlə üzbəüz gəlməyə səy göstərəndə qəhrəmandır, ərdir. Arslan bəylə Maral həyatın isti-soyuğuna çox da yaxından bələd olmayan gəncdirlər. Onlar bir-birini sevsələr də qovuşa bilməmişlər. Hər ikisi iztirab içində, solmaqda olan bir məhəbbətin qurbanına çevrilmişlər.

Turxan bəylə Maralın arasında fiziki yaxınlıqdan başqa qeyri-hisslər, duyğular yoxdur. Bunu sezən Maral nə qədər bədbəxtdirsə 16 yaşlı qıza sahib olan Turxan bəy də Maralın ilkinlik çağına, gözəlliyinə sahib olduğu üçün o qədər lovğadır, şaddır.

"Maral" dramındakı ikinci qız Humaydır. Humay Cəmillə yaşıddır. Onların arasındakı təmas onları bir-birinə doğmalaşdırmışdı. Təzada bax ki, açıq-saçıq bir qız olan Humay Cəmilə qarşı sədaqətli və mərhəmətlidir. Örtülü gəzən Maralda isə Turxan bəyə qarşı qorxu hissindən başqa özgə

duyğu yoxdur. Cəmil Humayın məhəbbətini qazanmaq üçün onunla çox təmasda olmuş, ona diqqət göstərmişdir. Belə cəfakeşlik Turxan bəydə yoxdur. Cəmilin dostu Nadir, Humayın rəfiqəsi Səltənət onların arasındakı münasibətdən rəğbət hissindən xəbərdardırlar. Buna görə də Cəmillə Humay öz aralarındakı münasibətdə cavabdehlik hissi yaşayırlar. Cəmillə Humayın arasındakı nigaha qədər təmas, ünsiyyət onları bir-birlərinə yaxınlaşdırmışdır. Maral isə gözübağlı quş kimi Turxan bəyin evinə gətirilmişdir. Odur ki, mübarizəsiz əldə olunan məhəbbətdəki həzz dərk-olunmaz olmuşdur.

Hər bir qadının öz ruhu, öz xarakteri, öz şıltağı vardı. Humay Cəmilə qarşı nə qədər qayğıkeş, mərhəmətlidirsə, Maral Turxan bəyə qarşı, məhz sadalanan səbəblərə görə o qədər sərtdir, amansızdır. Onların arasındakı fərq birini digəri üçün anlaşılmaz etmişdir.

Cəmilin tənhalığı, anasızlığı Humayda ona qarşı mərhəmət hissi yaratmışdır. Qeyd etmək yerinə düşərdi ki, rəğbət, pərəstiş hissləri hələ məhəbbət demək deyildir.

"Ana" dramındakı Ismətin Qanpolada olan münasibəti saf məhəbbətdir. Ismət Qanpoladın qayıtmasından vəcdə gəlir. O, öz sevincini, öz sevgisini musiqinin dili ilə izhar edir. Buradakı vəcd-məhəbbətdir.

Ismətin əzmkarlığına, Qanpolada olan sədaqətinə Orxan ona sahib olmaq üçün nə qədər çalışsa da buna nail ola bilmir. Odur ki, o, öz məqsədinə Qanpoladı öldürməklə çatmaq istəyir.

Ta qədimlərdən insanlar qadınla kişinin ikilikdəki həyatını cənnət adlandırmışlar.

Üçüncülər-iblislər-araya girəndən sonra isə cənnət cəhənnəmə bənzədilmiş, ruhi rahatlıq iztiraba çevrilmişdir.

Sevişənlərin, ailə quranların həyatında məhəbbətə aparan yollar-məhəbbət oyunları olmayanda birbaşa ailə həyatına düşmə feodalizmdən sosializmə keçidə bənzəyir. Bir-birini tanımadan, qiymətləndirmədən, bərkdən boşdan keçirmədən

qurulan ailədə halallıq ucuz xoşbəxtliyi boğur. Maralla Turxan bəyin Knyazla Jasmenin, Afətlə Özdəmirin, Keykavusla Südabənin və s. məhəbbətləri bu səbəbdən faciə ilə nəticələnmişdir. "Şeyx Sənan" faciəsində Sənan Zəhranın ona olan məhəbbətini ev yiyəsinin qərib qonağa olan münasibəti kimi qəbul edir və bu münasibətə əvəz olaraq onu "solğun nur"a bənzədir. Sənana isə "solğun nur" yox, onu çox böyük əməllərə səsləyən, onun dinlər arasında dostluq, qardaşlıq, beynəlmiləl ideyalarını alqışlayan, özünə inamı olan bir qızın məhəbbəti lazım idi. Sənan bu məhəbbəti gürcü qızı, xristian Xumarda tapır və əsərdə göstərildiyi kimi sonda Xumar Şeyx Sənanın ardınca gedib, onun qələbəsini təmin edir.

"Şeyx Sənan" faciəsindəki Xumar cəmi bircə yaş Maraldan böyükdür. O, Maralın əksinə öz yaşıdları olan Antona Simona məhəl qoymadan 42 yaşlı Sənanı sevir. Sənanın ağlı, kamalı Xumarın yolunda çəkdiyi cəfalar Xumarda ona qarşı məhəbbət oyatmışdır. Şeyx Sənan Xumarın eşqinə qoyulmuş yeddi şərtə əməl etmiş, ən ümdəsi isə xaç asmış, zünnar bağlamış, şərab içmiş, iki il donuz otlatmışdı. Şeyx Sənanın kəbəsi də, cənnəti də Xumar olmuşdur. O, Xumara öz dilində qaim olmağı da tövsiyə etmiş zorən onun müsəlman dinini qəbul etməsini istəməmişdir. Sənanla Xumarın arasındakı yaş həddi onların arasında mane ola bilməmişdir. Sənanla Xumarın arasında bir nəciblik, bir təmizlik, bir təmənnasızlıq olduğu kimi həm də bir ruhi inkişafdan doğulan uzaqgörənlik vardır.

Bununla belə onlar xoşbəxt ola bilmirlər. Belə bədbəxtliklər bu gün də xristian müsəlman ər-arvadların da arasında mütləqdir. Prof. P.Xəlilov "Əli və Nino" romanındakı problemlərdən danışarkən onu da qeyd etmişdir ki, "Əli və Nino"nun macərası onların evlənməsi ilə nəticələnsə də əsərin bütün məzmunu göstərir ki, Əlixan arzuladığı halal qadına rast gəlməmişdir. Nino bu səhra oğlunu (əcdadı çöllər köçərisi olmuş türkü) sevsə də, nəslin həyat tərzinə nifrət edir və bunu

açıq söyləyir (39.s.9).

Şeyx Sənanın Xumara olan məhəbbəti romantik, uzaqgörən, iki din arasındakı insanın insana olan məhəbbətidir. Bu faciədəki Zəhra, Əzra, Xumar, Nina da Xumarla eyni yaşdadırlar.

"Zəhra obyektiv olaraq Sənan tərəfindən rədd edildiyindən ağır düşüncələr nəticəsində xəstələnir. Onun aqibəti daha faciəli olur. Zəhra artıq həyati qüvvələrini itirmişdir. Indi o, Sənanı ancaq görmək xəyalı ilə tapmaq istəyir" (18.s.52). Qeyd etmək lazımdır ki, nəinki sevilən Xumar heç, Zəhra da, Əzra da, Nina da xoşbəxt deyillər. Içki düşkünü olan atasına görə monastr həyatını seçmiş Xumar Sənanın eşqiylə onun ardınca ölümə gedəndə xoşbəxtdir. Çox vaxt ailə qurmaq istəyən sevgililərin ailələri və qohumları arasındakı narazılıq onların şəxsi həyatına mənfi təsir edir, bəzən də ailənin dağılması ilə nəticələnir. Belə nifaqlar başqa millətlərlə evlənənlərin də ailəsində baş verir və bunun faciəsi daha geniş anlamda böyük narazılıqlara çevrilir. Sonu mütləq gənclərin ayrılması ilə nəticələnir. "Əsli və Kərəm", "Şeyx Sənan", "Bahadır və Sona" və b. yazılı abidələr belə hadisələrlə bağlı qələmə alınmışdır.

"Xəyyam" pyesində da yaş fərqi qəhrəmanlar arasında maneə deyildir. Xumarla Sevdanı, Məşədi Ibadla Gülnaza bənzətmək olmaz. Xəyyamla Sevda, Peyğəmbərlə Xədicə xanım arasındakı anılmaq xoşbəxtliyi zər ilə zərgər arasındakı həssaslığa, Məşədi Ibadla Gülnazın daha doğrusu Turxan bəylə Maralın arasındakı anlaşılmamazlığın ağrısı isə gül ilə tikana, xar ilə bülbülə bənzəyir. Sevda hələ Xəyyamı görməmiş onun şerlərini öz ruhuna həmdəm bilmiş və Xəyyamın məhəbbətini qazanmışdı. Sevda Xəyyamın səviyyəsinə qalxanda özünü xoşbəxt sanmışdır. Yetmiş yaşlı Xəyyam Sevdanı itirdikdən sonra da onu unuda bilməmiş bu eşqin fərağıyla canını təslim etmişdir. Xəyyamın yanına qızlar gələndə onun gözlərinə Sevdanın xəyalı görünür və Xəyyam Sevdanın ruhuyla danışır.

H. Cavidin əksər pyeslərində ruhlar canlı obrazlar kimi çıxış edirlər. Dünyasını dəyişmiş Sevda rəqqasələrlə birgə Xəyyama yaxınlaşıb rəqs edir, oxuyur.

70 yaşında da zövqə dalmağa can atan Xəyyam Sevdanın ruhuyla üz-üzə qalır. Sevda onu qısqanır, ittiham edir:

**Sevda**

*Vurğun sənə bir tazə gəlin, yosma gövərçin,*
*Sevdim səni, sevdim səni, lakin*
*Oxşarmı gəlin ruhunu ağ saçlı bu aşiq?*
*Bir xarə bu gül qönçə nə layiq?*
*(gedəcək olur)*
***Xəyyam sayıqlayır, Sevdanı geri çağırır.***

**Sevda**
(Xəyyama)

*Yalvarma, mənim gərdəyim, əfsus,*
*Çox dar və qaranlıq, mənə məxsus*
*Almaq dilərəm qoynuma, lakin*
*Issız və rütubətli səninçin (7.s.124)*
***(uzaqlaşır)***

**Xəyyam**
(sayıqlarkən)

**Sevda**
Birinci rəqqasə
(alayıcı gülüşlə)

*At üzdən ipək tülləri bir an*
*Olsun o gözlər gözlərə heyran*

**Sevda**
(Üzündəki duvağı atır, qorxunc skelet meydana çıxır).

*Bax, iştə mənim hüsni-camalım...*

**Xəyyam**
(həzin fəryad ilə)

*Dəhşət!..*

**Sevda**

*Səni ürkütdümü halım?*
*Keçmişdə xayır, böylə deyildim,*
*Bilsən nə gözəl, ah nə gözəldim...*
*Gözlər məni həsrətlə arardı*
*Hüsnümdə səhər cilvəsi vardı,*
*Birdən birə soldum da, dəyişdim,*
*Issız, əbədi heçliyə keçdim.*
***(alayıcı gülüşlə)***
*Çirkinliyim etdirməsin ikrah*
*Könlüm səni öpmək dilər...*
***(Yaxınlaşıb Xəyyamı öpər).***

**Birinci rəqqasə**

*Qısqandıq, aman busə nə busə...*

**Xəyyam**
(Oyanıb qalxır)

*Bu nə tale, o nə röya, nə xəyal?!*
*Onların taleyimi bunlar? Bu nə hal (7.s.126-127).*

"Şeyx Sənan" faciəsində Sənan özünə yer tapa bilməyəndə gözlərinə Xumar görünür. "Peyğəmbər" dramında Məhəmmədin gözünə Hira dağında mələk görünür. V. Şekspirin "Hamlet" əsərində Hamlet çətinliklərlə üzləşəndə atasının ruhu Hamletə həqiqəti pıçıldamağa müvəffəq olur. Mistika köməyə gəlir.

H. Cavid öz əsərlərini tarixi sənədlər əsasında yaradıb. Bununla belə bu tarixi dramlarda "Özlüyündə mistik məfhumlar kimi, teyflər və ruhlar kimi, zaman da gözə görünməzdir. Ərzin hərəkəti kimi biz zamanın da fırlanmasını görmürük. Lakin sənət bir sehrbaz kimi ən uzun zamanı, keçmişi belə bizə göstərir. Başqa sözlə, obrazlı desək, zamanın çöhrəsi yalnız sənətin güzgüsündə görünür, ayrı heç yerdə! Maraqlıdır; hətta zaman da öz əbədiyyətini sənətdə dərk edir. Tanrı görünə bilmək üçün təbiəti, insan tanrıya bənzəmək üçün sənəti kəşf edir" (51.s.12).

H. Cavidin "Şeyda" dramındakı Roza da "Maral" dramındakı Maral, "Şeyx Sənan" da Zəhra, Ərza, Nina, Xumar, "Afət"də Altunsaç, Alagöz, "Xəyyam"da Sevda, Vəfa, Səfa yaşındadır. Roza heç bir günahı olmaya olmaya mətbəədə şikəst olmuş Qara Musanın əliylə qətlə yetirilmiş, fəhlələrin acı məişətinin qurbanı olmuşdur.

H. Cavidin "Uçurum" dramındakı hadisələrdə qadınların yaşı, dünyagörüşü ilə bağlı daha maraqlı məqamlarla üzləşirik. Ömrünün gənclik mərhələsini yaşayan Gövərçin körpə uşaq anasıdır. Bəstəkar Gövərçin rəssam əri Cəlalın Fransaya getmək istəyinə qarşı çıxa bilmir. Bu yolda Gövərçinin qardaşı, atası da onun ziddinə gedərək Cəlalı uzaq səfərə yola salırlar.

Gövərçindən uzaqda olan Cəlal əxlaqsız qadın Anjelə rast

gələndən sonra onun fiziki cazibəsi ilə bir müddət özünü xoşbəxt sanıb, rəsm əsərləri yaratsa da, azacıq sonra Anjelin onun dostları tərəfindən əldən-ələ düşməsiylə bağlı sarsıntılar keçirir.

"Cənnət pərisi", "Xain Afət" adlandırılan Anjel öz məhəbbət oyunları ilə bir müddət Cəlalın diqqətini çəksə də, sonacan bu oyunları oynaya bilmir. Sonda Gövərçinə qayıdan Cəlal artıq ürəyi sınan, məhəbbəti çiliklənən Gövərçinə lazım deyildir. Artıq onların arasında uçurum yaranmışdır. Gövərçinin məhəbbəti çiliklənmişdir. Gövərçin xeyli vaxt xəyanətə xəyanətlə cavab vermir. Əvvəllər onun pərəstişkarı olmuş Əkrəm Gövərçinə yaxınlaşmaq istəyəndə Gövərçin Əkrəmi rədd edir.

Gövərçin nəinki əri Cəlal tərəfindən, hətta qardaşı Yıldırım, atası Uluğ bəy tərəfindən də anılmır. Heç kəs Cəlaldan sonra tək qalmış Gövərçini anlamaq istəmir. Evindən, ailəsindən uzaq düşən Cəlal təbii olaraq əxlaqsızlığa qurşanıb mənəvi cəhətdən məhv olur. Hürriyyətdən sonra əsarət altına düşən Anjel Cəlalı onun dostları ilə əvəz etməyə başlayır. Cəlalı ailəsinə qaytarmaq məqsədi ilə Anjelin əxlaqsızlığını isbata yetirən dostlardan və Anjeldən xəyanət görən Cəlal öz sarsıntıları ilə tək qalır.

H. Cavid iş birliyi xatirinə iş təcrübəsini artırmaq naminə ailəsini başsız qoyub Avropaya səyahət edən Cəlalı haqsız hesab edir: "Sənətkarlar həp mərizdir"-(5.s.211) qənaətiylə razılaşır.

Cəlal hər dəfə Anjellə keyfə qurşananda Gövərçinin xə-yalı onu izləməkdə davam edir. Cəlalın gözlərindəki dəhşətdən Anjel diksinir. Sevdalar arasında çırpınan Anjel artıq Cəlaldakı halı anlamağa başlayır. Rəqqasə Anjeli "şeytan ruhlu bir mələk", "lətif çiçək" adlandıran Cəlal iki hissin əlində çırpınıb qəhr olsa da Anjeldən birdəfəlik uzaqlaşmaq üçün özündə qüvvə tapmır.

Anjelin köhnə pərəstişkarı Edmon onu qarabaqara izlə-yir. Anjel barmaqlarındakı almaz qaşlı üzükləri bir-bir gös-tərib Edmona anladır ki, barmaqlarındakı üzüklər onun aldıqları deyil, onlar Cəlalın bağışladıqlarıdır.

Gövərçinlə Anjel təxminən eyni yaşlı gənclərdir.

Anjel asan yolla var dövlət qazanmaq arzusuyla özünü satan, qucaqdan-qucağa atılan zənginlərin ciblərini ovlayan gənc bir rəqqasədir. Onu Gövərçinlərin taleyi əsla narahat etmir. Köhnə pərəstişkarı Edmon hər yerdə Anjeli təqib edir, onu yeni pərəstişkarlarından ayırmaq üçün cəhd göstərir. Anjel Edmondan qaçmaq üçün özünə arxa-dayaq axtarır, əldən-ələ düşür. O, Edmondan qaçmaq xatirinə vətəni Fransanı da tərk etməyə məcbur olur. Anjel Cəlalla onun evinə, Gövərçinin yanına gələndə utanıb çəkinmir. Cəlalın qaynı Yıldırımla əxlaqsızlığa qurşananda da o, mənəviyyatsız insan formasında olan həşaratdır. Cəlal Gövərçini rəssam dostu Əkrəmə qısqanır. Şübhələr onu didib, dağıdır. Onların evində gah Əkrəmin, gah da Anjelin adı hallanmağa başlayır. Körpəsini itirdikdən sonra Cəlal "rəzil qadın" deyə Anjeli rədd edir. Sonda sarsılmış Gövərçin Əkrəmin qolları arasına düşür.

Anjelə maraq var, lakin ona etibar edən yoxdur. Anjel ona ehtiyacı olanların şəhvətini söndürmək üçün, Gövərçinlərin pak ruhuna ləkə salmaq üçün əldən-ələ düşüb, peşmançılıq yaradır, bədbəxtlik törədir.

Əkrəmlə Anjeli bir-birinə bağlayan ehtirasdır, hissiyyatdır. Bu tox hissləri onda tapan Edmon da, başqaları da özləri ilə Anjel arasında əlaqə yaratmağa, özlərini söndürməyə çalışmışlar.

Anjel üçün bir əvəzolunan məfhum vardır. O, bu duyğu ilə son həddə qədər getsə də yenə də bədbəxtdir. Bu bədbəxtlik onu öz içərisindən didir. Qeyd edək ki, Arif də elə bu hissi ilə Rənanı əvəz etdiyi üçün sonda qatil və rəzil olmuşdur.

Cavidin şah əsəri olan "Iblis" faciəsindəki Rəna və Xavər

ömrünün gənclik mərhələsini yaşayırlar.

Xavər passiv xarakteri olan sadə bir qızdır. Onu xeyirxahlıqlardan başqa heç nə düşündürmür. Xavər Arifi daha bariz hərəkətlərə sövq edə bilmir, onu yüksəkliklərə qaldırmağa qadir deyildir. Onunla Arifin arasında ancaq və ancaq təmas, qayğıkeşlik vardır. Xavərin əksinə Rəna gözü açıq, diribaş "qana-qan" deyən oğlan təbiətli bir qızdır. Rəna istər döyüş səhnələrini gəzərkən, istər Ibn Yəminə qoşulub gedərkən heç nədən heç kəsdən qorxmur. Onunla Arifin arasında dostluq, məhəbbət vardır. Rənanı Arifə sevdirən onun qoçaqlığı, gözəlliyi və qeyrət hissidir. Rəna öz məhəbbətini ata məhəbbətinə qurban vermişdir. Bu yolda onun məhəbbətini qazanmaq istəyən Ibn Yəminə də Arifə, Vasifə də eyni dərəcədə neytraldır. Rəna öz məqsədinə çatmaq üçün bu kişilərdən bir vasitə kimi istifadə etməyə can atmışdır vəssalam. Qardaş qatilində günahlandırılan Rənanın nə Xavərə xəyanət etmək, nə də Vasifi ələ gətirmək kimi çirkin niyyəti, çirkin hissləri yoxdur. Rəna müstəqil, məqsədə can atan, mənən mübariz, intiqampərəst qadın obrazıdır. O, atalıq borcuna sadiq, bu yolda "yoruldum" deməyən gənclik dövrünü yaşayan sağlam ruhlu bir qızdır. Bu səbəbdən də ağıllı və bütöv xarakterdir.

"O, (H. Cavid - N.Ə) çalışırdı ki, tamaşaçılar bir tərəfdən Arifin nəcibliyinə, xeyirxahlığına məhəbbət hissi alovlandırsın, bir tərəfdən də qardaş qatilinə nifrəti gücləndirsin. Bu çətin işin öhdəsindən aktyor bacarıqla gəlirdi. Lakin bu Hidayətzadənin ürəyindən deyildi. O, istəyirdi ki, Arif tam müsbət obraz olsun. Ona görə də bir dəfə bizə gələndə dedi: - Cavid Əfəndi! Axı, Arifin qardaş qatili olması məni heç açmır. Arif yaxşı adamdır. Sonra zəif təbiətli Arifin daxili aləminə pis əməllər min bir hiylə ilə yol tapır. Mənim zəhmətim hədər gedir. Mən tamaşaçıda Arifə qarşı məhəbbət hissi oyadıram. Sonra bütün qüvvəti qoyub, ona nifrət hissini alovlandırmağa çalışıram".

Görürsünüzmü, əvvəl mən böyük təbiətli adam olur, sonra lap kiçilirəm, deməк tamaşaçı da məni sevmir.

Cavid bu böyük aktyorun kədərini hiss edirdi. Ona görə də əlini çiyninə qoyub, bir az nəvazişlə dedi:- Ismayıl, (Ismayıl Hidayətzadə - N.Ə) özün bilirsən, ayın yarısında Ay böyük olur, yarısında isə kiçik. Ayın bir kiçik və ya böyük görünməsindən Ay heç zərər çəkmir. O, elə Aydır ki, Aydır. Milyon illər o göydə üzür və üzəcək də. Sən də eləsən. Hansı obrazda kiçilirsən, kiçil, böyüyürsən böyü, elə sənət səmasında böyük sənətkar kimi üzəcəksən ki, üzəcəksən (9.s.256).

"Afət" pyesindəki Afət kamil qadın obrazıdır. Afətlə əri arasında tam aydınlıq vardır. Özdəmir kifayət qədər ağıllı, həyat təcrübəsinə malik, xüsusi mövqeyi olan bir kişidir. Özdəmir həqiqətlə saxtanı ayırmağı bacarır. Afət onu özünə inandırmaqda acizdir. Qaratay Özdəmirə nisbətən cavandır. O, öz haqsızlığını dərk etdiyi üçün Afətin əliylə Özdəmiri zəhərləyib, öldürür. Afət sevdiyi adama hər şeyini səxavətlə qurban verib, əvəzində vəfa, sədaqət istəyir. Qaratay məqsədinə çatandan sonra Afətin bütün zəhmətlərinin, cəfalarının üstündən qara xətt çəkir. Ömrünün kamillik çağlarını yaşayan, eşq əlaqələrində təcrübəli olan Afətdən fərqli Ismət, Xumar, Altunsaç, Alagöz, Maral isə yalnız təcrübə yolu ilə öz sevgililərini öyrənmişlər. Buna görə də adları çəkilən qadınlara nisbətən Afət daha cəsarətlidir. Bu da onun kamilliyi ilə bağlıdır. Afət Qaratayı sevdiyi vaxtlarda onu yüksək tutur, uğrunda qurbanlar verir. Sevdiyi adamın əliylə çırpılıb, bədbəxt olanda isə o, özünü Qaratayın adiliyinə inandırır və öz əlaqələrinə qəti surətdə son qoyur.

H. Cavidin qadın qəhrəmanları ailə qurarkən öz daxili aləmlərinə xas məqsədlər güdmüşlər. Maral varlı olmaq üçün, Ismət özünə bərabər olanla sakit və halal güzaran havasıyla, Afət şəhvani şirinlik xətirinə və s.

Qeyd edək ki, dramlardakı cinayətlərin səbəbi də məhz

qadınlardakı zəif nüanslarla bağlı baş vermişdir.

Cavidin "Peyğəmbər" dramı romantik bir dramdır. Əsərin qəhrəmanı Məhəmməd çox böyük uzaqgörənliklə ayrı-ayrı icmaları, partiyaları vahid Allah ideyası uğrunda birləşdirərək islam dininin əsasını qoymuşdur.

Xədicə Məkkənin ən varlı qadını olmuşdur. Iki dəfə ərə getmiş, ərləri öldüyü üçün onlardan Xədicəyə çox böyük sərvət qalmışdı. Məhəmmədə peyğəmbərlik veriləcəyini əvvəlcədən Xədicə xanım öz əmisi oğlu Vərəqadan eşitmişdir. Odur ki, Xədicə xanımın Məhəmmədə əvvəlcədən marağı olmuş, onu öyrəndikcə sevmişdi. Məhəmmədlə Xədicənin altı uşağı olmuşdu. Şəmsa və b. qadınlar istər sağlığında, istərsə də ölümündən sonra Xədicə xanıma paxıllıq etmiş, ona həsəd aparmışlar. Məhəmməd övladı üçün çırpınan ananı, Xədicə xanımı daima sevmiş və onun xətrini uca tutmuşdur. Məhəmməd yalnız sevimli Xədicəsini itirdikdən sonra başqa qadınlarla evlənmişdir. Peyğəmbər Şəmsa kimi açıq-saçıq qadınları sevməmiş, onları "şeytan bir mələk" adlandırmışdır. Xədicə xanım ömrünün kamillik mərhələsində Məhəmmədlə ailə qurmuşdur. O, təsərrüfatını idarə edə bildiyi kimi ərinə də hərtərəfli qayğı göstərmiş, Məhəmmədin peyğəmbər səviyyəsinəcən ucalmasında böyük rolu olmuşdur.

Əsərdə haqqında bəhs edilən Şəmsa müğənnidir. Onun özünə olan böyük məhəbbəti elə onun özünü sarsıtmışdır. Min bir oyuna girən Şəmsa neyləsə də Məhəmmədin diqqətini qəti cəlb etməmiş, onu öz qəti və müqəddəs yolundan sapdıra bilməmişdir.

"Topal Teymur" dramı da "Peyğəmbər" dramı kimi tarixi əsərdir. Buradakı Dilşad xanım obrazı da Xədicə ana kimi ömrünün kamillik, ahıllıq mərhələsini yaşayan qadındır. Əmir Teymurla hərəmi Dilşad arasında vəfa, sədaqət, bir-birinə diqqət vardır. Saraydakı xəbərlərin əksəriyyəti Dilşad xanımın vasitəsi ilə Əmir Teymura çatdırılır. Töycü verməmiş bir

köylünü Mamay xan qırmancla döyüb öldürmüşdür. Bu barədə Dilşad xanım Əmir Teymura məlumat verib getmək istərkən:

"Teymur. Mənə bax, Dilşad! Daha dur, sözüm bitmədi. Səni çox sarsılmış və həyəcanlı görürəm. Unutma ki, sən Teymur hərəmisən. Söylə, açıq söylə, üz-gözünü saran bu fırtınalı buludlar nədən irəli gəlir? (6.s.103) - deyib, maraqlananda Dilşad xanım Almazla Orxanın arasında çırpınan Olqanın Almaza bəxş etdiyi narahatçılıqlar barəsində ərinə xəbər verir. Əmir Teymur bu münasibətlə Orxanı Yıldırım Bəyazidin yanına, sarayın iç və dış üzünü öyrənib, Əmir Teymura xəbər göndərməsi üçün bir casus kimi Bursaya iş dalısınca göndərir, baş vermiş narahatçılıqları aradan qaldırmaq istəyir.

Insanların hamısı ruhən 10-15 yaşlıdır. Onlar qocalana qədər də ruhən elə bu yaşda qalırlar. Zahirən dəyişən onların fiziki formalarıdır. Dilşad xanımda Əmir Teymur məhəbbətinə sədaqət, halallıq, düzlük və ləyaqət vardır. Əmir Teymurun Dilşad xanımın "ruhi aləminə psixoloji bələdliyi" bir-iki ayın, ilin yox, uzun və keşməkeşli illərin məhsuludur. Onlar ahıl vaxtlarında da biri digəri üçün ən gənc sevgililər kimi həssas və diqqətlidirlər.

"Topal Teymur" yer üzündə allahlıq iddiasında olan, "hərb allahı" missiyasını yerinə yetirən hökmdardır. Teymurun "dəliliyi" də, "yırtıcılığı" da qorxunc və təhlükəlidir. Məhz bu anlarında onun xanımı Dilşad Teymurun dərəcəsini aşağı salmağı bacarır. Qeyd edək ki, "Cahangir dahi", "hərb allahı", "sarsılmaz imperator"da məhz öz xanımı ilə dil tapanda xoşbəxt olur, işlərində harmoniya yaranır.

Turan dünyasında cahangirlik edən kişilər birinci növbədə öz qadınlarının qarşısında üzü ağ olmağa çalışırlar.

Orxan vəzir qızı olan Almasla ailə qurmuşdur. Almas anadır. Lakin Orxan onu yox, Moskva odlar içində yanarkən xilas etdiyi və özüylə Türküstana gətirdiyi prenses Olqanı sevir. Orxanı Olqaya bağlayan onun həssaslığı, zəifliyi və

gözəlliyidir. Olqa nə qədər incədirsə, Almas onun əksinə ər tinətlidir. Almas döyüş bölgələrini gəzəndə qorxu hissi duymadığı kimi Əmir Teymurun da qarşısında məğrurdur, ötkəmdir. Almasın igidliyi, döyüşkənliyi Əmir Teymura xoş gəlir. Orxan isə məhz bu səbəbdən Almasdan gen gəzir. Olqa vətənindən, dostlarından uzaqdadır. Bəlkə də bu səbəbdən acizdir, gücsüzdür. Eyni zamanda günahsızdır. Onun ürəyində Əmir Teymura, eyni zamanda Orxana qarşı da qorxu vardır. Olqanı Orxana sevdirən onun qadın zərifliyi və qadın zəifliyidir.

"Almas "Iştə!.. bütün fəlakətlərə səbəb bu aşüftə prinses, bu xain afətdir" - deyəndə (6.s.112).

Olqa. Rica edirəm. Almas, məni təhqir etmə! Mən də sənin kimi əsl bir ailəyə mənsubam. Həm də buraya öz ixtiyarımla gəlmədim, sevgili ərin gətirdi. Bu sözləri mənə söyləməkdənsə ona və Əmir Teymura söylə (6.s.113) -deyə öz günahsızlığını etiraf edir.

Olqa bəla girdabına Orxanın əliylə düşdüyü kimi Almasın təhqirlərindən də Orxanın əliylə qurtulmaq istəyir. Orxan Olqanı sevir. Onu Əmir Teymura qısqandığı üçün gizlincə özüylə Bursaya Yıldırım Bəyazidin sarayına aparır. Orxanın ürəyi Olqanın məhəbbətindən qüvvət alır.

"Knyaz" faciəsində Jasmenlə Knyazın arasındakı böyük yaş fərqi, Jasmenlə Anton arasındakı kasıblıq, Jasmenin bədbəxtliyidir. Məhəbbət əxlaqi prinsipdir. Onu insan halallıqla, zəhmətlə əldə etməlidir. Zəhmətdən, məhəbbətdən çox hazıra nazir Jasmendə Knyazın var dövlətindən istifadə etmə var.

Jasmen Knyazın qızı Lena ilə həmyaşıddır. Onu Knyaza bağlayan onun var dövlətidir. Knyazın var-dövləti oğurlandıqdan sonra Jasmen adi bir insan səviyyəsində də Knyazı saymır. Knyaz onun üçün adiləşir. Jasmen fiziki cəhətdən onu cəlb edən Antonla qaçmağa razılaşır.

Ictimai mühit dəyişən kimi Jasmenin də psixologiyası dəyişilir. O, hər yerdə öz şəxsi mənafeyini güdür.

Kişilərlə qadınların arasında intellektual səviyyə yüksək olanda onlar özlərini xoşbəxt hesab edir. Çox vaxt gənc qadınlar yaşlı kişilərin yetkinliyini, təcrübəsini, mövqeyini yüksək qiymətləndirirlər. Onların fikrincə yaşlı kişilər xudbin olmurlar qadının nazı ilə oynamağı bacarırlar, üstəlik onları maddi cəhətdən təmin edirlər. Belə bir qarşılıqlı izdivac Jasmenlə Knyaz arasında yoxdur. Jasmenin səsi Knyaza xoş gəldiyi üçün onunla evlənmişdir. Knyazın evində bö-yüyən, onun sərvəti ilə oxuyub mühəndis olan Anton isə hər sahədə Knyaza rəqib olmuş onun faciəsini, iztirabını alovlandırmışdır. Istər Knyaz, istərsə də Jasmenin həyatı keçid dövrünün burulğanlarına təsadüf etdiyi üçün onların taleyi daha acınacaqlı olmuşdur. Knyazla Jasmenin arasında qorxu, Jasmenlə Antonun arasında dünyəvi məhəbbət maraqları vardır. Qeyd etmək yerinə düşər ki, Jasmen də Knyaza görə bədbəxt olur. Onunla yaşıd olan Knyazın qızı Lena da atasının iztirablarına görə öz gəncliyini, həyatını qurban verir. Jasmen Knyazdan sonra Antona qovuşmaqla az-çox öz istəyinə nail olursa da Lena hər şeydən məhrum, öz yerini tapa bilməyən bir qız kimi çırpınır. Inqilabın baş verməsi çoxuna xoşbəxtlik gətirsə də knyazlara bədbəxtlik gətirmişdir. Knyazın sərvəti talan olmuş, özünü də hər dəqiqə antonlar hədələməkdədirlər. Öz taleyindən Berlinə qədər qaçan Knyaz burada da sosialistlərin əllərindən qaça bilməmiş, namusu tapdanmış, var-yoxu oğurlanmış, mənəvi səfilə çevrilmişdir. Bircə balası Lenanın da gəncliyi, uşaqlığı knyaz qızı olduğuna görə bədbəxtliklə nəticələnmişdir.

Knyazın günahı onun sərvətidir. Sərvətsiz Knyaz ən adi adamdır. Bu adilik Knyaz üçün şərəfsizlikdir, təhqirdir. Knyaz bu acı, bu amansız ağrılardan qaça bilmədiyi üçün içir. Bu da kömək etməyəndə dəli olur, əvvəl inqilabçıları sonra özünü

atəşləyir. Keçid dövründə knyazlar, lenalar, əldən-ələ düşən jasmenlər yüzlərlə, minlərlə idilər. Bu bəla tarixin faciəsi idi.

"Knyaz" faciəsi də minlərin, milyonların faciəsi kimi Cavidi düşündürmüşdür. Əfsuslar ki, keçid dövründə böyük Cavid də bu yolun yolçularına doğru-düzgün yol göstərməkdə aciz olmuşdur.

"Səyavuş" faciəsində Südabə yaşlı kişiyə Keykavusa ərə getməklə bir növ özü-özünü təhqir etmişdir. O, bu təhqiri nə özünə, nə də Keykavusa bağışlaya bilmədiyi üçün Səyavuşa meyl etmişdir. O, Səyavuşa olan ehtirası ilə qəlbinin ən dərin guşəsindəki kini, küdurəti yumaq istəsə də buna nail ola bilməmişdir. Südabənin Səyavuşa olan ehtirası cavabsız qalmış, o, cavabsız hisslərinə görə sarsılmışdır. Dramaturq "Səyavuş və Südabənin simasında yüksək əxlaqi keyfiyyətlərlə çirkin ehtirasları qarşılaşdırır və hər iki qəhrəmanın öz məqsədi yolunda ölümə hazır olduğunu göstərir (17.s.190)." Südabənin əxlaqa sığmayan hərəkətləri cəmiyyət tərəfindən rədd edilir. Onun hərəkətləri hər şeydən əvvəl onun şah əri qoca Keykavusa görədir. Keykavus yuvasında haqq ədalət yoxdur. Saray əxlaqsızlıq yuvasının mərkəzidir

**Pişxidmət**

(Qıza yaxınlaşır)

*Haqq və ədalətmi?!.. O, bir quş olsa,*
*Şahın sarayında yapamaz yuva(6.s.271)*

Keykavus Suriya kralının qızı Südabə ilə hakimiyyətini daha da qüvvətli etmək üçün evlənmişdir. O, Səyavuşun anasıyla da bu məqsədlə ailə qurmuşdur. Onun məhəbbəti hakimiyyətdir.

**Keykavus**

*Könül həp zövq alır tazə qönçədən*
*Unutma  ki, hər gün nazlı bir sona,*
*Yavru bir göyərçin qismətdir mana (6. s.269).*

Cariyələr bir qayda olaraq əvvəlcə Keykavusun sonra pişxidmətin əlinə düşür, sonra sarayda vəzifə istəyənlərə ərə verilib "ört-basdır" edilirlər. Südabə özü də saray mühitində formalaşmışdı. O elə saraya uyğun da hərəkət etmişdir. Südabədən fərqli Səyavuş anasını itirdikdən sonra saraydan uzaqlaşmış və cəmiyyət tərbiyəsi almışdır.

**Səyavuş**

*Cocuqlurdan bəri alışdım göyə,*
*Zal oğlu Rüstəmdən aldım tərbiyə*
*Dağlarda yaşadım, Ceyran ovladım,*
*Böylə şənliklərə mənus olmadım*
*Anam ölmüşsə də, bu gün sən mənə*
*Ikinci anasan isindim sənə (6.s.262)*

**Südabə**

*Deyil ana, sən yalnız*
*Mənə Südabə söylə!*
*Unutma, bir yaşdayız,*
*Eş kimiyiz səninlə*
*(bir daha öpmək istər)*

**Səyavuş**

(geri çəkilir)

*Burax!.. (6.s.262-263)*

Səyavuş da saray oğludur. O da Keykavus və s. b. kişilər kimi

başqa qadınlarla gün keçirməkdən uzaqda qalmamışdır. Sadəcə "ana" hesab etdiyi Südabənin ehtirasından ikrah etmişdir. Bu barədə isə özü sevgilisi Firəngizə etiraf etmişdir:

**Səyavuş**

(gözləri ilə onu izlər, həyəcan içində)
*Mən uymadım hər dilbərin kamına,*
*Uğradım çoxunun intiqamına (6.s.317)* .

Qadın məkri, qadın qısqanclığı, hikkə, vulkan püskürməsidir. Südabə öz məqsədinə çatmaq üçün bütün qüvvələrini səfərbərliyə alır. "O, saray əxlaqına, hakim sinfin psixolo-giyasına bələd olduğundan, düzəltdiyi saxta məktublarla Səyavuşun hakimiyyəti ələ almaq istədiyini yazır, bununla da onun məhv edilməsinə nail olur" (17.s.190). Cəsarətlə deyə bilərik ki, Südabə bəzi keyfiyyətləri ilə gözəlliyi, qoçaqlığı və bacarığı ilə qismən də olsa "Karmen"ə (57) bənzəyir. Südabə gənc olsa da saray tərbiyəsi almışdır. O, haqqında bəhs etdiyimiz digər qadınlardan bir də ona görə çox fərqlənir ki, onun mövqeyi, səlahiyyətləri genişdir. Elə bu səbəbdən də o, Səyavuşun vüsalına yetməsə də onu nakam edə bilir, sevgilisi Firəngizə və ona güclü zərbələr endirməklə Səyavuşun qatilinə çevrilir, qalib gəlir. Səyavuş öləndə də öz kişi ləyaqətini qoruyur, xain qadın ehtirasına görə ata adını üstün tutur və bütün varlığı ilə sarayın iç üzünü, xaqanların çirkin əməllərini əməkçi xalq qarşısında ifşa edir.

Südabə qorxu bilməz bacarıqlı qadın olduğu kimi həm də bədbəxt qadındır. Əvvəla o, Keykavusdan vəfa, sədaqət görmür. Ikincisi şah qızı, şah arvadı olduğu üçün sevişmək üçün ona tay kişi yoxdur. Bu səbəbdən də sonuncu variant olan Səyavuş tərəfindən də qəti rədd edildiyi üçün şahanə xanım kimi rüsvay olmuş və sarsılmışdır. Sadalanan səbəblərə görə Südabə dişi canavara çevrilmiş onun məkri, sönmək bilməyən

qadın ehtirası Səyavuşun məhvinə qərar vermişdir.

Firəngiz də şah qızıdır. Firəngizin Səyavuşla tanışlığı təbii yolla baş vermişdir. Firəngiz də sevdiyi adama rast gəlsə də saray mühitində xoşbəxt olmur. Firəngizin və Səyavuşun bir-birlərinə olan məhəbbətləri saray intriqalarının qurbanına çevrilir. Firəngizin təmizliyi, gəncliyi, təkliyi-mövqeyi onun faciəsinə səbəb olur. Şah atası ilə onun əmisinin arasındakı anlaşılmazlıqlar, çəkişmələr Səyavuşla Firəngizin saf məhəbbətlərinin qəniminə çevrilir. Beləliklə qəti demək olar ki, H. Cavid dramaturgiyasında qadınların hərəsi bir cür bədbəxtdir. Onların arasında xoşbəxt olanı yoxdur.

H. Cavidin "Xəyyam" pyesi Əbülqasim Firdovsinin "Şahnamə"si əsasında yazılmışdır. H. Cavid o biri dramlarında olduğu kimi "Xəyyam" pyesində də Xəyyam obrazı ilə əsasən özünün dünyaya olan baxışlarını əks etdirmişdir. Xəyyama görə isə cənnət də cəhənnəm də bu dünyadadır, qəbul edilmiş əxlaq normaları insan üçün orta həddir.

"Xəyyam" pyesindəki Xəyyam tarixi şəxsiyyətdir. Tarixə görə isə Ömər Xəyyam qəmgin, sərt və qapalı bir şəxs olmuşdur. "Xəyyama həsr olunmuş külli miqdarda ədəbiyyatda Xəyyamı gah materialist, gah mömin müsəlman, gah rasionalist, gah ateist, gah da islamiyyətçi adlandırırlar. Mürəkkəb, ziddiyyətli insanın- xaliqin yaxasından münasib bir yarlıq asmaqdan asan nə var ki! Axı ən mürəkkəb və anlaşılmaz yarlıq sadə insanın özündən belə pisdir. Xəyyam özü haqda yazmışdır: "Mən mənəm. Özünüz üçün istədiyiniz kimi çərənləyin. Mən Xəyyam olaraq qalacağam. Həqiqətən beləyəm!" Xəyyam orta sufi idi. O, daxili mənəvi azadlığı hər şeydən üstün tuturdu. Həqiqi sufi şəriət, təriqət, mərifət (idrak) və həqiqət yollarından keçməklə allaha qovuşa bilər" (68.s.241).

Sufi üçün Allahdan başqa mövcudat olmamalıdır. Sufilər şəriət qaydalarına riayət etməyi mənəvi kamilləşmə yollarında

mühüm vasitə hesab edirdilər. Qəzali, Rumi, Bağdadi, Bəyazid, Bustani, Ədhəm, Bəlxi, Əbu Səid Meyhenli bu qəbil sufilərdəndirlər. A. Masse yazırdı: "Sufizm kəlamın məhdudlaşdığı dini üfüqlərin genişliyini bərpa etdi. O, hiss edilmədən ilahiyyət elmini aradan qaldırdı və onun yerinə intusiyanı qoydu"(68.s.274). Sufi hər hansı insana bağlanmamalıdır. Lakin Xəyyam bağlanır. O da Şeyx Sənan kimi qadına vurulur və öz cənnətini də, öz cəhənnəmini də bu qadında görür. Nəticədə daha yüksək olana - Tanrıya qovuşur.

"Natiqlər və samitlər yer üzünə insanları xilas etmək üçün gəlmişlər. Xilasolma isə kamil biliyin əldə etdiyi nailiyyətdir; cənnət bu kamillik vəziyyətinin alleqoriyasıdır. Cəhənnəm də həmçinin tam avamlıq vəziyyətinin alleqorii-yasıdır..." (68.s.274).

Sevda xaqan qızıdır. O, şerin xüsusən də Xəyyam şerinin vurğunudur. Xəyyamı görmək, falına baxdırmaq üçün gələn Sevda onunla cadugər Həsən Sabbahı qarışıq salır. Tarixdəki Həsən Sabbah da qatı dindar, naxışbasan olmuşdur. "Peyğəmbər" pyesində qara camaat Məhəmmədi ələ salır, "Şeyx Sənan" da Şeyx Sənan təhqir olunur, "Xəy-yam"da eyni üsulla nücum elmindən xəbərdar olan Xəy-yam cəmiyyətdə oyuncağa çevrilir.

**Ikinci satıcı**

*"(Xəyyamın omuzunu oxşayaraq əylənir)*
*Söylə bir göydəki yıldızlardan*
*Süzülən qızlardan...*

**Üçüncü satıcı**

*Yeri almış bir öküz buynuzuna*
*heç inandınmı ona?*

**Çölməkçi usta**

*Yüksəlib arxadaşın Xacə Nizam,*
*Buldu parlaqca məqam,*
*Oldu Alp Arslana ən şanlı vəzir*
*Sən nədən böylə fəqir?" (7.s.30) .*

Bu arada seyrə çıxmış saray qızlarının arasında Səbbah Sevdanı görüb, həyəcanlanır.

**Səbbah**
(Təlaşla)

*Iştə, Sevda... məni birdən tanısa*
*Qızaraq verdirər əlbətdə cəza(7.s.33).*

Onu da qeyd edək ki, "Xəyyam" pyesindəki mahnılardakı şikayətlər, həsrətlər, qəhrəmanlar əsərdəki qəhrəmanların vətənpərvərliyini açıqlayır, psixologizmi gücləndirir, qəhrəmanları həqiqətə doğru düzgün istiqamətləndirir.

"Peyğəmbər" pyesində Məhəmməd qara qulların çiynindəki təxti-rəvanda gedən rəisin arvadına etiraz edir. "Xəyyam" pyesində qızlar Sevdanın ayaqları altına gül-çiçək səpəndə Xəyyam etiraz edir.

**Xəyyam**

*Bu gözəl yosmaların çeynədiyi*
*Hər çiçək bir gözəlin göz bəbəyi...(7.s.33).*

Sevda münəccim, filosof Xəyyamı tanıyır. Qızlar onu Xəyyamdan uzaqlaşdırırlar. Xacə Nizam öz qulamları ilə gəlib, Sabbahın əlini sıxır. Sabbah kənarda dayanmış Xəyyamı Xacə Nizama təqdim edir. Üçüncü pərdədə Xacə Nizam Xəyyamdan

nə istədiyini soruşur. Xəyyam yaşamaq üçün bir bağça, bir də əkin-tikin üçün bir parça torpaq istəyir. Alp Arslanın məclisində Sevda şərqi oxuyur, Alp Arslan həyəcanlanır. Sevdadan da ondan nə istədiyini soruşur.

**Sevda**

*(Xəyyamı göstərir)*
*Şən könlünü şair mənə versin*

**Alp Arslan**

*Sevdanı dilərdim, gedə Bağdada hədiyyə*
*Qismət bu imiş, oldu böyük şairə töhfə (7.s.48).*

"Xəyyam" pyesində cəllad ata ilə onun oğlu Yusifin üz-üzə qoyulması da maraqlı səhnədir. Cəllad ataya Alp Arslan əmr edir ki, oğlu Yusifi öldürsün. Ata bundan imtina edəndə cəlladın ölümünə əmr verilir. Oğul-Yusif qoynunda gizlətdiyi xəncərlə Alp Arslanı yaralayıb, öldürür. Yusif özü də saray əhli tərəfindən öldürülür. Xacə Nizam Alp Arslanın öldürülməsində Sabbahla Yusifi əlbir hesab edir. Sabbah Xəyyamla Sevdaya sığınıb, kömək istəyir.

Çiçəkli bağça işıqlandırılmışdı. Xacə Nizamla Məlikşah Xəyyamla söhbət edir. Sevda oxuyur... Sevdada azadlıq, səadət eşqi ilə çırpınan bir qəlb var. Sevda ruhən azad qəlb ilə oxuyur... Saqiyyə şərbət gətirir. Səbbah Xacə Nizamın qədəhinə zəhər qatır. Xacə Nizam qədəhindəki şərabı buzlu olduğu üçün içmək istəmir. Sevda bilmədən öz qədəhi ilə onunkunu dəyişib içir və ölür. Sevdanın ölümü təbiətdə baş verən zəlzələ ilə eyni vaxta təsadüf edir.

H. Cavidin ən çal-çağırlı əsəri "Xəyyam"dır. Sözü gedən əsərlərdə bu qədər şirinlik, məhəbbət, şeriyyət, musiqi azdır.

"Xəyyam" pyesi başdan-başa məhəbbətli nəğmələrdir. Sevdanın gəlişiylə Xəyyamın həyatında hər şey dəyişmişdir. Qoca Xəyyamın intellektual yüksəkliyi ilə Xaqan qızı gənc Sevdanın arasındakı ruhi yaxınlıq, Sevdanın gəncliyi, gözəlliyi birləşib toy-büsat əhvalı yaratmışdır. Sevdanı eyni zamanda Səfanı və Vəfanı itirən Xəyyam ağır itkidən sarsılır və xəstələnir. Sevdalı günlərini unuda bilməyən Xəyyam ölərkən də mollaya yox, xanəndələrə qulaq asa-asa can verir. Böhranlı vaxtlarında Xəyyamın gözlərinə Sevdanın ruhu görünür. Xəyyam da Şeyx Sənan kimi erkən itirdiyi sev-gilisinə, nakamına, doymadığı "heykəli Sevda"sına, "gülnihal"ına ağı deyib, fəryad edir. Sevdanın dəfnindən sonra isə onun ruhu his-siyyat içində olan Xəyyamın gözlərinə görünür. Və bu səhnələrdəki incə deyimlər, zəriflikIər ruhu qidalandırır, birbaşa ürəyə axır. Xəyyam zahirdə öz Sevdasına qovuşub, həzz alır. Şeyx Sənan daxildə Xumara qovuşur, həzz alır. Sevən öz sevgisi ilə hiss və duyğularını inamlı edir, onun həzzi daha yüksək həddə yüksəlib, daha yüksəyə Tanrıya qovuşur. "Xəyyam" həyat sevgisini, yaşamaq eşqini dünyəvi məhəbbəti tərənnüm edən xalis məsud məhəbbət əsəridir.

Sayca H. Cavidin altıncı dram əsəri olan "Şeyda" pyesində Maks Müllerin qızı Roza məktəblidir. Qolunu itirib, "tək qolla heç kəsə yaramayan" Musa onun şikəstliyinə səbəb olanları Məcid Əfəndi ilə Əşrəfi vurub öldürür. Güllə Əşrəflə Musanın arasında duran Rozaya dəyir. Roza anası Mariyanın qolları üstə düşür. Bura qədər isə həm Şeyda, həm də Məcid Əfəndinin oğlu Əşrəf Rozanı sevir indi isə ölmüş Rozanın xəyalı Şeydanı çağırır. Şeyda Rozanın xəyalının ardınca-qara geyimli mələyin dalısınca-gedib, ömrünü başa vurur. Hadisələr nağıllarda olduğu kimi yel kimi, sel kimi yox, öz təbii axarı ilə gedir. Buradakı əlvan hisslər, mühakimələr bədbəxt olanın duyğularındakıları gerçəkləşdirir.

H. Cavidin müraciət etdiyi mövzular həm tarixi nöqteyi-

nəzərdən, həm də müasirlik baxımından həmişə yenidir, köhnəlməyəndir. Cavid heç vaxt dəyişdirilən quruluşlara, lənətlənmiş zəmanəyə uymamış və ən əsası da budur ki, zəmanəsindən, bir birini əvəz edən quruluşlardan qorxmamış və insana, onun düşdüyü psixi vəziyyətlərə açıq gözlə baxmış onu insan kimi öyrənməyə çalışmışdı. Cavid şəxsiyyəti etibarı ilə bütöv olduğu üçün o, bu insanı da bütövlükdə dərk etməyə səy göstərmişdir.

"Mişkinaz, insan nə qədər mürəkkəb məxluqdur. Doğrudan da hərənin öz dünyası, öz aləmi var. Yazıçılığın ən çətin cəhəti odur ki, hər bir insanın özünəməxsus aləmini doğru-düzgün öyrənsin, əks təqdirdə obraz kamil olmaz, saxta, cansız çıxar, oxucunu inandırmaz. Teatr sənətinin böyük hikmətinə o drama-turq yiyələnə bilir ki, o, insanın daxili aləmini yaxşı bilir və üstəlik də ona bu və ya başqa obrazı yaradarkən uyğun keyfiyyətlər, daxili aləm verir. Bir sözlə axı deyəsən yazıçı in-san yaradır. Bəli, lap ağıllı-başlı insan"(9.s.249). Onu da qeyd eləmək lazımdır ki, insanı Allah yaradır. Allah insana həyatda can verir. Yazıçı insanın dünyaya səpələnmiş hisslərini, duyğularını, hərəkətlərini söz-söz yığıb, canlı insan obrazı yaradır. Yazıçı sənətdə insana nəfəs verir. Və bu insanın ömrü çox vaxt Allahın yaratdığı insan ömründən uzun olur. Bu məqsədlə Cavid ən çox tarixi və fəlsəfi kitabları oxuyarmış.

H. Cavid yaradıcılığını onun tənqidçilərindən ayrı düşünmək mümkünsüz bir işdir. Cavidin əksər tənqidçiləri, tədqiqatçıları bu xüsusda az-yaxud çox dərəcədə fikir söyləmişlər. Bunların içərisində xüsusi çalışan Rəfiq Zəka Xəndandır. Onun "Cavid sənəti" adlandırdığı kitabda Cavid az qala Əbdülhəqq Həmidin adicə təqlidçisidir. Bu kitabı oxuyan hər bir Cavidsevər istər-istəməz bu "həqiqət axtaran" müəllifə qarşı özündə ikrah hissi duyur. Qeyd eləmək vacibdir ki, söz göydən düşüb və yerdən göyəcən müxtəlif formalarda, müxtəlif deyimlərlə uzana bilər. Bir fikrə milyonlarla adam şərik ola

bilər və həmin fikri hər kəs özünəməxsus sözlərlə ifadə edər. Burada heç bir qəbahət yoxdur. Rəfiq Zəka Xəndan isə bu adiliklərə xüsusi don geyindirərək Cavid sənətinə şübhəylə yanaşır. Əlbətdə bu baxışı qəbul etmək olmaz. Üstəlik burada təəccüblü heç nə yoxdur. Bu da Cavidin taleyidir... Onun səviyyəsinə çatmağa qadir olmayan hər kəs ona daş atmaqla öz "zirvəsini"n qəti təsdiqinə çalışır. Bu xüsusda fikrimizi bildirməklə onu da deyir ki, bu kitab qərəzlə, məqsədlə yazılmış növbəti tənqiddən başqa özgə şey deyildir. Bu iradlar ən əvvəl öz müəllifinə qarşı ikrar hissi oyadır. Fikrimizi əyaniləşdirmək üçün Rəfiq Zəka Xəndanın 84 səhifəlik kitabından bir nümunə gətiririk.

"Zeynəb" pyesində Abbasın gözünə Zeynəbin xəyalı göründüyü kimi, "Şeyx Sənan" da da Xumar Şeyxin gözünə görünür. Həmin əsərdə şeyx Əbdülüla üçüncü pərdənin sonunda deyir:

*Bir həqiqətdir, iştə gözsüzlər*
*Kor olur, nuri – həqqi görməzlər...*

Hamidin "Elxan" əsərində Hafiz Şirazi eyni fikri söyləyir:

*"Sizlər kor ikən, bir günəş olsamda nə hasil?*
*Olmazsınız, əlbəttə ki, bir məqsədə vasil".*
*(41.s.11) və s.*

Insanlar bir-birinə oxşadığı kimi, onların talelərində də, yaratdıqlarında da oxşarlıqlar vardır. Rəfiq Zəka Xəndan isə az qala H. Cavidi Mirzə Şəfinin şerlərini öz adına çıxan Bodenştet kimi qaralayır.

Bunlar yol verilməzdir. Sovet hakimiyyəti illərində Cavid "qapalı dissident" kimi şübhə altına alınmışdı. Buna da səbəb Cavidin şəxsiyyətcə böyüklüyü, Türkiyədə təhsil alması və yazdıqlarında türkləşmə ilə bağlı siyasi motivlərin

aşkarlanması idi. "Cavid Azərbaycan sənətkarı olmaqla bərabər, dünya qarşısında böyük bir regionun-Yaxın və Orta Şərqin təmsilçisi idi. Bu xalqların tarixini, psixologiyasını, ruhunu, fəlsəfəsini ifadə edirdi" (36.s.360).

Yeri gəlmişkən onu da qeyd edək ki, H. Cavidin yazdığı faciələr də onun öz millətinin və bu millətin timsalında dövrün, zamanın faciəsi idi.

Biz bu faciələri – relsdən çıxmaqla mənəvi iztirabla müşayət edilən vaxtsız qocalmanı, sarsıntını represiyaya qədər də, ondan sonra da Cavidin ailəsi ilə birbaşa olduğunu əlaqələndirmirik.

Cavidin əsərlərindəki "Din birliyi" ideyasını, "Şeyx Sənan"da Sən"an həyata keçirirdi. "Peyğəmbər"in fəaliyyətində, proqramında bütün ərəblərin birləşməsi var idi. "Topal Teymur"da bütün türk dövlətlərini birləşdirmək arzusu yaşayırdı. Təkcə bu ideyalara görə Cavid represiyaya-cəzaya məruz qalmış, qurbana çevrilmişdir. Bundan əlavə isə onu gözdən salmaq lazım idi.

1. "Dövri mətbuatda və yığıncaqlarda tənqid,
2. Ədəbi məhkəmələrdə gözdən salmaq;
3. Təhlükəsizlik orqanları tərəfindən həbs"(52.s.26).

Cavid həbs olunandan sonra da bu ənənə davam etdirilirdi.

Millətçilər adına dedi böyük sənətkar,
Gəlin düz araşdıraq sənin sənətinmi var?
O murdar arzuların torpaqlara kömüldü
Sənin yaratdıqların özündən əvvəl öldü.

***S.Vurğun***

"22-ci ilin 5 iyununda C. Cabbarlı "Zəhmət" qəzetində "Uçurum"un səhnəyə gəlməsi münasibəti ilə çap etdirdiyi

(Qısqanclıqdan azad olmayan) məqaləsində əsəri zəif sayır, Cavidin gərəksə "Iblis", gərəksə "Afət" yaxud «Şeyx Sənan» faciələrinin xəllaqinə yaraşmayan əsər olmadığını" iddia edib Cavidə ədəbiyyatımızda "parlaq bir mövqe tutması üçün fəqət bir şair olub qalmağı" tövsiyyə edirsə, ertəsi gün "Kommunist"də Seyid Hüseynin məqaləsi çıxır, bütün bu müddəalar rədd edilir. Cavid göylərə qaldırılır"(36.s.305)˙ Məxsusi sifarişlə meydana atılanlarla onların havadarlarının əlində qalan Cavidin yazmaqdan özgə yolu yox idi. Cavid də yazırdı...

Yeri gəlmişkən ən maraqlısı da budur ki, əməlləri ilə əxlaqa və cəmiyyətə zidd gedənlər, cəmiyyətdə avariya vəziyyəti yaradanlar (Cavid öz əsərlərində məhz belələrinə qarşı idi) məxsusi Cavidə olan sevgisi ilə tanınmağa çalışıblar...

H. Cavid bu və ya digər səbəbdən həyatda, məhəbbətdə, relsdən çıxanların bədbəxtliyini onların daxillərindəki hər hansı ac iştahları ilə əlaqələndirib. Özü də ictimayətin iştirakı ilə nəfs imtahanından əla alıb. O, digər represiya qurbanlarından-bir-birini satan, bir-birinin güdazına gedən tənqidçi həmkarlarından fərqli olaraq düşmən tərəfindən güllələnməyib. H.Cavid öz əcəli ilə ürək çatışmamasından türmədə dünyasını dəyişib.

Filologiya elmləri doktoru R. Hüseynov Cavidlə bağlı yazdığı "Vaxtdan uca" əsərində öz fantaziyasına, xəyallarına rəğmən Cavidin əsərlərindəki hadisələri bir-biri ilə əlaqələndirərək Cavid barəsində yazılmış əsərləri, məqalələri, söhbət və xatirələri, dramlardakı bəzi məqamları qarşılıqlı şəkildə əlaqələndirərək yazıb toplamışdır.

Insafən deyək ki, bu müşahidələr özü də çox canıyananlıqla toplanmışdır. Həmin əsərdə represiyadan sonra Cavidin ailəsindəki sıxıntılar, əzablar, üzüntülər könül dağlaya-dağlaya oxucuya təqdim olunur. Bu əlbəttə ki müəllifin Cavidə yanqusundan irəli gəlir.

Bizim iradımız R. Hüseynovun həmin əsərdə hər şeyi

"əyintisiz" sözünədir.

Əsərdə müəllifin bir "imza" xətası var, biz də yeri gəlmişkən o xətaya aydınlıq gətirməyi lazım bildik. Ən azı ona görə ki, bu gün yazılan əsərlər daha çox gələcəkli oxucular üçün yazılmışdır. Onları aldadıb çaşdırmamaq hər kəsin və hər birimizin borcudur.

1981-ci ildə H. Cavidin nəşi prezident H. Əliyevin qərarı ilə onun sürgün olunduğu son məkandan Irkutskidən Bakıya gətirilib. Bu barədə "Ulduz" jurnalının 1987-ci ildəki səkkizinci nömrəsində Sirusun təqdimatı ilə "Işığa doğru" (səh. 29-33) adlı məqalə ilə Həmid Qaraoğlu çıxış edib. Məqalənin sonunda Naxçıvan – Irkutski – Payşet – Şevçenko – Bakı 1982 tarixi də qeyd olunub.

R. Hüseynov bu diqqətə dəyən, onun öz əsəri olan "Vaxtan uca"nın özünü də dəyərli edən "Işığa doğru" adlı məqaləni əvvəldən sonacan öz əsərində yeri gələ-gələ köçürdür.

Başqa məqalələr kimi sonda müəllif Həmid Qaraoğlunun adını bir dəfə də olsa xatırlatmadan həmin məqalədəki imzanın yerinə iri hərflərlə "Tarix" sözünü yazıb. Bu doğru deyil. Qeyd edək ki, həmin məqalənin müəllifi partiya işçisi Həmid Qaraoğludur (73.s.29.30.31).

Yazıçı Ələviyyə Babayeva həmin represiya günlərini xatırlayaraq televiziyada danışırdı ki, yığıncaqların birində Cavidi gözdən saldılar və özünə haqq qazandırsın deyə sözü ona verdilər. Cavid çəliyini yerə döyə-döyə onu əhatə edənlərə mənalı-mənalı baxdı və bir söz demədən getdi.

Cavid səviyyəsinə qalxa bilməmək həmkarlarına fürsət vermişdi ki, onu məhv eləsinlər. Onlara elə gəlirdi ki, Cavid olmasa onlar görünəcəklər. Bu, doğrudan da belə oldu. Ancaq çox qısa zaman ərzində. Tarixi baxımdan bu qısa zaman da gözlənilmədən Cavidin bütövlüyünü, böyüklüyünü təsdiq etdi.

Cavid təkcə tənqidçiləri tərəfindən, onu şübhə altında saxlayan həmkarları, dostları tərəfindən incidilmirdi.

"Nəzəriyyə aləmindəki hərc-mərclik, saxta sosioloji tənqid o vaxt qılıncının dalı da, qabağı da kəsən "proletkultçuluq" və "proletkültçular" Cavidin əsərlərinin səhnədən sıxışdırılıb çıxarılmasında az iş görmürdü. Haqqında danışdığım illərdə (20-30-cu illərdə N.Ə.) oynanılan ancaq "Knyaz" faciəsi idi ki, onun da səhnə həyatı uzun sürmədi. Bir də "Şeyx Sənan" gah oynanır, gah da saxlanılırdı və hər dəfə müəllifin istəmədiyi bir təshihə, bir islaha məruz qalırdı"(61.s.7).

Hüseyn Cavid 1899-1903-cü illərdə Cənubi Azərbaycanda olmuş, Təbrizin Talibiyyə mədrəsəsində təhsilini davam etdirmişdir. Istanbul Universitetinin Ədəbiyyat fakültəsini müvəffəqiyyətlə bitirmişdir (1905-1909). Naxçıvanda, Gəncədə, Tiflisdə 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir.

1926-cı ildə Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən aprel ayının 10-dan oktyabr ayının 1-nə qədər Berlin və Parisə göndərilmişdir (Gözlərini müalicə etdirmək üçün). "Knyaz" faciəsi də məhz bu zamanlarda yazılmışdır.

Professor Mehdi Məmmədov elə oradaca yazırdı ki, həmin illərdə Cavid dərin hörmətlə, atəşin məhəbbətlə sevilir ona qarşı irəli sürülən bir sıra tənqidi fikirlər, haqsız hücumlar qəzəb oyadırdı. Cavid pərəstişkarlarının sayını artırırdı.

Cavidin əsərlərindəki zənginliklərin, möhtəşəmliklərin, yüksək dramatizmin, poeziyanın əksinə Cavid kasıb bir həyatın içində başqalarının qayğılarından seçilməyən məişət qayğıları ilə yaşayırdı.

Tələbələrinin yaddaşında zarafatcıl, şən, şux söhbətləri ilə doğma, kasıb tələbələrinə hazırlıqsız olsalar belə təqaüd xatirinə güzəştə gedən Cavidin zəngin təbiətindəki iddiasızlıq ətrafdakıları onu ondakı fərqli əlamətlərlə öyrənməyə, maraqlı şəxsiyyət kimi ona ehtirama çağırırdı.

H. Cavid L.Tolstoyu, Nitşeni, Namiq Kamalı, Dostoyevskini, Puşkini öyrənir və sevirdi. Cavid son dərəcə

enerjili şəxsiyyət idi. O, öz enerjisini xalqın xoşbəxtliyi naminə cilovlamağı bacaran mərd, məğrur bu yolda opponentləri ilə döyüşən və məqsədinə qalib bir şəxsiyyət idi.

"Sovet cəmiyyətində hər şey yüksəkdir" prinsipi ilə Cavidi incidirdilər. Onu tənqid etməyə yox, vəsf etməyə çağırırdılar. Caviddən tələb edirdilər ki, "Şeyx Sənan" yeni quruluşda tamaşaçılara göstəriləndə əsərin sonunda qəhrəmanlar ölməsin, qaçıb qurtarsınlar. Aydındır ki, belə sonluqla faciə faciəlikdən çıxıb, heç nəyə dönərdi. Belə vaxtlarda Cavid Əfəndi nadanlar-la bəhsə, çəkişməyə məruz qalırdı" (61.s.84).

Məhəbbət əsərlərindəki qəhrəmanların uğursuz taleyi-seçimi əsərin adındakı düyündən başlanır. Bu düyün dinlər arasında olanda isə düyün həyatda, tarixdə həll olunmadığı üçün sonda da düyün olaraq qalır, faciəyə çevrilir.

Qarı düşmən dost olmaz! Elə bu səbəbə görə də Şeyx Sənanla Xumar sonda xoşbəxt olub vüsala yetişmirlər. Sovet dövründə isə professor rejissor M. Məmmədovun şahidliyi ilə elə bu mümkünsüzlüyü zorla qanuna salmaq, qardaşlaşdırmaq istəsələr də qarı düşmən, öz düşmənliyində qalmışdı. Cavidi incidən də bu qonşuluqdakı düşmənçiliklər, faciələr, mümkünsüzlüklər idi. Bu səbəbdən də şeyx sənanlar, əsli və kərəmlər, bahadurlar nəinki XX əsrdə eləcə də keçmiş və gələcək əsrlərdə də bu ağrını yaşamağa məruzdurlar. Cavidin əsərlərində tərki dünyalıqdan çox mübarizə vardır. Onun irtica illərinə baxışlarında da sönməz işıq zərrələri vardır. H. Cavid xristian-müsəlman məsələlərinə də ən mübariz yazıçı kimi çatılmışdı. Cavid həmişə, ancaq sülhə çağırırdı, bu yolda qadınlara güvənirdi.

"Qadın! Ey sevimli həmşirə, oyan!" – deyəndə qadına öz qiymətini dərk etməyə, öz mənliyini qorumağa, əzilməməyə, əyilməməyə, bu təhqirlərə sinə gərmək üçün özündə qüvvət tapmağa, qovğaya atılmağa, mübariz olmağa-zəhmətə çağırırdı. "Çalış, öyrən, ara-bul" deyirdi.

Cavid insanın xoşbəxt ola bilməməsini nadanlıqla bağlayır, əziyyətdən kənar həyatda xoşbəxtlik axtaranların bədbəxt həyatına acıyırdı.

H. Cavid dramaturgiyasının əsas ideyası bütün zamanlarda məhəbbətdir. Bəşərə məhəbbət, insana məhəbbət, insanlar arasında, dinlər və qonşular arasındakı məhəbbətdir.

Bu dramlardakı müəllif ideyası, əsərlərin bədii həlli ilə üst-üstə düşür. Bura qədərki mühakimələrlə, müəllifi yaxud da hər hansı obrazın ittihamı, yarımçıq ittihamdır. Obrazlar dərə-təpə ilə düz yola çıxana qədər cığırlardan, dolaylardan keçir, yolda-izdə öz ömürlərini başa vururlar. Əsas xətt, ana xətt müəllif ideyası isə yetkinləşə-yetkinləşə finalda üzə çıxıb tamamlanır. Tənqid də məhz bu nöqtəylə uzlaşanda tənqiddir.

"Topal Teymur"da şair Kirmani, "Şeyx Sənan" da Sənan, "Peyğəmbər" də Peyğəmbər və b. obrazlarda Cavid öz ideyasını yaşatmışdı. Hər üç obrazdakı əsas ideya, ana xətt məhəbbətdir. Adi qadına, haqq yola olan məhəbbət dünyanı qardaşlaşdıran, bəşəri xilas edən fövqəlməhəbbətdir. Cavidin "yazdıqları, dedikləri insanı saflaşdıran, ucaldan, nəcibləşdirən təsir və təlqin qüvvəsi kəsb edən bir məhəbbətdir" (61.s.6).

Insan təmizliklə, yüksəkliklə, dərrakəylə bağlı hisslərlə hərəkət edəndə, yaxşılıqlar bəxş edəndə xeyirxah olanda xoşbəxt olur, həzz alır, insanlaşır, durulur haqqa doğru, nura can atır, müdrikləşir, nuraniləşir.

Insan natəmizliklə bağlı bilgiləri öyrəndikcə bədxahlıqla bağlı cılızlaşır, bulanır, özü öz içində adiləşir və Iblisə dönür.

Cavid yazarkən "başqalıqlar törədən", "nüfuz edən" qələmə üstünlük verir, oxucuya yol göstərir, təsir edirdi: "Əgər bir millətin fəlsəfə və ədəbiyyat kitabları həssas, xəyalpərvər laübalı qələmlərlə yazılmışsa, şübhə yox ki, o millət o nəsil cərəyana qapılıb da həp o yolda hərəkət edər "(19.s.61).

# III - F Ə S İ L

# SARAY VƏ ƏYAN QADINLARININ DÜNYAGÖRÜŞÜNDƏKİ ÜMUMİ VƏ FƏRQLİ CƏHƏTLƏR. QISQANCLIĞIN VƏ XƏYANƏTİN SƏBƏBLƏRİ. HƏSSASLIQ VƏ HƏRİSLİK

Saray və əyan qadınlarının ayrı-ayrı özünəməxsus cəhətləri olsa da, onlar hər şeydən əvvəl qadındırlar.

Qadın psixologiyasını açmaq çox mürəkkəb işdir. Çərçivədən çıxan, yolunu azmış, iztirab içində çırpınan hər bir qadının özünü müdafiə etmək üçün tutarlı mülahizələri olur. Biz bu halı H. Cavid dramaturgiyasındakı qadınların tiplərində onların mülahizələrində seyr etmək imkanı qarşısındayıq. Insanlar bir qayda olaraq məhəbbətlərindəki uğursuzluqlara görə özlərini bədbəxt adlandırırlar. Elə isə məhəbbət nədir və bu hiss qadınların həyatında hansı rola malikdir?

Qeyd etmək lazımdır ki, kimliyindən asılı olmayaraq qadınların hamısında xarakterik bir xüsusiyyət vardır. Qadın qəti bilmək istəyir ki, o, öz ərinin, yaxud sevgilisinin bircə dənəsidir, əvəz edilməzdir. Qadın bu hissə inananda, mütləq onun məhəbbətini qazanmış şəxsə bütöv ruhuyla məxsus olmağa çalışır, özünün həm daxili aləmini, həm də zahiri dünyasını bu yolda əritməyə səy göstərir.

Hiss, duyğu insan orqanizminin orkestridir. Insanın hissləri bu və ya digər səbəblərdən incinib küsəndə, zəiflə-yəndə, təhqir ediləndə orkestrin nasazlığı başlayır və ailədəki narazılıqlara, ayrılıqlara, xəyanətlərə səbəblər tapılır. Hər bir insanın məqsədi dünyadan bir az da artıq kam almaqdır. Həzz ömrü uzadan ən qiymətli nemətdir. Nemətlərin ən yüksəyi isə qadınla bağlı həzzlərdir. Qısqanclığın da, hərisliyin də,

həssaslığın da davası məhz bu yüksək nemət olan həzzə görədir.

Məhəbbətlərin hamısında dolayı asılılıqla yanaşı dolayı məqsədlər də vardır; maddi, mənəvi, ruhi.

Hətta təmənnasız məhəbbətlərdə də tərəflərin birinin digərindən məqsədi həzz almaqdır, bəhrələnməkdir. Bir qayda olaraq məqsəddən sonra həzzlər zəifləyir və əzəlki durumunu itirir. Nigahlı məhəbbətlərdə bu hiss oğula, qıza, sənətə, ni-gahsız məhəbbətlərdə, dostluğa, düşmənçiliyə çevrilir. Təmiz münasibətlərdə isə məhəbbət saflıqdır, sağlamlıqdır, xoşbəxtlikdir, məsudluqdur. Insanlar açıq-aşkar bu duyğuya görə ömrü boyu çarpışmadadırlar. Biz bu halı Aşıq Qurbaninin yaradıcılığında tam aydınlığı ilə görə bilirik.

*Bimürvətin, biinsafın balası,*
*Mən səni sevmişəm sağ ürəyimdə*
*Qiya baxdın, ortalığa qan saldın*
*Qara nöqtə qoydun ağ ürəyimdə (46.s.148).*

Qoşmadan göründüyü kimi saf məhəbbətdə vəfa, sədaqət, halallıq, sağlamlıqdır. Saf, sağlam olan hər şey isə ürə-yin, beyinin, ruhun nəşəsini artırır, əsəblərə sakitlik gətirir, sağlamlığa xidmət edir. Qarşılıqlı məhəbbət tərəflərin hər ikisi üçün mənəvi dayaqdı, duruluqdu, aydınlıqdı, təmizlənmədi.

Zərrələr dənizdə sayrışanda, damarlardakı, qandakı hissiyatlar isə qarşılıqlı maraqlar üzərində qurulanda gözəldir.

Məhəbbət haqqında mülahizələr insanların sayı qədər çox və bitib tükənməzdir. Hər kəs bu hissə öz səviyyəsində don geyindirir. Məhəbbətdə hər yaşın öz hüquqları, öz problemləri, öz yaşantıları olur. Fiziki cəhətdən özünü qocalıq məhəbbətin günbatan çağıdır. Bu yaşda insan bioloji cəhətdən təminə can atmır. Bu yaşda artıq tərəflər bir-birini tam tanıyıb, sakitləşirlər. Tanınma, dərk etmə məhz ömrün bu yaşında

olduğu üçün, artıq bu yaşda ayrılıqlar, hicranlar da arxada qalır. Bu yaşda tərəflər bir-birlərinin sağlamlıqlarına qayğı göstərir, hər şeyi problemə çevirməkdən qaçır, narahatçılıqlardan qorxurlar.

Insanları bir-birinə maraqlı edən, onları bir-birinə bağlayan məhəbbət oyunlarıdır, diqqətdir. Məhəbbət oyunları məhəbbətin psixoloji mərhələsidir, qayğıdır, bura ero-gen zonaların təyini, qarşılıqlı həzzalmalar, minnətdarlıqlar və s. incəliklər daxildir.

Bəs məhəbbət oyunu deyəndə biz nəyi başa düşürük? Bu, hər şeydən əvvəl tərəflərdən birinin digərini təcrübə yolu ilə özünə aydınlaşdırmasıdır. Məhəbbət beyinin, ürəyin, ruhun, gözün qidasıdır. Burada fikrimizi əsaslandırmaq üçün kiçicik bir haşiyə çıxmaq lazımdır. Tutaq ki,  sevən qarışqadır, sevilən isə qozdur. Sevən tərəf bu bütövün, ona tanış olmayan obyektin ən zəif nöqtəsini tapana qədər onun ətrafında baş sındırır, onu hərəkətə gətirmək üçün ona toxunur, onun girintili, çıxıntılı, bərk və boş yerlərində fırlanmaqla onun zəif nöqtələrini kəşf edir və bu yolla onu asanlıqla özünə ram edir. Sevilən tərəf onun ancaq özünə xas olan sirrinin açıldığını hiss edəndə, sevən tərəfin zəhmətinə, ləyaqətinə, incə ağlına qiymət verir, qarşısındakının şücaətinə özünün heyranlığını etiraf edir. Beləliklə, məhəbbət oyunları bu və digər tərzdə təkrarlanır və bu oyunlar hər iki tərəfə mənəvi, ruhi, psixoloji ləzzətlər, əzablar, qısqanclıqlar bəxş edir.

Bəs qısqanclıq özü nədir?

Yuxarıda qeyd etdiyimiz kimi hər bir kəs bu dünyadan bir az artıq kam almaq arzusuyla ömür sürür. Qısqanclıq bu arzunu parçalayan, insanı məqsədindən uzaqlaşdıran qüvvədir. Yuxarıda qeyd etdik ki, məhəbbətdə bərabərlik xoşbəxtlik üçün əsas şərtdir. Bərabərlik olmayanda zəif tərəf kölgədə qalmaq qorxusuyla, səksəkəli olur, əzilir, əzab çəkir. Ya bu mübarizədə passiv olur, ya da bu qorxuya qarşı ayıq-sayıq dayanır, hər

yerdə qısqanır.

"Uçurum"da Gövərçin bu səbəbdən Cəlalı özündən uzaqlaşdırmaq istəmir.

Qısqanclıq mühitə, şəraitə görə özünü müxtəlif qiyafələrdə biruzə verir. Bu "Uçurum"da Gövərçinin Cəlala "Maral"da Turxan bəyin Marala qısqanclığıdır. Buradakı qısqanclıq sevimli adamın zəncirlənməsidir. Gözdən qoymamasıdır. Buradakı, ayıq-sayıqlıq sevimli adamın yad nəfəslərdən qorumaqdır. Qısqanclıq qısqanan adamın izzəti-nəfsinə özünün hörməti, qısqandığı obyektə qarşı ayıq-sayıqlığıdır.

Məhəbbət sirdir, məhəbbət tapmacadır. Məhəbbət insanın şüurlu və şüursuz aləmində dolaşan mürəkkəbliklərlə dolu, anlaşılan və anlaşılmayan zəhər kimi acı, bal kimi şirin bir həyatı hissdir, duyğudur.

Məhəbbəti yaşadan insan acılığı şirinliyə calayan, şirinliyə acılıq qarışdıran və gecə-gündüz bu hissləri ayırmağa səy göstərən bir dünyanın əzabını çəkən narahat dünyanın sakininə bənzəyir. Sanki tox körpəyə anası yenə nə isə yedizdirmək istəyir. Uşaq acana qədər, anasını başa düşənə qədər etiraz edir.

Məhəbbətə sərf olunan hisslər ədalətə, sədaqətə, saflığa, kamilliyə, sağlamlığa xidmətdir. Məhəbbət ürəyin fikridir. Qadınla kişinin öz zəkasına uyğun hissi bərabərlik uğrunda mübarizəsidir. Bu baxımdan məhəbbət adi sakit adamın da həyatında qayğıdır, narahatlıqdır.

Çox vaxt ayrılıqların, dönüklüklərin, vəfasızlıqların arxasında bizə görünməyən, bir qayda olaraq örtbasdır edilən səbəblər dayanır. Bu nəfsin üzə çıxmasının qarşısını almaq üçün mümkün variantlar düşünülür. Bu hallar insanların intim dünyaları ilə sıx bağlı olur. Ailədəki bütün narazılıqlar bu intim dünyalardakı qüsurların, narazılıqların yaxud da mənəvi, ruhi bərabərsizliklərin görümündə meydana gəlir.

Belə məqamlarda tərəflər özlərini itirmir, yenidən gizlin yaxud da aşkarcasına öz dünyasına xas ola biləcək tərəfi

axtarır.

Afət bu dünyanı Qaratayda, Əkrəm Anjeldə, Şeyx Sənan Xumarda, Xəyyam Sevdada və s. tapanda özlərini xoşbəxt hiss edir, şadlanır, onların iş qabiliyyətləri yüksəlir. Əks tərəfdəki qısqanclıq tərəflərin birinin özgə tərəfdən aldığı həzzə açıq düşmənçilik hissinin qabarıq ifadəsi kimi üzə çıxır.

Biləraəkdən qısqanclıq yaratmaq əzab verilən adamın əzabına cavabdır, qısasdır, həzz almadır. Qısqandırmaq sözünün bir də əvəz eləmək, kiminsə acığına yalançı məhəbbətdən həzz almaq kimi də izah etmək olar. Qeyd etmək lazımdır ki, bu yolla gedənlər zaman-zaman öz həyatlarını uduzsalar belə, heyfislənmədən bu incə heysiyyətlə bağlı hisslərə həmişə gizli, yaxud aşkar olaraq cavab vermişlər.

Göverçinin Əkrəmlə keçirdiyi günlər dediklərimizə əyani sübutdur. Bütün əxlaqsızlıqların mayasında qısqanclıqların cövhəri vardır. Bəzi qadınlar ərlərinin daha yüksək qadına rast gəlməsindən xoflanıb, onu itirməmək üçün qısqanırlar-qorxurlar. Bəziləri də başqa qadını gördükdən sonra əri tərəfindən qiymətləndirilə bilməmək hissindən əzab çəkir. Bəzən də ərin başqa qadına, xoş intim münasibətini ailəyə daxildən xəyanət hesab edib, onun etibarına şübhə edirlər, onun qeyrətinə inanmırlar. Qısqanclıq hər şeydən əvvəl genlə keçən və fərdi qazanılan duyğu sistemidir. Qısqanclıq sevilən adamın itirilmək təhlükəsiylə bağlı qorxaqlıqdır, ayıq-sayıqlıqdır. Qısqanclıq şübhədir, şəxsin ayıq-sayıqlığı, diqqəti, həssaslığı, fədakarlığıdır.

Qısqanclıq insanın cəmiyyətdəki, dostlar arasındakı mövqeyinin qorunub saxlanılması, yaxud itirilməsi, şübhə altına alınması ilə də bağlı olduğu üçün sosial mahiyyət daşıyır. Qısqanclıqların mahiyyəti müxtəlif olduğu kimi onların variantları da müxtəlifdir. Qeydə alınmışdır ki, nəinki keçmişdə, haliyədə də hər on ildə qəsdən öldürülənlərin 600-700 nəfəri qısqanclıqla bağlı hadisədir. Və bu münasibətlə

qısqanclığın üç variantı qeydə alınmışdır.

1. **Erotik qısqanclıq-** hər şeydən əvvəl, kişi ilə qadın arasındakı münasibətlərlə bağlıdır. Qısqanclığın bu növü sevimli insanın həqiqi və ya labüd xəyanətindən irəli gəlir;

2. **Məişət qısqanclığı -** /valideyn-oğul-qız/, qohumluq, qonşuluq, tanışlıq qısqanclığı daha çox qohumlar, dostlar arasındakı münasibətlərdən yaranır;

3. **Islahat qısqanclığı** – həmkarların müvəffəqiyyətlərinə qarşı paxıllıq, nüfuzun vəzifənin, rəis mövqeyinin və s. itirilməsindən doğulan hissdir, duyğudur.

Cəmiyyətdə əsas qısqanclıq erotik qısqanclıqdır. Qısqanclığın genezisində həm instinktiv rəqibliyin, həm də sosial amillər böyük rol oynayır. Qısqanclığın təzahür forması son dərəcə çoxşaxəlidir.

Qısqanclıq-despotizmdir. O, hər yerdə əzabla müşayiət olunur. Qısqanclığın əvəz çıxma kimi variantı da mövcuddur.

Çoxşaxəli hadisə olan qısqanclıq məhəbbəti, dostluğu, mövqeyi və ya sahibliyi qorumağa, onu saxlamağa cəhd etmə ilə müşayət olunan, onunla bağlı digər münasibətlərin qorunmasından ibarət hisslərin orkestridir. Qısqanclığın sosial münasibətlərdəki rolu birmənalı müəyyən edilə bilməz. O, bir tərəfdən qiymətli və faydalıdır, çünki insanın qarşıda duran məqsədinə nail olmasında onun fəallığını və səyini stimullaşdırır, digər tərəfdən zahirdə təzahür edərək ciddi sosial münaqişələr doğura bilir və hətta, cinayətlərin törədilməsinə gətirib çıxarır.

Qısqanclıq yalnız bioloji cəhətdən şərtləndirilən instinktiv hiss deyildir. Həmin hadisənin genezisində sosial amillər /şəxsiyyətin mənfi keyfiyyətləri, şəxsiyyətlərarası münasibətlərin xarakteri/ də təsir göstərir.

Qısqanclığın yaranmasında xəyanət və ya yeni məhəbbət çıxış edir. Təhlil edilən hiss insan xarakterinin müəyyən cəhətləri /inciklik, həssaslıq, bədgümanlıq, yüksək təskinlik,

şübhəlilik, münaqişəlilik, səbrsizlik, ehtiyatsızlıq və s./ əsasında meydana çıxır.

Qarşılıqlı münasibətlərdəki etinasızlıq üçüncü şəxslərin daim təriflənmələri, müvəqqəti ayrılıqlar, seksual qeyri normallıq, əks cinslərin nümayəndələrinə inamsızlıq valideyinlərin, dostların qeyri-sədaqətli faktlarından irəli gələn şəxsi təəssüratları, tərəfdaşın keçmişə mənfi mövqeyi və s. Bu zaman tərəfdaşların mürəkkəbləşən münasibətləri və alkoqolun, narkotik maddələrin qəbul edilməsi şübhəliliyi daha da artırır.

Qısqanclıq özündə nəinki çoxşaxəli emosional reaksiya və vəziyyətlərin, həm də intellektual və izafi sahələrdəki müəyyən təzahürləri ehtiva edən son dərəcə mürəkkəb psixoloji struktura malik olması ilə xarakterizə olunur.

Qısqanclıq reaksiyaları qısamüddətli və uzunmüddətli, mülayim və ağır, qismətləndirmə, təcavüzkarlıq və digər formalarda baş verə bilər.

Qısqanclıq hüquqa zidd hərəkətlərin subyektiv stimullarından ibarətdir. Qısqanclıq güclü ruhi həyəcan yaradır. Sağlamlığa iş qabiliyyətinə mənfi təsir edir, münasibətlərə inamsızlıq gətirmir. Çox vaxt intiqam almaq münasibətləri ilə də şərtlənir. Bir şəxsin gözləmələri ilə digər şəxsin real davranışı, şəxsiyyətlərarası ziddiyyətlərə gətirir. Bir sözlə qısqanan kəs qısqandığının xəyanətinə inanır və tədbir görməyə məcbur olur.

Xəyanət faktının gözlənilmədən aşkar edilməsi ilə bağlı qısqanclıq fəlakət yaradır, ağır təhqir xəyanət kimi qiymətləndirilir (77).

Ilkin bioloji çağırış bir də seksual sevgidir. Və onun hədəfi qadındır. Ancaq bu istəkdə, seksual canatmada tormozlaşma da baş verə bilər.

Istəyin tormozlanmış variantı nədir? Özünü doyurmaq üçün istək işə düşür, ancaq "yolda" dayanır, öz obyektindən yayınıb,

başqa obyektə üz tutur. Beləliklə, mədəniyyət ilkin bədən çağırışlarını tormozlaşdırılmış istəklərə çevirə-çevirə, onların obyektləri yerinə mədəniyyətə əlverişli obyektlər qoya-qoya şüuraltı enerjinin sərf olunması üçün yollar açır (55.s.51). Etirasda olan canatma da bir təmizlənməyə, təmizliyə qovuşma hissi var.

Başqa sözlə insan psixi cəhətdən təmizliyə can atır, təmiz ehtirasdan güc alır. Bu təmizliyə ləkə düşəndə yaddaşda tormozlaşma gedir. Hissi orkestr nasazlayır, sazlığını itirir və növbəti xəyanətlərə yol açır. Bu mənada bakirəlik ona görə qiymətlidir ki, burada hələ incimiş hisslər, duyğular iblisliklə bağlı xəyanət və şübhələr yoxdur.

Lev Tolstoyun "Anna Karenina" romanında "Mən artıq iblis"i qovdum, ürəyimdən çıxardım-deyə Anna əlavə etdi. Onlar öz aralarında qısqanclığı iblis adlandırırdılar" (70.s.218).

Iblis burada sevənlərin arasına girən üçüncü şəxs mənasındadır. Şübhə, ədavət, paxıllıq bəxş edən sevənlərin səadətini oğurlayan, şübhə altına salan iblis mənasında işlənmişdir. "Eşq təbiətin zərifliyindən doğur. Zəriflikdən doğulan hər şey isə şübhəsiz zərif olar". Aşiqlik şirin olsa da, başdan ayağa məşəqqət, ürək ağrısı, iztirab və əziyyətdir... /seçmələr bizimdir-N.Ə./ (48.s.76-77). Bütün bu ürək ağrıları olmasın deyə ən əvvəl şair demişkən: Yarı atmayasan, sevəndə gərək.

Zaman-zaman elə bu iblisliklərlə bağlı yaşlılar övladlarınının ailə qurmaq işlərində yaxından iştirak edir, qohumluğun təməlini möhkəm, təmiz ailələrdən qoyurlar. Məqsədimiz H. Cavidin eyni zamanda məhəbbət konsepsiyasını aydınlaşdırmaq olduğu üçün biz məhəbbətlə bağlı hisslərdən, duyğulardan lazımı qədər danışmağı lazımlı hesab edir və bu yolla Cavidin məhəbbət konsepsiyanın açılmasına səy göstəririk.

Dastanda (Dədə Qorqud N.Ə.) möhkəm ailə quruluşu

mövcuddur. Bir kişinin ancaq bir qadını var. Ailə şərəfi, ata-ana şərəfi toxunulmazdır.

Oğuzda gənc qəhrəmanlardan dörd nəfəri simaca gözəl olduğu üçün üzü örtülü-rübəndli gəzir ki, qızları, qadınları yoldan çıxarmasın. Qadınlar isə çadrasız gəzirlər, yad kişilərdən ancaq yaşmanırlar. Lakin döyüş meydanında qadınlar igidlikdə, cəsarətdə kişilərdən geri qalmırlar. Salur Qazanın arvadı Burla xatun, Beyrəyin nişanlısı Banuçiçək, Qanturalın gənc arvadı Sarı Donlu Selcan xatun belə qəhrəman qadınlardandırlar. Oğuzda ana haqqı tanrı haqqına bərabər tutulur (12.s.7) .

Dədə Qorqudda olduğu kimi müasir cəmiyyətdə də qadınların tipləri dörd cürdür.

**1.** Hisslərini sözə, musiqiyə, kətana və s. köçürməyi xoşlayan ilahi tipli yüksək dərrakəli qadınlar. Belə qadınlar ailəyə-övlada, təsərrüfata bağlı olurlar.

**2.** Pula, var-dövlətə, daş-qaşa meyilli qadınlar.

**3.** Cəmiyyətə, vəzifəyə, siyasətə, mövqeyə bağlı qadınlar.

**4.** Sevgiliyə, sevimli adama bağlı qadınlar.

Güclü qadın özünə inanır. Öz məqsədinə çatmaq üçün o, öz yolunda heç kəsdən qorxub, çəkinmir, ərinin /zəif/ gücünə, qeyrətinə-qısqanclığına etiraz edir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, həyat mübarizədir, biz bu mübarizədə H. Cavid dramaturgiyasındakı qadınlarla kişilərin timsalında həmin mübarizə formalarını qadınların tiplərinə görə bir qədər də əyaniləşdirək.

Dramlardakı saray qadınlarının məhəbbətlərinin mayasında siyasət durur. "Səyavuş"da Südabənin məhəbbəti buna əyani misaldır. Əsl xalis məhəbbətin mayasında sağlamlıq, gümrahlıq, halallıq və xeyirxahlıq vardır. Belə hisslərlə qurulan məhəbbətlər uğurlu, davamlı olur. Məhəbbətin mayasında xudbinlik, istifadə etmə olanda o faciə ilə nəticələnir, bədbəxtliyə aparıb çıxarır.

Qeyd etmək vacibdir ki, cəmiyyətdə ideal kişi, yaxud da ideal qadın yoxdur. Cəmiyyətdə ideal axtarmaq insanın faciəsi ilə nəticələnə bilər. Insanı necə varsa, eləcə qəbul etmək, yaxud da ondakı nöqsanları tərbiyə etmək, məhəbbətin gücüylə islah etmək, qismən aradan qaldırmaq, yaxud da mənfiliyini üzə çıxmaması üçün şərait yaratmaq lazımdır. Bizim hər birimizdə təbiətin səhvi, cəmiyyətə xoş gəlməyən mənfiliklərin izləri vardır. Bu mənfiliyi bizim ən yaxın adamımız duyub, anlayır. Bu mənfilik başqaları üçün həmişə sirrdir. Hər kəsdə gözəçarpan yaxşı bir xüsusiyyət də mövcuddur. Ancaq başdan-başa kiməsə tam xoş gələn tərəf müqabil yoxdur.

Insanlar arasındakı narazılıqlar, bədbəxtliklər həmişə insan təbiətindəki zəifliklərə, mənfiliklərə görə, xoşbəxtliklər isə saf, halal xüsusiyyətlərə görə baş verir.

Cəmiyyətdə hər bir şəxsin istər xoşbəxtliyi, istərsə də bədbəxtliyi ötəri mahiyyət kəsb etdiyi üçün qadın özünü onun-bunun qucağına atılmasına yol verməməlidir. Belə olarsa o, özü öz qarşısında mənəvi səfilə çevrilib, adiləşər. Cəmiyyətin tənəsi hiss edilməsə belə insan özü-özü üçün müəyyən qiymətə malik olmalı, öz yüksəkliyi ilə bağlı sərhəddi qorumalıdır. Dediklərimizdə haqlı olduğumuzu biz H. Cavid dramaturgiyasındakı qadınların həyatında izləyəcəyik. "Maral" dramındakı Maral Turxan bəyə ərə gedəndə kasıblıq qorxusundan qurtarmaq üçün getdiyini bildirir. O, bu qorxudan azad olduqdan sonra köhnə sevgilisi Arslanla qarşılaşır. Öz məhəbbətini dostluq, qohumluq hissinə çevirməkdənsə, o, Turxan bəydən yaxa qurtarmağa çalışır. Başqa cürə düşünmək Maral üçün, 16 yaşlı qız üçün çətindir. Maral oxucuya ilk baxışdan yazıq, kimsəsiz, məsum bir qadın təsiri bağışlayır. Əslində isə bu belə deyildir. Yuxarıda qeyd etdiyimiz kimi dünyada nə varsa, insanın canındakı cövhərdə da ondan vardır. Bütün bunların üzə çıxması üçün şərait, mühit lazımdır. Belə bir mühiti Allah özü Maral üçün yaratmışdır. Maral zəhmət

çəkmədiyi üçün malik olduğu cah-cəlaldan, Turxan bəydən üz çevirib, Arslan bəylə qaçmağa razılaşmışdı. Nəyə görə? Turxan bəyin gələcəkdə ehtimal olunan tənələrinə görə, Maralın kasıblığına, indi isə dövlətə yiyələndiyinə görə edə biləcəyi təzyiqlərə görə. Maral bu qorxudan elə indidən xilas olmaq üçün özünə tay, bərabər hesab etdiyi Arslan bəyə qoşulub getməyə razılaşmışdır. Dramdakı bütün qadınlar kimi Maral da özünü idarə etməyi bacarır. Onun faciəsi öz xeyrini güdüb, başqasının - Turxan bəyin mənafeyini, izzəti-heysiyyətini heçə saymamağıdır.

Maral öz xeyrinə görə gah məsum, gah bədbəxt, gah da qəhrəmanlıq etməyə qadir bir gəlindir.

Allahın mayasında iblislik, Iblisin mayasında allahlıq olduğu qeydə alınmışdır. Yazıqlığın, sakitliyin də mayasında bir qəhrəmanlığın, bir şücaətin gizləndiyini elə Maral obrazında müşahidə etmək mümkündür. Maralda həssaslıq güclüdür. O, hiss edir ki, Turxan bəyə sadəcə onun gözəlliyi, məsumluğu lazımdır. O, bunları Turxan bəyə vermişdir, lakin verdiklərinin müqabilində o, Turxan bəydən heç nə ala bilməmiş, əksinə kasıblıq qorxusundan qurtardığı üçün Turxan bəy onu həmişə özünə borclu sanmışdır. Bu hiss Maralın heysiyyətinə toxunur, o, əzilir, belə gedərsə, məhv olacağını düşünür və çıxış yolunu Arslan bəylə qoşulub, qaçmaqda görür. Arslan bəydə özünə qarşı daha yüksək diqqət görən Maral Arslanın cəfalarına, məhəbbətinə yüksək qiymət verir. Turxan bəyi tapdalamağa özündə qüvvət tapır. O, bu yolda ölümdən də qorxmur.

Qadın seviləndə özünə inamlı olur, əyilməz olur. Qadınlar öz cəfalarına qarşı qiymət almayanda, qiymətləndirilməyəndə bədbəxt olurlar. Xəyanətin səbəbi əksər hallarda xəyanətə xəyanətdir. "Qısqanclıq və qeyrət üzündən bir çox qadınlar ərlərini öldürər, ya özlərini daha ləyaqətsiz adamlara təslim edərlər, bundan çəkinməzlər"(48.s.114).

Cənnətdə qadağan olunmuş ağac bir də "Iblis"liklə bağlı əməllərdir. Həvva nənəmiz bu qadağaya meyl salandan son-ra qadınlarımız, qızlarımız iztirab içindədir.

Yazıçı-dramaturq Əli Əmirlinin "Ölü doğan şəhər" romanında qısqanclıqdan hər şeyə hazır olan qadın obrazı ilə rastlaşdıq:

- Dəli olmusan?

- Mən çoxdan dəli olmuşam. Sən mənə kömək eləməsən, özümü öldürəcəm. Mən o oğraşdan /ərini deyir-N.Ə/ qisas almasam, özümü öldürəcəm, yaşaya bilməyəcəm. Sonra bu monoloqun davamını cırcıramaların gecə nəğməsinin sədaları altında eşitməli oldu. Qadın onun sızanaqlı üzünü, üstü tər bığlı yumşaq dodaqlarını hirsləmi, ehtiraslamı öpə-öpə ərinin ona necə xəyanət etdiyini təfərrüatı ilə danışırdı. Elə bil hər şeyi öz gözü ilə görmüşdü.

- Qəhbəsi mənə zəng eləyib acıq verirdi. O şeyləri ki, bir mən bilirəm, bir o, hamısını deyib mənə, qızışanda dediyi sözləri təkrar elədi, haqq-hesab vaxtı qulağıma pıçıldadıqlarını... Barı ona başqa sözlər deyəydi, görünür beyni bundan çox varit eləmir. Mən.. daha nə dediklərini eşitmədim, bir azdan heç eşitməyə ehtiyac da olmadı, çünki indi Gülya danışmırdı. Yetimin sıxıla-sıxıla dediyi heyrət dolu sözlərini dinləyirdi...

Üççə gündən sonra eşitdim ki, Gülya təsadüfən "esensiya" içib ölüb, hamı buna inandı. Yetimdən başqa"(22.s.125-126).

Qadın əri, yaxud sevgilisi tərəfindən qiymətləndiriləndə onun yolunda hər cür fədakarlığa hazır olur.

H. Cavidin "Ana" dramındakı Ismət belə obrazlardandır. Ismət nişanlısı Qanpoladdan xəyanət görmədiyi üçün ona xəyanət etmir. Qanpoladla Ismətin arasında sədaqət, saflıq, halallıq vardır. Onların ailələri də bir-birinə bərabərdirlər.

Qanpoladla Ismətin arasındakı məhəbbətdən Şeyx Sənanla Xumarın da arasında vardır. Xumar da Şeyxin sədaqətinə,

vəfasına görə öz həmyaşıdları olan Antona, Simona biganə olur.

"Maral" dramındakı Humay öz nişanlısının sədaqətinə inanana qədər Cəmilin məhəbbətini cavabsız qoymuş, nişanlısının xəyanətinə inanandan sonra isə Cəmilin ona evlənmək təklifinə öz razılığını bildirmişdir.

Dramda hələ ki, təmiz olmağa çalışan Göyərçinin /"Uçurum"/ təmiz olaraq qalacağına nə oxucu, nə də tamaşaçı inanmır. Anjeli öz evinə gətirən Cəlalın həyasızlığına qarşı Göyərçinin qəti tədbir görəcəyinə inanan oxucu da, tamaşaçı da səhv etmir. Insan səbri də müəyyən sərhəddə qədər tab gətirə bilir. Bu sərhəd pozulanda isə şəxsiyyyətin üsyanı, günahkarın cəzalanması labüd olur. Bir vaxtlar Göyərçini sevən Cəlal indi onu ən adi qadından-Anjeldən də aşağı hesab edir, onun heysiyyətini saya salmır, Anjelin qarşısında öz mənliyini isbata çalışır. Göyərçinin nəyi pisdir ki, Əkrəm onu Anjelə dəyişmişdir. Göyərçin içindəki təhqirdən-əldən-ələ düşmüş Anjeldən aşağıda qaldığına görə Cəlaldan ikrah edir və özünü qiymətdən düşmüş Cəlala bərabərləşdirmək üçün Əkrəmin təklifinə razılıq verir.

Cavidin əksər tədqiqatçıları Anjeli "əxlaqsızdır"deyib, istədikləri kimi mühakimə etmişlər. Bu doğrudan da belədir. Cəmiyyətin qəbul etdiyi qanunlara görə qadının həyatında iki-üç kişidən çox kişi olarsa onun hərəkətləri əxlaqsızlıq sayılmalıdır. Bəlkə də bu səbəbdən qadınların çoxu kişilərin min bir zülmünə dözüb, öz nikahlarını sonacan davam etdirmişlər.

Rəqqasə Anjeli əxlaqsız edən Edmondur. Anjel bir vaxtlar sevdiyi, indi isə müxtəlif səbəblərdən rədd etmək istədiyi Edmondan uzaqlaşmaq üçün öz həyatına, hətta sevmədiyi kişiləri də buraxıb, bununla özünə "sığınacaq" tapdığını bildirərək Edmonun ondan uzaqlaşmasını istəmişdir. Anjel Edmona görə öz Vətənini də tərk eləməyə hazırdır. Anjel

Edmonu sevmir ona görə bədbəxt olmuşdur. Belə kişilərdən nə əxlaqlı Gövərçin, nə ailəli Afət, nə ər qeyrətli Almaz qurtula bilməmişlər. Vaxtı ilə Əkrəm Gövərçini, Orxan Almazı, Qaratay Afəti və s. sevmişdilər. Sonra isə...

Fəlsəfə və tarixdə yaşamış Şərq və Qərb filosoflarının fikrincə məhəbbəti, ailənin birliyini hər günkü mübarizədə yenidən qazanmaq lazımdır. Bu mübarizədə zəiflik göstərən, sevdiyinə biganələşən tərəflər öz sevgililərini başqalarına uduzmuşlar.

H. Cavidin istər qadın, istərsə də kişi qəhrəmanları zaman-zaman öz yarımlarının axtarışında çırpınsalar da samballı nəticə əldə edə bilməmişlər. Xoşbəxt olanlar isə bir qayda olaraq ayıq-sayıq olanlardır. "Şeyx Sənan"da Şeyx Sənanla Xumar, "Xəyyam"da Xəyyamla Sevda, "Topal Teymur"da Orxanla Olqa, "Ana"da Ismətlə Qanpolad və b. Təəssüf ki, onların da xoşbəxtliyinin ömrü qısa zaman ərzində olmuşdur.

Kişi ürəyinə girmək, kişi könlünü qızdırmaq təkcə zəhmət yox, həm də istedad tələb eləyir. Çox vaxt qəbr evinəcən yol başlayan, əhdü-peyman edən cütlər az sonra "gor qonşusu" da olmaq istəmirlər ki, buna da çox vaxt onlardan birinin digərinə xəyanəti, aralarına girən yalançı sevdalardır. Bu bərabərsizliyi aradan qaldırmaq üçün bəzən tərəflər xırda günahlarını bağışlamaq üçün ailədə qadın kişini (yaxud da əksinə) maddi cəhətdən cəzalandırır və onların arasında bərabərlik yenidən bərpa olur.

Kişini yaxud qadını evə, ailəyə bağlamaq ayların, illərin yox, hər günün öz qayğısıdır. Qadın məhəbbət göstərdiyi kişidən qorxursa, onun hakimiyyəti altında əzab çəkirsə o, heç vaxt ərini əzazilliyinə görə sevməyəcəkdir. Yaxud qadın pintidirsə, mehribançılığı yoxdursa, zəhmətdən yayınırsa, əlbəttə onun sevilmək şansı da az olacaqdır. Qadın öz qayğısıyla, diqqətiylə ərinin gözlərini elə bağlamalıdır ki, o başqa yerdə özünə xoşluq, sirdaş, qayğı-məhəbbət axtarmasın.

Insan orqanizmi üçün üç şey zəruridir. Aclıq, susuzluq, ehtiras. Qədim insanlarda ehtiras var idi, romantik hisslər, duyğular yox idi. Bu mənada məhəbbət məfhumu çox obrazlıdır.

1. Insanın özünə, valideyninə olan məhəbbət;

**2.** Allaha olan məhəbbət;

**3.** Həyatda gözəlliklərə, canlılara-quşlara, heyvanlara olan məhəbbət;

**4.** Vətənə olan məhəbbət;

**5.** Səmimiyyətə, xeyirxahlığa, qardaşlığa, qəhrəmanlığa, ideyaya olan məhəbbət;

**6.** Azadlığa, haqqa, ədalətə olan məhəbbət;

**7.** Romantik, platonik, rıçarskiy məhəbbət;

**8.** Qayda qanuna, vəzifəyə işə olan məhəbbət;

**9.** Var-dövlətə nəsilə olan məhəbbət;

**10.** Hakimiyyəti mövqeyi olan adama məhəbbət;

**11.** Qadın-kişi, aşiq məşuq məhəbbəti, hissi məhəbbət;

**12.** Azad yaxud nigahlı məhəbbət və s. (29).

Məhəbbət ikiyə bölünmüşlərin bütövlük arzusudur. Qədim yunanlara görə sevirsə, deməli öz yarısını öyrənir, bu yolla bağlı axtarışlar axtarır. Onlar məhəbbət və gözəllik hisslərini bir-birindən ayırmırdılar. Bədənin və ruhun birlikdəki gözəlliyini bütöv gözəllik hesab edirdilər.

Qədim yunan əfsanələrində məhəbbəti kosmik aləmin mütləq yaradıcısı ilə əlaqələndirirdilər.

Insanın dörd əli, dörd ayağı, kürəyə bənzər bədəni, boynu üzərində bir-birinə əks olan iki sifəti varmış. Bu insan özünü Allahdan da güclü hesab edirmiş. Od Allahı Zevsin təşəbbüsü ilə Allahlar cəm olub, həmin nəhəng insanı iki, başqa mənbələrdə bir neçə yerə bölüb, müxtəlif səmtlərə atmaqla özlərini həmin nəhəng insanın bəxş edə biləcəyi qorxudan xilas etmişlər.

Bu fikri bir az da dəqiqləşdirsək, tam cəsarətlə deyə bilərik

ki, dünyanın kodu, geni, duzu, hissiyyatları insanın cövhərindəndir, subyektiv insan zəkası kosmosun mütləq yaradıcısının inikasıdır. Hər bir kəsdə ümumi insana xas cəhətlər olduğu kimi onları bir-birindən kəskin surətdə fərqləndirən səviyyəcə aşağı-yuxarı xüsusiyyətlər də yuxarıda qeyd olunan səbəblərdəndir.

H. Cavid dramaturgiyasında qadınların tipləri onların zəkası təftiş edilir. "Insan zəkasının kamilliyi onun dünya zəkasına uyğunluq dərəcəsində axtarılır (23.s.7)."

"Afət" faciəsində insanları qanunla, türmə ilə hədələyən yoxdur. Əsərdəki personajlar bir-birlərini mənəvi cəhətdən mühakimə edirlər.

Çox vaxt qısqanclıq sözünü inamsızlıq, etibarsızlıq kimi izah edirlər. Belə izah qadın qəlbinə öldürücü təsir edir. Hələ yetkinləşməmiş qadınların əksəriyyətinin qısqanclıq sözünə (xəyanət edə bilər anlayışına) reaksiyası bu səbəbdən onlarda qıcıq əmələ gətirir. Və onlar bu "inamsızlıq, etibarsızlıq" mühakiməsinə son qoymaq üçün çox böyük bəlalarla üzləşirlər. Onlar hər şeyi dərk edəndə isə artıq gec olur. Və Afətlər öz səhvini düzəltmək üçün qatilə çevrilirlər. Afət nədənsə anlamaq istəmir ki, Özdəmir ona inandığı üçün onunla ailə qurmuş, yeganə qızının tərbiyəsini məhz Afətə həvala etmişdir. Özdəmirin qısqanclığında bir şəhanəlik, bir ucalıq, bir yüksəklik vardır. Afət cavan olduğu üçün bu yüksəkliyə qalxa bilmir. Afət Qaratayın səviyyəsinə enəndə Özdəmir dözmür. Nərə çəkir və "keflənir". Afətin də Qarataydan başqa əlaqələri olur. Lakin o yenə də içindəki kindən xilas ola bilmir. Məhz Qaratayın vasitəsi ilə öyrəndiyi dırnaq  içindəki sevgi bilməcələrindən  sonra öz içində daha da adiləşir və bundan aşağı səviyyəni o ağlına gətirə bilmədiyi üçün Qaratayla bağlı gələcək və keçmiş çirkinliklərə birdəfəlik son qoyur.

H. Cavidin qadın qəhrəmanları, hörmətli, kübar qadındırlar. Hörməti olan kəs də ona hörmətsiz yanaşılmağa imkan verməz.

Bundan başqa, cəsarətlə demək lazımdır ki, hər bir qadının təbiətində bütün qalan tiplərdəki cəhətlər az-ya çox dərəcədə mövcuddur.

Əvvəldə cəmiyyətin adət-ənənəsinə xilaf çıxan Afət sonda adət-ənənəyə sadiq olduğuna görə intiqam alır. Eşqində əbədi yaşamaq üçün vaxtında tədbir görən, ölən Afətə oxucu-tamaşaçı haqq qazandırır, onun simasında qürur hissi keçirir.

H. Cavid poemada, yaxud nəsrdə olduğu kimi qəhrəmanın daxili aləmini şərh eləmir. Afətin öz sözünə qiymət verməsi onun qəti hərəkəti həmin hissiyyatların çözülməsinə kifayət edir. Qalan iş oxucu-tamaşaçı-tədqiqatçı ixtiyarına verilir. Və Afət nə qədər təhlil edilsə də bitib tükənmir. Afətin məhəbbətiylə qiymətə minən Qaratay onun gülləsi ilə heçə endirilir.

Cəmiyyətdə ağıllı adamın yaşaması asandır, ağılsız, axmaq adamın belə bir addımı isə problem yaradır. Afət belə bir problemi, maneəni aradan qaldırmaqla harmoniyanı bərpa edir.

"Afət"də qadının özünə, şəxsiyyətinə hörmətdə tələbi güclüdür. Afət verdiyindən artıq tələb etmir. Verdiyinin müqabilində də özünə qarşı diqqətin, məhəbbətin keşiyində ayıq-sayıqdır, mübarizdir. Oxucu, tamaşaçı Afətin əxlaqsızlığına gülmür, onunla əylənmir. Əksinə Afətin Qaratayın yolunda itirdiklərinə acıyır, Afətə görə ağlayır, belə bir qadının şücaətinə görə özündə katarsis prosesi keçirir, onunla qürurlanır. Məhəbbətin kodunda, mayasında, duzunda təkcə təmizlik, halallıq, həssaslıq, romantizm, sufizm qısası doğma, mərhəm hissiyyatlar yoxdur. Orada eyni zamanda şəhvət, nifrət, hərislik, həssaslıq və mənfi emosiyalar yaradan digər duyğular da var ki, bunlar da mübarizə şəraitində sıxışdırılıb aradan qaldırılır. Doğrudur, bu təzadın qaldırılması çox çətindir, lakin mümkündür. Məhəbbət, Nifrət kimi iki bir-birinə zidd cəhətlərə ayrılır. Məhəbbətlə bağlı romanları analiz edərkən qadın qəhrəmanların psixologiyasında qısqanclıqla

bağlı duyğuların eyniliyinə də dəfə-dəfə rast gəldik. Istər inqilabdan əvvəl, istər inqilabdan sonra, istərsə də müstəqillik dövründə qadın elə qadındır. Onların psixologiyası qısqanclıqla bağlı demək olar ki,  dəyişilmir.

Afət özünü zəhərləməklə gələcəkdə də Qaratayın ona bəxş edə biləcəyi qısqanclıq əzablarından özünü xilas etmişdir. Qadınların bədbəxt olmasında qısqanclığın rolu çox böyükdür. "Iblis" faciəsində Iblis Arifi Rənaya görə Ibn Yəminə qısqandırmaqla Rənanı əldən ələ salır. Arifi, Vasifi, Rənanı, Xavəri bədbəxt etməklə öz gizli yüksəkliyini bəyan edir. Iblis üçün bir şey qəti aydındır ki, doğulan insan təbiətən haram (nisbətən asan) həzzlərə meyllidir. O, bircə bu istiqamətdə getməklə ətrafındakıların hamısını bədbəxt etmişdir. Sonda bədbəxt olanların hamısı özlərini müxtəlif cür hərisliyin qurbanı hesab etmiş, zəlil olmuş və bağışlanmaları üçün Allah dərgahına üz tutmuşlar.

Allah insana bircə yol buyurmuşdur. O yol düzgünlükdür, halallıqdır. Bu yoldan sapanlar iblisin güdazına gələnlərdir. Insan qarşısına qoyduğu məqsədə çatmaq üçün tələsir və müxtəlif vasitələrə əl atır. Vaxtı qabaqlayanlar isə bir qayda olaraq kallıqda, yetkinləşməməkdə və s. günahkar hesab edilirlər. Bir qayda olaraq iblislər xoşbəxtliyə şərik olmağı bacarmırlar. Iblislər daxilən bədbəxt, daxilən miskin, sönük, dırnaq içində olan paxıl  insandırlar.

Bir sıra tənqidçilər (M.Məmmədov) belə hesab etmişlər ki, H. Cavid tarixi həqiqətin ziddinə gedərək Peyğəmbəri qadın hüququnun guya müdafiəçisi, "qadın azadlığının carçısı" kimi göstərmişdir. Buna sübut olaraq adətən "Qadın, qadın!.. Onu duymaq, duyurmaq istərkən..." monoloqu misal göstərilir. Ancaq bu monoloqu. Bəs qalan sözlər? Bəs sonrakı hadisələr, əməllər? Bəs Peyğəmbərin qadınlar haqqında pyesdə dedikləri ilə elədikləri arasındakı ziddiyyət? Əlinə qılınc alana, rütbəyə çatana qədər o, çox söz deyir, çoxlu vədlər verir, sonra isə

dediklərini unudur.

Mehdi Məmmədov elə həmin fikirlərini davam etdirərək yazır ki, o ki, qaldı qadınlara-onları əyləncəyə və alver malına çevirir, bütün hüquqlardan məhrum eyləyir. Elə buradaca Mehdi müəllim Peyğəmbərin düşməni olan qadınların onun barəsində dediyi söyüş və yalan sözləri də nümunə gətirir:

**Rəisə**
(sinirli və çılğın)

*Şu böyük din? əvət ac bir yalavac*
*Olacaqmış da bütün başlara tac:*
*Alacaq həftədə bir tazə qadın*
*Sən də seyr eyləyəcəksən... çaşqın!*

**Şəmsa**

*Ah, o, örtün deyə əmr eyləyəcək*
*Həp qadınlıq qara çarşab geyəcək.*

**Rəisə**

*Nə demək!? Ayişə etmişsə xəta*
*Həp qadın aləmi batsınmı yasa?*

Yenə də professor M. Məmmədov oradaca öz fikrini davam etdirərək yazır: "H. Cavid Peyğəmbəri qadın azadlığının müdafiəçisi kimi göstərib, yoxsa qadın əsarətini qanunlaşdıran bir riyakar kimi ifşa eyləyib?! Biz hələ başqa bir faktı da əlavə eləməliyik. Dramaturji incəliklə, dərin bir kədərlə işlənmiş Şəmsa-Peyğəmbər münasibətlərini, bu gözəl, zərif, mərd qəhrəman qızın faciəli taleyini xatırlamamalıyıq! Məhəmməd qəzəblənmiş camaat tərəfindən təqib olunduğu, daşa basıldığı

günlərdə Şəmsa onu qızmış izdihamın əlindən alır, ölümdən xilas edir. Çünki onu səmimi bir məhəbbətlə sevir. Qız onun dinini qəbul eləməsə də onun zahiri gözəlli-yinə, iradəsinə, inadına, qüruruna vurulur və görünür ki, bir qədər də söylədiyi fikirlərin ülviyyətinə inanır. Peyğəmbər isə onun məhəbbətini kobudcasına rədd edir. Işğalçı yürüş-lərinin birində o, bu günahsız qızın yurdunu dağıdır, atasını və qardaşlarını qılıncdan keçirir" (61.s.125,127).

Söhbətin qadın azadlığı ilə birbaşa əlaqəsi olduğu üçün üstəlik də bir çox tədqiqatçıların və tənqidçilərin eyni fikirləri "özünküləşdirə – özünküləşdirə" kitabdan – kitaba köçürdükləri üçün elmi və ədəbi fikirlər bu vaxta qədər lazımınca açıqlanmamışdı. Odur ki, burada mütləq və qəti münasibət yerinə düşər. Şəmsa Peyğəmbərin Allaha olan yeganə və həqiqi məhəbbətini sınağa çəkən "şeytan bir mələkdir", Məhəmməd Şəmsaya deyil, Şəmsa Məhəmmədə-ailəli kişiyə "vurulmuşdur". Özü də onun hesabına daha da artıq məşhurlaşmaq üçün.

Məhəmməd ailəsini sevən Xədicə xanımın ölümünə qədər ona sədaqətli və mehriban olan ərdir. Şəmsa bilərəkdən məhəbbət oyunları ilə Peyğəmbəri əsir etmək istəyən müğənni qadındır. O, Məhəmmədi "Vahid Allah" ideyasından uzaqlaşdırmaq, məqsədinə çata bilməyəndə isə şərbətə zəhər qarışdırıb Peyğəmbəri öldürmək istəyir. Peyğəmbər öz düşmənlərinə, o cümlədən Şəmsaya da ayıq-sayıq münasibətdə olduğu üçün bu hökmdən xilas ola bilir və elə Şəmsanın hazırladığı zəhərli şərbətlə onun özünü ifşa edib, öldürür.

Məhəmmədi Xədicəyə sevdirən daha çox onun Tanrıyla bağlı ideyalarıdır. Xədicə bu yolda Məhəmmədə hər cürə yardım edən, onun ideyalarını dəstəkləyən bir ilahi tipli qadındır. Məhəmməd Şəmsanı "vəhşi səhralar çiçəyi" adlandırır, onu öz yolundan döndərib, haqq yola gəlməsinə çalışsa da, Şəmsa Məhəmmədin əleyhdarları ilə birləşib, bu

yolda onu hər cürə təhqir edir, ələ salır. O, əsl, xalis məhəbbətlərini atasını və qardaşlarını itirdikdən sonra saxta oyunlarını dayandırıb, qəti və mütləq hərəkət edir. Şəmsa məhəbbətində həqiqi və səmimi olmadığı üçün əsərin sonunda Məhəmməd üçün hazırladığı zəhərli şərbəti içməyə məcbur olur və ifşa olunur. Şəmsanın Məhəmmədə münasibətində gizli bir siyasət, sezilməz bir məkr, paxıllıq, intiqamçılıq vardır.

"Şeyx Sənan"da sanki qısqanclıq hadisəsi yoxdur. Zəhra bu hissə kor-koranə, gizlin-gizlin yanır. O, Sənanın sayıqlamalarındakı uzaqgörənliyi, sufizmi, romantizmi, Tanrıya doğru böyük yolunu və s. duymadığı üçün Sənanın ondan uzaqlaşma səbəblərini də aydınlaşdırmaqda çətinlik çəkir və bu yolda üzülüb xəstələnir, sevilə bilmədiyi üçün bədbəxt olur.

Gürcü kintoları Xumarı Sənana qısqanırlar. Sənanın yüksəkliyi onlarda nifrət, paxıllıq, həsəd və s. kimi xudbin hisslərin oyanmasına aparıb çıxardır. Antonla Simon bu əzablardan qaçıb, qurtarmaq üçün Şeyx Sənanın yatdığı dama neft səpib, onu yuxuda olarkən yandırmağa qədər mübarizə edirlər, Xumarın qarşısında Sənana nisbətdəki acizliklərini, adiliklərini ört-basdır etməyə çalışırlar.

"Knyaz"ın Jasmenə qısqanclığında rüsvay olma qorxusu vardır. Jasmen ermənidir, Knyaz gürcü. Burada millətin millətə iradı vardır. Knyaz Jasmenin səsinin vurğunudur. O, öz səsi ilə rəhmətlik arvadına oxşayan Jasmeni bu səbəbdən qorumaq üçün ailəsi ilə birlikdə Berlinə qaçsa da ürəyindəki şübhələr həqiqətə çevrilir və bu həssaslıqdan Knyaz dəli olur. Yeganə övladı Lena tək-tənha qəriblikdə bədbəxt olur.

"Dəqiqinin "Şahnamə" yazmağa başlaması və hələ gənc ikən öz qulu tərəfindən öldürüldüyünə görə məqsədinə nail ola bilməməsi haqqında Firdovsinin yazdığı sətirlər elmi əsərlərdə verilən məlumata tamamilə uyğun gəlir. "Şahnamə"nin mətnində Firdovsi bir daha Dəqiqidən söz açaraq, onun yazdığı

kimi beyti öz əsərinə daxil edir və Zərdüşt zamanında Iran şahı Kuştasp ilə Turan şahı Ərcasp arasında gedən müharibələrdən bəhs edən və natamam qalan dastanı tamamlamaqla Dəqiqinin adını və əsərini ədəbiyyat tarixində əbədiləşdirmək kimi nəcib bir iş görür" /Mübariz Əlizadə/ (30.s.6).

"Bəşərin mədəni həyata ilk addımlarını atdığı əsatiri zamanlardan eramızın VII əsrinədək Iranda və regionda baş vermiş hadisələrin bədii-epik salnaməsi olan bu ölməz əsər haqqında cildlərlə kitablar yazılmış və yazılacaqdır. "Şahnamə" əlli hökmdarın sərgüzəşti, saysız döyüş səhnələri, yenilməz və sarsılmaz qüdrət sahibi cəngavərlərin qəhrəmanlığı, sadə və zəhmətkeş insanın qurub yaratmaq fəaliyyəti, xeyir ilə şər arasında gedən mübarizənin barışmazlığının qanunauyğunluğu, insan təbiətindəki ülvi mübarizənin və nəcib hisslərin tərcümanı olan pak məhəbbət dastanları dahi sənətkarın zəkası ilə ahəngdar şəkildə bir yerə toplanaraq insan ağlını heyran edən misilsiz, vahid bir epopeyaya çevrilmişdir" (30.s.42).

"Firdovsi Südabəni əsasən hiyləgər bir qadın kimi göstərmişdir. Cavid həmin motivi saxlamaqla bərabər, bu qadının səmimi, mənəvi iztirablarını da vermişdir. Cavidin Südabəsi, eyni zamanda güclə saraylara salınan, öz vətənindən, elindən ayrı düşən, həyatında çox haqsızlıq gördüyü üçün sərtləşmiş, bədbəxt bir qadın, qəfəsə salınmış bir quşdur" (11.s.213).

Əfrasiyab türk xaqanı "Çin və türk məzlumlarının birləşərək məmurlara qarşı üsyan qaldırdığını eşitdikdə bərk qəzəblənir. Səyavuşu qızışmaqda olan alovu söndürmək üçün Çin sərhəddinə göndərir. Lakin Səyavuş içərisində yetişib boya-başa çatdığı insanlara əl qaldıra bilmir, dayısının göstərişlərinin əksinə olaraq xalqın namusunu heçə sayan, kəndliləri çapıb-talayan Validə göz dağı çəkdirir. Bir vasitə ilə Səyavuşu aradan götürməyə çalışan Kərşivəz gənc qəhrəmanının bu xeyirxahlığını türk xalqına xəyanət kimi qələmə verir"

(76.s.45).

Səyavuşun çinlilərlə mübarizəsi, psixoloji məqamların, cəmiyyətin fonunda, mərdin namərdlərlə, təmizin natəmizlərlə vuruşudur. Cəmiyyətin, taleyin, fələyin-qara qüvvələrin qabağındakı gücsüzlüyü, çıxılmazlığıdır. Burada da müasir ənənə, klassik ənənəni davam etdirir. Problemlər hər epoxada, hər əsrdə olduğu kimi öz aktuallığını, öz xəlqiliyini qoruyub saxlayır. Mövqeyi yüksək olanın ağlı da, hissləri də dərin olur. Belə qadınların həm gözləri açıq olur, həm də onlar özlərinə çox güvənirlər. Südabə belə qadınlardan birincisidir. Südabənin Səyavuşa hərisliyində təkcə şəhvət söndürmə məqsədi yoxdur. Onun məhəbbətinin mayasında güclü məkr, incə siyasət, sezilməyən düşmənçilik və intiqam vardır. Südabənin Səyavuşla bağlı məcaraları açılandan sonra Keykavus, rəmmal və od ayinini_ icra edənlər tərəfindən mühakimə edilir. Südabə ittiham obyektinə çevrilir. Təmiz adamlar güclü olur, əyilməz olur. Iblislər-Südabələr onların bu gücünü azaltmaq üçün onların təmizliyinə zərbə endirmək istəyirlər. Südabənin hərisliyində Keykavusa, Səyavuşa belə bir zərbə tuşlanmışdı. Atasına zərbə, ata-oğul münasibətlərinə zərbə, şah, şahzadə mövqeyinə zərbə, düşünülmüş, planlaşdırılmış zərbə. Bu zərbə baş tutmayanda Südabə Səyavuşa başqa tərəfdən zərbə endirməklə ən dar anda da öz siyasətində məqsədinə doğru hərəkət etmişdir.

Səyavuş Firəngizin məhəbbətini qazanmaq üçün çox əziyyətlər çəkmişdir. Lakin o, bu qələbənin şirinliyini dadma ərəfəsində işlərini rəsmiləşdirəndə, məhəbbətin təntənəsini yaşamağa başlayanda Firəngizdən uzaqlaşdırılır. Və əsl, xalis, saf məhəbbətlərini yaşayan əksər sevgililər kimi bu şirinlikdən məhrum olur. Səyavuş nakam məhəbbətinin qurbanına çevrilir.

Əsərdəki saray qadınlarından olan Firəngiz gəncdir, gözəldir, gözüaçıqdır, onu sevənə qarşı ayıq-sayıqdır. O, Səyavuşun məhəbbətinə inandığı üçün onu sevir və öz eşqini

etiraf edir. Qeyd etmək lazımdır ki, xəbislik, xudbinlik hər bir insanın təbiətində vardır. Firəngiz hələ incidilməmiş, ruhən əzab çəkməmişdir. Buna görə də biz onun pislik etmək üçün planlarını görmürük. Ancaq inanırıq ki, Firəngiz öz məhəbbətinin intiqamını almaq üçün öz mövqeyindən, öz dərrakəsindən qadın gözəlliyindən gen-bol istifadə etməklə məqsədinə doğru bəhrələnəcəkdir.

"Topal Teymur"dakı Almaz vəzir qızıdır, saray əyanıdır. Saray xanımlarına xas yüksək çalışmalar ona da xasdır. Almazın Orxana qısqanclığında ayıq-sayıqlıq vardır.

Olqa da saray xanımıdır, elindən, obasından ayrılmış bir prinsessadır. Olqanın Orxana münasibətində siyasət, hiylə, məkr gizlənmişdir. "Moskva çiçəyi" bu heyfi Orxanda qoymaq istəməmiş, onu ailəsindən, oğlundan, Almasdan soyutmaqla özünə təsəlli vermişdir. Olqa bu hərəkətləri ilə Orxana sui-qəsd hazırlamışdır. Olqa yaxşı bilir ki, Almaz bu işlə bağlı Orxana borclu qalmayacaq və imkan düşən kimi ərini tapdalamaqla ona "şərəfli" bir zərbə endirəcəkdir.

"Xəyyam"da Sevdanın ruhunun qısqanclığı Xəyyamdan daha çox zövq almaqdır. Sevda bu şirinliyi, bu zövqü, bu nəşəni, bu ən yüksək həzzi başqasıyla böldüyünə görə Xəyyamdan küsür, inciyir. O, bu həzzdən, bu xalis məhəbbətdən ikilikdə nəşələnmək, həzz almaq üçün Xəyyamı qısqanır. Buradakı qısqanclıqlarla bağlı Sevda Xəyyamı özünə qarşı qıcıqlandırır.

Məhəbbətdə seçim ürəklə bağlı olmalıdır. Məhəbbət çox ciddi psixi ruhi hadisədir. Məhəbbətdə zarafat olmur. Məhəbbətdə hər şey ciddi qəbul edilir. Məhəbbətdə ürək əsas orqandır. Ürəyə isə ardıcıl həzz alması üçün mənbə, baza, qarşılıqlı əsaslar üzərində qurulan ailə kifayət edir. Məhəbbətdə obyekt sevən kəsin ürəyincə olmayanda orqanizmdə nasazlıq, həyatda büdrəmələr və bu büdrəmələrlə bağlı əsaslı-əsassız sıçrayışlar meydana çıxır.

"Xəyyam" pyesində Sevda özü Xəyyamı sevib, seçmişdir.

Buna görə də buradakı qısqanclıqlar təbiidir, səmimiyyətdən doğur, odur ki, çox ciddi xarakter daşımır.

Haqq-hesabla bağlı proqramlaşdırılmış məhəbbətlər sağlamlığa əks təsir göstərir.

"Xəyyam"dakı məhəbbətlə bağlı rəvanlıq, ahəngdarlıq yüksək bədii səviyyə, dilin şeriyyəti, zənginliyi, sözün, musiqinin vəhdəti, yüksək sənətkarlıq abu-hava folklordakı ənənə ilə üst-üstə düşür. Folklorda bülbül oğlandır. Qızılgül qız. Maraqlı cəhət odur ki, məhəbbətdə cəmiyyətdəki müxtəlif cütlərin taleyi də təbiətdə olduğu kimi təsvir edilir ki, bu da əsərin xəlqiliyini, simasını, dərkini asanlaşdırır.

Folklorda oxuyuruq: "Yaz fəsli olduğundan çiçəklər açmışdı, Bülbül cəh-cəh vura-vura aşiqi olan Gülün bir yarpağını dimdiyinə götürüb, göydə oynayırdı /Xəyyam Sevda. N.Ə/. Bir bülbül də başını saralıb solmuş qızılgıl yarpağının üstünə qoyub, ölmüşdü" /Şeyx Sənan Xumar. N.Ə/ (2.183).

"Son nəticədə bizə iztirab verən həzz natəmiz, qeyri-saf həzdir. Bir həzz nəticədə yenə bizə həzz verirsə, o əsl, məhsuldar həzzdir. Həyatın yaşayışın, məhəbbətin məqsədi-dünyadan daha çox həzz, nəşə almaqdır. Burada duyğuların gücü məhəbbətin tarixi ilə, orqanizmin hansı dərinlikdən qalxması ilə müşayət olunur.

Nəşənin kökü həmişə təsəvvürlə bağlı olub. Sadalanan səbəblərə görə qadınlar ərlərini qorumaq məqsədi ilə onları bu və ya digər təsadüfi qadından, təsadüfi həzzdən xilas etmək üçün ayıq-sayıq olmuşlar və qısqanmışlar (31).

Sevgi, məhəbbət hissi ilahi hissdir. Burada sevilən tərəfin özünə inamı artır, həyat eşqi çoxalır. Buna görə də hər bir kəs sevib-sevilməyə meyillidir. Yeri gəlmişkən sevmək asan, sevilmək isə çox çətin prosesdir. Ona görə də məhəbbət nə təsadüfi hadisədir, nə də Allahın bəxşişidir. O, alın yazısıdır, tale tapşırığıdır. Məhəbbət insan qəlbinin azadlığıdır, kamillikdir, yüksək incəsənətdir. Başqasının qəlbinin dərinliyindəki hissiyyatların dərk edilməsidir (29).

Özündəki qiymətli cəhətləri başqasının gözündə, düşüncəsində duymaq, hiss etmək həssaslıqdır, sezmədir. Qaratayla Afətin, Arslanbəylə Maralın, Xəyyamla Sevdanın, Şeyx Sən"anla Xumarın və b. arasında həm də belə münasibətlər vardır.

Nigahdakı məhəbbətə nisbətdə qeyri-qanuni məhəbbətin hüdudları geniş olur. Cəlalın /"Uçurum"/ Gövərçinə məhəbbəti nigahlı, Anjelə olan məhəbbəti azad məhəbbətdir.

"Afət"də Afətin Qarataya, Şeyx Sənanın Xumara, "Iblis"də Arifin Rənaya və b. məhəbbətləri azad məhəbbətlərdəndir.

H. Cavidin məhəbbət konsepsiyası dünya məhəbbət konsepsiyasının inikasıdır. Qısqanclıq məhəbbətin vulkan dövrüdür. Bu səddi şərəflə keçənlər bir-birinin mənəvi, ruhi, maddi aləminə hörmətlə, zərifliklə bələd ola bilənlər artıq məhəbbətin məsudluq dövrünə qədəm qoymuş olurlar. Məhəbbətdə məhəbbətin püxtələşmə dövrü məhəbbətdəki qabarmalarla, sönmələrlə sıx bağlı olur. Məhəbbətdə cəhənnəmi, qısqanclığı səbrlə yaşayanlar cənnətə qovuşa bilirlər.

Məhəbbətdən və gözəlliklərdən yazan şairləri "Hüsnü xuda" şairləri kimi ən yüksək yazar hesab etmiş və öz obrazını "Topal Teymur"dakı şair Kirmani ilə eyniləşdirərək "Mənim tanrım gözəllikdir, sevgidir" kəlamıyla özü-öz mövqeyini, əbədi Cavid möhürü ilə möhürləmişdir.

# IV FƏSİL

# MƏĞRUR QADINLARIN RUHU, XASİYYƏTİ, OXŞARLIĞI, AĞLI, PSİXOLOGİYASI, HALALLIQ, SƏDAQƏT, MƏHƏBBƏT VƏ XOŞBƏXTLİK

Mənəvi təmizlik və vicdani saflıq məğrurluqdur. Məğrurluq halallıqla bağlı məfhumdur. Halallıq yüksək mənəvi cövhərdir. Insanın kamilləşməsində halallıq müstəsna rol oynayır. Dahilər cəmiyyətdə halallığın qorunması üçün hər vasitəyə əl atmış və müdrik qanunlarla bu halallığın keşiyində dayanmışlar.

Cəmiyyətimizdəki halallığı qoruyan qanunların əsasını Zərdüşt "Avesta"da yazmışdı. Məhəmməd peyğəmbər isə onu inkişaf etdirərək həyata keçirilməsi uğrunda 23 il ardıcıl olaraq mübarizə aparmışdır.

V.I. Lenin bu qanun məcəlləsindən kommunizmin əxlaq kodeksində gen-bol istifadə etmişdir.

Halallığa çağırış əbədi çağırışdır. Halallıq hissi insanın əsli-nəsli ilə bağlı olub, gen vasitəsi ilə insanın canına-qanına-ruhuna hopmuşdu.

Halallıq insanı məğrur edir. Insan halal olanda doğru-düzgün işlər görəndə qorxmaz olur, güclü olur, məğrur olur, sağlam olur.

Məğrurluqda halallıq var, əzəmət var, böyüklük, bərəkət vardır.

Məğrur adam söz götürməz. Artıq-əskik hərəkətlər edib, irad qazanmaz, cəmiyyətin mənfi rəyindən qorxar.

Insanın halallığa yaxud da naqisliklərə meyli onun doğulub, tərbiyə aldığı mühitdən də çox asılıdır. Bu zaman insan zamanı deyil, zaman insanı idarə edir.

Cəmiyyətdəki mənəvi, ideoloji, hüquqi tədbirlər halallığın

qorunmasına halallıq özü isə sağlamlığa xidmətdir. Sağlamlığın əsası halallıqdır. Insan həyatına zinət olan keyfiyyətlərin meyarı halallıqla bağlıdır. Halallığın cövhərində, mayasında, kodunda zəhmət, əmək, alın təri vardır.

Halallıq çəkdiyin zəhmətin müqabilindəki həyat tərziylə barışmaqdır. Halallıq könlü-gözü toxluqdur, saflıqdır, nəfsə nəzarətdir, məğrurluqdur, ucalıqdır, ayıq-sayıqlıqdır.

Yekəxanalıq məğrurluq deyil!

"Fiziklərin belə bir fərziyyəsi var. Insan orqanizminin əmələ gətirdiyi biocərəyanların dalğaları verilmək və qəbul qabiliyyətinə malikdir. Bu fərziyyəni bir anlığa həqiqət kimi qəbul edib, halal və harama tətbiq edək. Deməli, halallıq haqqında deyilmiş alqış, haram haqqındakı qarğış eyni vəziyyətdə onun sahibinə gəlib çatır.

Həkimlər sübut edirlər ki, xəstəliklərin çoxu qorxu ilə əlaqədardır. Haram da qorxu hissi ilə bağlı olduğundan, bu yolla qazanılan maddi qazanc orqanizmdə həmin haramlıqla bağlı hissləri daha güclü şəkildə oyadır. Nəticədə haram həyat tərzi sürən şəxs qazancını xəstəliyinin müalicəsinə sərf edir. Bununla o, həm oğru kimi mənəvi əzab çəkir, həm də fizioloji cəhətdən xəstə kimi fiziki iztirablar keçirir" (28.s.20)

Halallığın qəlibi vicdandır.

Kim ki, qanında qeybət, kin, paxıllıq, tamah, riya, həsəd, ədavət, kələk kimi haram hisslərdən öz xeyrinə istifadə edir, o, özü cəzalandırılacaq. Məsəldir, deyərlər iynə batırana cuvalduz çox batırarlar.

Insanın canındakı naqisliklər adi şəraitədə üzə çıxmır. Adi şəraitdə hər kəs özünü idarəyə qadirdir. Insanın qəhraman yaxud da qatil adlandırılması təsadüfi hadisə deyil, bu daha çox gendən, əsil-nəsəbdən gələn keyfiyyətdir. Təsadüfi qəhrəmanlığın ömrü ani olur və bu qəhrəmanlıq hesab edilmir. Dünya dövrələmə hərəkətdədir. Burada tez-tez cızığından çıxan artıq şərtin aparıcısı olur.

H. Cavid çox böyük ruhşünas idi. O, məğrurluğu da, halallığı da, yekəxanalığı da, cahilliyi də insanın ruhunda axtarırdı və bu barədə yazırdı. "Təbiətləri aramalı, ruhları bilməli, ona görə hərəkət etməli". (36.s.340) Yeri gəlmişkən onu da qeyd edək ki, ruhun cinsiyyəti formaca dəyişkən ola bilir. Formaca kişi, təbiətən qadına, yaxud da formaca qadın əxlaq və mənəviyyatca daha yüksək kişi ola bilər. Bu cinsiyyətcə qadın kişi formaları üzrə ayrılmış şərtilikdir.

Yekəxanalıq nadanlıqla, məğrurluq aqilliklə bağlı hissdir. I.P. Pavlov bu mənada insanın sinir-sisteminin dörd tipini müəyyən etmişdir, xolerik, sanqvinik, fleqmatik, melonxolik. Bu tiplər bir-birindən kəskin xüsusiyyətləri ilə fərqlənirlər.

**Xolerik** tipli şəxslər sərt, davakar, kobud, dediyindən dönməyən, qəti, hökmlü olurlar.

**Sanqvinik** ancaq özünə aid olan işlərlə maraqlanır, ancaq öz maraqları uğrunda mübarizə aparır.

**Fleqmatik** ağır davranışlı, qapalı, sakit, dözüb-dözüb sonra vulkan kimi qaynayan özünə xas xarakterə malik tipdir.

**Melonxolik** tez ruhdan düşən, qaradinməz, ehtiyatlı, yeknəsək, şübhə edən, qəmli tipdir.

Hər bir insanın dünyaya gəlməsində iki şəxs qadın və kişi mühüm rol oynayır.

Hər bir kəs ana bətnində öz valideynlərinin iş qayğıları və zəmanəsinin abu-havasına uyğun ilahi tapşırıqla dünyaya göz açır. Və bu tapşırığı yerinə yetirə-yetirə öz ruhunu kamilləşdirir. Doğulan hər bir kəsə ata-anasının nəsli ilə bağlı xüsusiyyətlər genlər avtomatik olaraq keçir. Bu nəsildən nəslə keçən xüsusiyyətlər, vərdişlər, məhəbbətlər, qabiliyyətlər yaxşı və pis xüsusiyyətlər ölmür, nəsildən nəsilə keçir. Bax bu nəsildən nəsilə keçənlərin hamısı ruh-adlanır. Ruhlar mütləq nəsildən-nəsilə keçə bildiyi üçün onun ölməzliyi də bu səbəbdən təmin edilmişdir, bu səbəbdən də çox mənalıdır.

Ruhun insan bədəninə daxil olması ilə bağlı fərziyyələr

çoxdur. Ilk ruh Adəmdir. Allahdan Adəmə, Adəmdən də ondan və onlardan doğulanlara keçmişdir və bu proses davam edir. Bu səbəbdən də bəşəriyyət davam etdikcə ruhun ölməzliyi də təmin edilmişdir.

"Ruh möcüzələr möcüzəsi adlandırılmışdır". "Fəlsəfədə-Aristotel yazırdı, ruhun dərki ən ülvi və ən qeyri-adi sahədir,"Ruh bütün canlı məxluqların başlanğıcıdır" ona görə də onun dərki "hər cür həqiqətin dərkinə imkan yaradır", "Ruh haqqındakı ümumbəşəri təsəvvürdə ilk "Kopernik çevrilişi" Ziqmund Freydin adı ilə bağlıdır "(44.s.3) .

Çox vaxt ruh sözü xəyal sözü ilə eyniləşdirilir. Ruh ilə bağlı hadisə qətiyyən mifik hadisə deyil. O, daha çox genetik hadisədir, nəsli hadisədir. Ədəbiyyatşünaslıqda bu söz ideya sözü ilə əvəz olunur. Ruh sözünün məğzi nəslin genindəki xüsusiyyətlərin cəmindən ibarətdir. Filankəsin ruhu deyəndə filankəsin, oxşarı sözünü düşünmək lazımdır.

"Platon iddia edirdi ki, ideya şeylərin ən gözəl nümunəsidir, lakin ideyalar əslində görünməzdir, görünən onların kölgələridir"(69.s.11-12).

Qeyd edək ki, insanların hamısı təkrarsız, fərdi xarakterli boy-buxunları, üz-göz quruluşları ilə seçilən kəslərdirlər. Iki eyni təkrar insan yoxdur.

Eyni insanın üzü, vərdişi, xasiyyəti başqasında təkrar olunanda artıq bu oxşarlıq ruhi hadisə hesab edilir.

Insanlarda olan oxşar vərdişlər, istedadlar, bənzərliklər də bu baxımdan ruhi əlaqə kimi qiymətləndirilir.

"Platona görə biliyin mənbəyini ölməz ruh təşkil edir" (69.s.11-12).

Şərqdəki alimlərin əksəriyyəti insan sözünü iki hissədən insan yəni ruh və bədən, can sözündən ibarət olduğunu təsdiqləmişlər.

"Qədim yunanlar ruhu qismən bədənin yuxarı mərtəbəsinə-başa qaldırmış, beyinlə əlaqələndirmiş və ona daha mistik

məzmun vermişlər. Bu baxımdan qədim yunan filosofu Platonun fikirləri çox səciyyəvidir. Platona görə, ruh "başdan şüurdan, döşdə igidlikdən və qarında ehtiraslardan" ibarətdir. Platon da ruhun müstəqil mahiyyət daşıdığına onun ölməzliyinə inanırdı" (35.s.82) .

Ruh genetik, astroloji, psixoloji hadisədir. Psixologiya-cəmiyyətdə harmoniyaya xidmət kimi ehtiyatdan yaranmışdır. Bu ehtiyaca bəşəriyyət həmişə möhtacdır.

Iyirmi bir adda alın yazısı-allah tapşırığı qeydə alınmışdır. Yaranmışa - (övlada), iki yaradandan - (valideyndən) biri şahiddir. Hər bir adam bu dünyaya gəlişiylə özündən sonrakı şəxsin və özündən əvvəlki şəxsin arasındakı ruhi həlqəni, əlaqəni təkmilləşdirməyə, kamilləşdirməyə öyrənib, dəyərləndirməyə xidmət edir. Təbiətdə artıq canlı olmadığı kimi cəmiyyətdə də artıq-üzv yoxdur. Cəlaləddin Rumiyə görə bəşəriyyət bütövlükdə Allahdır. Bəşəriyyət bütövlükdə dərk edilmədiyi kimi Allah da dərkolunmazdır. Bu mənada Allah yer kürəsinə səpələnmiş bəşəriyyətdir, insan isə onun mikro formasıdır.

Qadın kişiyə nisbətdə ən aktiv zərrə olduğundan mürəkkəbdir və onun da bütövlükdə konket dərki bu baxımdan mümkünsüzdür.

Qadın dünyanın sülh başlanğıcı, kişi isə müharibə başlanğıcıdır. Qadınla kişi arasında olan məhəbbət həmişə qadının sülh arzusu əsasında yaranır.

Qeyd edək ki, kişi və qadın arasında olan ehtiras-sinir ağrıları ancaq, harmonik şəkildə ödənildikdə bu məhəbbətə, sülhə idraklı həzzə, ləzzətə çevriliə bilir.

Cəmiyyətdə olduğu kimi H. Cavid dramaturgiyasında da qadın anadır, sevgilidir, dostdur, cəmiyyətdə əbədi əlaqədir, aparıcı qüvvədir, həlqədir. Qadın məhəbbəti, qadınların tipləri, məhəbbət problemləri ədəbiyyatımızda yeni problem deyildir. Ilk yazılı dastanımız olan "Kitabi Dədə Qorqud" dastanında

Ozan deyir:

"Arvadlar dörd cürdür"- birisi soy soldurandır, /nəsil korlayan N.Ə./ birisi toy doldurandır, /evini yiyəsiz qoyub qapıları gəzən, qeybət, şaiyə yayan N.Ə./ birisi evin dayağıdır. /Ayişə, Fatma cinsidir, evdardır. N.Ə./ birisi necə deyərlər bayağıdır. Işi tökülüb qalır, hər şeyə bəhanə gətirəndir N.Ə/ (47.s.131).

Hər bir qadında ikililik vardır. Biri onun zahiri görkəmi, digəri onun hərəkətləridir.

Qadınların tipləri ilə bağlı bir qədım əfsanə fikrimizi daha da canlandıra bilər.

...Bir peyğəmbərin aman-zaman bir qızı varmış. Qız həddi-buluğa çatanda peyğəmbərin gözləmədiyi bir vaxtda üç hörmətli kişi bir-birindən xəbərsiz öz oğlanları üçün peyğəmbərin qızına elçi gəlirlər. Peyğəmbər nə edəcəyini bilmir. Elçilərin hər birinə ayrıca müsbət münasibəti olduğu üçün heç birini özündən narazı eləmək istəmir. Nə edəcəyini bilməyən peyğəmbər vaxt qazanmaq üçün qızını uzunqulaq və itin saxlandığı tövləyə salıb, qapını bağlayır və qayıdıb, elçilərə deyir ki, qızım evdə yoxdur, sabah gələndə soruşaram hansınızın oğlunu bəyənsə, mən də öz razılığımı ona bildirərəm. Elçilər bu cavabdan razı qalıb, sabaha qədər gözləməyə razılaşırlar. Sabah olcaq peyğəmbər qızını gətirmək üçün tövləyə gedir. Tövlədə qızının eyni olan üç qızı görəndə Allahın bu möcüzəsinə mat qalır. Allahın sirri açılmamalıdır! Peyğəmbər də bu sirri açmadan elçilərin üçünə də ayrı-ayrılıqda qızların hərisini verir. Evlənmə mərasimi başa çatdıqdan sonra peyğəmbər özünün əsl qızını təyin eləmək üçün bir-bir qızlarını yoxlamaq niyyətinə düşür. Gəlib çatır qızlardan birinin evinə. Peyğəmbərin birinci kürəkəni çox sevinib, arvadına deyir:-Tez çay tədarükü gör, atan bizə qonaq gəlib. Qız mızıldansa da heç yerindən də qalxmaq istəmir. Peyğəmbər barmağını dişləyir. "Bu uzunqulaqdır"... Peyğəmbər ikinci gün o biri qızının evinə gedir. Peyğəmbəri

görcək kürəkəni həyəcanlanır və arvadına deyir:

- Dur çay gətir. Atan bizə qonaq gəlib.

Ikinci qız etiraz əlaməti olaraq ərinin üstünə çımxırır.

Peyğəmbər yenə barmağını dişləyir.

"Bu da itdir"...

Üçüncü gün peyğəmbər o biri qızının evinə qonaq gedir. Peyğəmbəri görcək kürəkən də qız da çox şad olurlar.

Üçüncü qızın evində səliqə sahman, sağlam əhval-ruhiyyə gözə çarpır. Qız atasının yerini rahatlayan kimi mətbəxə çay tədarükünə gedir. Bütün dəm-dəstgahıyla süfrəyə çay, şirniyyat, meyvə gətirir.

Peyğəmbər öz qızını tanıyır...

Əfsanəyə görə həmin qadınların nəsli özlərinə oxşar törəmələrlə çoxalıb artmadadır.

Elə bu əfsanədən də aydın olur ki, cəmiyyətdə ağıllılar az nadanlar çoxdur... Və təbii olaraq ağıllılar həmişə nadanların törətdiklərinin iztirabı ilə yaşayırlar.

H. Cavid dramaturgiyasındakı qadınların hamısı dərin zəkaya, təfəkkür tərzinə bağlı qadınlardırlar, bu qadınların hər biri özünü idarəyə və yaxud da özünə haqq qazandırmağa qabildirlər.

Dünya ədəbiyyatından və praktikasından məhəbbət və intim həyatla bağlı qadınların səkkiz tipi qeydə alınmışdır;

1. Ilahi; 2. Iblisanə; 3. Yüksək zümrələrə mənsub yüngül əxlaqlı; 4. Müğənni qadınlar; 5.Gürzə; 6.Qabırğası qalın;

7. Meymun; 8. Qarğayan.

**I. Ilahi qadınlar** - ədəbli, alicənab, mərhəmətlidirlər. Onlar az yeyib-içirlər və kişilərə xoşbəxtlik gətirirlər.

**II. Iblisanə qadının** -təbiətində hiyləgərlik və xainlik vardır. Bu qadın təsərrüfat işləri ilə məşğul olursa, o təsərrüfat iflasa uğrayır. Zahirən belə qadınlar xoşagəlməzdirlər. Onun hərəkətləri və vərdişləri çox bayağı və ədəbsizdir. Bu tip qadınlar həddindən çox həzz almağı xoşlayır. Onun adətən

qırmızımtıl gözləri və isti əl-ayaqları olur. Həyasıslığı var. Isti xörəkləri xoşlayırlar.

**III. Yüksək zümrələrə məxsus yüngül əxlaqlı qadınlar -** Çaxır və ət xörəklərini xoşlayırlar, çox ehtiraslıdırlar və öz istəklərində küt dərrakəlidirlər. Gözəl döş nahiyələri olur, çox pul və tamahlarına görə tez yoldan çıxırlar.

**IV. Müğənni qadınlar -** Musiqi və gül həvəskarıdır sakit həyat və delikatesi-/yaxşı geyinib kecinməyi, məzələri və zərif yeməkləri/ xoşlayırlar. Başqlarını ələ almağı, onlardan pul qoparmağı xoşlayırlar. Onların gözəl fiqurları olur.

**V. Gürzə qadınların** - qeyri-sakit gözləri olur. Elə-belə ağıla malik olurlar. Onlar öz təbiətləri etibarı ilə çox müvəffəqiyyətlidirlər. Avara və işgörməzdirlər, başqalarına şübhəylə yanaşırlar və çox iradəlidirlər.

**VI. Qabırğasıqalın qadınlar**-dayaz ağıla malik, məntiqsizdirlər. Həmişə utanan, qızarandırlar. Çox yeyib yatırlar. Seksual həzzləri xoşlayırlar.

**VII. Meymun qadınlar** - daha çox mazaqlaşır, onların məhəbbəti ədəbsizdir.

**VIII. Qarğayan qadınlar -** daha çox hiyləgər, heç kəsə inanmayan, dərin zəka və enerjiyə malikdirlər (43.s.45-46). Sadalanan keyfiyyətlərin hamısı hər bir qadının təbiətində qədərincə ola bilər. Normadan artıq olanda isə artıq tip kimi qələmə alınırlar.

H. Cavidin dramaturgiyasındakı qadın tipləri daha çox məhəbbətlə bağlı olan qadınlardırlar. H. Cavidin "Şeyx Sənan"la bağlı faciəsi haqqında çoxlu sayda fikirlər vardır. Bu fikirlərdən də biri budur ki, niyə Cavid kimi mütəfəkkir şair Şeyx Sənan kimi bir mürşidi xristian qızı Xumara aşiq etmiş və bu yolda Şeyx Sənan hətta iki il donuz otarmağa razı olmuşdu...

Qeyd etmək lazımdır ki, məhəbbətdə millilik olmur. "Əsli və Kərəm"də, "Bahadur və Sona"da "Şeyx Sənan"da bu

belədir. Və bu əsərlər quruluşların keçid dövründə (1917) yazılmış əsərlərdirlər.

Sənanın Xumara məhəbbətini nə yüz il bundan əvvəlki zaman alqışladı, nə də bu gün xristianların pəncəsində əzilənlər bağışlamadı.

Məhəbbətləri keçid dövrünün burulğanına düşən Kərəmlər milli mentalitetdə Əsliyə, Bahadurlar Sonaya, Şeyx Sənanlar Xumara qovuşa bilmədi, bütün zamanlarda müsəlmanlıq xristianlığa uduzdu və hələlik uduzmaqdadı. Vaxt bivaxt Kərəmlər, Bahadurlar, Sənanlar öz yüksəkliklərini xristian qızları ilə bağlı itiriblər. Bu da daha çox milli münaqişə ilə bağlı izah edilməlidir.

"Əgər tarixin dərslərindən şüur ibrət götürmürsə, günahkar zaman yox şüurdur (51.s.6).

Təəssüf ki, bu gün də say-seçmə oğlanlarımız xristian qızlarının qayğısını çəkir, onların məhəbbətlərini qazanmaq üçün nə lazımsa etsələr də sonda yenə də onlara uduzurlar ki, bu da qohum hissiyyatların dost, qonşu hissiyyatlardan daha doğma, daha etibarlı və sədaqətli olmağı ilə bağlıdır.

Yuxarıda qeyd etdiyimiz kimi H.Cavid "Şeyx Sənan"ı xüsusi məqsədlə yazmışdı. Dövran o dövran idi. Şeyx Sənan Xumarı sevirdi. "Komsomol poeması"nda Mirpaşa məscidə it bağlayırdı. Şeyxlər, mirpaşalar zamanı deyil, zaman bu Məhəmməd hümmətlərini idarə eləyirdi. Bu dövrdə ziyalılar-başbilənlər millətləri dostluğa, qardaşlığa-məhəbbətə səsləyirdilər. Və bu siyasət dövrandan daha çox dövlətlərin ayrı-ayrı şəxsiyyətlərin ağıllı siyasəti idi.

Bu yaxınlarda "Dədə Qorqud"un min üç yüz illiyi ilə bağlı simpoziumlar, yubileylər keçirildi. Bu iş dövlət səviyyəsində olduğu üçün yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar, memarlar, siyasətçilər və b. da bu işə qatılmışdılar.

"Afət" pyesi sosializmin ilk ziddiyyətli illərində qələmə alınmışdır. Yeni quruluşun gətirdiyi anlaşılmazlıqlar /qadın kişi

bərabərliyi/ ömrü keçid dövrünə düşənlərə özdəmirlərə, afətlərə, qarataylara və b. müxtəlif cür təsir edib, onları şaşırmışdır... Və belə çaşqınlıqlar quruluşların dəyişdiyi bütün zamanlarda başqa zamanlara nisbətən daha çox olmuşdur.

Hər yazar öz dövrünün güzcüsü olmalı və sağlam həqiqətə xidmət etməlidir. Başqa cür mümkünsüzdür...

Dünən dövlət sovet hakimiyyətinə xidmət edirdi. Sovet hökuməti də Allahı inkar edirdi, məscidləri bağlatdırırdı.

Bu gün müstəqillik ideologiyası altında yenə-Tanrıya-dinə üz tutmuşlar. Bu dəyişmələr hər şeydən əvvəl təbiətin yerə təsiri ilə planetlərin yerdəyişməsi ilə ölçülməlidir. Bütün zamanlarda belə vaxtlarda kütləni ifadə etmək üçün müəyyən tədbirlər görülmüşdür. Sovet dövründə onları "represiya" ilə, yaxud da maarifləndirməklə, bazar iqtisadiyyatına keçid dövründə mövhumatla çərçivəyə salmaq, idarə etmək lazım olmuşdur.

Biz sosializmin ən yüksək nöqtəsinə-kommunizmə çatdıq. Meyvə də yetişəndə istər-istəməz budağından torpağa düşür və ikinci həyatını yenidən başlamaq üçün cücərir.

Quran 14 əsrdir ki, mövcuddur. Ondan əvvəllər də həyat, yaşayış olmuşdur. 124-min peyğəmbərin varlığını təsdiq edən fikirlər bu gün də mifologiyada qorunub saxlanılır. Ötən əsrlərdə illərin hər biri insanın kamilliyinə xidmət etmişdir. Dünən Qobustanda qayalar üzərində heyvan şəkli çəkən insanlar bu gün bu işi bilgi sayarlarla /kompyuter-lərlə/ edirlər.

Dinə qayıtmaq geriliyə, fanatizmə qayıdış kimi dərk edilməməlidir. Dinə qayıdış halallığa, ədalətə, zəhmətə, məhəbbətə-Tanrıya qayıdış kimi şərh olunmalıdır. Gələcək nəsillər geriyə baxanda onlardan əvvəlki mütəfəkkirlərdən nümunə götürüb, öz gələcəklərini qurmalıdırlar. Bu keçmiş məxsusi gələcək naminə Cavid dramaturgiyasında dramlaşdırılmışdır.

"Ana" dramında Səlmi ana dünyagörmüş qadındır. O bilir

ki, birinə pislik edən mütləq başqaları tərəfindən cəzalandırılacaq. Odur ki, o, oğlu Qanpoladın günahsızlığının heyfini almaq üçün daha güclüyə-Allaha üz tutur, canilərin başqa güclülər tərəfindən cəzalandırılmalarına sidq ürəkdən inanır. Peyğəmbərlərin də möcüzələrinin səbəbi bütün dövrlərdə allahın ədalətinə inam olmuşdur. Günahkarın bağışlanması yaxud cəzalandırılması Allahın izni ilədir. Və günahkar çox vaxt elə həmin ərəfədə cəzalanır, yaxud da psixoloji cəhətdən cəzalanacağı günün iztirabı ilə cəzalanacağı günü gözləyir...

H. Cavid öz publisistikasında həm ədib, həm filosof olmaq üzrə iki böyük simanı, iki mütəfəkkiri; Lev Tolstoyu və alman filosofu Nitsşeni bir-biri ilə müqayisə edir. Bu müqayisə heç də təsadüfi deyildir. Nitşe zəiflərin əzilməsinə təbii hal kimi baxır. Və bu doğrudan da belədir. Bütün zamanlarda zəiflər həmişə güclülər tərəfindən istismara və əzaba məhkum olunmuşlar ki, bu da onların daha çox qayda qanuna zidd getmələri ilə əlaqələndirilmişdir.

Lev Tolstoyun "Canlı meyit" pyesində Liza Fedyanı da Viktoru da paralel olaraq sevir. Zaman keçir. Liza ailəsinin ziddinə gedərək Fedya ilə ailə qurur. Fedyanın aşağılara meyli, içkiyə aludəliyi, qaraçı qadınlara olan rəğbəti tədricən onu Lizadan, onun həyatından uzaqlaşdırır. Nəticədə Liza hər sahədə ona doğma, uyğun alicənab olan onun öz mühitinə uyğun olan Viktorla evlənir (72).

Salam Qədirzadənin "46 bənövşə" povestində Könül paralel olaraq qonşusu Emini və Dəryanı sevir. Zaman keçdikcə Könül zövqünü bir qadınla məhdudlandırmaq istəməyən Dəryanı tanıyır. Dərya Könül üçün yadlaşır. Nəhayət Könül həyat yoldaşı Dəryadan ayrılıb, uşaqlıq dostu olan Eminlə ailə qurur (53).

Demək hər bir kəsdə ikili xarakterin dost və doğma hissiyyatların olması mütləqdir. Insan öz-özlüyündə həm Tols-

toy, həm də Nitsşe fəlsəfəsini dərk edə-edə kamilləşir. Insanın ruhundakı-təbiətindəki ziddiyyətlər insanın kamillik dövründə daha qabarıq şəkildə üzə çıxır. Insanın əsil-nəsəbi ilə bağlı xüsusiyyətlər, ruhundakı halalla harama meylliklər də məhz bu zaman insanın kamil çağlarında üzə çıxır. Onu da qeyd etmək lazımdır ki, məhəbbət qəhrəmanlarının əksəriyyəti seçdikləri qızın, qadının yüksəkliyi ilə bağlı məşhurlaşmışlar. Koroğlu Həsən paşanın qızı Nigar xanıma görə, Lev Tolstoyun "Anna Karenina" romanının qəhrəmanı qraf Vronski ailəli qadın Anna Kareninaya görə, "Afət"də Qaratay Afətə görə, "Xosrov və Şirin"də Xovrov Şirinə görə və s.

Amerika yazıçısı Teodor Drayzerin "Cenni Herhardt" romanında Amerikanın senatoru mister Brenderlə, fabrikant oğlu Lester Keyn ən adi təbəqədən olan Cenni Herharta görə ədəbi qəhrəman səviyyəsinə yüksəlmişlər (14).

"Nitsşe zəiflərin əzilməsini təbii hesab edir. Teymur isə daha çox məğrurları əzməyə meyllidir. Əmir o məğrurları əzməyə qərar verir ki, onlar özlərindən zəifləri əzirlər. O zəifləri əzən məğrurları cəzalandıraraq, onların da bir başqası qarşısında gücsüz olduqlarını sübuta yetirir" (58.s.49).

Səlmi ananın qatili özündən daha güclünün-Allahın ixtiyarına buraxmaq fikri adi bir fikirdir. O bununla həm oğlunun vəsiyyətini yerinə yetirir, həm də gələcək bədbəxtliklərin qarşısını almaq istəyir. Qəti hökmü zamanın ixtiyarına buraxır.

Bütün dövrlərdə müdrik qadınlar öz ədalətli fikirləri ilə kişilərə yol göstərmişlər. "Dünyanı gəzən müdrik Isgəndərə həqiqət dərsini Bərdədə Nüşabə, Asiyanı dolaşan filosof Sənana isə həqiqət işığını Qafqazda Xumar nişan verir. Cavid ənənəyə də qlobal miqyasda nəzər salır" (51.s.320).

Onu da qeyd etmək lazımdır ki, başqa sahələrdə olduğu kimi sevgi-məhəbbət sahəsində də halallıq olmayan yerdə hər kəs uduzur. Gələcəyi olmayan xoşbəxtliyə kölgə düşür.

Ailə qurarkən ruhən psixoloji, mənəvi cəhətdən özünə bərabər qadınını tapmayanların həyatları yarımçıq qalır. Yolları ayrılmışlar təcrübə yolu ilə öz ruhuna uyğun olanı axtarıb tapmağa çalışırlar. Bu qəbildən olan  gəzəyən qadınlar yaxud da kişilər dikbaşı - "məğruru" məğlub etməyə can atırlar. Beləliklə Qaratay Afətə, Afət də Qarataya meyillənirlər.

Afət özünə güvənən qadındır. O, Qaratayı tərbiyə etməyə, çərçivəyə salmağa cəhd eləsə də bütün tədbirləri heçə çıxır.

Qısqanc qadınlar daha çox gəzəyən ərlərini gələcək bəlalardan qurtarmaq istəyirlər.

Afət Özdəmiri sevmir. Nə üçün? Özdəmir həddən artıq ağıllı və fəhmlidir. Onun bu xüsusiyyəti Afət kimi ağıllı tədbirli qadını kölgədə buraxır. Üstəlik Afət hər dəqiqə ifşa olunduğu üçün nəhayət necə varsa eləcə özünü Qarataya təqdim edir. Və bu qətiyyət onun bütün mənfi-müsbət keyfiyyətlərini üzə çıxarıb, nəhayət onu bir obraz kimi səciyyələnməsinə yardım edir.

Lev Tolstoyun "Anna Karenina" romanındakı Annaya qarşı Vronski diqqətli, qayğıkeş, həssas, öz fərdi xüsusiyyətlərinə görə seçilən məhəbbəti uğrunda hər dəqiqə hər şeyə hazır olan, hətta öz xidməti vəzifəsini belə qurban verən bir kişidir. O, təkcə Anna Kareninanın yox, hər bir qadının arzusunca olan bir obyektdir. Sadalanan xüsusiyyətlərə hamıdan çox artıq bütövlüyü parçalanmış, ailəsi dağılmış, övladları yadlaşmış Anna Karenina bələd olduğuna görə o hər dəqiqə Vronskini itirmək təhlükəsiylə qoşa gəzir.  Narahat həyatı onu xoşbəxt olmağına hər gün mane olur, nəhayət o, özünü bu qorxudan xilas etmək üçün Vronskinin eşqi naminə qatarın altına atır. Bu müdhiş dəqiqələrində  Annaya təsəlli verən yeganə ümüd Vronskinin Annadan sonra çəkəcəyi iztirablardı. Anna Vronskiyə görə səhv etmir. Annaya görə bir dəfə özünü güllə ilə vuran Vronski Annadan sonra heç kəsi sevmir, istefa verdiyi işinə qayıdıb, qalan ömrünü Rusiya-Türkiyə

münaqişələrindəki müharibə ilə bağlı işlərə sərf edir.

Biz belə bir alicənablığı Qaratayda görmürük. Qaratay onun uğrunda gedən Afəti başqa qadınlara dəyişməklə nəinki özünün adiliyini, şərəfsizliyini, yarımçılıqlığını təsdiq edir, o, hətta Afəti də adiləşdirib heçə endirmək istəyir. Lakin Afət öz qəti hərəkətləri və ölümü ilə öz yüksəkliyini təsdiqləyib, onu qəti ifşa edir.

"Ana" dramında Izzətlə Orxanın söhbətlərindən mə"lum-dur ki, Orxanın Qanpoladla düşmənçiliyi vardır. Biz bunu Orxanla Izzətin danışığından bilirik.

**İzzət**

*Bir həftə əvvəl qızı birdən-birə*
*Alıb qaçırsaydın başqa bir yerə*
*Imdi gözəl-gözəl sürüb keyfini,*
*Qanpoladdan çıxarmışdın heyfini (4.s.245).*

Düşmənçiliyə görə Qanpoladdan heyif çıxmaq istəyən Orxan əvvəl xoş sözlərlə Ismətin razılığını almaq istəyir. Ismət barmağındakı üzüyü Orxana göstərib, Qanpolada nişanlı olduğunu xatırladanda isə elin müqəddəs adətlərini heçə endirir; nadanlıqla, yekəxanalıqla deyir:

**Orxan**

*Üzük, nişan yalnız könüldür, könül!*
*Olma cocuq... Sən gəl mənə ver könül!*
*Yarın atlanıb bu göydən çıxalım*
*Igid kimsə, qarşı çıxsın baxalım (4.s.225).*

-deyir.

Orxanın bu dırnaq içindəki igidliyi ona baha başa gəlir.

Halallığın keşiyində duran Allahın izni ilə Orxan Qanpoladın xəncəri ilə cəzalanır. Və bu haqlı cəzaya görə oxucu bu ölümə sevinir və onu lənətləyir.

"Ana" dramındakı Qanpoladın ölümü mərdanə ölümdür. Ismətin hərəkətləri ölçülü hərəkətlərdir. O, məhəbbətinə görə, musiqi qabiliyyətinə görə məğrurdur.

Ana ömrünün kamillik mərhələsini yaşayır.

Ismətin qardaşı da namuslu halal olduğuna görə bacısına düz yol göstərə bilir. Ismətin canında halallıq olmasaydı, o, ucuz xoşbəxtliyə meyllənərdi... Biz bu ucuz xoşbəxtliyə meylinə görə əks tərəfin yekəxana Orxanın və Çərkəs Muradın timsalında görür onların bədbəxtliyində müşahidə edirik.

Nəticələr Ismətin Qanpolada layiq və bərabər olduğunu göstərir. Qanpolad məğrur ölümü ilə əbədiləşir, yadda qalır, yüksəlir.

"Maral" dramındakı Maral obrazı "zərərin yarısı da xeyirdir" misalındakı psixologiyaya əsaslanıb, özünə bərabər Arslan bəyə qoşulub qaçmaq istəyir. Hələlik Maral özünü düşünür. Sevdiyi Arslan bəyə qovuşub, düşdüyü quyudan çıxmaq istəyir.

Turxan bəy orta yaşlarında, Marala mehribanlıq edən bir ərdir. Onun kəbinli arvadının kiməsə qoşulub, qaçması Turxan bəyə ölümcül zərbə olardı. O, bu zərbənin qarşısını almaq üçün əlbəyaxa olur, haqqını müdafiə edir. Turxan bəy öz tayını almadığına görə səhv edib. Bu səhvə görə o, cəmiyyətdə namussuzluq möhrü ilə damğalanmaq hissindən ucada dayanan bir bəydir.

Şeyx Sənan faciəsində Sənanla Xumarın qarşılaşdığı ilk səhnə adi səhnələrdən deyildir. Simonun Serqo ilə Xumara gül bağışladığı anda Sənanın diqqəti Xumara yönəlmişdir.

**Şeyx Sənan**

/ Dalğın bir halda yoldan keçər, başını
qaldırıb, Xumarı görüncə mütəhəyyir/

*O nə! Röyamı gördüyüm, eyvah!*
*Omudur?... Lailahə illəllah! (5.s.59).*

Xumar Sənanın yuxuda gördüyü qızdır. Yuxuda qız, qadın görmək uğursuzluqdur. Sənanın uğursuzluqları da gördüyü həmin yuxudan başlanmışdır. Sənan öz məhəbbətinə görə Xumarı tələsdirmir. Xumarın məhəbbətini qazanana qədər... Öz məhəbbətini sübut etmək üçün cəfalara qatlaşır.

"Şeyx Sənan" faciəsindəki Xumarın bu dünyadan umacağı yoxdur. Onun xoşbəxt olmaq istəməməsi, Xumarı xoşbəxt etmişdir.

Hamı Xumara görə narahatdır. Təkcə Xumar heç kəsə görə narahat deyil. O, rəfiqəsi Nina ilə birlikdə bu dünyadakı işlərdən baş çıxarmaq istəyir vəssalam.

Faciədə Xumar Zəhraya nisbətdə passiv obrazdır. O, daxili dünyası ilə əlləşən qızdır. Zəhra Sənanın qayğısını çəkməyə, ona həyan olmağa çalışır. Sənan minnət duyğularından azad, yüksəkdə duran oğlandır. Bu səbəbdən də o, Zəhraya yox, Xumara meyllidir. O, Xumarın diqqətini cəlb etmək xətrinə hər şey etməyə razıdır. Sənanla Xumar arasında ruhi, mənəvi məhəbbət vardır.

Xumar monastr həyatı seçmiş, kainatın sirrlərinə vaqif olmaq istəyən bir qızdır. Sənan görkəmli şeyxdir. Onlar ruhən bir-birlərinə yaxın və doğma kəsdirlər. Xumara nisbətdə Zəhra Sənan üçün qulluqçu mövqeyini etiraf edən adidir. Onun adiliyi Sənanın könlünə yatmır.

"Şeyx Sənan"dakı obrazların hər biri öz ruhuna uyğun hərəkət edirlər. Bundan başqa bu əsərin qəhrəmanları məxsusi öz ruhlarından başqa həm də dövranın ruhunu tutub, dövrə görə hərəkət eləmək zəruriyyəti qarşısındadırlar. Onların

məhəbbəti milli və dini məhəbbətdir.

"Səyavuş" dramındakı Südabə şah qızıdır, şah arvadıdır. Onun bir sözünü iki eyləyən yoxdur. Südabə ən əziz duyğusunu-məhəbbətini Səyavuşa bəxş eləmək istəyir. Səyavuş onu "ana" hesab etdiyi üçün öz atasının şərəfi naminə Südabənin ehtirasını rədd edir. Südabənin həm xəyanət etmək istəyinin üstü açılır, həm də Səyavuş tərəfindən rədd edildiyi üçün arzuları daşa dəyib, çiliklənir.

Səyavuşun amirəliyi, gözəlliyi məhəbbətə müqavimət hissi Südabənin Səyavuşa qalib gəlmək istəyini alovlandırır. O, sirri açılmasın deyə Səyavuşu məhv etmək üçün planlar cızır:

**Südabə**

*Əgər bütün saray yanıb, tutuşsa,*
*Vaz keçəməm onun eşqindən-əsla-deyir*
*(6.s.264).*

Südabə əsərin əvvəlində hökm verir və əsərin sonunda çeviklikdə, qəhrəmanlıqda aslana bənzəyən Səyavuşa qalib gəlir.

H. Cavid dramaturgiyasındakı qadınlar Afət, Südabə, Olqa, Şəmsa və b. əslində hissiyyatlarını köləlikdən xilas etmək üçün etiraz və qürurla ayağa qalxıb, mübarizəyə atılmışlar. Bu mənada təmiz ehtiras da məhəbbət sayılmalıdır.

Qaratayın da əxlaqsızlığa yuvarlanmasına səbəb, özünün daxilən zəhərlənməsi, tormozlana-tormozlana obyektlərini dəyişməsidir. Bu halı biz başqalarına, o cümlədən də Anjellərə şamil edə bilərik.

"Afətdən sonra Südabə dramaturqun yeni ədəbi nailiyyəti idi. Faciədə Səyavuşu bir neçə yerdən qorxulu təhlükə gözləyir. Səyavuş-Keykavus, Səyavuş-Gərşivəz, Səyavuş-Əfrasiyab konfliktləri baş verir. Lakin əvvəldən axıra qədər

davam edən və Səyavuşun məhvində mühüm rol oynayan konflikt Səyavuş-Südabə konflikti olur. Son üç pərdədə Südabə səhnədə iştirak etmir, lakin bu qorxunc qadının dəhşətli kini qara bir tale kimi Səyavuşu yenə də təqib etməkdə davam edir. Südabə Səyavuşun ardınca zəhərli qədəh və xəncər göndərir, nəhayət Turan xaqanı Səyavuş haqqında saxta xəyanət ilə aldadılır və s"(49.s.151) .

Məhəbbətin yaranması üçün hər şeydən əvvəl güclü ehtiras lazımdır. Ehtiras insanın qanındakı artıq enerjidir. Bu mənada məhəbbət ehtirasdır ki, bu da nəticəsiz əmək şəraitində həzz alma ilə aradan qaldırılır. Lakin ehtiras məhəbbət deyil. Ehtiras məhəbbət, mehribanlıqdı, sağlam həyatla bağlı qayğıdı, sülhdü, qarşıdakına canıyananlıqdı, həzz mənbəyidir. Bu məqama, məsudluğa çatmaq üçün isə mütləq ehtirasdan keçmək lazımdır.

"Südabə ehtirası yolunda heç nədən çəkinmir. O, yalvarır, böhtan atır, yeri gəldikdə isə öz hökmran ərinin gözləri qabağında belə, günahkar, qadağan olunmuş eşqini hətta bir qürur, təntənə ilə e"lan etməkdən də çəkinmir. Atəş səhnəsi faciədə ən qüvvətli səhnələrdən biridir. Südabə ağuşuna atılmağa hazırlaşdığı tonqal alovlarına qəhqəhə çəkərək gülür və deyir:"

**Südabə**

*Bu xoşdur, mana,*
*Könlümdə yanğın var, başda fırtına*

(Acı gülüşlə)

*Təsir edərmi heç atəş atəşə?*
*Vuruldum yanaraq mən Səyavuşa...*
*Sevgisiz yaşayan canlı bir məzar*

*Sevərkən ölənlər daha bəxtiyar(49.s.151).*

Yenə Ə. Sultanlının Cavid yaradıcılığı ilə bağlı iradlarına üz tuturuq.

"Peyğəmbər" dramı /1923/ ictimai motivlə dolu olsa da, dramaturqun hələ də yanlış görüşlərdən ayrılmadığını göstərirdi. Cavid bu əsəri yazmamalı idi. Cəmiyyətimizdə bütün cəbhə boyu çürük islami əqidəyə qarşı amansız mübarizə getdiyi bir dövrdə islamiyyətin başçısı Məhəmməd peyğəmbəri dram qəhrəmanı edib diriltmək, müəllifin ideya ziddiyyətlərini daha da qabardıb üzə çıxardığı kimi azad olmuş bir xalqın mübariz məqsədlərinə qarşı qoymaq idi" (67.s.113). Ə.Sultanlı sovet dövründə bu cürə danışmaqda haqlı idi. Tədqiqatçı kimi yazmaqda isə qətiyyən haqlı deyildi. Tədqiqatçı mənəviyyata çıraq tutandır. O, zamana uymamalıdır.

Bu sətirlərdən sonra daha Cavidə düşmən axtarmaq lazım deyildi. Çünki düşmən elə ocaq başında idi. Maraqlıdır ki, Əli müəllimin fikrinə görə də Şəmsa ilə Məhəmmədin arasında məhəbbət oyunları altında "ideya mübarizəsi" gedir. Şəmsa bütpərəstdir, peyğəmbər islam dininin başçısı. Mübarizədə Peyğəmbər qalib gəlir.

"Səyavuş" faciəsi ilə bağlı Turan Cavidin qeydləri maraqlıdır: "Atam Firdovsinin anadan olmasının min illiyinə həsr etdiyi "Səyavuş" pyesi üzərində 1932-ci ildən işləməyə başlamışdır. Bir ümumi dəftərin son səhifələrində pyesin nəsrlə yazılmış variantı işlənmişdir. Sağ səhifələrində isə faciənin nəzmlə yazılmış variantına rast gəlirik. Pyesin ilk variantının adı "Südabə" olmuşdur (10.s.325) . Daha doğrusu "Səyavuş və Südabə" olmuşdur. Sonra isə sadəcə "Səyavuş" adlandırılmışdır.

"Səyavuş" talesiz, günahsız deməkdir. Günahsız adamlarda qorxu yaratmaq, onu ləkələmək isə klassik üslubdur, klassik ənənədir.

Buradakı ədalətsizlik dövrün abu-havasını əks etdirmişdir. Bu məsələlərlə bağlı tarixən çoxlu hadisələr qeydə alınmışdır.

"Əxlaq" latınca "moralis" sözündən olub mənəvi adətlərə aid olmaq-mənasında işlənir və hər kəs əxlaqi normaların keşiyində durmağı özünə borc bilir. Mənfi halları ictimai rəy pisləyir, xalqın millətin mentalitetinə zidd əxlaq normaları tənqid atəşinə tutulur.

Əxlaq adət-ən"ənə ilə sıx əlaqədardır. Əxlaqın da bir neçə növü zamana görə qeydə alınmışdır; ibtidai-icma əxlaqı, burjua əxlaqı, dini əxlaq, proletar əxlaqı və s.

"Insan cəmiyyətinin ilk dövrlərində ata, ana öz övladı ilə, bacı öz qardaşı ilə cinsi əlaqədə olurdu və o zaman bu heç də əxlaqsız (cəmiyyətdəki qəbul edilmiş qanunlara zidd) hərəkət sayılmırdı. Cəmiyyətin inkişafının müəyyən mərhələsində qan qohumluğu ilə əlaqədar olaraq cinsi əlaqələrdə müəyyən qadağanedici qaydalar qoyuldu. Ən əvvəl valide-yinlə övladın cinsi əlaqəsinə qadağan qoyuldu. Daha sonra, bacı-qardaşların cinsi əlaqəsinə imkan verməmək adəti yaranmağa başladı. Bunun üçün ananın ailə başçısı olduğu tarixi dövrdə, yəni madərşahlıq dövründə oğlanı başqa qəbiləyə göndərirdilər. Atanın ailə başçısı olduğu dövrdə, yəni padərşahlıq dövründən başlayaraq bu adət dəyişdi. Başqa qəbilələrə qızlar göndərildi" (16.s.13-14).

Südabə Səyavuşu öz ehtiraslarının qulu etmək üçün sevir. Südabədən fərqli Firəngiz Səyavuşun igidliyinə, qəhrəmanlığına məftundur. Bunların arasındakı halallıq istər-istəməz məhəbbətə, sülhə, ədalətə aparıb çıxarmış və bütün zamanlarda olduğu kimi burada da böyük məhəbbət cəmiyyətin qüvvəsi və təzyiqi ilə xəyanət, dikbaşlıq və nakamlıqla nəticələnmişdir.

"Çiy idim bişdim yandım"/C.Rumi/ Kamala yetməyin, /"bişməyin"/ yaddaşda və əxlaqda keçdiyi yol, əslində, bu üç mərhələdən ibarətdir.

"Və bu üç mərhələni hər dəfə, hər nəsillə, hər fərdlə tarix yenidən keçir. Və hər dəfə yaddaşda bu üç mərhələ yeni cür təkrar olunur. Əbədi, əzəli əxlaqi əlbəyaxa elə məhz bu mərhələlər və qütblər arasında davam edir. Həmin mərhələlər arasında yolda və yol ayrıcında həmişə xam püxtəyə, nadan müdrikə, qrafoman loğmana əl, dil və qılınc qaldırır. Heç eşitmisinizmi Isa Ponti Pilotı çarmıxa çəksin? Yox, tarixdə həmişə qrafoman Sokratı, mankurd Qorqudu, qaragüruh və irtica həllac Mənsuru və Nəsimini çarmıxa çəkib! Bəli, yaddaşın da tarixində həmişə "atan-kazaklardır", xanlardır, naxallardır. Və həmişə də onlar mehraba, müqəddəsliyə daş atırlar. Sonradan təzə mehrablar və məbədlər həmin daşlardan tikilir" (51.s.13-14).

Bəşəriyyət mövcud olandan bəri Adəmlə Həvvanın bolluqdakı, firavanlıqdakı, ikilikdəki həyatlarını cənnət adlandırmışlar. Iblis araya girənə qədər onlar xoşbəxt olmuşlar. Iblisin şirin sözlərinə inanan, uyan Həvva qadağan olunmuş ağacın (Bu söz şərti sözdür. Mənbələrdə buğda, üzüm, elm, cavanlıq alması kimi işlənsə də mənası "qadağan olunan" sözdür) meyvəsindən dadandan sonra Adəmdən ayrılmış düz yetmiş il bu peşimançılıqla bağlı göz yaşı axıtmışdır.

Şair də yaxşı demişdir:

*Bircə yol qadını yetir arzuya*
*Dili gödək olar, dönər quzuya(32.s.110).*

Çox vaxt qadınlar məhəbbətin özünü görməkdə kor olurlar. Bu "korluqdan" çıxmaq üçün onlar məhəbbətlə bağlı sözlərdə məhəbbət axtarırlar. Qadınların hamısında müqəddəsliyindən, dindarlığından, şahzadəliyindən, hökmdarlığından, adiliyindən, qeyri adiliyindən asılı olmayaraq kişilərdəki şirin sözlərə maraq, aludəlik vardır. Onlar məhəbbətin nədən ibarət olduğunu

anlamaq, dərk etmək, bilmək istəyirlər. Və çox vaxt da onlar bu marağın, bu məhəbbətlə bağlı bəlanın, bilginin qurbanına çevrilirlər. Qeyd edək ki, bu kişilərdə də belədir.

Hələ qədim ədəbiyyatda qadınlar barəsində deyilmiş sözlər indiyə qədər də qüvvədədir.

*Qadında yüngüllük, həlimlik də var.*
*Nə hava çalarsan, ona da oynar.*
*Kişilər deyənə inanar qadın*
*Al dillə qoynuna atılar yadın.*
*Qadın olsa belə, ağıllı, zirək*
*Şirindil kişiyə əsirdir-gerçək (32.s.50)*

Bu şirindil kişilərdə məhəbbət axtaran qadınların hamısının əli boşa çıxıb. Sonda Əli aşından da olublar, Vəli aşından da.

Qəbul edilmiş əxlaq normalarına zidd çıxanlar üçün həmişə haqqın qəzəbi xalqın töhməti olmuşdur. Qəzəblə töhmət üst-üstə düşəndə isə cəmiyyət haqlı iradları ilə qadını qiymətdən salır. Bunu dərk edəndə isə qadın bədbəxt olur. Bədbəxt qadınlar üçün bəlalı məhəbbətlər gecələr qəm gətirər, gündüzlər sitəm. Onlar bu bəladan qaçmaq üçün yol axtarsalar da sonda daha dəhşətlisi ilə təkbətək qalırlar.

Qadın təbiəti, qadın qəlbi çox mürəkkəbdir. Dünyanın özündən də mürəkkəb və sirlidir onlar. Qadınlar sevilərkən qızılgül ləçəklərinə, atılanda püskürən vulkana bənzəyirlər. Bu zərifliklə, qəzəb, kin arasındakı qıcıq qadın heysiyyəti, qadın ləyaqəti ilə sıx bağlı hissdir.

"Simvolistlərə görə, qadın insanı vəhşilikdən qoruyan, onu şər qüvvələrdən xilas edən yeganə varlıqdır. Qadın nəvazişi, qadın ülfəti kobud, vəhşi hissləri yumşaldır və yox edir. Humanist hisslər oyadır və inkişaf etdirir"(15.s.26).

Məhəbbət hər şeydən artıq halallıqdır, zəhmətdir, qurbangetmədir, aylıq məvacibdir. Bu hisslərlə

mükafatlandırılmayan tərəf uduzduğunu, aldandığını dərk edəndə verdiyi nəşələri, qurbangetmələri haram eləmək üçün hər şeyə əl atır.

Turxan bəy Maralı, Afət Qaratayı, Südabə Səyavuşu, Dilşad Orxanı, Zəhra Sənanı, Arif Rənanı tənə edir.

Yuxarıda qeyd edilmişdir ki, çox vaxt qadınlar ərlərini yaşlı olduqlarına görə sevməmişlər. "Yusif və Züleyxa" dastanında Züleyxa Misir hökmdarı Əzizi, Anna Karenina əri Aleksey Karenini, Südabə Keykavusu, Maral Turxan bəyi, Afət Özdəmiri və s. Doğrudur müəyyən məqamlarda bu cütlər yaş fərqlərinə görə biri digəri üçün anlaşılmaz olmuşdur. Yaşlı kişilərin ağır təbiəti, dərin düşüncəsi bir çox hallarda onları cavan qadınları üçün dözülməz etmişdir. Bunun əksinə isə bu yaşlı kişilər öz qadınlarına məhəbbət oyunlarından daha faydalı olan rahatlıq, firavanlıqlar, qayğıkeşliklə sıx bağlı olmuş məhəbbətin özünü bəxş etmişlər.

Məhəbbətdə hər kəs üçün geriyə qayıtmaq əzabdır. Xüsusən də ailədə. Bəlkə elə bu səbəbdən uduzmuşlar, aldanmışlar, özlərini birincinin uğrunda yox, ikincinin uğrunda öldürmüşlər. Anna Karenina əri Alekseylə yaşamaqdansa, Vronskinin uğrunda ölməyi seçmişdir. Afət Özdəmirin yox Qaratayın uğrunda, Qarataysız həyatına Qaratayın şərəfsizliyinə atəş açmışdır. Hər iki qadının özü qeyri adi olduğu kimi seçdikləri ölüm də qeyri-adi, əzablı, qəti və mərdanədir. Sonuncu duyğu, mərdlik duyğusu əsas verir deyək ki, məhəbbətdə qurbangetmə daha çox Afətdə imiş. Anna Kareninada imiş. Əks tərəf gözü açıqlıqdan bu sərvətə yiyələnmək üçün hər cürə cildə düşməyə çalışmışdı. Qaratay bir az da irəli gedərək evi, sərvəti olan Alagözlə evlənib, Afətin üstündən birdəfəlik xətt çəkmək istəyəndə, özündən daha ağıllısına rast gəldiyini anlamış və aman verilmədən güllələnmişdi.

Ailədəki xoşbəxtliyi hər iki tərəf birlikdə qorumalıdır. Bu tarazlıq pozulanda ən möhkəm ailə də təməlindən dağıla bilər.

Ayıq-sayıqlıq olan yerdə məhəbbətlə qurulan ailə daha da möhkəmlənir.

Lev Tolstoyun "Anna Karenina" romanında Annanın bacısı Yekaterena ilə Konstantin bir-birlərini öyrənərək ailə qurmuşlar. Bu səbəbdən də onların ailəsinin dağılma ehtimalı azdır.

Levinə görə dəhşət Kitinin gözəlliklə intim hisslərlə bağlı xəzinəsinin kiməsə görünməsidir. Levin bu görən gözləri oymaq, bir dəfəlik kor qoymaq hissi ilə yanan öz xəzinəsini də, məhəbbətini də, təsərrüfatını da həssaslıqla qayğı göstərib qoruyan bir ərdir. Belə dəqiqələrdə Kiti ərinə ona görə etiraz edir ki, o, özü öz xəzinəsini-qadın gözəlliyini; nəfsini, ləyaqətini, heysiyyətini hər kəsdən daha yaxşı qoruya bilir: "Ərinin qısqanclığı ilk dəqiqədən onu təhqir etmişdi; ən kiçik, özü də məsum bir əyləncənin ona qadağan edilməsindən Kiti kədərlənmişdi" (71.s.173).

Konstantinlə Yekaterinanın arasındakı qısqanclıq hissləri bir-birini itirmək qorxusundan da çox bir-birini qoruyan qısqanclıq hissləridir. Bu səbəbdən də onların arasındakı bu qayğıkeşlik hər iki tərəf üçün anlaşıqlıdır.

Anna Karenina Vronskini sevdikdən sonra gözü indiyə qədər onunçün qapalı olan çirkinliklərə açılır. Çox görmək onu "azdan" məhrum edir. Və o, Vronskinin hər dəqiqə bu çirkinliklərə meyllənə biləcəyini hiss edə-edə deyingən, əsəbi, qısqanc bir məxluqa çevrilir və nəhayət özünün dözülməzliyinə dözməyərək özünü Vronskini ilk dəfə gördüyü platformadan qatarın altına atır...

Anna Vronskiyə qədər bilmədikləri ilə nə qədər sakit və rahat idisə Vronsk ilə bağlı sevda bilməcələrindən sonra o, o qədər əsəbi, narahat və bədbəxt olmuşdu. Onun əvvəlki ruhu rahatlığı pozulmuş, əzabları artmış üstəlik də öz səadətinə arxayınlıq hissi qurtarmışdı. Anna içindəki çirkinliklərlə bağlı bu əzablara son qoymaq üçün özünü həlak etməkdən

çəkinməmiş, içinə düşən şübhənin böyüməsini gözləmədən sürəti artıraraq ölümün üstünə getmişdi.

"Insana şüur ona görə verilmişdir ki, onu narahat edən şeydən yaxasını qurtarsın" (71.s.405) -demişdir.

"Anna Kareninaya görə məhəbbət ülvi hiss deyil. Onlar /təzə evlənənlər N.Ə./ məhəbbətin nə qədər kədərli, nə qədər təhqirli olduğunu bilmirlər" (71.s.393).

Elə Anna özü etiraf edir ki, bir vaxt əri Alekseyi də sevmişdir. Bu səbəbdən də "Mən onun gözlərinə baxa bilmirdim" (71.s.309) -deyir. Qeyd edək bu hiss ilə onun ərlərinin arasındakı bərabərsizliklər izah edilməlidir.

Anna elə əzəldən bu səbəbdən Vronski ilə qaçmağa məcbur olur. Afət Özdəmiri zəhərləyir. Vicdani hisslərini ört-basdır eləmək üçünsə hər cürə qurban verərək daha çox sevildiklərini isbat etməyə çalışsalar da nəticədə özləri-özlərini aldatmış olurlar.

Bu da müasir Leylilərdən birinin etirafıdır: "Məhəbbət mənə xoşbəxtlik, yüngüllük, rahatlıq gətirmədi. Göz yaşı gətirdi, qüssə gətirdi, on uşaq böyütməyə bərabər ağırlıq və əziyyət gətirdi"(78.s.230). Bu fikirlərdə də ən əvvəl bərabərsizliklər mütləqdir.

El arasında bir deyim var. Adamın ilk bəxti Allahın iradəsi ilədir, ikinci bəxti peyğəmbərin. Peyğəmbərimiz Məhəmməd də özünü birinci xanımı Xədiceyi Kubra ilə aralarında çox kəskin yaş fərqi olduğuna baxmayaraq xoşbəxt hesab etmişdir. Elə Xəyyamla Sevda da xoşbəxt olmuşlar. Deməli kişi ilə qadın arasında yaş maneə deyil. Təki ruhi yaxınlıq olsun.

Qadınlarda məhəbbətlə bağlı qüsurlar onların biliksizliyinin nəticəsi kimi meydana çıxır. Onlar sevdiklərini öyrənib öz biliklərində kamilləşəndə artıq onların özləri tərəfindən fırıldaqçı tərəf ifşa olunur. Yaşla bağlı ziddiyyətlərdə həqiqətən də çox yanlışlıqlar vardır.

Orta əsr sxolastiklərinə görə "bədən gözəlliyi yalançı, saxta

gözəllikdir. O, günah, aldanış, rəzalət mənbəyidir. /Buna görə də qadın "iblis damarıdır."/"(24.s.18).

"Romantik yazarlar qadın əsarətini qadınlar əleyhinə bir müəssisə olaraq izlərkən; A Mithət Əfəndi isə əsarət anlayışına fərqli yaklaşır. Ona görə əsarət sayəsində qadın sokadın təhlükələrindən qorunur" (77.s.133).

"Türk romantikləri içərisində qadını ülvi bir sevgiylə ucaltma N. Kamalda görülür. Onun "Vaveysyla"sında Vətən çox gözəl bir qadındır. "Riya" əsərində qadın hürriyyət kultuna girən pəri nitiqləri ilə toplumu ayağa qaldırır.

"Gülnihal" da isə qadın, xalqın qurtuluşu və iztirabını təmsil edərkən, digər yandan xalqı inqilaba hazırlayan inqilabçı bir tip arzədir. "Hilali Osmani" şerində isə qadın tanrıdan aldığı gözəlliklə Vətəni təmsil edir"(74.s. 134).

H. Cavid dramaturgiyasındakı qadın obrazları təsadüfi düşünülməmişdi. Qadınla bağlı bu əlvanlıqda məqsəd "qadın və cəmiyyət problemlərinin ən müxtəlif tərəflərini əks etdirmək idi" (37.s. 219)

Cavid dramlarındakı qadınların zahiri gözəllikləri xüsusi əhəmiyyət kəsb etmir. Bu gözəlliyin içərisində gizlənmiş şər ən çox da bu şəri sezib onunla birləşməyə can atan bədxahlar qamçılanır. Qadınlarda etik, estetik duyğu ilə əxlaq duyğusu birlikdə olanda gözəllikdir. Bu gözəllik duyğusuna bələd olan Cavid özünün məhəbbət konsepsiyasında daxili saflığa, halallığa, kamilliyə, xüsusən də bərabərliyə məxsusi qiymət vermişdir.

Turxan bəylə /müstəqil şəxslə/ Maralın /asılı şəxsin/ arasındakı qeyri-bərabərlik onların arasındakı uçurumu daha da dərinləşdirmişdir. Yeri gəlmişkən islam ölkələrində "başlıq" bu qeyri-bərabərliyi aradan qaldırmaq üçün düşünül-müş tədbir kimi bu gün də yaşamaqdadır.

Bu başlıqla qadın özünə lazım olan cehizi ala bilir, bununla da kişi ilə qadın arasındakı bərabərlik qismən də olsa ödənilir.

Məhəbbət iki ruh, iki can arasındakı qavrayışdır, anlayışdır. Bu anlaşma şüurun tərəqqisidir.

Topal Teymurla Dilşad xanım arasında, Yıldırım Bəyazidlə xanımı arasında, Şeyx Sənanla Xumar arasında, Arslan bəylə Maral arasında, Xəyyamla Sevda arasında və b. anlaşmalar məhəbbətdir.

"Məhəbbət uğrunda ölmək məhəbbətin təsdiqi, məhəbbəti unudaraq rahat yaşamaq isə məhəbbətin inkarıdır" (15.s31).

Qadınların özlərinin fiziki bədənləri, geyimləri, ənlik kirşanları, həyata münasibətləri xarakter və mövqeləri eyni olmadığı kimi məhəbbətə münasibətləri də müxtəlifdir.

Şirin Xosrovun oğlu Şüriyənin "sevgisindən" qaçmaq üçün özünü Xosrovun cənazəsi önündə öldürür. Biz bunun əksini Südabə obrazında görürük. Südabə onun ehtiraslarına cavab vermək istəmədiyinə görə Səyavuşu məhv edir.

Maralı bədbəxt edən hiss özünə inamsızlıqdır. Maral özünə güvənə bilsəydi sevgilisi Arslan bəyi qoyub, acından ölməmək üçün Turxan bəyə ərə getməzdi. Yaxud Afət Qarataya münasibətdə özünə çox güvənməsəydi bədbəxt olmazdı, üstəlik Özdəmirin, Qaratayın da bədbəxtliyinə şərait yaratmazdı.

Qadın qəlbi konkret məfhum deyildir. Qadın qəlbinin gizlinlikləri, daxili qatları məhz ailədə, ikilikdə, bir tavan altında yaşayarkən üzə çıxır. Birinə xoş gələn digərinə xoş gəlmir. Qadın, kişi üçün, kişi qadın üçün tamın yarısı olduğundan tərəflər də məxsusi bu vahidlik üçün çırpınırlar. Kimin ağlı, əxlaqı, ruhu nizamlıdırsa o, öz yarısını axtarıb tapır. Tapa bilməyənlər axtaranlardır. Onu da qeyd edək ki, iblis tipli qadınlar üçün başqalarının bədbəxt yaxud da xoşbəxt olması onları düşündürmür. Onlar daha çox şəxsi məqsədləri naminə çalışırlar.

Bir gözü ağlar, bir gözü gülər, məkrli gülçöhrəli qəlblərin seyrinə çıxan Cavid də konkret olaraq qadını xoşbəxt edə bilən bir sxem əldə edə bilməmişdir. Bu hər şeydən əvvəl ona

görədir ki, hər kəs bu sahədə inkişafdadır. Taleyini özünə sükan edənlərlə, taleyin sürüdüklərinin mülahizələri biri digərinə zidd olduğu kimi məsləhətlərə də hər kəs özünəməxsusluqla yanaşır.

Məhəbbət-zəhmətdir, halallıqdır. Bu nemətlə bağlı öz haqqının köləsi olanlar da var, başqasının zəhmətindən umanlar da, milçək kimi könül bulandıranlar da, ancaq xeyir görüb bəhrələnmək istəyənlər də və s.

"Xosrovun dərin məhəbbətlə sevməsinə və "dünyalar şahının" igidgahlığına baxmayaraq Şirin onunla kəbinsiz yaşamağa razı olmur"(24.s.43).

Şirini yüksəldən bu qanuna-cəmiyyətə hörməti biz Afətdə görmürük.

Ürək ağrısı ilə qeyd etmək lazımdır ki, bu günkü qızlarımızın əksəriyyəti kommunizmin bizə bəxş etdiyi azadlıq nəticəsində Afətlərə çevrilmiş və öz bədbəxtliklərini ev-ev yamaq-yamaq, paylaya-paylaya halal ocaqları söndürməyə səbəb olmuşlar.

Quruluşların içərisində daha çox kommunizmdə məhəbbətlə bağlı dəyərlər-sağlamlıq, gözəllik, zənginlik, gənclik, əzab, iztirab içində olmuşdur. Deməli məhəbbət qətiyyən maddiyyətlə bağlı deyilmiş.

H. Cavid dramlarındakı qadınların bəziləri cəmiyyət tərəfindən qəbul edilmiş əxlaq normalarından kənara çıxmış qadınlardır. Anjel, Afət, Südabə və b. Sədaqətli qadınlar haqqında çoxlu sayda ədəbiyyatlar mövcuddur. Dekabristlərin qadınları ərlərinin dalınca sürgünə gedirdilər. Pelegeya Nilovna /M. Qorki "Ana"/ kütləni öz dalınca aparmaq üçün oğluna silahdaşlıq edirdi.

Koroğlunun Nigarı, Qaçaq Nəbinin Həcəri onların həm həyat yoldaşı, həm də silahdaşları idilər.

Böyük Vətən müharibəsində qadınlar Zoya Kosmodemyanskaya kimi minlərlə partizanlar, tibb bacıları,

kişilərlə birlikdəVətəni qoruyurdular.

Hər bir qadın öz əslinə və nəslinə oxşadığı kimi eyni zamanda zəmanəsinin nəbzini tutub, onunla birlikdə döyünür. Bu sərhəd pozulanda isə ədəbi qəhrəman kimi faciəli bir taleyin yiyəsi olur.

Könül dərdi, sevda bilməcələri, adi qadınlardan çox, dahi qadınlara xas olan keyfiyyətdir. Bunlardan bəziləri itirib axtaranlar, bəziləri də axtara-axtara tapanlardır. Bilikli və iradəli, gözəlliyini və öz fərqini dərk edənlər, özünəgüvənən olurlar. Qadınlar təbii yolla rast gəldiklərinin məhəbbətinə inanırlar. Sevənlərin ilk tanışlığı onların gələcək münasibətləri üçün açardır. Belə açar qadın qəlbindəki kilidə düşəndə onlar bu taleyə inanır. Inanır ki, bu sirr onların taleyidir. Insan məhəbbətlə dünyanı öyrənir. Allahı və dünyanı dərk edir. Məhəbbətsiz həyat yoxdur. Qadınlar məhəbbətli həyatlarında təmiz ehtiras uğrunda ağlayırlar. Bu təmizliyə milçək qonanda, yad təması toxunanda qadınlar məkrli olur, intiqam hissləri ilə yaşayırlar.

Çox vaxt məhəbbəti zəiflik, könül xəstəliyi, ürəyin melenxoliyası adlandırırlar. Bu doğrudan da xəstəlikdir. Özü də həm dadlı işgəncəli xəstəlik, həm də ürəyin və ruhun xəstəliyinə qarşı dərmandır. Bu mənada bir-birini sevənlər üçün məhəbbət loğman və dərmandır.

Təbii yolla rastlaşmaq ilk anda şübhədən uzaqlıqdır, minnətsizlikdir. Məhəbbət halallığın, taleyin bəxşişidir. Insan sevərkən telepatik hissə tutulur, üstəlik də özündən də çox mürəkkəb, sosioloji və bioloji mühitə, təbiətin-Allahın onu idarə etməsinə inanır və sevir.

"Bu hadisənin elmi sirri hər iki adamın bir məsələ barəsində fikirləşməsidir. Fikirləşən şəxslərin beyin qabığında əmələ gələn elektrik cərəyanı maqnitisizmin köməyi ilə digərinə çatdırılır. Belə halda məsafənin yaxın və uzaq olması qətiyyən heç bir rol oynamır. Televizor pultu efirdə olan dalğaları

tutduğu kimi, insan beyni də onu tuta bilir, hətta insan beyni bu barədə televizordan çox-çox üstünlüyə malikdir"(64.s.75).

Təbii yolla rastlaşmaq sevgililərdə yaranacaq şübhələri əvvəlcədən yox edir. Onlar öz hərəkətlərində daha səmimi olurlar. Dədə Qorqudda Bamsı Beyrəklə Banuçiçəyin qarşılaşdığı, "Səyavuş"da Səyavuşla Firəngizin qarşılaşdığı səhnələr belə məhəbbətli görüşlərdəndir.

Məhəbbət Yusif bazarıdır. Buradakı məhəbbəti Züleyxalar dəyərləndirməyə qabildirlər. Məhəbbət bazarında saxta ürəklər, adi diləklər qiymətləndirilmir. Sevənlər bir-birinə ruhən, yəni dünyagörüşləri ilə, vərdişləri ilə, qabiliyyətləri ilə doğma deyillərsə, bir-birlərini gələcəkdə də tamamlaya bilməyəcək, nəticədə tamlıq, vahidlik alınmayacaq, onlar bir-birini tərbiyələndirmək üçün dəridən qabıqdan çıxacaqlar. Nəticəsiz əməklə məşğul olacaqlar. Çox vaxt belə yanlışlıqlar da, mübarizələr də məhəbbət adlandırılır. Əlbəttə bu səhv fikirdir.

Afətlə Qaratayın arasında olan münasibət kimi Cəlalla Göverçinin arasındakı kimi və s. Bunların arasındakı məhəbbət birtərəfli olduğu üçün sonu uğursuzluqla bitmişdir.

Məhəbbətin mayasında ardıcıllıq, halallıq, məhəbbət oyunlarının mayasında isə yarımçıq və natəmiz həzzlər vardır.

Insan taleyindəki köklü dəyişikliklər Allahın icazəsi ilə, insanın iradəsi ilə baş verir. Insan öz taleyindəki, genindəki "sirri" kəşf etmək, özünü başa düşmək, dərk etmək üçün öz taleyi tərəfindən istiqamətləndirilir.

"Yusif və Züleyxa" dastanında Yusifin taleyi süd anasının taleyinə bənzəyir. Ailədə 10-cu uşaq olan Yusif dünyaya gələndə atası ona süd verən kənizin uşağını satdırır ki, Yusif süddən korluq çəkməsin. Yusif qul kimi satılanda atası öz günahını dərk etdiyi üçün iztirab çəkir, müdrikləşir. Yusif təmizliyinə, günahsızlığına görə sevilir. Qeyri-adilik taxtına çıxır.

Qadın xarakterini qadının özü kimi izah edən ikinci şəxs

azdır. Anna Karenina öz təbiətini etiraf edəndə içindəki məkr, çılğınlıq, böhtan, xəyanət, vəfa, sədaqət, kin ehtirasları şimşək kimi çaxır. Bu səbəbdən bu dahi, sirli məxluq özü-özünə yadlaşır ona sədaqətsizliyi etirafdan özgə yol qalmır.

"Mən də güman edirdim ki, Serejanı /oğlunu N.Ə./ sevirəm və öz nəvazişlərimdən riqqətə gəlirdim. Amma onsuz yaşamadımmı, onu başqa məhəbbətə qurban vermədimmi? Və bu məhəbbətlə sevdiyim müddətdə verdiyim qurban üçün şikayət etmədimmi?"(70.s.402).

"Vis və Ramin" poemasında Vis qanuni əri olan Möbid şahın evində rud, tanbur çalan, içki düşgünü Ramini sevir, şaha xəyanət edir, lakin özünü xoşbəxt hesab etmir. Anna kimi etiraf edir ki,

**Vis**

*Ramin yaraşıqlı cazibədardır*
*Di gəl ki, nə qədər yalanı vardır.*
*Sevgidə vəfası, etibarı yox,*
*Dili şəkər kimi, zahiri mumdur*
*Daxili görünür oddur, zəqqumdur.*
*Əllərdə oyuncaq olmuş bir qızam*
*Yüz yarım olsa da yenə yarsızam (31.s.150)*.

Ramin Visin gözəlliyinə, təmizliyinə sərraf nəzəri ilə göz yetirəntək, mahir cibgir kimi yoluna çıxıb, ayıq sərxoşu soyan kimi lütləyir...

...Kişinin qəlbindəki şəhvət onun gözlərindəki fərəh hissidir...

Qadın ürəyində atəş çoxalanda, beyin tormozlanır. Belə vaxtlarda Qaratay Afətə "aşiq" olur. Maral öndəki dəhşətlərə "kor" qalaraq Arslan bəylə qaçmaq istəyir. Südabə Səyavuşa sarılır, Şəmsa peyğəmbəri zəhərləmək istəyir, Orxan Olqanı

Moskvadan odlar içindən çıxarıb Türküstana gətirir, Anjel qucaqdan-qucağa atılır, dünyadakı ərköyünlərin oyuncağına çevrilir. Xumar peşman olub özünü qayadan atır. Vaqif xar olub zamanı lənətləyir.

*"Of... partla ürəyim, yazıq Xuraman*
*Bizim eşqimizi məhv etdi zaman"*

-deyə bilir (75.s.302).

H. Cavidin istər qadın, istərsə də kişi qəhrəmanlarından daha çox xoşbəxt olanı Xəyyamla Sevda, Məhəmmədlə Xədicə, Ismətlə Qanpoladdır.

"Xəyyam" pyesi musiqiylə, nəğməylə, vüsalla dolu məhəbbət əsəridir. Qoca Xəyyamın zəngin təxəyyülü ilə vurğun Sevdanın çal-çağırlı günlərinin gülüstanından dərilmiş gül dəstəsi, bu güllərin ətrindən çəkilmiş incə ruhlu mey badəsidir. Buradakı obrazların həssaslığı təbiətlə o qədər həmahəngdir ki, sanki bu əsər insan əliylə deyil təbiət tərəfindən yaradılmış, ölçülü-biçili, içərisi e"cazlarla dolu orkestrdir. Misralardan süzülən ahəngin zənginliyi insanın ruhunu vəcdə gətirir. Əsəri oxuduqca cənnətdəki hurilərlə qılmanların varlığına inanırsan. Xəyyamla Sevdanın vüsalının şirinliyi oxucunu, dinləyicini, tamaşaçını sərməst edir. Əsərdə cəmi bircə illüstrasiya olsa da oxucu, tamaşaçı hər səhnəni, hər anı mavi, çəhrayı, qızılı tüllər, zərif çiçəklər, quşların cəh-cəhi, şəlalələrin, otların şehə qərq olmuş pıçıltısı ilə mehli, ətirli havanın təmasıyla birlikdə ciyərlərinə çəkir. Sanki toydur, göydən şabaş əvəzinə ulduzlar səpilir. Buradakı xoşbəxtlik təkcə Xəyyamla Sevdaya yox, onların dostlarına Vəfaya, Səfayə, Rəmziyə və b. da aiddir. Təəsüf ki, onların da xoşbəxtliyi uzun sürmür.

H. Cavid dramaturgiyasındakı qadınlar öz nənələrinin nəvələridirlər. Bu nənələri biz ayrı-ayrı sivilizasiyalarda,

mərhələlərdə, qadın obrazları ilə bağlı eposda, dastanlarda, nağıllarda, tarixi deformasiyalarla bağlı dünyagörüşlərdə bir sıra fərdilikləri ilə bağlı oxuyub, dərk etmişik.

Çox vaxt folklordakı qadınları da onların təbiətlərinə uyğun quş adıyla, heyvan adıyla gül, çiçək, günəş və s. adlarla simvollaşdırmışlar. H. Cavid də bu ənənədən gen-bol istifadə etmişdir. Onun "Maral" dramındakı Maral tələdə vurnuxan, qəfəsə salınmış, azadlığa can atan marallardan biridir. Gözləri dolmuş buluddur. Söhrab Tahirin ifadəsiylə desək "gecə yağışıdı, günəş batanda". Demək ad təsadüfən qoyulmamışdır.

"Uçurumda" Gövərçin, ağ quşun, təmizliyin, paklığın, məhəbbətin, günahsızlığın rəmzidir. Tarixdə quş adları çoxdur. Ağ quş, Simurq quşu, Şanapipik, və s. Belə quşlar əvvəllər guya qadın olmuş, qiymətləndirilə bilmədikləri üçün quşa çevrilmişlər. Nağıllarda göyərçinlər taledən xəbər verir. Ölü dirildir, bu baxımdan Gövərçin Cəlalın gələcək taleyini duysa da onunla razılaşan yoxdur. O kefli Iskəndər kimi təkdir. Nəticədə Gövərçin nağıllardakı kimi nəinki ölür dirilir, üstəlik öz körpəsini də itirir, özü də heyif almaq üçün qucağa atılır, mənəvi cəhətdən süquta uğrayır.

Astroloji hesablamalara görə hər kəs öz adına oxşayır. Göyərçin də öz adı kimi gözəllik, təmizlik, sülh, harmoniya məhəbbət rəmzidir.

Qadın həyatın başlanğıcıdır. O, dünyaya insan gətirən, böyüdən, artıran, dirilik, bəxş edən ilahi simvoldur. Qadınlar xüsusən də ilahi qadınlar bu səbəbdən qanadlı təsvir edilmişlər. Madərşahlıq, anaşahlıq dövründə yaxud əvvəlki mifologiyada da qadınlar ikili xarakterləri ilə qeydə alınmışdılar.

Cavan qızlar, gəlinlər, bahara, göyərçinə, pəriyə, günəşə, qoca qarılar, küpəgirən qarılara, köpək qarısına bənzədilmişdi.

"Şah Ismayıl" dastanındakı Ərəbzəngi o qədər qüvvətli qadın obrazıdır ki, o hətta baş qəhrəman olan Şah Ismayılı da kölgədə qoya bilir.

Burla xatun, Selcan xatun, Banuçiçəklərin də zaman-zaman nəsilləri artıb törəmişdir.

Mənəvi ruhi azadlıq görməyən marallar, gövərçinlər H. Cavidin dram yaradıcılığındakı palıd ağacının olsa-olsa şüykə bir budağıdır. Bu şüykələrin erkən sınması Cavidi sarsıtmışdı. H. Cavidin qadın qəhrəmanlarının hər biri qadın psixologiyasının bir səhifəsini öz həyatı bahasına izaha çalışan mükəmməl obrazlardır. Bu ağacın kökü Xədicə xanımdır, Fatma nənədir, Dilşad xanımdır, Səlmi anadır və s.

Ədəbiyyatda hər kəsin öz adı olduğu kimi onların bənzətmələrinin də öz adları vardır. Ipək qadınlar, köpək qadınlar və s. Qadın gözəllik, çılğınlıq, məhəbbət, məkr, böhtan, xəyanət, zülm, vəfa, sədaqət anlamlarını özündə birləşdirən ilahi məxluqdur. Yaxud da orta əsr sxolastiklərinin təbirincə desək "iblis damarıdır". Bu iblislərin daha çox bədbəxtlik yaymasında onların dayələrinin əməyi danılmazdır.

Dayələr həssas, mehriban, qayğıkeş bir obraz kimi bütün zamanların ədəbiyyatlarında yardımçı obraz kimi fəaliyyət göstərmişlər.

"Səyavuş"da Südabəyə, "Vis və Ramin"də Visə, "Yusif və Züleyxa"da Züleyxaya və b. məhz dayələri hər cürə köməklik edərək onların qələbələrini qətiləşdirmişlər. Bu dayələrdə tilsim, cadu yazmaq qabiliyyəti, çubuqla daşa döndərmək, oğlandırsa qıza, qızdırsa oğlana döndərmək keyfiyyətləri, loğmanlıq xüsusiyyətləri olmuşdur. Əksər qadınlar fəndgirliyi ilə, tədbiri ilə, fiziki cəhətdən sağlam olan qüvvətə, halala - Tanrıya qalib gələrək, ana funksiyasını yerinə yetirərək südabələrin arzularının yerinə yetməsi naminə Səyavuşların, mərdlərin, təmizlərin məğlub olmasında müstəsna rol oynamışlar.

Insanlar bütün dövrlərdə zaman-zaman dara düşəndə həmişə demonizmdən istifadəyə can atmışdır.

"Ana" dramında bircə oğlunun xətrinə yaşamış Səlmi ana bu

yolda birçək ağartmışdı. Fədakar ananın bircə oğlu Yusif kimi ("Oğlum Yusif kimi (Yusif peyğəmbər nəzərdə tutulur. N.Ə.) həbsə düşmüş") həbsə düşmüş indi isə həbsxanadan qayıdaraq son anda namusunu qoruya bilir, qəhrəmanlıqla rəqibini susdurub, anasına layiq halallığı isbat edir.

Ailədəki məhəbbət qarşılıqlı əsaslar üzərində qurulmalıdır. Belə olarsa qadın ərinin yolgöstərəni, dayağı, sirdaşı, məsləhətçisi, yeri düşəndə məşuqəsi, anası, bacısı, evinin sütunu olar. Ata-anaya, ərə, övlada sədaqətli qadınlarımız öz irsən keçən, sonradan qazanılıb inkişaf etdirilən ləyaqətləri ilə evdarlığı, qonaqpərvərliyi ilə seçildiyi kimi düşmən qarşısında də əyilməz, ötkəm olmuşlar.

Qazanın arvadı Burla xatun belə anaların ağbirçəyidir. O, düşmən qarşısında ərinin şərəfini, ləyaqətini qorumaq üçün oğlunun ətindən bişiriləcək qara qovurmanı da yeməyə razı olur ki, bu yolla tayfasının, ərinin ləyaqətini tapdalayanları özündən uzaqlaşdıra bilsin.

Kitabi Dədə Qorqudda Bamsı Beyrək göbəkkəsmə nişanlısı Banuçiçəklə at çapır, ox atır, güləşir və s. sonra oğlanın igidliyinə, mərdliyinə bələd olub hər sahədə ruhuna xoş gələn, fiziki və psixoloji cəhətdən özünə bərabər olana özünü nişan verib, əhdi-peyman bağlayır, özündən güclüsünə onun qayğısını çəkməyi bacarana arvad olmağa razı olur.

Qeyd edək ki, məhəbbət oyunları gələcək normal, nigahlı məhəbbətin ilkin şərtləridir. Nigahdan qabaq məhəbbət oyunları olmayanda oğlanla qız bir-birini tanımadan evləndikləri üçün onların ailəsinin də taleyi qeyri-müəyyən ola bilər. Binadan qarşılıqlı maraq, təmizlik, düzlük möhkəm dostluq əsasları üzərində qurulan ailələrin sonrakı taleyi də uğurlu olur. "Peyğəmbər" dramındakı Həzrət Məhəmmədlə Xədicə xanım, Həzrət Əli ilə Fatma xanımın, "Topal Teymur"da Teymurla Dilşad xanımın, Yıldırım Bəyazidlə Meliçanın və b. nigahı belə uğurlu nigahlardandır. Həyatın mənasının ağıl ilə

dərk etmək Arifləri iblisləşdirir. Hissiyyatla dərk etmək Məhəmmədləri peyğəmbərləşdirir. Səlmi anaları müdrikləşdirir. Bütün zamanlarda ağıl bədbinliyə, etiqad şirinliyə aparır. Ailə səadəti birbaşa qadınla bağlı olduğu üçün ailənin xoşbəxtliyi də bədbəxtliyi də əvvəldən sonacan qadınla bağlıdır. Lakin ailədə qadının sözü keçməyəndə qadınlar təklənir və qurbana çevrilirlər.

Haqq-hesabla qurulan ailələrin ömrü qısa olur. Belədə qadın yıxmayan ev qalmır. Qadın qəlbinin gizlinlikləri, daxili qatları məhz ailədə, ikilikdə bir tavan altında yaşayarkən üzə çıxır. Ailə kiçik cəmiyyətdir. Bu kiçik cəmiyyətdə baş verənlər H. Cavid dramaturgiyasında sadədən mürəkkəbə, adidən aliyə inkişaf prosesi keçmişdir.

Buradakı istər mənfi, istərsə də müsbət, yaxud da yardımçı obrazlar, rəngarəng personajlar öz yüksəkliyi ilə qadın məfhumunun gerçək gücünü qorumağı bacaran, hər sahədə gözəl tədbirləri, məsləhətləri ilə seçilən qadın tipləridir.

1917-ci ilin oktyabr inqilabı bu inqilabın havası zəmanənin ruhu bu ruhla ailə quran qadınların həyatını dəyişdi. Bəzi qadınlarımız milli mentalitetimizə xas olmayan xüsusiyyətləri ilə müasirləşdilər, dırnaq içində yeniləşdilər. Və onlar bu yeniliyin qurbanı kimi böyük Cavidin dram əsərlərinin qəhrəmanına çevrildilər.

Rəğbət-məhəbbət deyil. Ilk baxışda vurulmaq isə olsa-olsa adicə rəğbət hissidir. Bu hissin məhəbbətə-sədaqətə, qayğıya, diqqətə, ləyaqətə-çevirmək isə bir günün yox, günlərin, ayların, illərin nəticəsidir. Məhəbbət qazananlar yaxşı bilir ki, bu yolda can qoymaq ən azı nəyin varsa qurban vermək lazımdır. Verilən qurbanların müqabilində isə heç nə istəməmək... Bax məhəbbət budur. Heç kəs evini, varını, dövlətini kiməsə bağışlamaz. Məhəbbət adıyla özünü kiminsə qucağına atmaq, cəmiyyətin qanunlarına biganə olmaq heç kəsin yox, elə həmin yelbeyinlərin özlərinin ləyaqətlərinə hörmətsizlikdir.

Məhəbbət, bizə alın yazısını, Allah tapşırığını yerinə yetirmək üçün verilmişdir. Biz bu enerjidən qocalana qədər bəhrələnirik. Bu hissə inamımız öləndə isə biz qocalırıq. Ona görə də məhəbbəti sağlamlıq kimi, göz bəbəyi kimi qoruyub yaşatmaq lazımdır.

H. Cavid heç bir siyasətlə razılaşmadan qadına xas bütün gözəllikləri alqışladı, çirkinlikləri, hərislikləri, acgözlükləri /Anjelləri/ ifşa elədi, hamıya doğru düzgün yol göstərdi.

Cavidin yazdıqları da bu səbəbdən dəyişən quruluşlara, məruz qalmadı əsrdən əsrə gözəllik və sevgi kimi qədəm qoydu. Zaman dəyişəndə də Cavid zamanı dəyişdirənləri, azad məhəbbət nəğməkarlarını /"Uçurum"/ başqa millətlərlə evlənənlərin uğursuzluqlarını əks etdirdi. Beləcə Şeyx Sən"an Xumara qovuşmadı, Bahadur Sonaya qovuşa bilmədi, Kərəmlər od tutub yandı.

Demokratiyanı, anarxiya kimi anlayanlar üçün sosializmdə, kommunizmdə atalı-analı "biclərə", "detdomlar" nənə oldu, dayəlik etdi.

"Knyaz"dakı Jasmen "Afət"də Afət və bu kimi başqaları zəmanənin, yeniləşmələrin tə"siri ilə həyatlarını dağıdıb, əldən-ələ düşmüşdülər.

Hər cürə təbliğatda halallıq, ləyaqət əsas şüar olmalıdır. H. Cavidin qadın obrazlarından biri Dilşad xanımın ailəsindəki siyasətlə Teymur ölkələr fəth edir, qalib olur. Teymur Ləngin qardaşı zəhər daman sifətiylə, kiniylə nə qədər özünü əyləndirməyə çalışsa da bacarmır, içərisi kin-küdurətlə dolu olan Yıldırım Bəyazid zəhərli ilan kimi qıvrılır, fısıldayır, fikrin bolluğunda boğulur, gözlərində qan görünür. Belə vaxtlarda Yıldırımın arvadı içkidən ayılmayan ərinə yenə də içməyi təklif edir. O, öz adına gətirilmiş şərabları tərifləməklə ərinin başağrılarına əlac tapdığını zənn edir.

Yıldırıma nisbətən Teymur təmkinli, səbirli və çox ali bir siyasətçidir. Buna da səbəb Teymurun birinci xanımıdır.

Sergey Borodinin "Səmərqəndin ulduzları" kitabından oxuyub öyrəndik ki, Topal Teymur tatar dilində "axsaq dəmir" adlandırılmışdır. Həmin tarixi romanda Topal Teymurun birinci xanımı Saraymülk xanım hər yerdə onunla birgə olmuşdur. Mümkün olmayanda Teymur ondan hər gün qasidlə xəbər tutmuş, ən nadir hədiyyələr Saray-mülkə çatmışdı (3).

H. Cavidin "Topal Teymur" dramında da bu münasibətlər gözlənilmişdir. Teymur məhz qadın siyasəti, qadın təmkini ilə qardaşını əzib, cılızlaşdırır, özünə təslim edir. Dilşad xanımla Əmir Teymurun dioloqu dediklərimizə misal ola bilər.

**Teymur**

*Əcaba göylünün şikayəti nəimiş?*

**Dilşad**

*Bu ilki buğda məhsulu az olmuş, hökümətə vergi verilməmiş, onunçün qəza hakimi Mamay xan zavallını qırmancla döydürmüşdü.*

**Teymur**

*Xeyir, Mamay xan aldanır. O, düşünmür ki, rəncbərlər sıxıldıqca dövlət xəsinəsi boşalır. Xəzinə boşaldıqca ordunun halı pozulur və bu pozuqluqda məmləkətin pərişanlığına səbəb olur. Heç məraq etmə! Yarın, əvət yarın həqq yerini bular(6.s.103-104).*

Teymur başqalarının yox, məhz öz xanımının fikriylə idarə olunur. Üstəlik o, kimliyindən asılı olmayaraq qadını incitmir, bunu özünə şərəf gətirməyəcəyini qəti bilir.

**Olqa**

/Teymurun qarşısında diz çökərək/

*Böyük Xaqan! Mənim varlığım bir çoxlarının hissiyyatını zəhərləyir, məni öldür də hər kəs iztirabdan qurtulsun.*

**Teymur**

/Onun qolundan tutub, qaldırır/

*Xayır, Moskva çiçəyi, xayır... Mən yalnız qızğın aslanları, azğın qaplanları şikar edirəm. Mənim oxum yalnız vəhşi qartalların qanı ilə boyanır. Sən şətarətli bir gövərçinsən, halbuki Teymur əsla gövərçin qanı tökməz(6.s.147-148).*

Gedən söhbətlərdən aydın olur ki, Əmir Teymurun da Olqaya rəğbəti vardı. Lakin o, qalibiyyəti xətirinə bu məhəbbətdən keçir. Olqanı Orxana bağışlayır. Teymurun qayəsi qalib gəlməkdir. Bu səbəbdən də o, öz əhalisi ilə ədalətli rəftar edir, qadınların xüsusi ilə də həyat yoldaşının fikirləri ilə razılaşır. Hətta onun şahlığını, qəzəbini dərk etməyən Almasa da güzəştə gedir.

**Almas**

/Çılğın bir tövr ilə Teymurun qarşısına keçərək/

*Xeyir, xeyir! Sən bunu əsla yapamazsan. Əvət sən böyüksən bütün dünyaya hökm edə bilərsən; fəqət Orxanın qəlbinə deyil! Unutma ki, mən anayam (6.s.147).*

"Peyğəmbər" pyesini Cavid panteizm fəlsəfəsinin tə"siri ilə yazmışdır /panteizm-təbiət ilə allahı eyniləşdirən fəlsəfə/. Məhəmməd yüksək həssaslığa malik olmuş hissiyyatla təbiətin damarını tuta bilmiş öz məqsədi üçün münasib olacaq vaxtı gözləmiş və bunu Allahın əmri, vəhy, səda adlandırmışdır.

"Peyğəmbər" dramı 124 min peyğəmbərin sonuncusu olan Məhəmməd peyğəmbərin həyatını və 23 il müddətində ona ilahidən gələn vəhylərə həsr edilmiş dram əsəridir. Məhəmməd atasını görməmiş, altı yaşında ikən anası Aminə xanımı, səkkiz yaşında babası Əbdülmütalibi, hicrətdən /622/ üç il qabaq isə əmisi Əbu Talibi itirmişdir. Kimsəsiz Məhəmmədə əvvəldən axıradək himayədarlıq edən ancaq onun ömür gün yoldaşı Xədicə xanım olmuşdu. Məhəmməd Xədicə xanımın sayəsində peyğəmbərlik zirvəsinə ucalmışdı.

Dramdakı Rəisə, Şəmsa və b. qadınlar Məhəmmədi yaşlı qadınla evləndiyi üçün təhqir etmiş nəyin bahasına olursa olsun onu Xədicədən ayırmaqla onun həyata keçirəcəyi proqramı məhv etmək istəmişlər.

**Rəisə**

(Kölələri göstərir)

*Altun versəm, heç şübhə yox*
*Sən də əsirimsən həmən;*
*Nasıl ki, altunla, öncə,*
*Satın aldı qarın səni*
*Yaşı keçmiş dul Xədicə (6.s.26).*

Xədicə Məhəmmədi satın almamışdı. Ancaq evlənmə təklifini Xədicə Məhəmmədə etmişdir. Hər ikisi Qüreyş tayfasından olmuşlar. Məhəmmədə peyğəmbərlik veriləcəyini də ancaq Xədicə xanım əmisi oğlu Vərəqadan eşidib bilmişdi. Xədicə Məhəmmədi ilhamlandıran, ideyalarını həyata keçirməkdə var dövlətini əsirgəmədən bütün varlığıyla, tayfasıyla birlikdə iştirak etmişdir. Islam dinini ilk qəbul edən də Xədicə xanım özü olmuşdur. Məhəmməd Xədicəni itirənə qədər ona sədaqətli olmuş və bir-birlərini dərin məhəbbətlə sevmişdilər. Məhəmməd məxsusi olaraq məhz, Xədicə xanımın

sayəsində islama qədərki dağınıq təriqətləri bir din - Islam dini altında birləşdirdiyi kimi bütün bütləri (365) də Kəbəyə hörülmüş göylərdən enən qara daşla-Həcər daşıyla əvəz etmişdir. Onu da qeyd edək ki, Həcər daşına Məhəmməd peyğəmbərin əli dəydiyi üçün o, bu gün də öz müqəddəsliyini bu səbəbdən qoruya bilir. Bütün bunlara əsasən deməliyik ki, Məhəmmədlə Xədicənin arasındakı məhəbbət uğurlu məhəbbətdir.

"Peyğəmbər" pyesində "Rəisənin əsl adı Hinddir. / Hənəfi Zeynallı səhv olaraq, "Hində" yazmışdır. "Ədəbi parçalar", 1926, səh.87/. Qüreyş qadınlarındandır. Əbu Sufyanın arvadı Müaviyənin anasıdır. Cahiliyyət dövrünün şairlərindən olmuş, Yhud müharibəsində Məhəmmədə qarşı vuruşmuşdur. O zaman islam düşmənlərinin arvadları müsəlman şəhidlərinin qarnını və döşlərini yarmağı, burun və dodaqlarını kəsməyi adət etmişdilər. Yhud müharibəsində Hind /Rəisə/ peyğəmbərin əmisi Həmzənin döşünü yarıb qara ciyərini dişləri ilə qopartmışdır. Buna görə fars mənbələrində ona "Hindəcigərxar" deyirlər. Məhəmməd Məkkəni fəth edəndə Rəisə islamiyyəti qəbul etmiş, əvvəllər sitayiş etdiyi bütü ayağı altına salıb parçalamışdır"(6.s.362).

Şəmsa Məhəmmədi öz yolundan döndərmək, özünə əsir edib, daha da məşhurlaşmaq istəmiş, bu iş alınmayanda isə Məhəmmədə kin bəsləmiş onu şərbətlə zəhərləmək istəmiş və Peyğəmbərin ayıq-sayıqlığına görə ifşa edilib, həmin zəhər piyaləsi ilə öldürülmüşdür.

Şəmsa (Məhəmmədin qatı düşməni belə) peyğəmbərin insanı əsir edən bəlağətli və fəsih dilini, özünəməxsus gözəlliyini deyilənlərdən də bir neçə mərtəbə yüksəkdə olduğunu təsdiq eləmişdi.

Məhəmməd islam dininin əsasını qoymazdan əvvəl ticarət məqsədilə müxtəlif ölkələrə gedərkən dinlərlə bağlı rahiblərlə söhbətlərinin yayılmasına çalışmışdı.

Hüseyn Cavidin Tanrı ideyaları, harmoniya uğrunda xaosa qarşı mübarizədir. Bu mənada "Peyğəmbər" Cavidin beynəlmiləl ideyalarının banisi və carçısıdır. Yüksək ideyalar yüksək mənəviyyatdan doğur. Əslində Cavidin bütün əsərləri onun şəcərəsi, genelogiyası ilə bağlı hiss və duyğularının cəmidir.

Peyğəmbər hər şeydən əvvəl qadın azadlığının carçısı olmuşdu. O, ailəsindəki başqa qadınlara öz dinləri ilə bağlı azadlıqlar vermiş, onlara qarşı xüsusi hörmət bəsləmişdir. Məhəmmədin ən böyük məhəbbəti Xədicə xanıma olmuşdur. Onun vəfatından sonra Ayişəyə evlənmişdi. Məhəmmədin Ayişəyə münasibəti çox yüksək olmuşdu. Ayişə Məhəmmədin həyatı, yaradıcılığı ilə bağlı islamın tarixindən qiymətli faktlarla çıxış etmişdir.

H. Cavid dramaturgiyasındakı qadın obrazlarından ən zəngini "Afət" pyesindəki Afətdir. Afət həm daxilən, həm də zahirən kamil qadın obrazıdır. Onun hərəkətləri həqiqi və qətiyyətlidir. Afəti güclü edən mənəvi-ruhi cəhətdən bəxş etdiyi qurbanlarıdır. Əsərdə Özdəmirin də qızı Kınyazın qızı kimi analığına nifrət etmir. Atalarının uğrunda çalışsalar da sonda qadınların təsiri ilə atalarının faciəsini qüvvətləndirmişlər. Afət Qaratayı yaxşı tanıdığı üçün Altunsaçı Alagözü özünə rəqib saymır. O özündən güclülərlə Özdəmirlə, Qaratayla mübarizəyə girir və qalib gəlir.

"Topal Teymur" dramındakı Olqa özünün zəifliyi eyni zamanda zərifliyi ilə diqqəti çəkir. Olqa "şeytan bir miləkdir". Onun Orxanla eyşə girməkdə məqsədi Dilşadın ürəyinə qısqanclıq toxumu səpib, onun ailəsini dağıtmaqdır. Olqanın siyasəti Dilşadı ondan iyrəndirir.

Dilşadın saflığı, amiranəliyi, məğrurluğu, hiyləsiz hərəkətləri Əmir Teymura belə xoş gəlir. Olqa Orxanı sevmir. Qoca Əmir Teymurdansa o, Orxana sığınmışdır.

Dilşad xanım Olqaya qalib gəlməklə haqqı bərpa etməyə

çalışır. Olqa təhlükəli qadındır. O, öz siyasəti ilə Südabəyə, Şəmsaya bənzəyir. Olqa həm Dilşadın ailəsini dağıtmaq, həm də Teymura qalib gəlmək arzusundadır. Olqa alovlar içində yanan Moskvanın ağrısıyla qalib gəlmək arzusundadır. Olqa alovlar içində yanan Moskvanın ağrısıyla yaşayan rus prinsessasıdır.

Ümumiyyətlə götürdükdə əsərdəki güclü ehtirasa malik qadınlar "Iblis"də Rəna, "Afət"də Afət, "Peyğəmbər"də Şəmsa, "Topal Teymur"da Olqa, Dilşad, Almaz, "Knyaz"da Jasmen, "Səyavuş"da Südabə, "Xəyyam"da Sevda və b. "Iblisin intiqamı"nda Sima əsərdəki hadisələrin inkişafına tə"kan vermiş qadın obrazlarıdırlar.

Yeri gəlmişgən "Caviddə mərhəmət və məhəbbət şeytana yox, onu yoldan azdıranlara və son anda günahlarını anlayanlara qarşıdır. Bununla da müəllif günahkarı bağışlayan insanın böyüklüyünü, onun yaradana bənzəyişini göstərir"(58.s.47).

H. Cavid dramlarındakı ailələr öz taleyi ən çox qadınlardan asılı olaraq yaşamışlar. Cavid ən sadə həqiqətlərlə; "Ana" dramında qadınları Səlmi ana kimi müdrik olmağa, düşmənçilikləri qızışdırmamağa, "Maral"da Turxan bəylərə öz tayını tapmağı, "Uçurum"da Cəlallara ailəsindən müğayat olmağa, dağa-daşa düşməməyə, "Afət"də ərə, ailəyə sədaqətli vəfalı; əksinə olarsa əxlaqsızlığın törətdiyi bəlaların heç kəsin yox elə onun özünə qənim olacağını göstərmişdir. "Səyavuş"da heç saray əhlinin də xoşbəxt olmadığını qızıl teştə qusulan qanların üstünü açmışdır.

"Iblis"də səadətə xain çıxanları ifşa eləmiş, "Peyğəmbər"də uzaqgörənlik, şəxsiyyətə ehtiram, ailəyə bağlılıq və s. vəsf edilmişdir.

H. Cavidin müraciət elədiyi mövzular yeni orjinal mövzular deyil. Buradakı yenilik onun həmin mövzuları bir sistem üzrə qruplaşdırmasındadır.

Cavidin daima mərkəzdə olması isə onun qeyri qanuni işləri

işıqlandırması, həyat əleyhinə, qəbul edilmiş əxlaq normalarına qarşı çıxan hadisələri yazması ilə sıx bağlı idi. Cavid həmişə insanın içərisindəki **nüvəni, naqisliyin nüvəsini** /ayırma bizimdir-N.Ə./ içəridən dağıtmaq, yoxa çıxarmaq, kökünü kəsmək istəyirdi. Buna görə də onun hər sözünün mənası vardır. Bəlkə də elə bu səbəblərə görə o hər şeyin üstündə Əsir, naşı barmaqlara xəbərdarlıq edirdi ki, "Imlasına toxunulmasın".

Hər kəs doğulur, yaşa dolur və öz dünyasını dəyişir. Rahat həyat sürənlərin, qocalaraq dünyasını dəyişənlərin əzaları da o dünyada rahatlıqla çürüyür, əzabla ölənlər isə cəhənnəm əzabı çəkir. Caviddə də bu motivlər qabarıqdır.

Faciə-cəmiyyətin qəbul etdiyi qanunlar pozulanda baş verir. Bu zaman hadisələrin təbii axarı pozulur, həyatın harmoniyası itir.

Şeyx Sənan milli mentalitetə zidd gedərək xristian qızına vurulur. XX əsr Azərbaycan ədəbiyyatının şah əsəri olan "Iblis" faciəsində Iblis ən aliyə, ən müqəddəs olan-Allaha qarşı çıxır. Onun bütün sirlərini açıb hörmətdən salır.

Afət Allahın kölgəsi olan ərə qarşı, Səyavuş xaqanlara qarşı, Südabə yasaq olmuş bir ənənəyə qayıdaraq öz oğulluğundan ehtiraslarına cavab gözləyir. Şeyda kasıbların xeyrinə marselyoza yazır və. s. Faciə qəhrəmanı olan qadınlar, bir qayda olaraq özündən güclüsü ilə "sevişirlər" və məşhurlaşırlar. Iblis kimi onlar da özlərindən güclüsünə qalib gəlməkdən ötrü ölümə də meydan oxuyurlar. Güclünün sevimlisi olmaq, ona uymaq, əbədi təhlükəsizliyin təmin olunmasıdır, xoşdur, şirindir. Lakin bu güclüdə çox adamın gözü var və bu çoxluqla mübarizədə qadınlar uduzurlar, onların bu məğlubiyyətini kişilər bir az da dərinləşdirirlər. "Uçurum" dramında Ildırımın Cəlalı Anjeldən uzaqlaşdır-maq üçün Anjelə eşq elan etməsi, onun hiyləgərliyi, mənəviyyatsızlığı, hadisələri sün"i surətdə qızışdırmışdır.

Edmonun Anjelə qarşı prinsipial asılılığı ən azı iyrənc

təəssürat bağışlayır. Qarşılıqlı olmayan münasibətləri daha da kəskinləşdirir.

"Afət"də gənc zabitlər Kaplan və Qorxmazın qısqanclıq məqsədi ilə Afətlə eyşə qurşanması da ətrafın onlara olan münasibətini daha da pisləşdirir.

"Maral"da Arslan bəyin yenidən peyda olması Maralı bədbəxt və rüsvayçı bir ölümə düçar edir.

"Topal Teymur"da Olqa ilə Orxanın izdivacı Teymur sarayındakı daxili xəyanətdən xəbər verir.

Çox vaxt da tədqiqatçıların bəziləri tərəfindən bu məhəbbət oyunları səhvən məhəbbət kimi təqdim edilib gənc nəsildə, oxucuda çaşqınlıq yaradır.

Ata ilə oğul /"Maral"da/ ərlə-arvad ("Afət"də) və ("Uçurum"da) qardaşla-qardaş, ("Iblis"də) bir-birinə düşmən olan ideyaları bu dramlardakı toqquşmaları daha da kəskinləşdirmişdir. Cavidin də etirazı məhz bu məqamlaradır. Hər bir kəs yaşadığı cəmiyyətdə başqa adamların da xoşbəxt olmaq hüququna hörmət etməli, bu müqəddəs qanunlarla ehtiyatla davranmalıdırlar.

Subay kəs "Sevirəm" kəlməsi ilə öz şəxsiyyətini aldadıb, ailə dağıtmamalıdır. Belə sevgilərdən məhəbbət yox, olsa-olsa intriqa hissləri göyərər, məhkumluqlar, bədbəxtliklər yaranar. "Afət"də Qaratay kimi, "Peyğəmbər" də Şəmsa kimi, "Uçurum"da Anjel kimi və s.

Burada sevirəm kəlməsi iyrənc səslənir. Təmizlik olmayan yerdə sevgi olmaz. Xoşbəxt olmaq üçün cəmiyyətə uyğun yaşamaq və məhəbbəti qazanmaq lazımdır.

Insanı bədbəxt edən məhəbbət deyil, ağılsız hissi, ehtirasıdır. Məhəbbətdən doğulan həzzlər insanı uzunmüddətli xoşbəxtliyə, ehtirasdan doğulan həzzlər isə insanı bədbəxtliyə, rüsvayçılığa, mənəviyyatsızlığa aparır.

Xoşbəxt olmaq üçün insan halal və ardıcıl həzzlərlə öz ruhunu kamilləşdirməlidir.

Məhəbbətdə həmişə bir-birinə zidd duyğular olur. Buna görə də hər gün zəhəri şirindən ayırd etmək lazımdır.

H. Cavidin dramlarında əsas mübarizə insan və tale problemində, cəmiyyətin rolu, təmiz və yüksək məhəbbət, ehtiras uğrundadır. Bu məhəbbət həm millətlər arasında, həm qadınla kişilər arasında, həm də eyni cinslər arasında davam və inkişafda verilmişdir. Burada məhəbbət insanlar arasında bu və ya digər istiqamətlərdə daima hərəkətdə verilir. Və bu duyğular xaos harmoniyaya çevrilənədək davam edir. Qeyd edək ki, mədəni, təhsilli yaxud da mövqeyi və vəzifəsi olanlara nisbətən yerdə qalanlar (onlardan asılı olanlar az olur) daha xoşbəxtdirlər.

Beləliklə demək olar ki, Cavidin bütün dramlarındakı əsas ideya köklə, genlə bağlı olan məhəbbət ideyasıdır. Burada da qəhrəmanların xoşbəxt ola bilməməsinin səbəbi dini təəssübkeşlik, bir-birinə zidd olan dünyagörüşlər, zidd xarakterlərdir. Buna görə də təmiz məhəbbət ehtirası nifrət və intiqam, varlanmaq kimi güclü dağıdıcı ehtiras qarşısında təbii olaraq sarsılmışdır. Məhəbbət hissi, harmoniya, nifrət, intiqam hissinə çevriləndə daha da amansız olub çərçivəni dağıdır, bədbəxtliklər törədir.

Xoşbəxtliyin dörd əsas əlaməti vardır; **intensivlik, davamiyyət, doğruluq, yaxınlıq.**

Cavidə görə bəşəriyyəti bütün bəlalardan xilas edəcək bircə qüvvə vardır. O da halal, düz yoldur, gözəllikdir, sevgidir, məhəbbətdir. Bu hiss sosial yapışqanlarla cəmiyyəti yaşadır, inkişaf etdirir. Olsa olsa, yalnız bu hiss dünyanı xoşbəxtliyə apara bilər və aparır da.

Ədəbiyyatın da fövqəl vəzifəsi mütləq olanın (Allahın-təbiətin, panteizmin) varlığına inamı mütləqləşdirmək xaosu harmoniyaya çevirmək və insanlaşdırmaq, insanı və dünyanı xoşbəxt etməkdir.

Insanlaşdırmaq, yəni kim olsan belə sənə məxsus olmayanı

özünə haram bilmək, halallığa güvənmək-deməkdir.

M. Füzuli özü xoşbəxtliyi sədaqətdə, halallıqda, ardıcıllıqda görürdü. Bu yoldakı ölüm özü də səadət idi.

"Şeyx Sənan" mövzusu ərəb şifahi xalq ədəbiyyatından götürülmüşdür. Ərəbistanda Sufi sənətkar Fəridəddin Əttar, Şeyx Sənana müraciət eləmiş, Türkiyədə Gülşehri Şeyx Sənanı işləmişdi. Cavid bu mövzuya zəmanəyə uyğun bəzək vuraraq misilsiz facıə əsəri doğurmuşdu.

"Şahnamə"ni ilk dəfə Firdovsi qələmə almışdı, Cavid bu əsərdən çıxış edərək "Səyavuş" faciəsini yazmışdır və s.

Onu da qeyd edək ki, tarixdə belə ənənələr Cavidə qədər də, Caviddən sonra da vardır. Görkəmli ərəb ədəbiyyatçısı Əbülfərəc Isfahaninin "Bir Məcnun vardı" əsərində "Leyli və Məcnun" tamam başqa səpkidə işlənmişdir. Buradakı Leyli və Məcnun da bir-birlərini sevmiş, lakin Leyli Məcnuna yox, Ibn Səlama ərə verilmişdir. Leyli Ibn Səlamın evində Məcnunla görüşmüş Ibn Səlam heç cürə onlara bunu isbat edə bilməyib ahu-zarla dünyasını dəyişmişdi. Həmin kitabda oxuyuruq:

"Bir gün Leylinin atası və əri Məkkəyə gedirlər. Leyli rəfiqələrindən birini Məcnunun yanına göndərib, onu öz yanına çağırır. Məcnun bütün gecəni onunla keçirir.

Səhər Leyli onu yola salanda deyir:

- Nə qədər ki, ərimlə atam Məkkədədir, sən hər gecə gələ bilərsən! (42.s.65). Beləliklə Məcnun Leyli ilə yaşayıb, ona qəzəl qoşmaqla məşhurlaşır.

Həmin mövzuya XII əsrdə Nizami zəmanəsinə və öz şəxsiyyətinə uyğun tərtibat vermiş; XVI əsrdə Füzuli eyni məqsədlə onu öz zəmanəsinə uyğun şəkildə yeniləşdirib doğurmuşdu. Onu da qeyd edək ki, bu doğru yolun aparıcısı M. Füzuli bu gün də, sabah da ən birincilərdəndir.

Demək nə qədər ürək var, şəxsiyyət, zəmanə var o qədər də məhəbbətin növləri ola bilər.

Tanrısı "gözəllik və sevgi olan" H. Cavid məhəbbəti

dünyanı qura bilən, yaşada bilən, dəyişdirə bilən bir qüvvəyə bənzətmişdi. Bunu biz şair Girmaninin sözlərindən oxuyub bilirik. "Şair /səmimi və coşğun bir ahənglə/ Məhəbbət! Məhəbbət!.. Əvət, bütün bəşəriyyəti xilas edəcək yalnız məhəbbətdir. Məhəbbətlə çarpınan bir çoban qəlbi, kin və ədavət püskürən bir sultan qafasından daha şərəflidir. Əgər dünyanın şanlı çarpışmaları, qanlı vuruşmaları nəticədə bir məhəbbət, fövqəlbəşər bir məhəbbət doğurmayacaqsa... bütün həyata, bütün kainata nifrətlər olsun" (6.s.149-150).

Aydınca görünür ki, məhəbbətdə məqsəd dünyalara sülh bağışlamaq deməkdir.

Deməli yerin göyün məqsədi dünyada məhəbbət yaratmaq, dünyanı məhəbbətlə idarə etməkdən ibarətdir. Bu olmasa məhəbbətə, həyata və kainata nifrətlər olsun!

H. Cavid dramlarının məğzi "Mənim tanrım gözəllikdir, sevgidir!" - şüarıdır. Dramaturqun əsərlərində məhəbbət-halallıq, doğruluq, bərabərlik-ana xətti kimi onun əsərlərinin xronoloji istiqamətində inkişaf prosesi keçirir. Cavidin məhəbbət mülahizələrində Məhəbbət gözəllikdir, müstəqillikdir. Buradakı gözəl sevən kəsdir. Qurbanları da verən məhz sevən kəslər olur. Məhəbbət iki könülün hərarətli, pıçıltılı, həzin və şirin hisslərinin danışığıdır. Məhəbbət həyatın mənasıdır. Tərəflər arasındakı cazibədar füsünkarlıqdır, şirinlikdir, dünyanı dərk etmək üçün uzun-uzadı söhbətdir.

Məhəbbət qorxu deyil, hissiyyatla bağlı ehtiras deyil, təmas deyil. Bunlarda yemək, içmək yaşamaq kimi bioloji ehtiyacdır, lakin məhəbbət deyil. Məhəbbət barışığa doğru əməldir.

Quranın Ali-Imran sürəsində deyilir: "Allah yanında Isa da Adəm kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı, sonra ona: (bəşər) ol! - dedi, yəni insan ol, ruhuna uyğun olaraq yaşa – dedi, o da oldu (Ayə-59) (34.s.43). Biz bu şüarları, hansı nöqteyi-nəzərdən götürsək deyə bilərik ki, məhəbbət özü bəşəri hissdir. Bu hiss ilə Allah-taala insanlar arasında bəşəri həlqə və

əlaqə yaratmışdır.

Tanrının nüvəsində Iblis olduğu kimi məhəbbətin də nüvəsində məhəbbət oyunları vardır. Başqa sözlə məhəbbət oyunları məhəbbətdən ayrılmış məqsədlə bağlı çirkin müstəqil bir qoldur.

Məhəbbətin mayasında ilahilik, nəticəsiz saf həzz, məhəbbət oyunlarının mayasında iblislik, əxlaqsızlıq iztirab və nəticəsiz rüsvayçılıq vardır. Firəngizin ("Səyavuş") məhəbbət oyunlarında məqsəd məhəbbətə, sülhə Südabənin məhəbbət oyunlarında məqsət şəhvətə, ədavətə qovuşmaqdır.

Məhəbbətdə seçim insanın şəxsiyyətini, onun sosial vəziyyətini təyin edən ən mühüm amildir. Məhəbbətdə hər şey məhz bu nöqtədən cərəyan edir, sonluq da şəxsiyyətin, şəxsin sondakı taleyindəki nəticə ilə müəyyən olunur.

Məhəbbət ruhun ehtiyacıdır, qidasıdır. Bu hissin xeyirxahlığından /Xədicə xanım – Məhəmməd/, yaxud bədxahlığından /Südabəylə Səyavuş/ asılı olaraq insan xoşbəxt də bədbəxt də ola bilər. Məhəbbətdə bədxahlıq hissləri aradan qaldırılana qədər, bərabərlik, anlaşma olana qədər mübarizə davam edir. Və bu yol doğru yoldur.

Məhəbbətdə bərabərlik olanda /"Şeyx Sənan"da Sənanla Xumar, "Səyavuş"da Səyavuşla Firəngiz "Maral"da Arslan bəylə Maral/ cütlər, sevgililər hətta birlikdə dünyasını dəyişirlər. Məhəbbətin sınağından çıxanlar sevgidə lider olurlar. Bu sınaqlardan sonrakı dövr, an, saat yaxud da illər həyatın mülayim, bəxtəvər, məsudluq dövrü hesab edilir. Mülayim dövrdən sonra sevənlər daha çox bir-birlərini itirmək qorxusu ilə yaşayırlar. Bir-biri üçün daha diqqətli və mehriban olmağa çalışırlar. Biri digərini yaşatmağa çalışır. Tək qalan tərəf isə /"Xəyyam" da Xəyyam Sevdanın/ dünyasını dəyişən tərəfin xəyalı ilə yaşayır...

Məhəbbət xəstəlikdir. Ağ ciyərin bəlğəmi və qara ödün nisbi çoxluğu ilə müşayət olunan xəstəlikdir. Gözə düşən qum

çıxmayınca göz acışır. Məhəbbətdə də bu munasibətlə ehtiras çırpınır.

Məhəbbət o qədər əzablı duyğudur ki, bu əzabın özü şirindən şirin olduğu qədər də əzablı, şirinlikdən doğan zəhər timsalında olur ki, bu zəhərin ağrısı başqa orqanlardan çox ürəyə, ruha tə"sir edib, onu şirin bir ləzzətlə sağalda-sağalda öldürür. Məhəbbətdə ayrılıq ömrünün son anını yaşayanın əbədi ayrılıq əzabından daha ağır, daha qüssəli duyğudur. Bu ağrının qorxusunu adilər öləndə, məhəbbətdəki dahilər isə ölənə qədər hər gün yaşayır. Sevən sevdiyini unutmaq üçün başqasıyla ülfətə çatmaq istəyəndə də bu sevgi ölmür, məhz belə dəqiqələrdə yenidən alovlanır, yanğının törətdiyi bədbəxtliklərin məşum qəmi sevənin gözlərinə, ruhuna çökür.

Şair Tofiq Bayramın ifadəsi ilə desək bir gözələ bəslənilən məhəbbət, digəri üçün xəyanət olur.

H. Cavid M. Füzulinin, Tolstoyun ən yaxşı davamçısı və təbliğatçısıdır. O, Bokkoço ənənələrinə qəti zidd olan və bu yolda külüng çalmaqla bədbəxtlikləri göz önündə canlandıra bilən öz oxucularına bələdçilik etməklə bu yoldakı əzablara çıraq tutan şairdir, dramaturqdur, şəxsiyyətdir, atadır, babadır, öndərdir.

"Cavidin məhəbbət anlayışına müxtəlif xarakterli insanların münasibətinin ifadəsindən danışarkən, onu da qeyd etmək lazımdır ki, həmin dövrdə məhəbbət sənətkarların, filosofların və bioloqların əsas mübahisə predmetlərindən biri idi. Tolstoy "göz yaşları ilə yalvarırdı ki, onu /məhəbbəti-T.M./ fövqəlduyğu etsinlər. De Fleri məhəbbəti fizioloji proses kimi izah edir. Z. Freyd isə onu şüuraltı qatın saxlanclarına daxil edirdi. Cavid isə "Afət" əsəri ilə onun fərqli xarakterlərdə fərqli təzahürünü göstərirdi. O, bir şəxs üçün ali bir hiss, başqa birisi üçünsə şüurun nəzarət və idarə gücü çatmadığı yaşantı idi (58.s.178).

Ulduzlar göylərin, çiçəklər yerlərin, məhəbbət ürəyin

yeridir. Sevgilidən ayrılmaq həyatdan ayrılmaq qədər çətindir.

Məhəbbət hissdir. Sirli anlaşılan, izahı mümkün xoş hissdir, arxayınlıqdır, sülhdür, əmin-amanlıqdır.

"Uçurum"da Cəlal da Anjelin öz ləyaqətinə hörmət etmədiyini bilir. Anjellə bağlı cəmiyyətin iradlarından da xəbərdardır. Lakin Cəlal Anjeli sevir. O, Anjeli sevdiyinə görə ondan birdəfəlik uzaqlaşa bilmir. Uzaqlaşanda ölür, ölməmək üçün ölümlə /Anjellə daş-qaşla /həyat/ Göyərçin təmizlik/ arasında çırpınır. Deməli Cəlal səviyyəcə daha çox yaratmağa yox, var-dövlətə, şəhvətə Anjelə bərabər bir kəsdir. Bu elə belə də qəbul edilməlidir. Hamıdan eyni cür hərəkət gözləmək olmaz. Beləliklə şəxsiyyətsizlər arasında qalan məhəbbət dırnaq içindəki sevgililər üçün uçuruma çevrilib, onların fəlakətinə səbəb olmuşdur.

Məhəbbətdə tərəflər bir-birlərinin hisslərini öldürüb dirildir, alçaldıb ucaldır. Bir sözlə məhəbbət öldürüb diriltmək, dirildib öldürmək hissləri ilə bağlı təmizlik, halallıq uğrunda qanlı mübarizədir.

Məhəbbət xəzinədir. Ağlın xəzinəsi, ruhun, biliyin qabiliyyətin, istedadın, bacarığın, zənginliyin xəzinəsi. Allah sonda xoşbəxt etmək istəyinə də elə əvvəlcədən bu keyfiyyətləri bəxş edir. Buradakı tərəflər öz xəzinəsini hansı səxavətlə xərclədiklərini ona görə göstərirlər ki, burada kimin məhəbbəti /halallığı, ədaləti, zəhməti/ böyükdürsə o, üzə çıxsın, seçilsin. Çox vaxt gücsüz tərəf məkrli yol ilə gedib dolayısı ilə qələbə çalır... /Südabə, Şəmsa, Anjel/ sevən o qədər güclü tərəfdir ki, o, nəyi varsa qurban verir, ancaq tükənmir, əksinə daha da kamilləşir, zənginləşir və yeni-yeni qurbanlar vermək üçün tələsir. Özü də bunu həm şüurlu, həm də şüursuz olaraq edir. Burada sevən tamdır, bütövdür. Sevilən tamın bütövlüyünü tamamlayan hissədir. Başqa sözlə sevən xəzinə, sevilən isə xəzinəyə vurulmuş qıfıla açardır. Çox vaxt sevənlərin məhəbbət mübarizələrində gizlin qüvvələrlə yanaşı

olaraq onları əhatə edən tərəflər də iştirak edir. Sanki iki pəhləvan meydanda öz gücünü sınayır. Burada iki sevən şəxsin halallığını sınaqdan keçirən tərəflərin də marağı izlənilir.

Məhəbbət meydanında qələbə çalmaq bu zəriflikdə, gözəllikdə keyfiyyətləri nümayiş etdirmək çox çətin və şərəfli bir qüvvə istəyir. H. Cavid dramaturgiyasındakı qadınlardan Sevda Xəyyama, Afət Qarataya halallıqla mərdi-mərdinə, Südabə Səyavuşa dolayısı ilə məkrlə qalib gəlir.

Məhəbbətdə hər kəsin özünə uyğun mübarizə üsulu olur. Burada xalislər halal yolla, naqislər dolayı yollarla qalib gəlməyə, vüsala yetməyə çalışırlar.

Məhəbbətin adı məhəbbətdir. Əvəzolunanı əxlaqsızlıqdır. Məhəbbətdə sevənlər bir-birlərindən istədikləri nəticəni ala bilirlər. Bu zaman ya həmişəlik vüsal, ya da həmişəlik hicran yaranır. Bu istək məhəbbətin son nəticəsidir. Belə nəticəni Sevda, Afət, Səyavuş, Xəyyam, Şeyx Sənan, Xumar, Ismət, Qanpolad və b. əldə etmişlər.

Məhəbbətdə vüsaldakı sabitliyi qoruyan tərəf əsas tərəfdir. Əsas tərəf şəxsiyyətdir. Süjetdə ana xəttdir, aparıcı qoldur, sevən kəsdir. Həm M. Füzuli, həm H. Cavid, həm də ağıllı məcnunların hamısı məhəbbətdə ehtirası əsas şərt kimi qəbul edib. Və ən əsası da budur ki, bütün dahilər ancaq və ancaq öz sevdiyi kəslə yaşamağı sağlamlıq, saflıq və qəti doğru yol hesab ediblər. Yeri gəlmişkən onu da qeyd edək ki, dünya özü Marsla-kişi nüvəsi ilə, qadın - Saturn nüvəsinin sürtünməsindən əmələ gəlib. Əlavə sürtünmələr dünyanın rənglərini və fəsadlarını mənfi ünsürlər kimi artırıb.

Arada qalan kim varsa, adi odur, ucuz odur, məhəbbət maraqları ilə bağlı oyunlar da, adiliklər də məhz ona aiddir.

Məhəbbətin məqsədi nifrəti, bərabərsizlikləri sıxışdırmaqdır. Bu səbəbdən də iki arvadlılıq, iki ərlilik qərarsızlıqdır, şəxsiyyətsizlikdir. Əkrəm, Südabə, Qaratay və b. belələrindəndir.

Beləliklə H. Cavidin məhəbbət konsepsiyasını aşağıdakı kimi ümumiləşdirmək məqsədə uyğundur: məhəbbət sadəlikdir, təmizlikdir. Burada iki nəfərdən artıq iştirakçı varsa, bu artıq məhəbbət deyil, məhəbbətə bənzər, oxşar oyundur.

Məhəbbətdəki gözləmələr, intriqalar, hicranlar-maneələr məhəbbəti sınağa çəkən meyardır. Burada mühüm amil aktivlik və passivlik prinsipidir. Qeyd edək ki, passivlik şərt deyil, adilikdir, tənbəllikdir, hazıra nazirlikdir.

Məhəbbətin yaranması üçün tərəflər arasında güclü və hərtərəfli virtual, bərabər qıcıqların reaksiyanın olması vacib və ilk şərtdir.

Məhəbbətdə qısqanclıq bu və digər məqsəd üçün mütləq nəticəni əldə etməyə xidmət kimi qiymətləndirilməlidir. Bunsuz parlaq nəticələr mümkünsüzdür.

Məhəbbət çox mürəkkəb bir hissdir. Burada melonxolikliyə qarşı oynaq bir hiss hökmrandır. Məhəbbətin aydınlaşdırılması üçün uzun illərin sınağı gərəkdir. Bu uzun yollardakı intriqalarda, hicranlarda, umu-küsülərdə, mübarizələrdə məhəbbət püxtələşir. Belə proseslər bəzi cütlər arasında ya evlənənə qədər, yaxud da ailə qurduqdan sonra mütləqləşir. Çox vaxt da qarşılıqlı anlaşma elə əzəlindən baş tutur, zahirən sakit, sadə, firavan həyat başlanır.

H. Cavidin məhəbbət konsepsiyasında bütün bu hallar qeydə alınmışdır. Cavid bu xaosu bir küll halında nizamlamaqla cəmiyyətdəki harmoniyaya xidmət göstərmişdir. Güclüsənsə, haqlısan? prinsipinin əksinə gedərək dünyaya bir əbədi sülh arzulamışdı.

H. Cavid dramaturgiyasındakı qarşılıqlı münasibətlər birtərəfli olanda mübarizə aktı da zəif olur, aktivlik itir. Bir sözlə güclü mübarizələr tərəfmüqabillərin qarşılıqlı münasibətləri əsasında baş verir. Burada əsas şərt, necə mübarizə aparmaqdan ibarətdir. Taleni də məhz bu sonluq-necəlik təyin edir.

Hər bir kəsin qanında, genlə keçən naqisliklər vardır. Yüksək o şəxsdir ki, o, hətta genindəki naqisliyi məhəbbəti naminə boğur. Məhəbbətiylə naqisliyə, bədxahlığa qalib gəlir. Məhəbbətdə naqis hisslərin məhvinə xidmət edən ilahi hissdir. Məhəbbətdə tərəflər arasındakı bərabərlik ölçüsü-dür, məhəbbət sevənlər arasındakı halallığın, başqa sözlə ləyaqətin tarazlığıdır. Burada sevən qurbanlar verir, sevənlər bu qurbana layiq olduğunu göstərmək üçün hər cürə cəfalara qatlaşır və sevilmək üçün qurbana qurbanla cavablar verməyə hazırlanır.

"Məhəbbət iki nəfərin yaradıcılığıdır. O, həmişə fərdidir. Və buna görə də məhəbbətdə hamı tərəfindən qəbul olunmuş əxlaq qaydaları yoxdur və ola bilməz "(1.s.112).

Feyerbax yazırdı ki, "Məhəbbət öz təbiəti etibarılə zərifdir. Lakin intim hisslər çox vaxt "qanuni kəbin" xaricində inkişaf edir. Beləliklə "fərdi məhəbbət" qeyri qanuni olaraq doğulmuşdur" (13.s.98).

Elə şəxslər var ki, onları Allah, başqa sözlə təbiət, yaxud da cəmiyyət idarə edir. Elə adamlar da var ki, onlar özlərini öz daxili, ruhu tələbatlarına görə idarə edirlər. Beləəri məhəbbətdə də lider olurlar. /"Xəyyam"da Sevda/. "Xəyyam" pyesində Xəyyam şəxsiyyətcə yüksəkdir, zəngindir, şöhrətlidir. Sevda sosial mövqeyinə görə Xaqan qızıdır, şəhvəti var, gəncdir, gözəldir, Xəyyama layiq olmağa, onu öyrənməyə can atır, onu anlayıb, qiymətləndirir, üstəlik layiq olmağa çalışır. Sevənlər arasındakı bu bərabərliyə görə Xəyyamda başqa dramlarda olmayan ecaskar gözəlliklər, çal-çağır ruhu oxşayır. Buradakı hər şey sevib sevilməyə çağırır. Bu eşqə təbiət özü də qoşulub, ataş-fəşanlıqla harmoniya yaradır.

Məhəbbət başqasının həyatını, maraqlarını şəxsən öyrənməkdir, şəxsi maraqlardır.

H. Cavid dramaturgiyasında bir sıra obrazlar nigaha qədər məhəbbət oyunlarına girib, qarşısındakının məhəbbətini qazanmağa çalışır.

"Maral"da Cəmillə Humay kimi, "Ana" dramında Ismətlə Qanpolad kimi və s.

Bəziləri də nigahdan sonra bu məhəbbəti qazanmağa səy göstərir. "Maral" da Turxan bəy kimi, əksər vaxtlarda isə xoşbəxt cütlərin arasına başqaları girib, çaşqınlıq yaradır. Məhəbbətdə özül zəif olanda başqaları bu cütlərin ayrılığına səbəb ola bilir. "Uçurum"da Cəlalla Gövərçinin arasındakı tellər buna əyani misaldır.

Elə cütlər də var ki, onların məhəbbət mübarizələri ölüncə davam edir. Finala çıxanlar "Peyğəmbər"də Məhəmmədlə Xədicə xanım, "Topal Teymur"da Əmir Teymurla Dilşad xanım, "Xəyyam"da Xəyyamla Sevda bir-birlərini sevən, tamamlayan surətlərdir. Belələri öz məhəbbətinin keşiyində həmişə ayıq-sayıq dayanır ki, Şəmsa, Olqa, Anjel və b. onların ayrılığına səbəb ola bilməsin, halal məhəbbətlərinə, haram qarışdırıb könüllərini bulandırmasınlar. Bu səbəbdən adı çəkilənlər mütləq şəxsiyyətlərdirlər.

Məhəbbət dünyasında da hər bir insan ümümbəşərin, Tanrının konkret, zərrə ifadəsidir. Zəhərin dadı yoxdur. Məhəbbətdə əxlaqsızlıq zəhər kimidir. Onun dadına baxmaq istəyənlər mənən ölürlər. Zəhər qanı çürüdən kimi əxlaqsızlıq da ona düçar olanı məhv edir.

Qadınlar sevdiklərini şüurlu surətdə dərk edəndə öz məhəbbətlərində daha dəyanətli, daha gözəl olurlar.

Cavid dramaturgiyasında halallığı qorumağa cəhd edən tərəf qadınlardır.

Sevilən sevən tərəfindən hər cür nəvaziş görür. Unudulan, zəhməti tapdanan xəyanət görən tərəf isə hər cürə hücumlarla dünənə qədər sevdiyini amansızlıqla ifşa edir, atəşləyir. Məhəbbət öyrənmək, kəşf etmək, qiymət-ləndirmək, vəsf eləmək hissidir, tərənnümdür. Məhəbbətdə hər kəsin öz öyrənmə metodu, hər kəsin öz mübarizə üsulu vardır.

Sevən sevgilisindən bütün varlığıyla həzz alır, nifrət edən

rəqibinə bütün varlığıyla nifrət edir. Burada saxta hisslərə, duyğulara yer qalmır. Məhəbbətin ilk əlaməti qıcıqdır. Duyğuları, hissləri qıcıqlandıran mexanizmdir. Bu qıcığın fəaliyyətini gücləndirməyi bacaran, qıcıqlandırmada ardıcıl olan virtual şəxs dahi aşiqdir. Məhəbbət qıfılı aça bilən açar qədər dəqiqliyə malik hissi mexanizmdir, sistemli şüurdur. Nifrət isə bunun yüz doxsan dərəcə əksidir.

Nifrətdə hisslər bədbəxtliyə, məhəbbətdə xoşbəxtliyə xidmət edir. Maralla Turxan bəyin arasındakı hiss qapalı, Arslan bəylə Maralın arasındakı hiss açıq, anlaşılan hisslərdir. Bu mənada məhəbbət aydınlıqdır.

Gizlin hisslər ruhu boğur, açıq hisslər ruha azadlıq bəxş edir. Bu səbəbdən də Maral azadlığa can atır.

Hər kəsin bir məhəbbəti olur. Hər sevən kəs digər məhəbbətlərlə elə öz ilkin məhəbbətini öyrənir, müqayisələr aparır, sevdiyinin nə dərəcədə həqiqi, yaxud saxta hisslərə malik olduğunu özünə aydınlaşdırır.

H. Cavid dramlarındakı məhəbbəti, Cavidin məhəbbət konsepsiyasını açıqladıqca təhlil etdikcə öyrəndik ki, Cavid məxsusi olaraq qadını yaxud kişini deyil, məhəbbətin insana təsirini aydınlaşdırmaq istəmiş və bu yolda qadınların üstünlüyünü, zənginliyini xüsusi ilə qiymətləndirmişdir. Fərəhlə qeyd etmək lazımdır ki, insandakı iblisliklə insanlıq, tanrılıq məhz məhəbbətlə açılır. Bu məhəbbətə, bu xəzinəyə açar sala bilən hər bir tədqiqatçı xoşbəxt olur. Sərf etdiyinin müqabilində buğda əkib, sünbül biçən əkinçi timsalında bəhrələnir. Məhəbbət bilikdir. Çox vaxt cənnətdəki qadağan olunmuş ağaca da bilik, məhəbbət ağacı deyirlər.

Tanrı cənnət bağçasında təkcə qadağan olunmuş ağacın meyvələrinə-bilik və məhəbbət ağacına-həyat iksirinə, cavanlıq almasına toxunmağı onlara qadağan etdiyinə müasir oxucu da inanır.

H. Cavidin məhəbbət konsepsiyasına görə məhəbbətdə dahi

olmaq üçün bircə yol var. O resept budur: Xeyirxah olmaq, ləyaqətli olmaq, anlaya bilmək, halal yolla getmək. Xeyirxahlıq edə bilməsən də heç olmasa bədxahlıq, naqislik etməmək.

Məhəbbət ilahi ruhun mexanizmidir. Məhəbbət ruhun axarıdır. Məhəbbət sevgililərin ruhunun səviyyəsindən asılı olaraq sevənləri adi də edə bilər, dahi də. Qısası məhəbbət bu və ya digər mənada asılılıqdır. Məhəbbətin aydınlaşması üçün sevənlər mütləq həyatın, cəmiyyətin məhək daşından keçməlidirlər. Insanın xalisliyi, yaxud da naqisliyi yalnız bu zaman, məhək daşından, iblis sınaqlarından keçdikdən sonra aydınlaşır.

Sevənlərin sonda taleyi "xeyirxahdır", yoxsa, "bədxahdır"? (25) Hisslərinə görə müəyyənləşir. Beləliklə, məhəbbət insanları bir-birinə bağlayan və müəyyən çərçivədə saxlayan qüvvədir. Dığırlanıb, qapağını tapan qabdır, könüllü məhkumluqdur, ağla qara rəng kimi kəskin harmoniyadır.

Deməli məhəbbətdə söhbət təkcə millətlər arasındakı münasibətdən yox, həm də insanla-insan arasındakı münasibətdən gedir. Cavid bu mənada insanları adi həqiqəti anlamağa çağırırdı. Sülh, məhəbbət əyri oturub, düz danışmaq deyil. Burada insanın öz həyatı onun əməli ilə simmetrik olmalıdır.

H. Cavid dramaturgiyasındakı qadınlar hisslərinin təbiiliyi və səmimiliyi ilə ürəklərə yol tapır. Buradakı qadınlar təmiz ehtiras üçün mübarizə aparırlar. Burada soyuqluğu yaradan kişilərdir. Kişi soyuqluğu qadın sərvətini /"Uçurum"da Göverçin/ təhqir edir, onu başqa qucağa itələyib, bədbəxt edir. H. Cavid dramlarındakı qadınlar məhəbbət uğrunda mübarizə aparan qəmgin, yorğun gözəllərdirlər.

Sevilən qadınların gözlərində təbəssüm çiçəkləyir, xəyanət görən, unudulan qadınların gözlərində bu təbəssümü şaxta vurur.

Tanrının yaratdığı ilk və son möcüzə qadındır. Seksoloq həkimlərin fikrinə görə məhəbbətlə yaşamaq, xoşbəxtlikdən həzz almaq ömrü uzadır. Səmimi, fərəhli, təmiz ehtirasla keçirilən cinsi görüşlərdə beyin işıqlanır, qara öd dağılır, sinir sistemində gərginlik azalır, bədəndəki zərərli tullantılar ifraz olunur. Əksinə şəhvətli, intriqalı, təsadüfi, sevgisiz əlaqələrdə bədənə lazım olan xeyirli maddələr ifraz olunur, sinir sistemində gərginlik çoxalır ki, bu da sağlam bədəndə ruh düşgünlüyünü artırır.

H. Cavid beynəlmiləl bir şairdir. O, həyata hansı səmtdən baxırdısa baxsın oradakı bədbəxtliklərin içində bir tənbəllik, bir harınlıq, xəyanət, nadanlıq, hazıra nazırlık görürdü. Cavid insandakı bu iblisliklərin aradan qaldırılması üçün iblisliyin törətdiyi faciələri öz həmcinsinin həyatıyla əlaqələndirib, əks etdirirdi.

Hər ictimai quruluşun öz çətinliyi vardır. Hər zamanın öz faciəsi. Kapitalizmdə xoşbəxt olan knyazlar sosializmdə özlərini bədbəxtliyin şiddətindən atəşləyir. Sosializmin gətirdiyi azadlıqdan istifadə etmək istəyən afətlər, qarataylar özdəmirləri zəhərləyir, kommunizmdə qadınların əxlaqi əksəriyyət üçün adiləşir, mövzu olaraq diqqəti çəkmir. Doğulan körpələrə dövlət valideynlik etməyə məcbur olur. H.Cavidin məhəbbətlə bağlı yekun qənaətləri hər kəs üçün fərdidir:

"Cənnəti də, cəhənnəmi də, mələyi də, iblisi də kəndi torpağımızda, kəndi mühitimizdə arayalım. Tikənləri qoparıb çiçək dikəlim. Xəyanəti atıb məhəbbətə sarılalım"(36.s.340). Başqa yolla gedənləri mütləq həyat özü cəzalandıracaqdır.

Quranda da ən yüksək qadınlar zəhmətə qatlaşan, qurban gedən evdar qadınlar olmuşlar. Həzrət Məhəmmədin qadınlara tövsiyyəsi belədir:

"Evlərinizdə qərar tutun. Ilkin cahiliyyət dövründəki kimi açıq-saçıq olmayın"(33.s.15) .

Çox vaxt məhəbbət oyunları, məhəbbətin özündən daha

artıq cəlbedici olur. Qadınlar məhəbbətin özündən də çox verilən vədlərə, şirin sözlərə meyllənirlər.

Məhəbbət oyunları əslində tərəflər arasındakı anlaşılmazlıqlarla, qeyri-bərabərsizliklərlə bağlı götür-qoydur, siçan pişik oyunudur.

Əsl məhəbbəti məhəbbət oyunlarından ayırmaq üçün gərək nə istədiyini dəqiq biləsən.

Sufi, mənəviyatca saf və sağlam, dəqiq və harmonik, zirvə sənətkar H. Cavidin məhəbbət konsepsiyasında məhəbbət çox ali bir duyğudur. Dünya saat, sevib sevilənlər isə bu saatın əqrəbləridir. Məhəbbət dünyanın ürəyidir. Sevənlər arasında bu duyğular öz təmizliyini itirəndə, yüksək harmoniya pozulanda, məhəbbətlə bağlı hisslər, duyğular böhran prosesi keçirir... Və bu ali duyğular təhqirdənsə məhvə məhkum olur. Belə halda məhəbbət tərəflər arasında təzyiqə tab gətirmir, boğulur. Insan bu hissin qarşısında aciz qalanda, məhəbbətin əlində oyuncaq olanda, ən acı təhqirə çevriləndə artıq qəti ölümünü duyur. Və bu acınacaqlı ömrü susdurmaq üçün özünün və başqalarının fiziki bədəninə belə rəhm etmir, qəti ölüm hökmü ilə bu sarsıntılara son qoyur. Qeyd eləmək lazımdır ki, özünü öldürmək bir çox hallarda məhəbbəti öldürməkdən asan olur. Buna görə də Südabə Səyavuşu, Şəmsa Peyğəmbəri, yaxud da Peyğəmbər Şəmsanı, Afət Qaratayı, Turxan bəy Maralı və b. güc tətbiq etməklə öldürmüşlər...

Xoşbəxtlik-insanın Allah və cəmiyyət qarşısında yerinə yetirdiyi yaxşı işlərdir. Bu yaxşılıqla bağlı hisslərin, duyğuların cəmi məhəbbətdir. "Sufilər məhəbbətin bir sıra mərhələləri olduğunu göstərirdilər: üns (qəlbən ünsüyyət), kürb (yaxınlıq), şauk (əziyyət çəkmək, coşğun istək) və s." (65.s.19).

Qeyd etdiyimiz kimi məhəbbətlə bağlı mübarizələr də müxtəlifdir. Bir var iki sevənin onlara qarşı mübarizəsi, bir də var iki sevənin bir-birinə qarşı mübarizəsi; Südabənin Səyavuşa, Şəmsanın Peyğəmbərə, Afətin Qarataya və s. adı çəkilənlərin məhəbbətləri qarşılıqlı olsaydı, bax bu məhəbbət olardı, qarşılıqlı olmadığı üçün məhəbbət deyil, məhəbbətlə bağlı oyundur. Oyunbazlıq da ki, səmimi hisslərdən, duyğulardan uzaq, sonu görünən heçlikdir, ucuz əyləncədir, vaxt itirmədir, rüsvayçılıqdır.

Məhəbbət hissləri bəşərin arasında əbədi əlaqədir. Bu duyğu canlı insanlar arasında necə təlatüm yaradırsa, insanın öz içində də eləcə fəallıq yaradır. Cəmiyyəti hərəkətə gətirən, məhəbbət, dostluq, qardaşlıq duyğularıdır. Bu harmoniya pozulanda xaos yaranır.

Xaosda genin və qanın naqisliyini cəmiyyət və zaman ("Iblis") üzə çıxarır.

Rənglərin (məs. ağ və qara. Saturn və Mars) ahəngin dünyanın ahənginə bərabərdir.

Ağ ilə qara, yer ilə kosmosu birləşdirən ahəngdir, məhəbbətdir. Məhəbbət hissi bütün bəla və təhlükələri, bədxahlıqları insan şüurundan xaric edə bilir.

H.Cavid dramlarında müəllif özü bu duyğularla havalanır və bu hissləri qandakı hissiyyatları ağ kağızda canlandırıb yenidən cəmiyyətin göz güzgüsünə təqdim edir.

"Böyük sənət əsəri də sənətkar dünyada yayılan ağrını və əsəbi səhvsiz, ədəbi dalğada tutanda /yalnız bu zaman/ və poetik haraya çevirəndə yaranır " (50.s.3).

H. Cavidin hər bir obrazında onun öz şəxsiyyəti ilə bağlı bir iz, bir nəfəs vardır. Bunsuz obrazlar hissiz, duyğusuz ölüyə bənzəyərdilər. Digər başqa obrazlardan fərqli şair Girmani, Sənan, Peyğəmbər və b obrazlarda H.Cavid daha çox öz ağrı və acılarını, öz məhəbbətini yaşamışdır. Beləliklə Arif Cavidin uşaqlığı, Sənan gəncliyi, Iblis tərəddüdləri, Peyğəmbər onun cəmiyyətdəki son qəti mütləq qənaətidir. "Peyğəmbər"dəki sonluq həm H. Cavid yaradıcılığının, həm də Cavid şəxsiyyətinin qəti və son nöqtəsidir, akkordudur.

Ədəbiyyatın borcu cəmiyyətdə ümumi harmoniya yaratmaq, qəbul edilmiş əxlaq normalarına riayət etmək və cəmiyyəti insanlaşdırmaqdadır.

H. Cavid bu yolda son dəqiqəsinə qədər əzmlə fədakarlıqla qəti mübarizədə olmuş öz həyatını əməllərində əks etdirmiş öz həyat və yaradıcılığı ilə XX əsr Azərbaycan ədəbiyyatı tarixində bir Insan abidəsi ucaltmış Prometeyin, Nəsiminin, Füzulinin davamçısı kimi ölməz bir şərəfə nail olmuşdur.

Hüseyn Cavid fəlsəfi, psixoloji tarixi dramlar müəllifidir. O, üslub, yazı manerası, forma yeniliyi ilə Azərbaycan dramaturgiyasına bir təkrarsız yenilik gətirmişdir. Milli teatr mədəniyyətinin, rejissor və aktyor nəslinin inkişafına, tədqiqatçı nəslinin, rəssamların, rejissor, artist truppalarının, bəstəkarların, müğənnilərin yaranmasına və inkişafına doğru-düzgün yol göstərib, Tanrıya ən doğru yola doğru qəti bir təkan verdi.

Rejissorlardan M. Məmmədov, A.A. Tuqanov, S. Ruhulla, I. Hidayətzadə, M.S. Girmanşahlı, H. Ismayılov, A. Şərifzadə, A. Isgəndərov, bəstəkarlardan Üzeyir Hacıbəyov və yüzlərlə başqa aktyorlar həm Cavidin öz vaxtında, həm də müasir dövrümüzdəki rejissor və aktyorlar Cavid irsindən gen-bol bəhrələnməkdədirlər.

H. Cavid "Ana" əsərində hətta orada ölüm olsa belə düşmənçilikləri qarışdırmamaq prinsipi ilə çıxış edir.

"Maral"da Cəmilin dili ilə özünə bərabər olanla ailə qurmağı tövsiyə edir. Humayı cənnət quşu adlandırır. Turxan bəyləri xar edir, Maralın uşaqlıq qorxusunu bağışlayır. Qeyd edək ki, dramlardakı adlar da öz izahı vəzifəsində işlənmişdir. Cəlalın /cəh-cəlal/ Gövərçini /təmizliyi/ ondan uzaqlaşdıqca Cəlal Iran şahzadəsindən tutmuş Moskva qraflarına qədər əldən-ələ düşmüş hiyləgər Anjelə /daş-qaş hərisinə/ mənsub olur. Anjelə məhz Cəlal /cəh-cəlal/ lazım olduğu üçün o, ancaq onu seçir.

Məhəbbətlər proqramsız qeyri-qanuni doğulduğu üçün qanunu qoruyanlarda onlara qarşı cavabdehlik hissləri zəif olur. Bu səbəbdən də qanunsuz sevişənlər əldən-ələ düşə bilirlər, başqa sözlə biri tapanda o biri itirə bilir və məhəbbətlə bağlı müqəddəsliklər də bu səbəblərdən tapdanır.

Şeyx Sənan islam dininin bütün incəliklərinə bələd olandan sonra qəti bilir ki, insanı cənnətə-qocalaraq ölməyə din yox, özünə bərabər qadın apara bilər. Odur ki, o, bu yolda yanmağı da, ən dadlı işgəncə sayır.

Cavid də, Şeyx Sənan da, Peyğəmbər övladıdır. Onlar da bilir ki, insanı müxtəlif dinlər olsa-olsa insanları ayrılığa səsləyir, bir-birindən ayırır. "Peyğəmbər" pyesində də bu belədir. Şəmsa bütpərəstdir. Məhəmməd isə təkallahlığın təbliğatçısı. On dörd əsrdir ki, bu mübarizə davam edir. Odur ki, H. Cavid "Peyğəmbər" pyesində bu müşkülü də bir dəfəlik həll edir. Bəşəri islam hissiyyatlarla inam, etiqad dini altında din qardaşlığına, birliyə səsləyir. Ayrı-ayrı illərdə, dövrlərdə çaşqınlıqlar, büdrəmələr, düşmənçiliklər olsa da sonu sülh, dostluq olmalıdır, qənaətinə gəlir.

Hüseyn Cavidin "Peyğəmbər" pyesində Məhəmməd peyğəmbər özünü sonuncu peyğəmbər adlandıranda nəyə əsaslanırdı? Hər şeydən əvvəl özünün təkallahlıq ideyasına, insanın bir kökdən əmələ gəlməsinə bir-birinə bərabərlik missiyasına və s. Dünyada daha çox din yox, dil ayrılıqları milli anlaşılmazlıqlar hökm sürür. Islam dininin həm Məhəmməd peyğəmbərin öz dövründə, həm də ondan sonra qəbul etmək üçün "Allahu Əkbər" – yəni Allah-təkdir demək kifayət idi.

Islamda bütün insanlar bir birinə bərabər bacı və qardaşdırlar. Dünyada çoxlu məbədlər; bütxanə, kilsə, məscid və b. olsa da hamısında əslində tək olan Allaha, Tanrıya, ibadət edilir. Hamı Tanrı övladı adlandırılır. Bu baxımdan islam peyğəmbərinin verdiyi sonuncu hökm, qəti yoldur, ən doğrudur, bu yol hər kəsin yoludur. Bu yol bir olan Tanrı yoludur. Islam bir din olaraq Tanrıya aparan ən humanist dindir və bu ən doğru yoldur. Tanrıya gedən yol kilsələrdən, məscidlərdən yox, daha çox insanların qəlbindən, damarlarındakı qanından, hissiyyatlarından keçən yoldur. Və bu yol daha real, daha inandırıcı faktiki yoldur. Idealqakı hissiyyatlardakı görüntülərlə reallıq, faktik həyat insanın könlündə, qəlb dünyasında vəhdətlənir və təsdiqlənir.

H. Cavid bu vəhdəti vücüdu bir sistem kimi öyrənib, və bəşəriyyəti islam dininin banisi Peyğəmbərin haqq yoluna,

tanrı yoluna, sevgi (öyrənmək) və gözəllik yoluna (həzz almaq) səsləmişdir.

Yer kürəsində ürəyi genişlik, dostluq, qardaşlıq məhəbbət hisslərini inkişaf etdirmək həm də hər bir kəsin, dövləti vəzifəsidir. Bu çətin iş də siyasətlə, məhəbbətlə görülməli, zaman – zaman sahmana salınmalıdır.

Burada yetişməmiş işlər, ("Şeyx Sənan") tezləşdirilən faciələrə aparıb çıxarda bilər. Qeyd edək ki, bu işləri zaman özü sahmanlamalı yüksək şəxsiyyətlər səbrlə, təmkinlə hə-yata keçirməlidirlər.

Hər hansı şəxsiyyəti zəmanəsi ilə mühakimə edəndə həqiqət daha çılpaq aydınlaşır. "Şeyx Sənan"dakı hadisələr 1914-1915-ci illərdə yazılıb, 1917-ci ildə xalqa təqdim edilmişdi. Özü də faciə kimi. Rejissorların qəti narazılığına baxmayaraq Cavid onu ancaq faciə kimi təqdim etmişdir. Çünki milli mentalitetdə müsəlmanla xristianın izdivacı nəticə etibari ilə mütləq faciədir. Çünki bu işlər hələ ki, millətlər arasında zəifdir, ən çox dövlətlərarasındakı rəsmi münasibətdir, şüurlarda lazımınca yetkinləşməmiş, bişməmiş duyğulardır. Prof. Mehdi Məmmədovun şahidliyi ilə Cavid Əfəndi bu sahədə ən çox incidilənlərdən olub. Səbəb də bu olub ki, sonda niyə Şeyx Sənanla Xumar qoşulub qaçmayıb. Yaxud da qaçsınlar. Cavid isə onları başa sala bilməyib ki, haqq yolu sürətləndirmək olmaz. Bircə bunu deyib, ki, axı bu hələlik faciədir. Bu gün biz bu uzaqgörənliyin də bir daha şahidi və iştirakçısı olduq.

Faciələr, relsdən çıxmalar çox vaxt milli adət-ənənələr pozulanda olur. Deməli xaosa qarşı mütləq ayıq-sayıqlıq, harmoniyaya qarşı diqqət və qayğıkeşliyin keşikçsi olduğumuzu heç birimiz unutmamalıyıq.

Məhəbbətdəki məzmun, keyfiyyət daha çox tərəflərin maddi, mənəvi, ruhu keyfiyyətləri ilə bağlı olur.

Onların həyatındakı hər addımı, hər gedişi məxsusi mənəviyyatdakı maddi baza ilə həmahənglik qazanır.

Məhəbbətdəki forma qəlib, görkəm daxili tarazılığı səciyyələndirə bildiyi üçün həmişə xüsusi hal və qayğı tələb edir.

Məhəbbətdə hər şey, səlis cümlədəki diri, həyati sözlər kimi öz yerində olanda mətn alınmış hesab edilir. Və bu forma mükəmməl mətn forma təsirində olur.

Başqa sözlə yağın keyfiyyəti nehrəyə tökülmüş sərin su-yun, südün, qatığın və nehrənin necə aramla, həmahəng çalxanmağından daha çox asılı olur. Keyfiyyət məxsusi bu nöqtələrin cəmindən alınır.

Hər işin öz gedişi, öz prosesi olur. Bu məhəbbətdə də belədir. Hər şey öz yerində olanda gedişat öz vaxtında açan yaz çiçəklərinə, öz vaxtında yağan ilk qara, vaxtında dəymiş nübar bara çevrilir və istər istəməz əməli nəticə verir.

Ədəbiyyatımızda yeni forma və yüksək ideyalar, əxlaqi qayə, hiss və duyğuların yeni deyim tərzini gətirmiş dahi Caviddə sezmə və kəşfetmə çox güclü idi. Odur ki, mütəfəkkir dramaturq çox böyük uzaqgörənliklə hər bir vətəndaşın taleyi üçün narahatlıq keçirib adət ənənədən kənara çıxanlara, öz həyatlarına işgəncə, iztirab gətirənlərə üz tutub, onları halallığa, sədaqətə, dostluğa, qardaşlığa və gözəl nemət olan cansağlığına, gözəlliyə, sevgiyə ən ümdəsi isə böyük məhəbbətə, bəşəri dəyərləmələri qorumağa səsləyib.

# NƏTİCƏ

XX əsrin nadir ədəbi simalarından biri H. Cavidin dram əsərləri istər ictimai məndəricəsinə, istərsə də milli və bəşəri məzmununa görə xüsusi mövqeyi olan əsərlərdəndir.

Hüsnü-xuda, səma şairinin məhəbbəti hər şeydən əvvəl Tanrıya-bəşərə və onun zərrəsi sevgili insandır, qadındır.

H. Cavidin əsərlərində məhəbbət halal, haramlığından asılı olaraq dünyanı hərəkətə gətirən, onu quran və dağıdan, məhv edən və yaşadan bir hiss olduğu kimi, həm də dünyanı idarə edən bəşəri həlqədir. Burada yaşadan, dağıdan idarə edib kamilləşdirən də əsasən qadınlardır.

Məhəbbətin rəmzi Qızılgüldür. Qızılgülün ətri nəfəsə, qana duruluq bəxş etdiyi kimi məhəbbət özü də sağlamlığın, saflığın, təmizliyin, duruluğun rəhnidir.

Məhəbbət əsərlərində ilk sözü sevən, son nöqtədəki son sözü isə imtahan edən, sevilən ifadə edir.

Toz yığılıb torpaq yaratdığı kimi, göydən gələn hissiyyatlarda damarlardakı qana, genə çevrilib, mütləq hiss və duyğu yaradır. Yaradılanda da bu anlamda yaradılana sevgi məhəbbət, eşq yaranır. Eşqə çatmaq üçün də insan ən əvvəl elə öz həmcinsinə sevgi bəsləyir, inam imana, eşqə çevrilir. Sonda insan öz hissiyyatları ilə daha səmimi olana pənah gətirir-haqq yola-Tanrıya qovuşur. Sevir və öz sevgisindən daha çox həzz alaraq sağlamlığa, saflığa nail olur, ömrü uzun olur.

H. Cavidin qadın qəhrəmanlarında biliyə və idraka, hakimiyyətə və ehtirasa güclü meyl vardır. Burada şəxsiyyətlə hissiyyatın toqquşması dramatik inkişafa güclü təkan verir və faciə yaranır. Bu mənada H. Cavid dramlarındakı qadın tipləri dünyada, Rusiyada, Şərqdə və Azərbaycanda, o cümlədən də folklordakı qadın tipləri ilə əlaqəli şəkildə öyrənilmiş və onların dörd əsas tipi qeydə alınmışdı. Bu qeydə əsasən qəti demək lazımdır ki, ən yüksək qadın ictimai mövqe əldə edib, öz ailəsinə, dövlətinə, millətinə, xalqına xidmət göstərmək

istəyən mübariz, zəhmətkeş, ədalətli və vətənpərvər qadındır. Məhəbbətdə həyat-sənə əks olan cinsdir. Sənin həyatın məhz bu əks cinslə ilk təmasdan sonra müəyyən olunur. Bu seçim sənindir, bu məsuliyyəti daşımalısan, prinsipi şərtdir.

Intim sahədə öz yarına düzgün tuşlananlar mütləq dünyadan kam alanlardırlar. Qalan sahələrdə onların nə qədər uğurları olsa belə yenə özlərini həyatda bəxti gətirməyən şəxs kimi təqdim edirlər və bu doğrudan da belədir. Həmin bölgüyə əsaslanaraq qadın tiplərini dörd əsas qrup üzrə belə qruplaşdırmaq olar.

**1. Böyükürəkli,** ağıllı, ədalətə güvənən, dərrakəli, sədaqətli, ilahi tipli qadınlar; Xədicə, Dilşad, Xumar, Sima, Firəngiz.

**2. Məkrli,** hiyləgər, siyasətçi iblisanə qadınlar. Şəmsa, Südabə, Rəna, Afət, Olqa.

**3. Cariyyə tipli** rəqqasə qadınlar. Anjellər

**4. Adi** həyatları ilə barışan mübarizəsiz sıravi qadınlar. Nazlı, Zəhra, Əzra, Altunsaç, Vəfa, Səfa və s.

Insan həyatının məqsədi xoşbəxt olmaq, dünyadan daha çox nəşə, həzz almaqdır. Aşiqlik, məşuqluq prosesindən sonra daimi həzzalma prosesi məsudluq başlanır ki, bu da hər şeydən əvvəl sağlamlığa, saflığa ağrısız vəhdəti vücüda-kosmosa reallıqlardakı cənnətdən ideal cənnətə aparıb çıxarır. Burada aparıcı qüvvə məhəbbətdir. Bu hiss sosial yapışqanlarla cəmiyyəti yaşadır və inkişaf etdirir.

H. Cavid dramaturgiyasında məhəbbət bal ilə zəhərin qarışığından ibarət cövhərdir. Balın yaxud zəhərin qalibiyyəti şəxsin cəmiyyətdəki mövqeyindən, xarakterinin qüvvətindən, kamilliyindən çox asılıdır. Burada sevənlər onların xeyirxahlığından, bədxahlığından asılı olaraq cəmiyyət tərəfindən istiqamətləndirilir. Məhəbbətlə bağlı həzzlərdə humanist, xeyirxah, mehriban duyğular çoxluq təşkil edir və ardıcıl olur. Məhəbbətdə vüsal qanuni, yaxud da sevişməkdən sonra halal zəhmətə görə olmalıdır.

Məhəbbət cütlərin qəti və tərəddüdsüz qarşılıqlı, dərrakəli münasibətidir ki, burada intimlik, həzz, sağlıq, saflıq əsas şərt sayılır.

Insan, xüsusən də qadınlar psixi cəhətdən təmiz məhəbbətə can atır, təmiz ehtirasdan güc alırlar. Bu təmizliyə yad nəfəs toxunanda yaddaşda tormozlanma gedir və növbəti xəyanətlərə səbəb olur. Beləliklə ilkin bədən çağırışları tormozlaşdırılmış istəklərə çevrilə-çevrilə öz obyektini dəyişir və yeni xəyanətlərə canatmalar baş verir. H. Cavid dramlarındakı qüdrətli qadınların da faciəsi o zaman baş verir ki, onlar normal həyat relsindən çıxırlar.

Məhəbbətin yaranması və inkişafı üçün ən əsas şərt qarşılıqlı sədaqət, qayğı, diqqət və firavanlıq anlamıdır. Sadalananlar olmasa məhəbbətdən danışmağa dəyməz.

Məhəbbətdə xoşbəxtliyin dörd əsas əlaməti vardır:- Bərabərlik, halallıq, yaxınlıq və sədaqət. Cavidə görə bəşəriyyəti bütün bəlalardan xilas edəcək qüvvə-Inama, Tanrıya aparacaq yol sadalananlarla bərabər sağlam hisslər, duyğular, gözəllik və sevgidir. Burada xaos harmoniyaya o zaman çevrilir ki, xaosu yaradan qüvvə iztiraba düçar edilir. Harmoniya bərqərar olur.

Allahın yaratdığı insan ölümə məhkum doğulur. Allahın zərrəsini özündə yaşadan insan yaratdıqları ilə ölməzlik qazananda fövqəlinsan səviyyəsinə ucalır, özünə ölməzlik yaradır.

H. Cavid Azərbaycan xalqının, müsəlman dünyasının ən mötəbər ziyalısıdır, fövqəl oğludur, peyğəmbəridir. H. Cavidə görə məhəbbət bütün dinlər və dillər arasında ortaq anlayışdır. H. Cavid heç bir ideologiyaya sığmayan, insan, kainat var olunca yaşayan və öz ölməzliyini, halallığını-məhəbbət mülahizələrini qoruya bilən sənətkardır. Bu anlamda Cavid həm milli, həm də bəşəri şəxsiyyətdir.

Eşqin bir cüt qanadı var. Məhəbbətdə normal uçuş üçün mütləq bərabərlik qorunmalıdır.

H. Cavidin "Mənim Tanrım gözəllikdir, sevgidir" kəlamını mən sülhə səsləyirəm kimi də dərk etmək olar. Bunu qardaşlığa, dostluğa, səadətə, rəğbətə, mehribançılığa, sevgiyə, məhəbbətə-sülhə çağırıram kimi də dərk etmək lazımdır. Bu şüarı bütün zamanlardakı quruluşlar və insanlar alqışlayıb, yaşadacaqdır.

H. Cavid estetik şəxsiyyətdir. O, öz millətinin simasında cəmiyyətdə qəbul olunmuş əxlaq normalarına riayət etməyə, bu örtünü, formanı qorumağa, harmoniyanı dəyərləndirməyə və inkişaf etdirməyə çağırır.

# РЕЗЮМЕ

Драматургия уникальной литературной личности XX века Гусейн Джавида как своим содержанием, так и национальной и общечеловеческой тематикой является произведениями исключительных идей.

Любовь божественного поэта прежде всего проявилась к Богу – творцу человеческого рода и к его крупице – возлюбленной.

Любовь в его произведениях – движимое миром чувство, независимо от запрета и дозволенности, разрушающая и созидающая сила, и в тоже время она – непрерывное звено, управляющее общечеловеческим миром.

Как благоухание розы очищает дыхание и волнует кровь, также олицетворяющая ее любовь выступает залогом здоровья и чистоты.

Подобно множеству пылинок, создающих пески, также боже чувства, проникая в кровеносные сосуды зарождают чувство эмоций и ощущений. Для постижения любви человек прежде всего обращает свои чувства к единородным, вера, доверие затем превращаются в любовь, в итоге человек возлагает надежду на благодетеля – праведный путь – сливается с божеством, он любит и любим, обретает здоровье, моральную чистоту и долголетие.

В созданных Г. Джавидом женских образах ярко выражены склонность и знаниям, власти, в них сильно отражены чувства страсти. Конфликт личности сильных чувств значительно усиливает драматическое развитие и порождает трагедию.

С этих позиции женские типы в пьесах Г. Джавида исследованы во взаимосвязях с женскими образами, создан-

ными в мировой, русской, восточной и азербайджанской литературах, в том числе, и в фольклоре.

Следует отменить и то, что наиболее почитаемой, достойной уважения и любви является та, которая занята общественной деятельностью, трудолюбива, бесстрашна, смело стоящая на страже интересов своего народа, государства, нации и собственной семьи. Немаловажным фактором в жизни женщина представляет правильный выбор мужчины, т. к. это определяет ее дальнейшую судьбу. Исходя из всего вышесказанного, в работе определены четыре типа женских образов:

1. Группа – умные, образованные, благоразумные, справедливые, божественные типы женщин – Хадижа, Дильшад, Хумар, Сима, Фиренгиз;

2. Группа – коварные, хитрые, дипломатичные, демонические женщины – Шемса, Судаба, Рена, Афет, Олга;

3. Группа – продажные женщины – танцовщицы Анжеллы.

4. Группа – обычные женщины, безропотно подчинившиеся обыкновенному укладу жизни – Назлы, Зохра, Азра, Алтунсадж, Вефа, Сафа и др.

Значение человеческой жизни в обретении счастье, испытание всех земных благ. Постепенно процесс влюбленности переходит в новую фазу – удовлетворенности, обусловленной здоровьем и чистотой (очищением), затем уводит человека от реальности к идеальному миру и ведущим началом выступают именно эти чувства, скрепляющие и движущие общество.

Любовь в произведениях Г. Джавида выступает то сладкой безмятежностью, то смертельным ядом, разбивающим и уничтожающим иллюзии. Превосходство одного из них зависит от роли личности в обществе, силы воли и совершенства человека, влюбленные регулируются обществом в зависимости от их доброжелательства или же злорадства.

Велика роль интимности в судьбе влюбленных. Женщина, как правила, тяготеет к чистой, непорочной любви, от которой получает импульс активности. И если над данной чистотой, непорочностью господствует чуждое веяние, то в сознании происходит заторможенность, становясь причиной последующих измен. Трагедия сильных женщин в произведениях Г. Джавида происходит в случае отхода влюбленных от нормальных жизненных правил. При отсутствии основных принципов: понятий взаимности, внимания, заботы, обеспеченности о любви говорить нечего. Известно, что счастью женщины сопутствуют: равноправие, честность, близость и верность. По мнению Г. Джавида, силой, которое вызволит человечество от всех бед, является дорога, ведущая к творцу, созидателю, вере, наряду с вышеперечисленными здоровые помыслы, чувства, красота и любовь. Здесь хаос тогда может превратиться в гармонию, если будет уничтожена, причина, порождающая хаос.

Созданный богом человек рождается приговоренным к смерти. Человек – носитель частицы Бога – своими деяниями обретает бессмертие, становится сверхчеловеком, порождает свое бессмертие.

Г. Джавид значительный интеллигент мусульманского мира, исключительный человек азербайджанского народа, будучи его пророком. По мнению Г. Джавида, любовь – общее понятие среди всех религий и языков. Г. Джавид не приверженный ни к какой-либо идеологии человек, такой художник, который защищает свое достоинство, суждение о любви, свое бессмертие, пока существует человечество. Его изречение «Мое божество – красота и любовь» воспринимается как призыв к братству, содружеству, счастью и любви. Этой призыв будет одобрен и увековечен всеми людьми и политическими системами всех времен.

Г. Джавид – личность эстетическая. Он в лице своей нации призывая соблюдать принятие обществом этические нормы, беречь форму, эту завесу во имя развития и признания значения гармонии.

# THE RESUME

The dramaturgy of the outstanding rare person of the 20th century Hussein Javid takes a special place among the great works not for its social idea but for its national and human theme.

Love of divine poet firstly is for God – for human being and His grain beloved woman.

Love in the works by Hussein Javid as a sense sets in the world motion, creates the world and distroys, annihilate it and keeps alive and at the same time is a human ring which rules over the world. Here the life-asserting vital, destroys and rules over and makes it perfect are mainly women.

The symbol of love is red Rose as the smell of red Rose makes the breath and blood pure love itself is the pladge of health, purity and limpidity.

In a love works the first word is said by lover, but the last word is said by beloved.

As the gathering dust makes soil, the Divine sensation influences to the blood and gene and makes feeling and sense. And when these are created there created affection love for creator.

In order to reach the love firstly the human being comes to lover, the belief becomes faith, becomes love. At the end the human being with his feeling takes refuge in God, and unites to the right road – God. He loves and feels pleasure in his love and in this way and achieves to the health, purity and long life.

The hero women of Hussein Javid have a great desire for knowledge, mind, power and protest. Here the clash between person and sense give a great incitement to

the dramatic development and is created tragedy. And in this position the types of the women in Hussein Javid's plays are compared and investigated with the types of women which have been described in the world – literature – such as in Russia, in the East and in the Azerbaijan, at the same time in the folklore literature and shown their main four types. According to this note it has been said that the most respectful woman is that fighting, labouring woman who gains the social – position and wishes to service to the state, nation, people and her family.

It is a very important factor for woman to choose man, because is determines her future life. And according this distribution are shown the following main four groups of the types of women.

First group – clever, educated, sensible, fair, just, divine typed women such as Khadija, Dilshad, Khumar, Sima, Firangiz. Second group women like as a devil, sly, insidious crafty politician, like Shamsa, Sudaba, Rana, Afat, Olja.

Third group women like housemaids Anzhella.

Fourth group the ordinary women who live simply, like Nazli, Zahra, Azra, Altunsach, Vafa, Safa etc.

The aim of the human being is to be happy, to feel pleasure in life. And after being in love and to be lover begins the permanent process of pleasure and first of all it carries to the health, purity, painless, unity – from the Paradise in reality to the ideal Paradise.

Here the main force is love. This feeling keeps alive and develops the society.

In the plays of Hussein Javid love is a essence mixture with honey and poison. The victory of honey or poison depends on the force of his character and his perfect. The lovers are appreciated according their kindness, fair and patriotic and illness – disposed. In the pleasure con-

nected with love the kind and humanist feeling are more.

The human being, especially women try to gain the pure love and they get force from this. And if strange breath touch to this purity the memory is braked and there appeared faithlessness. In the plays of Hussein Javid the tragedy of the powerful women begin when they go out of their normal right rood.

For the real love and for its good future the main term is the mutual fidelity, care, attention and prosperity. If there are not the enumerated things, it is impossible to speak about love.

There are four main marks of happiness in love; equality, forgiveness, intimacy and faithfulness. According to Hussein Javid the force which will save the humanity from all misfortunes is the right rood which goes to belief and God. And to the same time it is the healthy feeling, beauty and love. And here the chaos is changed to hormony when the force which makes chaos is struck to pang. The harmony is established.

The human being is created by God at the same time is born for death. And when the human being which keeps alive the grain of God gains deathless with his creates rises to the high level of humanity and gains deathless.

Hussein Javid is the more reliable educated person of the muslim world of Azerbaijan people. According Hussein Javid for all religious and for all languages love is a common notion.

Hussein Javid is an outstanding person that incompatible to any ideology and will live for ever and he is able to defend his deathless, forgiveness and love considerations. On this reason Hussein Javid is a national and human person.

Love has two wings. For normal love this equality

must be defended.

The expression of Hussein Javid «My God is beauty, my God is love» might be comprehend as a call to brotherhood, friendship, happiness, kindness, loving and peace. In all time all the people appreciate these calling.

Hussein Javid is an aesthetic person. In his works in the personality of his nation he calls them to keep the morals, to preserve their forms, to appreciate the harmony and to develop them.

# ISTIFADƏ EDILMIŞ ƏDƏBIYYATIN SIYAHISI


1. Arova E.V. Budğte dobrı. Minsk. Polğmə. 160s.
2. Azərbaycan xalq dastanları. Bakı. Azərnəşr.1983, 269s.
3. Borodin S. Səmərqəndin ulduzları. Bakı. Uşaqgəncnəşr. 1962,533s.
4. Cavid H. Əsərləri. Dörd cilddə, I-cild. Bakı. Yazıçı. 1982,321s.
5. Cavid H. Əsərləri. Dörd cilddə, II-cild. Bakı. Yazıçı. 1982,394s.
6. Cavid H. Əsərləri. Dörd cilddə, III-cild. Bakı. Yazıçı. 1984,377s.
7. Cavid H. Əsərləri. Dörd cilddə, IV-cild. Bakı. Yazıçı. 1985,319s.
8. Cavid M. Qızılgül güllərin şahıdır. Cavidi xatırlarkən. Tərtib edəni Turan Cavid. Bakı. Işıq. 1976, 48s.
9. Cavid M. Cavidi xatırlarkən. Məqalələr və xatirələr. Redaktorları Abbas Zamanov, Həmid Məmmədzadə. Ön sözün müəllifi Abbas Zamanov. Bakı. Gənclik.1982, 392s.
10. Cavid T. Atam haqqında xatirələrim. Cavidi xatırəlarkən. Məqalələr və xatirələr. Redaktorları Abbas Zamanov, Həmid Məmmədzadə. Ön sözün müəllifi Ab-as Zamanov. Bakı. Gənclik. 1982,392s.
11. Cəfər M. Hüseyn Cavid. Bakı. 1960, 260 s.
12. Cəmşidov Ş. "Kitabi Dədə Qorqud". Bakı. "Örnək".54 s.
13. Çokalin V. Löbov i semğə. Izdatelğstvo Politiçeskoy Literaturı. Moskva.1964, 255s.
14. Drayzer T. Cenni Herhadt. Bakı. "Maarif".1988, 339s.
15. Əfəndiyev A. Müdrüklük səlahiyyəti. Bakı. Gənclik. 1976,191s.

16. Əfəndiyev T. Əxlaq necə yaranmışdır ? Bakı. Azərnəşr.1965, 94s.
17. Əfəndiyev T. Hüseyn Cavidin ideyalar aləmi. Bakı. Yazıçı. 1985, 208s.
18. Əkbərov Z. H. Cavidin "Şeyx Sənan" faciəsi. Bakı. "Elm". 1997,149s.
19. Əliyev K. XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri. Bakı. "Elm".1985,61s.
20. Əliyev K. H.Cavidin şəxsiyyəti və poetikası. Bakı. Yazıçı.1977,88s.
21. Əlizadə M. Firdovsi. Şahnamə. Bakı. Yazıçı, 1986, 333 s.
22. Əmirli Ə. Ölü doğan şəhər. Bakı. Gənclik. 1999, 223s.
23. Əsədov A. Kosmosentrizm qədim dünyagörüşün başlıca prinsipi kimi. Bakı. Futuroloq. 1998, 34 s.
24. Əhmədov Ə. Etiklik və estetikliyin qarşılıqlı münasibəti. Bakı. Maarif. 1997,246s.
25. Əzizova N. H. Cavid dramaturgiyasında "Insan, Iblis, Tanrı" Bakı. Hafta Pressa. 2000,131s.
26. Əzizova N. "Iblis yoxsa peyğəmbər"? Elmi axtarışlar. VIII toplu, Bakı. Nurlan. 2002,239s.
27. Fəlsəfə Ensiklopedik lüğət. Azərbaycan Ensiklopediyası. Bakı. 1997, 250 s.
28. Fətəliyev X. Halallıq. Bakı. Gənclik, 1992, 107 s.
29. Filosofiə löbvi. t.1. Izda-vo polit. literaturı. Pod obhey redaküey D.P. Qorskoqo. Sostavitel A.A. Ivin. Moskva.1990, 510 s.
30. Firdovsi. Şahnamə. Bakı. Yazıçı.1986,333 s.
31. Göyüşov Z. Səadət düşüncələri. Bakı. Azərnəşr. 1983, 269 s.
32. Gürgani F. Vis və Ramin. Bakı. Azərnəşr. 1974, 479 s.
33. Həsənli H.S. Iman və Elm. Bakı. 1998, 126 s.
34. Həsənli H.S. Peyğəmbərlər tarixi. Bakı. "Adiloğlu" nəşr. 2001, 461 s.

35. Həsənov H.H., Hacıyev Ş.M. Beyinin labrintlərindən. Bakı. Elm. 1997…..s
36. Hüseynov R. Vaxtdan uca. Bakı. Işıq.1987,362 s.
37. Hüseynov R. Məhsəti necə varsa. Bakı. Yazıçı. 1989, 336 s.
38. Xatəmül-Ənbiya. Həzrəti Məhəmməd və həyatı. Əli Hikmət Bərki. Osman Kəskioğlu. Ankara. 1993, 584s.
39. Xəlilov P."Əli və Nino" problemləri. Bakı. Nurlan. 2000, 34s.
40. Xəlilov S. Cavid fəlsəfəsi. I kitab. Iblisdə fəlsəfi motivlər. Bakı. Yazıçı. 1985, 224 s.
41. Xəndan Z. R. Cavid sənəti. Bakı. Bilik,1981,87s.
42. Isfahani Ə. Bir Məcnun vardı (tərcümə edəni-Baxşəliyeva G). Bakı. Yazıçı. 1990, 84s.
43. Iskusstvo löbvi (metodiçeskoe posobie dlə molodocenov). Tri vetvi persika. Kama Sutra. Literaturno-xudocestvenno objedinenee. Planeta. 1990, 46 s.
44. Ismayılov F. Ziqmund Freyd. Bakı. Gənclik. 1994, 120 s.
45. XX əsr Azərbaycan ədəbiyyatı müntəxabatı. Bakı. 1958, 450 s.
46. Kazımov Ş. Qurbani və poetikası. Bakı. 1996, 198s.
47. Kitabi Dədə Qorqud. Bakı. Gənclik.1988, 265s.
48. Qabusnamə. Bakı. Azərnəşr. 1989, 237s.
49. Qarayev Y. "Faciə və qəhrəman". Azərbaycan EA. nəşr.1969, 192s.
50. Qarayev Y. Ilyas Əfəndiyev. Bakı. 1987, 50s.
51. Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı. Sabah. 1996, 712 s.
52. Qasımov C. Siyasi represiya həyatda və ədəbiyyatda (1920-1950-ci illər). Doktorluq dissertasiyasının avtoreferatı. Bakı. 2000.

53. Qədirzadə S. 46 bənövşə. Povestlər, mənsum poema və hekayələr. Bakı. Gənclik. 1986, 486 s.
54. Quliyeva R. Azərbaycanın məhəbbət dastanlarının bədii özünəməxsusluğu. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı. 1993.
55. Mehdiyev N. Freyd. Psixoanaliz, incəsənət. "Gənclik"jurnalı. 1989 №9.
56. Mehdiyeva D. Cavid haqqında xatirələrimdən bir yarpaq. Cavidi xatırlarkən. Məqalələr və xatirələr. Redaktorları Abbas Zamanov, Həmid Məmmədzadə. Ön sözün müəllifi Abbas Zamanov. Bakı. "Gənclik".1982,392s.
57. Merime. Karmen. Azərbaycan bədii ədəbiyyat şöbəsi. Bakı. 1937, 106s.
58. Tahirə M. XX əsr Azərbaycan dramaturgiyasının poetikası. Bakı. "Elm".1999, 207s.
59. Məmmədli Q. Cavid ömrü boyu. Həyat və yaradıcılığı. Bakı. "Yazıçı". 1982. 298s.
60. Məmmədli Q. Imzalar. Bakı."Aəzrnəşr". 1977, 119s.
61. Məmmədov M. Acı fəryadlar, şirin arzular. Bakı. "Gənclik". 1983, 192s.
62. Məmmədov M. Cavidanə sənətkar. Azərbaycan jurn. 1982 №11.
63. Məmmədov S. Azərbaycan tərəqqipərvər qadınlarının maarifçilik fəaliyyəti. XIX əsrin ikinci yarsı. 1920-ci illər. Doktorluq dissertasiyasının avtoreferatı. Bakı. 1996.
64. Nəcəfov M. Beyin fəaliyyəti və psixi hadisələr. Azərbaycan Dövlət nəşr. Bakı. 1989,143 s.
65. Rüstəmov Y. Mövlanə Cəmaləddin Ruminin sufilik fəlsəfəsi. Bakı. 2002, 236s.
66. Seyidzadə M. Böyük şair və dramaturq. Cavidi xatırlarkən. Məqalələr və xatirələr. Redaktorları Abbas

Zamanov, Həmid Məmmədzadə. Ön sözün müəllifi Abbas Zamanov. Bakı. "Gənclik". 1982, 392s.

67. Sultanlı Ə. Hüseyn Cavidin faciələri. Cavidi xatırlarkən. Məqalələr və xatirələr. Redaktorları Abbas Zamanov, Həmid Məmmədzadə. Ön sözün müəllifi Abbas Zamanov. Bakı. "Gənclik". 1982, 392s.
68. Sultanov Ş.Z., Sultanov K.Z. Ömər Xəyyam. Bakı. "Gənclik". 1991, 296s.
69. Tağıyev Ə., Əliyev Q.C., Cabbarov M.S. Platon və Aristotel. Bakı.1997,76s.
70. Tolstoy L.N. Əsərləri, XIV cilddə, 9-cu cild. Anna Karenina. II kitab. Bakı. "Yazıçı". 1981, 218s.
71. Tolstoy L.N. Əsərləri, XIV cilddə, 9-cu cild. Anna Karenina. III kitab. V-VIII hissələr. Bakı. Yazıçı. 1961, 466s.
72. Tolstoy L.N. Əsərləri XIV cilddə. Povestlər və pyes. "Canlı meyit". Bakı. "Gənclik". 1984,466 s.
73. "Ulduz" jurnalı, 1987 №8.
74. Ənvər U. Hüseyn Cavid və Türkiyə ədəbiyyatı. Bakı. "Günəş" nəşr. 1998,167 s.
75. Vurğun S. Seçilmiş əsərləri. Bakı. "Maarif". 1986, 332s.
76. Vüqar Ə. Əbülfəz Naxçıvanlı. Səyavuş faciəsi. Bakı. "Azərbaycan dünyası".1993, 60 s.
77. Zahidov V.S. Qısqanclıq motivi ilə qəsdən adam öldürmə. Onun cinayət hüququ və kriminaloji problemləri. f.e.n. alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı. 1997.
78. Zümrüd. Yarımçıq nəğmə. Bakı. "Diplomat". 1998, 267s.

# MƏQALƏLƏR

## 1. HÜSEYN CAVİDİN İDEALI

*Bu il oktyabrın 24-də bənzərsiz təxəyyülü ilə seçilən unudulmaz Hüseyn Cavidin daha bir doğum günü tarixə qovuşdu. İndi respublikamızda zəngin irsi nəsillərə örnək olan ölməz sənətkarlarımızın xatirəsini daha da əbədiləşdirmək istiqamətində mühüm addımlar atılır. Respublikamızın prezidenti, mədəniyyətimizin böyük dostu və hamisi Heydər Əliyevin H.Cavidin irsinə hörmətdən irəli gələn məlum fərmanı fikrimizə sübutdur.*

Şərq aləmində hələ də mübahisəli qalan problemlərdən biri dünyəvi, yoxsa ilahi eşq problemidir. Zaman-zaman görkəmli şəxsiyyətləri düşündürən bu problem müasirlərindən fərqli olaraq H. Cavidi daha dərindən narahat etmişdir. Cavid ictimai-bədii fikir tariximizdə öz ecazkar düşüncəsi ilə zəngin sənət nümunələri yaratmış, Azərbaycan ədəbiyyatında romantizmin inkişafına güclü təkan vermiş ədəbi simalardandır. H.Caviddə məhəbbət rəğbət hissindən inkişaf etdirilərək Allah eşqinə qədər yüksəldilir.

Cavidin «Şeyx Sənan» faciəsinin meydana gəlməsinin əsas səbəbi əsrin əvvəllərində Zaqafqaziya regionunda baş verən dramatik hadisələr idi. Əlbəttə, bu təsirlərlə yanaşı, Cavidin birbaşa, öz içindən gələn duyğularının da böyük rolu olmuşdu.

«Şeyx Sənan» faciəsinin baş qəhrəmanı Sənan adi adamlardan biridir. O, qabaqcıl fikirli, panteist baxışlı təriqət mürşidi Şeyx Kəbirin tələbəsidir. Şeyx Kəbirin dünyagörüşünün formalaşmasında panteizm fəlsəfəsinin böyük təsiri olmuşdu. Şeyx Sənanın bir fərd kimi öz dinindən keçməsində müəllimi Şeyx Kəbirin təsiri açıq aşkardır. Şeyx Kəbirin qızı Zəhra atasının istedadlı tələbəsi Şeyx Sənana vurulmuşdur. Əsərdəki dramatik gərginlik Zəhranın sevgi, məhəbbət iztirabları və Sənanın özündən getməsi ilə başlanır…

Şeyx Sənan Şeyx Kəbirin himayəsində yaşayıb ondan təhsil almışdı. Bu asılılıq onu Zəhraya diqqətli olmağa, hörmət bəsləməyə məcbur etsə də, Şeyx Sənan ağlını tabe etdirməyi bacarır. O, könlünə qəsd edib hiss və duyğularının əleyhinə getmir. Zəhranın məhəbbəti adi, zəhmətsiz, maneəsiz məhəbbətdir. Bu məhəbbət Sənanı böyük ideallara səsləyə bilməz.

Zəhra Şeyx kəbirin qızıdır, vəssalam. Onda diqqətçəkən qeyri-adilik yoxdur. O, duya bilsəydi, özü hər şeyi dərk edərdi. Duya bilmir ki, məhəbbət qarşılıqlı olmalıdır.

Xumar, hər şeydən əvvəl, Şeyx Sənanın bütövlükdə maraqlarını ödəyən bir qızdır. Xumarın anası yoxdur, atası da onunla olmur. Bu mənada o da Şeyx Sənan kimi kimsəsizdir. Məhəbbət isə bərabərliyi sevir. Adam özünə bərabər olmayanla iztirab çəkir. Xumar Sənanla hər ölçüdə bir-birinə taydır. O, sakitdir, dərindir, onda qurbanvermə hissləri güclüdür. Xumar anasının vəsiyyətinə görə, monastrı qəbul etmiş qızdır. Xumara qədər Sənan da «ehtiras»a mənfi münasibətini bildirmişdi.

Xumar Sənanın timsalında öz havadarını tapıb. Sənan onun yolunda adını, sanını, rütbəsini itirməyə razıdır. Sənan Xumarın yolunda dinindən keçməyə, şərab içməyə… islam dinində yasaq sayılan hər cür əmələ razıdır. Sənan öz məhəbbətini sübut eləməkdən qorxmur. Xumar Sənanın məhəbbətinə inanır, onun əqidəsi yolunda qurban getməyinə təəssüflənmir.

Zəhra Sənanı öz ürəyində yox, başqa yerlərdə axtarmağa məcburdur. Məhəbbətdə «ona», «onun» səviyyəsinə canatma var. Yüksək məqsədlər üçün doğulanlar yüksək inkişafa meyllidirlər. Xumar Sənanın böyük ideyasına – təkallahlıq ideyasına hay verməyi bacaran, onu ürəyi, beyni ilə izləyən, ən çətin anda Şeyx Sənanın arxasınca getməyə qadirdir. Bir ürəkdə iki məhəbbət olmaz, olsa biri həqiqi deyil…

Şeyx Sənan yüksək şəxsiyyətdir. O, Zəhranı aldatmaq istəmir. Zəhra onu dərk edə bilmirsə, Şeyx Sənan onu necə

başa salacaq? O, Zəhranı gözləmədən öz böyük məqsədinə doğru «yola düşməyə» məcbur olur.

Xumarın zəifliyində isə böyük bir qüvvət gizlənir. Bu qüvvəti o, son anda tətbiq etməyi bacaran qızdır.

***Şeyx Sənan:***

- ***Bax, Xumar! Iştə hər tərəf uçurum…***

***Xumar:***

- ***Istəsən, mən səninlə məhv olurum…***

«Şeyx Sənan» faciəsinin əxlaqi-fəlsəfi ideyası oxucu və tamaşaçıda insani, əxlaqi hisslər yaradır. Öz idealı yolunda məşəqqətlər çəkən Sənanla Xumarın simasında mənəvi qələbənin şahidi oluruq. Mənəvi qələbə! Şeyx Sənan məhəbbətinin ən böyük məqsədi budur. Əsərin sonunda əvvəl Şeyx Sənan, sonra da Xumar özlərini mərdliklə ölümün qucağına atırlar. Bununla onlar din təəssübkeşliyinə, dini ayrı-seçkilik salanlara qəti etirazlarını bildirərək böyük idealları uğrunda məhv olurlar.

Insan doğularkən dünyadan ayrılan zərrə, ölürkən mələkləşən, göylərə can atan, ilahiləşən varlıqdır.

Böyük məhəbbətlər, böyük maneələrdən yaranır. Cavid insanı bu maneələrə qarşı mübarizəyə səsləməyi bacaran sənətkardır. Zaman-zaman Caviddən öyrənənlər çox olub, amma ona bənzəməyə cəsarət edənlər tapılmayıb.

H. Cavidlə «Şeyx Sənan» arasındakı eyniliklər də maraqlıdır. Cavid də Şeyx Sənan kimi əvvəlcə dindarlıq, sonra isə şübhəçilik yolunu tutmuşdur. Ədibin də Şeyx Sənan kimi gəldiyi son nəticə mütləq məhəbbətdir. Cavidin «Şeyx Sənan»ın türbəsi önündə yazdığı şerinin sonuncu misrası da, rəyimizcə, fikrimizin təsdiqinə sübutdur: «məhəbbətdir, əvət, məqsdə şu pürəfsanə xilqətdən».

*2 noyabr 1995-ci il,*

*«Bakı» qəzeti*

# 2. CAVID «HƏQİQƏT AXTARICISIDIR»

H.Cavidin gerçəkliyi ötüb keçmək qabiliyyəti, hadisə və prosesin gələcək inkişaf istiqamətini elmi qabaqgörənliklə təyin etmək cəhdi mütərəqqi görüşlərindəki istiqamətə möhkəm, əsaslı zəmin yaratmışdır.

Cavidin platonik, panteist, sufilik görüşlərinin təsirilə yaratdığı obrazlar öz orijinallığı ilə ədəbiyyatımızda təqdirəlayiq yenilikdir.

«Şeyx Sənan» (1914), «Iblis» (1921) və «Peyğəmbər» (1923) fəlsəfi üçlüyündə Cavid Insan, Iblis, Tanrı, konsepsiyasını həll etməyə çalışmış və öz məntiqli məqsədinə yüksəkliklə nail olmuşdur. Bu üçlükdəki məzmunda Cavid inamının, Cavid etiqadının, Cavid sənətkarlığının bütöv xüsusiyyətləri gizlənmişdir.

«Şeyx Sənan» faciəsində qoyulmuş Insan problemi, azad məhəbbət motivləri, Cavidin və Məhəmməd Peyğəmbərin beynəlmiləl ideyaları ilə üst-üstə düşür.

«Iblis» faciəsində adilikdən dahiliyə təkamül prosesi keçmiş insan-Iblis mənən o qədər güclüdür ki, o, heç bir dünyəvi nemətə əyilmir və bu hissə məruz qalanlara qırovlu qəhqəhələrlə gülür.

Nəfsini özünə qul edən, dünyanı dərk edən Insan-Iblis özündə allahın zərrəsini hiss etdikcə mənən dəyişilir, Insanlaşır.

Adi insanı sonda peyğəmbər səviyyəsinə ucaldan Cavid «Şeyx Sənan», «Iblis» və «Peyğəmbər» bədii fəlsəfi üçlüyü ilə həm də öz sənətkarlıq zirvəsini təyin etməyə nail olmuşdur.

«Şeyx Sənan» faciəsində məhəbbət insanın yaşamaq arzusunu, yaratmaq istəyini qüvvətləndirən ilahi nemətdirsə, «Iblis» faciəsində bu nemət mənən güclü olan Iblisin kamilləşməsinə xidmət edən vasitədir.

«Peyğəmbər» faciəsində məhz şəxsiyyətin gücü, şəxsiyyətin rolu ön plana çəkilmiş, şəxsiyyətin mövqeyi ilə az zaman

içərisində əsirlərin heyrət etdiyi bir uğur, bir sıçrayış, böyük məzmuna malik bir yenilik həyata keçirilmişdir.

H. Cavidin yaradıcılığında ana xətt kimi inkişaf etdirilən məhəbbət əvvəldə adi, sonda Peyğəmbər zirvəsidir. Cavid bütöv yaradıcılığı boyu yeni, həqiqi, əsaslı yol axtarmış və arxadaşlarını da bu yola – həqiqət yoluna dəvət etmişdir.

*Müasir ədəbiyyatşünaslığın problemləri,*
*Tezislər / Bakı, 1996, s. 34-36.*

## 3. H. CAVİD ATEİZMİNDƏ HUMANİZM

H. Cavidin Türkiyədə təhsil aldığı illərdə (1905-1909) Qərb müstəmləkəçilərinin yürütdüyü siyasət nəticəsində Türkiyənin ictimai-iqtisadi vəziyyəti gündən-günə zəifləməyə başlamışdır. Türkiyə cəmiyyəti özünü Qərb istismarçılarından qurtarmaq üçün çalışır, çırpınır və bu vəziyyətdən çıxmaq üçün tədbirlər düşünürdü. O zamankı ictimai, ədəbi-mədəni həyat «islamlaşmaq», «millîləşmək» və «müasirləşmək» kimi yeni fikirlər ortaya atmış və həmin ideya axtarışları ən qabarıq ifadəsini ədəbiyyatda tapmışdır. H. Cavid poeziyası üçün ən çox, «islamlaşmaq» çağırışı səciyyəvi idi.

Cavid öz əsərlərini Naxçıvan – Təbriz – Istambul – Tiflis – Bakı şəhərlərinin ədəbi-mədəni mühitində şəxsi dünyagörüşü əxlaq və iman kimi klassik islamı ənənəvi təsəvvüf ürfan fəlsəfəsi və ideyaları ilə vəhdətdə öyrənmişdi.

Məhəmməd Peyğəmbər (576-632) Şərqdə özünəqədərki bütün məzhəb və təriqətləri bir din ətrafında – islam dini ətrafında birləşdirmişdir. Peyğəmbərin məhz bu böyük xidmətini Cavid «Şeyx Sənan» faciəsinin «Birgə həqq, cümlə din də bir naçar» - ideya fəlsəfəsi leytmotivinə çevrilmişdir. O, Qədim və Orta əsrlərin əsas dini fəlsəfi təlimlərinin (Sufilər,

Mötəzilər, Ürfanilər, Hürufilər) ən yaxşı cəhətlərini bir yerə cəm edərək fəlsəfi faciə – «Şeyx Sənan» mənzum əsərini yaratmışdır. «Şeyx Sənan» XX əsr romantizminin «Leyli Məcnun»u qədər şöhrətləndi.

Məhəmməd Peyğəmbərin vəfatından sonra dindarlar islam dinini qəbul etməyənləri elliklə kafir adlandırmış və kafirlərlə nigaha girmək hər bir müsəlmana yasaq buyrulmuşdur. Bu qadağanı pozanların kəbini rəsmi surətdə kəsilmir, belə nigahlar etibarsız hesab edilir, böyük saymamazlıq, böyük rüsvayçılıq kimi təqib olunurdular.

Ötən minilliklərin dərinliklərindən xəbər verən, təfəkkürümüzün inkişaf yollarının izlənməsində xüsusi əhəmiyyət kəsb edən şifahi xalq ədəbiyyatımızın, xüsusən də onun epik-lirik janrının tacı sayılan «Kitabi-Dədə Qorqud», «Əsli və Kərəm» dastanı da göstərir ki, xristian-müsəlman münasibətləri məişətdə, əxlaqda əsrlər boyu bədii düşüncəni narahat etmiş problemdir.

«Şeyx Sənan» faciəsinin yazılmasını şərtləndirən konkret tarixi-ictimai səbəblər də mövcuddur.

1917-ci ilin ab-havası ilə yaranmış vahimələr faciənin yazıldığı dövrün ziyalılarını düşündürməyə bilməzdi. Inqilabın nəhəng qasırğası qarşısında çox şey məhv olmalı, əzilməli, cəhənnəm zəbanəsində yanmalıydı. Məhv olmağa düçar olanları xilas etmək məsuliyyətini ziyalılarımız mənəvi vəzifə, vicdan borcu səviyyəsində dərk edirdilər. Mürtəce qüvvələr dini və milli təəssübkeşlik ideyaların qızışdırmaqdaydılar. Hədəf din, bir də dini ayrılıqlarla bağlı maneələr idi. Qonşu erməni və gürcü xalqları xristian, azərbaycanlılar isə müsəlman idilər. Qafqazın yaxın gələcəyi həmin xalqlar arasında dini münasibətlərin həlli problemi ilə bilavasitə əlaqədar idi.

H. Cavidin «Şeyx Sənan» faciəsinin meydana gəlməsinin ilkin səbəbi bu idi. Bu əsərlə Cavid xalqlar və millətlər arasında din ayrılığından, dünyanın əşrəfi sayılan insan və onun arzuları, problemi ilə bağlı irəli gələn fəlakətlərin

əleyhinə çıxır, humanist və bəşəri fəlsəfə təlqin edirdi. «Şeyx Sənan» faciəsinin fəlsəfi məzmunu o dövr üçün səciyyəvi olan həyat məişət süjeti əsasında qurulmuşdur.

Sənan ruhani təhsil almaq üçün Turandan Ərəbistana gəlmiş və müəllimi Şeyx Kəbirin himayəsi altında təhsilini davam etdirərkən onun qızı Zəhra ilə əhd-peyman etmişdir. Zəkalı tələbəsinin bütün qayğılarını öz üzərinə götürmüş Şeyx Kəbir çox böyük din xadimidir. O, arzusunda olduğu «Din birliyi» proqramını həyata keçirmək üçün özünün istedadlı və cəsarətli tələbəsinə güvənir. Lakin çox çəkmir ki, Şeyx Kəbir böyük ümidlər bəslədiyi Sənanın ruhi sarsıntı və böhran keçirdiyini görür.

Zəhranın təkidi ilə çağrılmış Sənan Kəbirin evində qızdırmalı olduğu üçün yarıyuxulu vəziyyətdə gördüyü röyanı onun başına toplaşanlara söyləyir. Tələbəsini diqqətlə dinləyən Şeyx Kəbir Sənanın yuxusunun məğzini perspektivini anlatmaq zəruriyyəti qarşısında qalır: «Səni ehtirasat yıxmasa çox böyük din xadimi olacaqsan. Son məkanın də səfalı Gürcüstan olacaq, qəbrin ziyarətgaha dönəcəkdir» - deyir.

«Ehtirasat!» - Sənan qadınla bağlı bu hissə məruz qalmamaq üçün müəlliminin qarşısında and içir. Sənanın inadıyla üz-üzə gələn Zəhra sarsılır, xəstələnir, lakin Sənanı öz yolundan döndərə bilmir.

Şeyx Kəbir dünyasını dəyişəndən sonra da Sənan əziz müəlliminə verdiyi sözə sadiq qalır. Düz on il dini təbliğatla məşğul olur və Sənanın bütün varlığına, ruhuna hakim kəsilən məhəbbətə, qadına yer qalmır. Lakin Şeyx Kəbirin əvvəlcədən xəbər verdiyi tale, qəzavü-qədərin hökmü çin çıxır… Şərqdən dini təbliğ məqsədi ilə Qafqaza gələn Şeyx Sənan cənnətməkan Gürcüstanda mələk xasiyyətli Xumara rast gəlir. O, Şeyx Kəbirin evində qızdırmalı ikən gördüyü insanı həyatda tanıyır.

Məhəbbətsiz həyat Sənanı çox sıxmışdır. Ömrü-günü talan olan Şeyx Sənanın daha bundan artıq qurban verməyə heç nəyi qalmayıb. O, xristian, tərsa qızı Xumarı sevdiyini anlayınca

gec də olsa eşqin sınağı, nəticəsi və vüsalı barədə düşünməyə başlayır. Aşiq Sənan artıq Xumarın ardınca getmək üçün bu yoldakı bütün fədakarlıqlara, müşküllərə sinə gərməyə hazırdır. Onun ilk və ən böyük çətinliyi xristian, keşiş Papasla mükalimələrində üzə çıxır. Iki din xadiminin – Şeyx Sənanla Papasın – dialoqu oxucu və tamaşaçını həyəcanlandırır. Bu dialoq faciənin fəlsəfi düyün nöqtəsini təşkil edir. Keşiş Papas aşiq və mürşid Şeyx Sənanın qarşısında yeddi şərt qoyur. Şərqdə yeddilik sirlə, müqəddəsliklə bağlı rəqəmdir. Papasın şərtləri qırx yaşlı müsəlman Sənanla on yeddi yaşlı gənc xristian Xumarın yolunu bağlamalıydı. Lakin Sənanın ağlı, həyat təcrübəsi, dünyagörüşü, üstün cəhətləri açıqlandıqca keşiş Papas tabe olaraq məğlub olacağını anlayır. Aşağıdakı dialoqda Şeyx Sənanın məcnunluğu və aşiqlik zirvəsi aşkar oluduğu kimi Papasın da din mübəlliği kimi mənəvi miskinliyi, ideya puçluğu aşkar olur:

***Papas***

*...Qıza nisbətlə fəzlədir sinnin.*

*Şeyx Sənan*

*Mənəvi eşqə qarşı hər insan*
*Bir demək... birdir iştə pirü-çavan.*

***Papas***

*O həmin nə söylə?*

***Şeyx Sənan***

*Qurandır.*

***Papas***

*... heç bu mümkünmü isəvi bir qız*
*Bir müsəlmana varsın? Anladınız...*

***Şeyx Sənan***

*Birsə həq, cümlə din də bir... naçar,*
*Xəlqi yalnız ayırmış azğınlar...*

Keşiş Papas müsəlmanların böyük din xadiminə, onun Peyğəmbərinin haram buyurduğu şərab təklif edir.

***Papas***

*Içiniz bu şərabı eylə isə.*

Şeyx Sənan pərəstişkaranə baxışlarla Xumarı süzür və kəskin bir qərar ilə onsuz da Xumarın eşqindən sərxoş olduğunu anladaraq şərab qədəhini sonacan nuş edir. Papas cibindən xaç çıxarıb Şeyxə verir.

***Papas***

*Pək gözəl, Şeyxim, al şu xaçı da as.*

***Şeyx Sənan***

*... Iştə bir parçacıq gümüşdür bu;*
*Bunu asmaqla bir üzük taxmaq*
*Məncə birdir, bir… anladınmı bunaq!*

***Papas***

*... Indi Quranı al da yax…*

***Şeyx Sənan***

*... Hökmü-Quran iləbəd ucalır*
*Yaxılan həp kağız, mürəkkəbdir.*

***Papas***

*Onu atəşdə yaxmayınca inan,*
*Sana əsla olunmaz itminan.*

***Ümum***

*Tövbə, ya şeyx, tövbə, tövbə!..*

***Şeyx Sənan***

*Eşqdən başqa hər nə varsa, əvət,*
*Tövbə, min tövbə!.. Eylədim nifrət.*

***Platon***

*... Şeyxim, ancaq bir iş də yapmalısan,*

*Iki il tam donuz otarmalısan.*

***Şeyx Nəim***

*Bir düşün Şeyx, unutma Kəbəni*

***Şeyx Sənan***

*(Xumara israr ilə)*

*Iştə Kəbəm də, cənnətim də budur.*

Bununla da iş qurtarmır. Məlum olur ki, xristian kintoları – Anton və Simon da Xumarı sevirlər. Dostları Oğuzla Özdəmir Sənana Xumarı qaçırtmağı təklif edirlər. Şeyx Sənan isə:

*Özdəmir, parça-parça doğransam,*
*Yenə bir böylə haqsiz iş yapmam! –*

deyərək sonacan bütün şərtləri mərdi-mərdanə yerinə yetirmək üçün söz verir.

Şeyx Sənanın həyatının birinci hissəsi dini təbliğatla, dində əldə etdiyi yüksəkliklə bağlıdırsa, ikinci mərhələsi onun öz etiqadından daha uca, daha ali zirvələrə qalxaraq azad məhəbbətin yolunda çəkdiyi məşəqqətlərlə bağlıdır.

Cavid öz qəhrəmanlarını açaq-aşkar qarşısına qoyduğu məqsəd uğrunda dolaylardan keçirə-keçirə təbliğ və tərənnüm edir. Şeyx Sənanın zahirən xaç taxıb şərab içməsi, Quranı yandırmağa hazır olması puç, səfeh ibadətlərə – dinlərə qarşı etrazı kimi səciyyələnməlidir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. H.Cavid. Seçilmiş əsərləri. I cild. Bakı, Azərnəşr, 1968.
2. Qarayev Y. Faciə və qəhrəman. Bakı, 1965.
3. Quliyev R. Azərbaycan məhəbbət dastanlarının bədii özünəməxsusluğu. Bakı, 1993 (namzədlik dissertasiyası).
4. Yusifova C. XIX əsrin sonu və XX əsrin əvvəlində Azərbaycan yazıçılarının Türkiyə ədəbi mühiti ilə əlaqələri. Bakı, 1990 (namzədlik dissertasiyası).
5. Kitabi-Dədə Qorqud. Bakı, Yazıçı, 1988.
1. Osmanlı V. Azərbaycan romantizminin bədii-estetik özünəməxsusluğu, problemləri, mövzu tipologiyası. Bakı, 1989 (namzədlik dissertasiyası).

*Dil və Ədəbiyyat,*
*Nəzəri, elmi, metodik jurnal*
*Bakı – 1996, №4, s. 94 – 96*

## 4. CAVİD TƏDQİQATÇILARI VƏ ONLARIN CAVİDİ ZAMANLA, DÖVRLƏ BAĞLI ƏKS ETDİRMƏK CƏHDLƏRİ

Cavid və onun tədqiqatçıları araşdırılması maraqlı və vacib mövzu kimi öz həllini gözləməkdədir.

Tədqiqatçı bu fakta ötəri nəzər salmaqla işini kafi hesab etdiyindən geniş şərhə ehtiyac duymur.

1920-1926-cı illərdə H. Cavidi yeni həyatı başa düşməyən, yeni həyatdan uzaqlaşan, yeni həyata biganə şair kimi şərh etmişlər.

Bu baxımdan Azərbaycan ədəbi-tənqidində Cavid qədər təftiş olunan ikinci bir sənətkar yoxdur.

«1920-1926-cı illər Cavid yaradıcılığının «böhran dövrü» hesab olunur»[8].

Cavid həm şəxsiyyəti, həm də yaradıcılığı etibarı ilə hələ öz sağlığında diqqət mərəkəzində olmuş, onun barəsində müxtəlif zamanlarda çeşid-çeşid fikirlər söylənilmişdir: Hənəfi Zeynallı, Məmməd Cəfər, Abbas Zamanov, Mustafa Quliyev, Abdulla Şaiq, Yaşar Qarayev, Əkbər Ağayev, Əjdər Ismayılov, Əbülfəz Ibadoğlu, Zahid Əkbərov, Rəfiq Zəka, Teymurçin Əfəndiyev, C. Cabbarlı, Mehdi Məmmədov, S. Vurğun, S. Kirmanşahlı, Xəlil Ibrahim, Ə. Tahir, A. Kazımov, Ə. Nur, V. Osmanlı, G. Əliyev, Əsgərli Zaman və adı çəkilməyən başqaları bu qəbil tədqiqatçılardandır.

Tarixilik və müasirlik prinsipləri ilə ülvi və köklü məsələləri yeni tərzdə qələmə almış Cavid, qarşısına qoyduğu, həll etməyə çalışdığı məsələləri sadə deyil, dövrünə uyğun olaraq dumanlı və dolaşıq qələmə almışdır. Cavid tədqiqatçılarından bu kələfin ucunu tapmaq, beləliklə Cavidi qarabaqara izləmək lazım gəlir.

Kədərli faktdır ki, tədqiqatçılar əksər hallarda Cavidin yaşadığı dövrana uyaraq Cavidə ürəklə yanaşmamış, Cavid yaradıcılığını dərindən mütaliə etməmiş, üstəlik onu tənqidə cəsarət etmiş və yanlış nəticəyə gəlmişdilər[9].

M. Cəfər həmin illəri məfkurəvi tərəddüd dövrü adlandırır, proletar inqilabının əsas qayəsini aydın dərk edə bilməməkdə günahlandırır, onda proletar inqilabının xilaskar roluna qəti bir inamın olmadığını yazırdı: «20-25-ci illərdə romantiklər xüsusən Cavid kimi əvvəllər daha çox ümumi məhəbbət ideyasına bağlı olan ziddiyyətli yazıçılar yeni həyatı qavramaqda və əks etdirməkdə çox çətinlik çəkirdilər»[12].

Əjdər Imayılov bilavasitə onun tənqidi realizmlə bağlı olmadığını və bu səbəbdən də bəzi meylləri görə bilmədiyindən yazırdı: «Molla Nəsrəddin»çi və ya tənqidi realizmə mənsub bir yazıçı olmadığı üçün dövrün inqilabi tələbini, inqilabi meylini görə bilməmişdir və görə də bilməzdi»[5].

«Cavid yaradıcılığının yüksəlişində ən ciddi əsər «Iblis»dir. Bu əsər Höte, Lermontov, Bayronun təsiri ilə yaranmışdır»[6]. Səh: 236, 202. H. Cavidi Əbdülhəqq Hamidin və Tovfiq Fikrətin təqibçisi və təqlidçisi kimi də qələmə vermişlər. (Ünönü Ensiklopediyası).

«Cavidin müxtəlif dramlarında gördüyümüz mələklər, nədimlər, dəliqanlılar, saqilər yenə də Hamid pyeslərində tez-tez rast gəldiyimiz obrazlardır»[10].

Cavidi tənqid edənlərlə təqdir edənlərin arasında ikibaşlı mövqe tutanlar da var idi: «Həm humanistdir, həm türkçüdür, daha doğrusu pantürküsdür, həm dinsizdir, həm də islamçıdır. Bu ziddiyyətlər xüsusən onun «Uçurum», «Iblis», «Peyğəmbər» və «Topal Teymur» adlı əsərlərində öz əksini tapmışdır[13].

M. Ələkbərli Cavidi daha insafsız analiz edirdi: «Bədii yaradıcılığının ilk başlanğıcından son dövrünədək osmanlı klassik romantiklərinin əsiri olaraq qalan Cavid demək olar ki, bütün öz əsərlərində panislamizm və pantürkizm ideyalarının nəğməkarı kimi tanınmışdı»[2].

Məsud Əlioğlunun aşağıdakı qənaəti təəssüf doğurur. «Peyğəmbər»ə islamçılıq fikirlərini yayan və bununla da guya din birliyi ideyasını müdafiə edən bir əsər kimi yanaşanların əksəriyyəti ciddi səhvə yol verirlər»[3].

Cavidi dinsiz adlandırmaq ən azı ürəksizlikdir. Müsəlman şərqində doğulasan, boya-başa çatasan, əslinə-kökünə xor baxasan. Fikrimizcə, tanrısevən Cavid üçün belə iradlar sadəcə insafsızlıqdır. Bu irad hər şeydən əvvəl bəzi tədqiqatçıların həm Cavidlə bağlı, həm də Cavidə olan zamanla dövrlə bağlı məhəbbətlərindən irəli gəlirdi. Bir zamanda ki, Allah inkar edilə, məscidlər bağlana, dinlə bağlı mərasimlərə qadağa qoyula, belə quruluşda Cavidi necə təqdir etmək, Cavid şərəfini necə qorumaq olardı?

Əjdər Imayılov Cavidi ümumi halda tədqiq etdiyindən və onun sənədli əsərlər yazmadığını unutduğundan təbii olaraq

haqsız nəticə çıxarmışdır: «Bütün görkəmli sənətkarlar kimi Cavid də böyük tarixi hadisələri təsvir etmək istərkən diplomatik danışıqlar, tarixi hadisələr, əhvalat və rəqəmlərlə maraqlanmır»[5].

Yaxud da «Bu həqiqətdir ki, Cavid Məhəmmədin şəxsiyyəti ilə ilahi parıltını real bədii-fəlsəfi lövhələrin təsviri vasitəsi ilə dindarların gözündə söndürmüşdür»[5].

Cavidin dindarlara münasibətini dinə münasibət kimi qəbul etmək doğru deyil.

H. Cavidi həm tənqid edərkən, həm də təqdir edərkən qüvvətli fikirləri ilə hələ də ilk yerlərdən birincisini tutan Hənəfi Zeynallı haqlı olaraq Caviddən çox şey gözləyirdi: «Cavid bir «Şeyx Sənan» yazar, bir «Uçurum» açar, bir «Afət» doğurar, bir «Iblis» rəqs etdirər, bir «Peyğəmbər» yaratmağa qeyrət edər. Bəlkə də şimdi bir Çingiz, yarım bir gün Isgəndər, ertəsi gün də bir Lenin diriltməyə can atacaqdır»[4].

Əkbər Ağayev «Şeyx Sənan» faciəsindən danışarkən aydın və həqiqi qiyməti ilə diqqəti cəlb edir: «Ən çox diqqətəlayiq xüsusiyyəti bundadır ki, müəllif yüksək eşq ilə din və çürük təriqətlər arasında başlanan gərgin dramatik mübarizəni axıra qədər ustalıqla inkişaf etdirərək həqiqət naminə, yüksək eşq naminə «can nisar» edən Sənanı və Xumarı bu mübarizədən qalib çıxardır və onların faciəsinə böyük həyati məna verir»[1].

Vəli Osmanlı əvvəldən axıra qədər Cavidə həm məsuliyyətlə, həm də məhəbbətlə yanaşmışdır. Onun qənaətləri təqdirəlayiqdir: «dinə ateist münasibəti ilə romantik Cabbarlı öz sələfi M.F. Axundov ilə müqayisə edilə bilər. Cavidin dinə münasibəti ateist münasibət deyildir»[11]. Bu siyahını istənilən qədər uzatmaq olar, lakin artıq şərhə ehtiyac varmı?!

1914-1926-cı illər Azərbaycanda həm mürtəce və mütərəqqi qüvvələr arasında çəkişmələr qabarıq şəkildə özünü göstərirdi, həm də bu illər mədəni yüksəliş illəriydi. Teatr və maarifin çiçəkləndiyi dövr idi. Heç təsadüfi deyil ki, məhz bu illərdə H.

Cavid öz şah əsərləri ilə məşğul olmuş və dırnaq içində yeni həyatdan uzaqlaşmışdır.

Müasirlik – gələcəyi görməkdir. Cavid bu günümüzlə səsləşməkdir. Din birliyi ideyası, azad məhəbbət, nəfsi qamçılamaq, mədəniyyət – deyən, böyük ideyaları ortaya atan Cavid görəsən hansı həyatdan danışırdı? Bəs bu ideyalar həmin dövr üçün də yeni, həmin dövrana uyğun deyildimi?

…Cavidin bu və ya digər ziddiyyətləri onun yaşı, mühiti və ictimai-siyasi hadisələrin təsiri ilə yaranmışdır.

Indi müstəqillik əldə etmiş vətənimizdə qayda-qanun, əxlaq, siyasət, dinə münasibət sovet dövründəkindən fərqlənir. Burası Cavid kimi obyektiv sənətkarlarımızın xeyrinədir. Cavid zamanı yox, ideyaları izlədiyindəndir ki, həm öz zamanında, həm də o zamandan bəri öz tənqidçilərindən yüksəkdə durur və bu mövqeyini qorumaqdadır.

*Dil məsələlrinə dair tematik toplu,*
*Azərbaycan Elmlər Akademiyası*
*Nəsimi adına Dilçilik Institutu*
*«Loqos» jurnalı, Bakı, «Örnək», 1997, s. 21-25*

## İSTİFADƏ EDİLMIŞ ƏDƏBİYYAT

1. Ağayev Ə. «Sənətkarlıq məsələləri». Bakı, Azərnəşr, 1962, s..143.

2. Alekperli M. Lit. Azerb. Qos. Izd-vo. 1934, s.34

3. Əlioğlu M. «Tənqidçinin düşüncələri». Bakı, 1968, s. 48.

4. Zeynallı H. Bax: Osmanlı Vəli Musa oğlu «Azərbaycan romantizminin bədii-estetik özünəməxsusluğu, problemi, mövzu tipologiyası». Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 1992, s. 216.

5. Ismayılov Ə. «H.Cavidin dramları». Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı, 1974, s. 28, 17, 2.

6. Məmmədli Q. «Cavid ömrü boyu». Həyat və yaradıcılıq salnaması. Bakı, Yazıçı, 1982, s. 236.

7. Yenə orada, s. 202.

8. Məmmədov M. «Azəri dramaturgiyasının estetik problemləri». Bakı, Azərnəşr, 1986, s.105.

9. Bax: A.Nur. «Djavid i eqo kritika» jurn. Novıy vostok, 1928, № 22. C.Cabbarlı «Böyük vəzifələr uğrunda». «Inqilab və mədəniyyət» jurnalı, Bakı, 1926, № 11. H.Mehdi. «Ədəbiyyat və sənət məsələləri» jurnalı, Bakı, 1958, s.10.

10. Rəfiq Zəka Xəndan. «Cavid sənəti», Bakı, 1981, s.11.

11. Osmanlı V. «Azərbaycan romantizminin bədii-estetik özünəməxsusluğu, problemi, mövzu tipologiyası». Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 1992, s. 237.

12. Cəfər M. «H.Cavid». Bakı, Azərnəşr, 1960, s. 139.

13. Cəfərov C. «Azərbaycan dramaturgiya teatrı». Bakı, 1959, s. 166.

## 5. CAVİDİ DÜŞÜNDÜRƏN PROBLEM

M. Füzulinin «Xoşbəxtlər bağçası» əsərindən ilk insanın torpaqdan yaradılması məlumdur.

Bibliya əfsanələri də ilk insanın doğulmasını inkar edir. Bizim elmə gətirmək istədiyimiz fikir, yenilik isə ilk yaradılışın cinsini müəyyən etməkdən ibarət olub. Və müəyyən etmişik ki, ilk insan əfsanələrdə deyildiyi kimi kişi Adəm yox, qadındır.

Adəm Göy Allahı ilə onun yaratdığı qadından doğulmuş ilk ruhdur, ilk insandır.

…Adəm doğulandan sonra Allaha xəyanət etmiş qadın Cin Məriclə Cin Mərcadan doğulmuş Iblislə evlənmiş və Iblisdən bir qız dünyaya gətirmişdir.

Allahla Iblisdən doğulmuş və həddi-büluğa çatmış Adəmlə qız evləndikdən sonra isə yer üzərində insanlıqla iblislik qarışdırılmışdır. H.Cavid «Iblis» faciəsində bu konsepsiyaları həyatiləşdirmiş, insanı iblislikdən xilas etməyin yolları, Iblisin insanı iblisləşdirməsinin üsulları müəyyənləşdirilmişdir.

«Şəfqət bacısı Rəna öz atasının qatilini axtarır. Evləri yandıqdan sonra vətənlərindən, evlərindən ayrı düşmüş iki, bir-birini tanımayan qardaşlar – Ariflə Vasif Rənaya kömək etmək, qatili tapmaq və bu yolda onun məhəbbətinə nail olmaq arzusundadırlar. Bu yolda Iblis onlara bələdçilik edir. O, Arifə pul və silah bağışlamaqla onu gənc arvadı Xavərə dönüklük etməsinə şərait yaradır.

Ərinə mane olmaq istəyən Xavəri Arif öz əlləri ilə boğub öldürür. Qatil Ibn Yəmin Vasif tərəfindən tutulub əsgəri qaçaq Elxan tərəfindən cəzalandırılır.

Iki qardaş: Ariflə Vasif Rənaya sahib olmaq üçün vuruşurlar. Arif uşaqlıqdan itirdiyi və həsrəti ilə çırpındığı qardaşını tanımadan öldürür»

Qədim Şərq fəlsəfəsi, Yunan fəlsəfəsi, Orta əsrlər ərəb-islam sxolastik fəlsəfəsinin təsiri H. Cavidin realizm və nominalizm fəlsəfəsi ilə təzələnir.

Insan iblisləşir. Insan iblisləşənə qədər abstraktdan konkretə analiz-sintez edilir.

Insan və Iblis, inam və şübhə çarpışmasında insan xisləti üzə çıxır.

Cavid hər yerdə Insanı öyrənir. Bədxah insanı Iblis, xeyirxah Insanı peyğəmbər hesab edən şairin ən böyük məqsədi insanlığı təbliğdir.

Insan qarşısına qoyduğu missiyanı yerinə yetirə biləndə öz «mən»ini, insanlığını təsdiq və sübut edir. Xeyirlə şərin məskən saldığı bir bədəndə insanın tərkibindəki, mayasındakı

Allahaxaslığın, Adəmliyin, insanlığın, yaxud naqisliyin, bədxahlığın, iblisliyin faizi araşdırılır.

«Iblis» faciəsində haram nəfsinə tabe olan insanın genologiyası insanla dünya arasındakı münasibətlərin harmoniyası zaman, məkan daxilində pozulmuş nizampərvərlik xaosa çevrilmiş, haram nəfsinə tabe olmuş Arif talenin əlində oyuncağa çevrilmiş, zəlil olmuş, yerlərdə sürüklənmiş və nifrətdən iblisləşmişdir.

Ruhu Əzrayıl aparır, bədən ana torpağa (ilk yaradılışa, qadına) çevrilir, əməl insanlığa qalır. Budur fərdin cəmiyyətə verdiyi xeyir. H.Cavid yaradıcılığının mayası bu hikmətlərlə dolu əbədiyaşar fəlsəfələrdir.

Insanın iblisləşməsi Cavidi və Cavidin simasında bəşəriyyəti narahat edən, fəqət həlli mümkün olmayan problem kimi qalmaqdadır.

H.Cavid içimizə güzgü tutmaqla özümüzü iblislikdən xilas etməyə iblisləşməkdənsə insanlaşmağa, saflaşmağa – haram nəfsimizi özümüzə tabe etdirməyə çağırır.

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**

1. Babayev M.Ş., İsmayılov A.S. «Genetik məsələlər və onların izahlı həlli». Bakı, Azərnəşr, 1995, səh. 4.

2. Qasımova A. «Füzuli yaradıcılığında Quran rəvayətləri». Bakı, Universitet nəşriyyatı, 1995.

3. Ismayılov F. «Insan və dünya». Bakı, 1994 (1-ci kitab).

4. Füzuli M. «Xoşbəxtlər bağçası» («Hədiqətüs-süəda»). Karvan, 1992, yanvar-mart, səh.2-48 (roman qəzet), № 1.

5. Cavid H. Seçilmiş əsərləri. 2-ci cild. Bakı, Azərnəşr, 1969.

6. M.Cəfər «H.Cavid». Bakı, Azərnəşr 1960, səh. 114.

*Dil məsələlərinə dair tematik toplu, №1*
*Bakı – 1997, s. 50 -52*

# 6. H. CAVİDİN BƏDİİ-FƏLSƏFİ ÜÇLÜYÜNÜN İDEOLOJİ MƏQAMLARI

Cavidin şəxsiyyəti, yaradıcılığı, xüsusi ilə də onun «Şeyx-Sənan» və «Iblis» faciələrinin səhnəyə qoyulması və necə qarşılanması haqda o qədər çox məlumat vardır ki, qocaman jurnalist Qulam Məmmədli bu məlumatları toplamaqla mükəmməl bir kitab tərtib etmişdir.

Toplanmış qəzet materiallarına əsasən məlum olur ki, teatr mövsümləri nəinki Bakıda, hətta Tiflisdə, Aşqabadda, Yerevanda, Naxçıvanda, Ağdamda və başqa digər şəhərlərdə çox vaxt Cavidin «Şeyx-Sənan», «Iblis» pyesləri ilə açılıb, bağlanırmış. Sadalanan pyeslərin tez-tez tamaşaya qoyulmasından asılı olmayaraq hər dəfə tamaşaçılar bilet qıtlığı ilə üz-üzə gəlmiş, böyük və əhatəli fikir mübadiləsi ilə maraq yaratmışlar. Bu o zamanlar idi ki, nəinki bilet satmaq, hətta teatra getmək özü problem idi. Tamaşalar haqda da o qədər ədəbi mühakimələr, o qədər mübahisələr yaranırmış ki, bu mübahisələri həll etmək üçün məhkəmə idarələrində yer ayrılırmış.

Qəzetlərdən seçmələr:

***19 dekabr. «Kommunist» İctimai-ədəbi mühakimə.***

«Bu gün ayın 19-da «Kommunist» qəzeti ədəbiyyat dərnəyi tərəfindən Dövlət Tənqid-Təbliğ Teatrında «Şeyx-Sənan» üzərindəki ictimai-ədəbi mühakimə davam edəcəkdir. Mühakimə tam saat 12-də başlanacaqdır. Bütün qəzet müxbirləri, ədib, şair, mühərrir və hər bir ədəbiyyat, ictimaiyyətin maraqlananları məhkəməyə dəvət olunurlar». IDARƏ.

«Türk teatrının 50 illiyi» ilə bağlı 5 aprel «Zarya Vostoka» qəzetində D. Bünyadzadə yazmışdır:

«Burada (Şeyx Sənanda – N.Ə.) quranın yandırılması barədə bir səhnə vardır. Tamaşaçılar nəinki buna soyuqqanlıqla

baxmırlar, hətta hər dəfə bu əsər oynandıqda teatr ağzına kimi dolu olur».

***4 aprel «Zarya Vostoka».***

«Cümə günü, martın 30-da Rustaveli teatrında M.S. Kirmanşahlının quruluşunda H. Cavidin «Iblis» adlı fəlsəfi mənzum dramı tamaşaya qoyulmuşdur. Pyes o qədər ciddidir və müəllifin qoyduğu «həlledilməz» məsələlər o qədər mürəkkəbdir ki, ona xüsusi bir məqalə həsr etmək lazım gəlir».

***12 iyul «Kommunist».***

«Ədib, ədəbiyyat və inqilab».

…Daha bir misal: «Hüseyn Cavidin «Sənan»ı, «Iblis»i ancaq şuralarda geniş bir səhnəyə malik bulunur. Hüdudlardan aşamıyor. Hüseyn Cavid buralarda əziz, oralarda isə kafərliklə ittiham ediliyor». Ə.B.

Cavidin «Şeyx Sənan»ı, «Iblis»i şedevr adlandırılır və yüksək qiymətləndirilir, hər bir məlumat nəzər diqqətə cəlb edilirdi.

***16 dekabr «Zarya Vostoka».***

«Peyğəmbər» tamaşaya qoyulacaqdır. Bu əsərdə Məhəmməd peyğəmbər ilk dəfə teatr səhnəsinə çıxarılır». Rza Təhmasib.

H. Cavid Azərbaycan teatr tarixinə M.F. Axundov, Ə. Haqverdiyev, C. Cabbarlı, S. Vurğun qədər təsir göstərmiş, onun pyesləri Azərbaycan dramaturgiyasının inkişafında, aktyor və teatr xadimlərinin yetişməsində müstəsna rol oynamışdır.

Abbas Mirzə Şərifzadə, Mərziyə Davudova, Kirmanşahlı, Ibrahim Isfahanlı, I.Həqqi, Ülvi Rəcəb, Əhməd Salahlı, Əli Qurbanov, baş rejissor Isfahanlının, A.Tuqanovun və Şərifzadənin quruluşunda yeni aktyor keyfiyyətləri ilə uzun müddət fəaliyyət göstərmişlər.

H. Cavidin yuxarıda adı çəkilən pyeslərinin böyük müvəffəqiyyət qazanmasında M. Maqomayev musiqisinin də böyük təsiri olmuşdur. 1921-ci ildən xalq düşməni hesab

ediləno qədər «Şeyx Sənan», «Iblis» dramları Azərbaycan səhnəsinin bəzəyi olmuşdur.

«3 iyul 1937-ci ildə Cavid həbs olunmuş, 6 mart 1956-cı ildə bəraət almışdır». Bu bəraətdən sonra yenidən bu pyeslər Azərbaycan tamaşaçılarının ixtiyarına verilmişdir.

H. Cavidin «Şeyx Sənan», «Iblis» və «Peyğəmbər» bədii-fəlsəfi üçlük əsasında təhlil obyektinə çevirdiyi, diqqət mərkəzinə çəkdiyi və həll etməyə çalışdığı problemlər bu gün də böyük problemlər kimi qalmaqdadır.

«Şeyx Sənan» faciəsində Sənan öz taleyinin mahir sükançısıdır. O, qismətinə yazılmış, öz müəllimi Şeyx Kəbirin vasitəsi ilə ona çatdırılan «səni ehtirasat yıxacaq» hökmünü dərk edincə, taleyindəki qadın təhlükəsini özünün azad məhəbbətlə bağlı məqsədlərini din birliyi, milli bərabərlik, dostluq, qardaşlıq ideyalarına istiqamətləndirmişdir. Şeyx Sənanın seçmə aktı onu adilikdən dahiliyə, adi insan çərçivəsindən fövqəlinsan səviyyəsinə yüksəltmişdir.

«Iblis» başdan-başa insanlığa, haqqa, ədalətə, məhəbbətə şübhədir, inamsızlıqdır. Inamsız insan iblisdir. «Iblis»də insana xas olmayan iblislik, naqislik, qeyri-insani ziddiyyətlər Cavid qələmi ilə ifşa hədəfinə çevrilmiş, qamçılanmışdır.

«Iblis» böyük Cavidin şübhəsindən yarandığı kimi, «peyğəmbər» də onun böyük inamından doğulmuşdur. Insan öz içindəki inama meyllidir. Insan inandığını ideallaşdırdıqca sevir, vəcdə gəlir, möcüzələr yaradır. «Peyğəmbər» pyesində Məhəmmədin bütün qələbələrinin rəhni Allaha inamdır, Allaha məhəbbətdir. Məhəmmədin də Allahı «Şeyx Sənan»ın, «Iblis»in Allahı kimi zahirdə əyaniləşmir, lakin onlardan fərqli daxildə gerçəkləşə bilir. Inam imama çevrilir. Hər yerdə eyni ideya məqsədi güdən Cavidin «Mənim tanrım gözəllikdir, sevgidir» ənənəvi məhəbbət fəlsəfəsini Peyğəmbər: «sevgilim tanrıdır», - kəlamı ilə həll edir. Adi insanın məhəbbəti sonda nifrətə çevrildiyi halda, «Peyğəmbər»in məhəbbəti sonda

fövqəlməhəbbətə, fövqəlideala çevrilir. «Peyğəmbər» - «Iblis»dən təmizlənmiş, ayrılmış Insandır.

Bütöv yaradıcılığı boyu böyük Cavidin fəlsəfi sisteminin nüvəsini insan və onun taleyi təşkil edir. Yuxarıda adları çəkilmiş bədii-fəlsəfi üçlükdə H. Cavid insan fəaliyyətini hər kəsin öz arzusuna, öz şəxsiyyətinə, öz tələbatına müvafiq, məzmunlu istiqamətə yönəltməyin mümkünlüyünü qeyd etmişdir.

Cavid məktəbi ondan bəhrələnənlər üçün ideologiya məktəbidir. Cavid ideyalarını doğru, düzgün təbliğ etmək insanlığa xidmətdir. Bu baxımdan Şeyx Sənanı «məhəbbət yolçusu», «böyük bir din xadimini bir xristian qızın xatirinə donuz otaran», - «donuzçu» adlandırmaq, Iblisi «çılpaq həqiqətlər aşiqi», Peyğəmbəri «çox arvad almışdır» - «arvadbaz» hesab etmək ideoloji baxımdan düzgün ifadə deyil.

Şeyx Sənan din birliyi ideyasını yaymaq xatirinə özünü, öz həyatını nümunə göstərmiş, bütün varlığı ilə bu məqsəd uğrunda fədakarlıq göstərmişdir.

Iblis öz düşüncələrini, qisasçılığını, Allaha zidd əməllərini ürəklə, şiddətli həzz ala-ala həyata keçirmişdir. Iblis həqiqət axtarandan çox, bədbəxtlik yolunun bələdçisini, ağsaqqalını xatırladır. Iblis hər yerdə insanın düşməni olduğunu təsdiqləyir. Peyğəmbər böyük və ilahi idealın tərənnümçüsü kimi vahid Allah yolunda can qoymuşdur.

Hər üç əsərdə hiss və duyğuların zənginliyi, qəhrəmanların ümumi gərginliyi əsas ideyaların kənarda qalmasına zəmin yaratmışdır ki, bu da romantizmin əsas xüsusiyyətləri ilə səsləşir.

Cavidin ümumi məqsədlərindən yox, obrazların məqsədə qədərki gedişlərindən danışmaq və bu nöqteyi-nəzərdən Cavidi qiymətləndirmək insafsızlıqdır.

Hüseyn Cavidin qəhrəmanları bir qayda olaraq öz məqsədlərinə təbii yolla can atmışlar. «Şeyx Sənan» düz yolla,

əzabla, «Iblis» dolayı yolla, hiylə ilə, «Peyğəmbər» açıq-aşkar təbliğatla…

Qəhrəmanlar keçdikləri yolun necəliyindən asılı olmayaraq, gördükləri işin nəticəsi ilə öz niyyətlərini gerçəkləşdirə bilmiş, əməlləri ilə öz məramlarını təsdiqləmişlər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Qarayev Y. Faciə və qəhrəman. Bakı: AE nəşriyyatı. 1965. səh 131
2. Əfəndiyev T.H. Cavidin ideyalar aləmi. Bakı. Yazıçı. 1985. səh 62
3. Cavid H. Seçilmiş əsərləri, 4 cilddə – I cild. Bakı. Azərnəşr. 1968.səh 58
4. M. Cəfər Hüseyn Cavid. Bakı. Azərnəşr. 1960. səh 146.

*Azərbaycan Elmlər Akademiyası,*
*Nəsimi adına Dilçilik Institutu,*
*«Loqos» jurnalı, Bakı, «Örnək», 1997, s. 21-25.ı*

# 7. H. CAVİDİN DİLİ

Hər bir qələm sahibinin müvəffəqiyyəti onun dilindən, üslubundan rişə alır. Cavidin üslubu çox bəyənildiyi kimi də əksər vaxtlar tənqid edilmişdir. Cavidin nəinki adi oxucu, hətta aktyorlar da oxuyarkən ciddi çətinliklə üzləşmişdilər.

Türk ədəbiyyatı, türk ədəbi mühiti Cavidə güclü təsir etmişdir. Bu təbii səbəbdən Azərbaycan oxucuları osmanlı türkcəsi, osmanlı şivəsi ilə yazan Caviddən şikayətlənirdilər.

«Yeni fikir» qəzeti yazırdı: «Indiki şairlərimizdən Abdulla Şaiqə, Hüseyn Cavidə az-çox ədib demək olar. Ancaq bunlar

dillərini molla dili deyil, camaat dili yapmalı, şerlərini osmanlı türkcəsi ilə deyil, Azərbaycan şivəsinə uydurmalıdırlar»[1].

«Nəticə olaraq deyirik, ki, Cavid incə ruhlu bir şair olmaq ilə bərabər türk dilini əruz vəzni ilə qarışdıran və bir-birindən ayrılmaz bir hala salan sənətkardır»[2].

H. Cavidin mükəmməl tədqiqatçısı Hənəfi Zeynallı isə o zamankı dil və üslublara nisbətdə Cavidin dili haqda belə yazmışdır: «Cavidin dili Azərbaycandakı şair və ədiblərimizə nisbətən ən müstəsna və narın dildir»[3].

Bu da həqiqətdir ki, Cavid öz dili üzərində mükəmməl işləmiş, dilinin sadələşdirilməsi yolunda böyük zəhmətlə çalışmışdır. Belə ki, «Şeyx Sənan»ın dili ilə «Iblis»in, «Peyğəmbər»in dili arasında müsbət mənada böyük fərq vardır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Məmmədli Qulam. «Cavid ömrü boyu. Həyat və yaradıcılıq salnaməsi». Bakı, Yazıçı, 1982, səh. 149.
2. Yenə orada, səh. 169.
3. Yenə orada, səh. 190.

*Nizami adına Ədəbiyyat Institutu*
*Dil məsələlərinə dair tematik toplu,*
*Bakı, 1997, №2, s. 15 -16*

## 8. H. CAVİD DRAMATURGİYASINDA İNSAN, İBLİS, TANRI…

Tanrısı gözəllik və sevgi olan H. Cavid dramaturgiyasının cövhərində maddi aləmin mərkəzi yer, yerin əşrəfi isə insandır. Insan və Allah, Insanallah, Insan və Dünya, Insan və Mühit, Insan və Iblis anlayışları hər yerdə olduğu kimi H. Cavid

dramaturgiyasında da öz əksini tapmışdır. Burada da Allah əzəli-əbədi bir qüvvə, insan isə ötəri varlıqdır.

Ikili dünyamızda insan özü də öz mahiyyəti etibarı ilə ikili məfhuma: Allah-Insan, Insan-Iblis məzmununa malikdir. Insan torpaqdan yarandığına görə adi və miskin, allahdan yarandığına görə isə dünyanın əşrəfi və ilkin ruhun daşıyıcısıdır. Bu münasibətlə insanın daxilində həmişə bədənlə ruhun, Allahla Insanın, Insanla Iblisin mübarizəsi gedir və mübarizə bəşəriyyət davam etdikcə baş verəcəkdir.

Fiziki bədənin hakimiyyəti insanı Iblisə, ruhun üstünlüyü isə Allaha – dahiliyə yaxınlaşdırır.

Bütün dinlərdə Allah mütləq ruhdur, təkdir, bölünməzdir. Insan isə Iblislə Insanın evlənməsindən yarandığına görə iki bir-birinə zidd qütbün: təbii və ruhi məzmunun birləşməsidir. Buna görə də insan öz əqli gücünü, quruculuq əzmini göstərə bildiyi kimi, mənəvi naqisliyini də, dağıdıcı xislətini də göstərə bilir.

Insanın cövhərindəki iblisəxaslıq – gizli bir faciə rüşeymi də var ki, bu da özünü sonralar şəxsiyyətin özünə pərəstiş ideyasında – allahlıq iddiasında büruzə verir. Bu mənada Allahın kökləri insanda, insanın kökləri isə bütün dünyada və kainatdadır. Kamil insanın yaratdıqlarının ömrü əzəlindən ölümə tuşlanmış insan ömründən faydalı, dəyərli və bəşəridir. Insan öz yaratdıqlarını əbədiləşdirə biləndə tanrılaşır.

Insan öz fərasəti ilə öz dünyasına qalib də gələ bilər, öz dünyasını məğlubiyyətə də uğrada bilər. Hər kəs dünyaya heyranlığı ilə, aşiqliyi ilə öz yüksəkliyini əks etdirə bilər.

Eşq, məhəbbət – aşiqlik insanın ruhi vəziyyəti ilə sıx surətdə bağlıdır. Hər iki əsas məzmundan birini seçmək isə insanın əxlaqi, sosial mövqeyi ilə bağlıdır. Insanın seçmə aktı onun cəmiyyətdəki mövqeyini müəyyən edir.

Göyün doqquz qatından yeddisi fələklər, səkkizinci isə fələklərlə Allah arasında bir sədd kimi təsvir olunmuşdur. Doqquzuncu qata, yəni ilahi dərgahə yalnız bədəndən, vücuddan ayrılmış azad, saf ruhlar yüksələ bilərlər. Yeri gəlmişkən,

doqquz rəqəmi şəxsiyyətlə bağlı rəqəmdir. Əfsanələrə görə, Allah-təala Adəmə baş çəkmək üçün düz doqquz dəfə Kəbəyə – yer üstü cənnətə enmişdir…

Indiyə qədərki fərziyyələrin əksinə olaraq haqqında bəhs etdiyimiz üçlükdə ilk dəfə Allah-təala tərəfindən yaradılmış ilk insan indiyə qədər deyildiyi kimi Adəm deyil, mifoloji mənbələrdən alınan və tərəfimizdən isbat edilən qadındır. Adəm dünyanın hər nöqtəsindən götürülüb Allah-təalanın öz əlləri ilə torpaqdan yaradılmış və sevilmiş qadınla Allahın oğludur. Adəm ilk insandır, ilk ruhdur. Sonralar… Cin Məriclə Mərcadan doğulmuş Iblis Allahın ziddinə getdiyi üçün qadını yoldan çıxarmış, onunla əlaqədə olmuşdur. Bu izdivacdan isə qadının bir qız uşağı doğulmuşdur. Adəm həmin qızla evlənmiş və dünyada həlli mümkün olmayan Insan - Iblis probleminin əsası qoyulmuşdur.

Eşq Allahla Insanın əlaqəsidir. Adəm Allahın oğlu olduğu üçün Allah-təala Iblisi onun səcdəsinə çağırmış və Adəmi bütün mələklərdən üstün hesab etmişdir.

Hər bir kəsin bu dünyaya gəlişində iki məqsəd vardır. Birincisi, yer üstü cənnətdəki hər hansı bir tapşırığı – alın yazısını yerinə yetirmək, ikincsi öz ruhunu kamilləşdirmək.

Yazılı mənbələrə görə, hələ ki ilahi dərgaha öz könlünü iblislikdən – ürəyə çökmüş qara qandan – Allaha olan şübhədən azad etmiş, mələklər tərəfindən təmizlənmiş Məhəmməd peyğəmbər yüksəlmişdir, bu yüksəliş Quranda Merac – ən uca adlandırılmışdır. Eşqin ən ali mərtəbəsi Allaha olan məhəbbət, ən adi mərtəbəsi isə insana olan məhəbbətidir. Eşqə mübtəla olmaq Allahın iradəsi ilə baş verir. Elmsiz və eşqsiz Allahı dərk etmək mümkün deyil. Insan həyatının son məqsədi maddi bədəni tərk edib, ruhi bədən qazanmaq və beləliklə öz əzəlinə, öz ilkinə, öz atasına – Allaha qovuşmaqdır. Ruh ali şəxsə – Tanrıya, fiziki bədən torpağa – qadına, anaya, Vətənə, əməl isə insanlığa–bəşəriyyətə xidmət etməlidir. H. Cavid yaradıcılığındakı Insan

konsepsiyasının kompleksi, cövhəri, mayası, duzu belə əbədiyaşar fəlsəfələrdir.

*«Şəhriyar» qəzeti. 26 mart, 1998-ci il*

# *9. HÜSEYN CAVİDİN İLK ƏSƏRLƏRİNDƏ* QADINA MÜNASİBƏT

Insan cəmiyyətinin yaranması ilə bağlı ilk anlayış qadınla bağlıdır. Zaman-zaman dünyaya insan gətirən qadına münasibət çox adi münasibət olmuşdur. Əzilən, iztirab çəkən qadına işıq yolu göstərmək əsrlər boyunca müşkül işə çevrilmişdir. Islamiyyətdən əvvəl qadın kişinin şəhvətinə məhkum olunan adicə bir varlıq idi. Kəbinsiz qadınlar ən adi canlı kimi başqasının zövqünə, şəhvətinə uyğun olaraq alınıb, satılırdı. Adəm peyğəmbərin dövründən Həzrəti Isanın dövrünədək qadınlar ancaq kölə hüququnda yaşamışdılar. Həzrəti Məhəmmədin Məkkədən Mədinəyə (622) hicrət etdiyi illərdə artıq qadınlarda öz varlıqlarına qarşı inam, ümid qığılcımları doğulmağa başlamışdı. Belə ki, «Qüreyş ordusu ilə bərabər gəlmiş qadınlar əllərindəki qavalları, cərgələri dolanaraq çalır, hərb nəşidələri söyləyirdilər. Bədrdə ölənlər həqqında şerlər söyləyir, bununla əsgərlərə cəsarət və qüvvət verməyə çalışırdılar». (Xatəmül-Ənbiya. Həzrəti Məhəmməd və həyatı. Əli Himmət Bərki. Osman Kəskioğlu. Ankara, 1993, s. 351).

XVIII əsrdə burjua inqilablarının əzici təsirindən sonra ilk dəfə Yunanıstanda feministlər hərəkatı başlanmışdı. XVIII-XIX əsrlərdə Avropada, Rusiyada maarifçilik hərəkatının genişlənməsi qadınların elmə, maarifə üz tutması həmin qanunauyğun prosesin nəticəsi idi. XIX əsrin axırları XX əsrin əvvəllərində Şərq qadınları köləliyə qarşı öz səslərini ucaltmağa başladılar.

Həmin dövrdə Suriyada, Misirdə, Türkiyədə qadın hərəkatları genişlənməyə başladı. Bu dövrdə Misirdə «Əl-

Fətət» (Qız), «Ənis-ül Səlisə» (Həmsöhbət), «Fəqət üş Şərki» (Şərq qızı), Suriyada «Əl Nüsrət» (Gözəl) jurnalları nəşr edilmişdir.

Azərbaycanda başqa xalqlara nisbətdə qadın azadlığı uzun müddət ləngimişdi. Bu məsələlər yalnız Azərbaycan Rusiyanın tərkibinə daxil olandan sonra yada düşmüşdü.

Qadının səviyyəsi, maariflənməsi hər şeydən əvvəl xalqın tərəqqisidir. Bu nöqteyi-nəzərdən cəmiyyətin intellektual cəhətdən yüksəlişində qadının mütləq rolu danılmazdır.

Nənələrimiz Azərbaycan tarixinə Tomris, Nüşabə, Mehrican xanım, Tuti Bikə kimi dövlət başçıları, Sara Xatun kimi diplomatlar, Məleykə Könüldaş kimi şairələr bəxş etmişlər.

Xalqımızın ruhunu, dilini, adət-ənənəsini qoruyub inkişaf etdirən də məhz qadınlarımızdır.

XIX əsrdə ziyalılarımız ədəbiyyatda qadınlarımızı ağıllı, fərasətli, namuslu, ailəsini, təsərrüfatını idarə edən, nəcabətini qoruyan xanımlar kimi təsvir etmişlər.

Maarifpərvər şair pedaqoqlarımız S.Ə. Şirvani, H.B. Zərdabi, M.F. Axundov, N.B. Vəzirov, M.M. Nəvvab, M.T. Sidqi, N. Nərimanov, Hüseyn Cavid qadınlarımızdakı qüsurları onların savadsızlığında axtarırdılar…

Azərbaycan ziyalıları «Şərqi Rus», «Həyat», «Irşad», «Təkamül», «Tazə həyat», «Tərəqqi», «Səda», «Sədai-həqq», «Sədai-vətən», «Iqbal», «Açıq söz», həm Azərbaycan, həm də rus dilində nəşr edilən «Kaspi», «Baku», «Proqress», «Yeni Füyuzat», «Molla Nəsrəddin», «Şəlalə», «Işıq», «Dirilik» və s. jurnallar öz səhifələrində qadın azadlığı, qadının maariflənməsi, milli mədəniyyətin inkişafı və s. məsələləri mərkəzə çəkib təhlil edirdilər.

Bu dövrdə artıq kişilərlə birlikdə qadınlar da, qadınları (Şəfiqə xanım Əfəndizadə) maarifə, mədəniyyətə çağırırdılar.

1917-1920-ci illərdə ictimai-siyasi durum qadın təhsili və azadlığı uğrunda mübarizənin yeni mərhələsini açdı. Oxumuş

qadınlarımız milli mədəniyyətlərin tərəqqisində mühüm rol oynamağa başladılar

Həmin illərdə «Doğma xalqının tərəqqisində çalışan, gələcək nəslə və ana dilində təlim-tərbiyə vermək arzusu ilə yaşayan ziyalılar yeni üsulla məktəblər açmağa çalışırdılar» (Məmmədov S. Azərbaycanın tərəqqipərvər qadınlarının maarifçilik fəaliyyəti (XIX əsrin ikinci yarısı – 1920-ci illər) Bakı., 1996, s.19. Doktorluq dissertasiyasının avtoreferatı).

H. Cavidin ədəbiyyatımıza gəldiyi burjua-feodal zülmünün aradan qaldırılması, kapitalizmin imperializm mərhələsinə keçid mərhələsi, iqtisadi mədəni inkişafa, əxlaqa, mənəviyyata meyllik dövrü idi. Bu dövrdə millətçilik, şovinizm, mövhumatçılıq, cəhalət, ətalət pislənirdi. Millətləri ittifaqa-dostluğa, qardaşlığa, sülhə-beynəlmiləl ideyalara səsləyirdilər. «Asiyanın oyanması» yavaş-yavaş realizm və romantizm cərəyanlarının inkişafına təkan verirdi. Bu dövrdə, «müasirləşmək», «mədəniləşmək», «maariflənmək» ideyaları təbliğ edilirdi. Romantiklər insanın daxili gözəlliklərinə, ən ümdəsi də duyğularının gözəlliklərinə öz münasibətlərini bildirir, onların mühakiməsinə daha geniş yer verirdilər. Realistlərə nisbətən romantiklər qəlbin , ruhun azadlığı uğrunda mübarizədə daha fəal iştirak edirdilər.

Ideal həyat axtarışı ilə yanaşı, yeni şer üslubu da yaranmağa başlamışdı. Romantizmin xüsusiyyəti onun ideya məzmununda, nəzəri-estetik prinsipində, bədii idrak və sənətkarlığında idi. Romantiklər klassik irsdən bəhrələnə-bəhrələnə romantik şerin nəzəri estetik formalarını yaradırdılar.

Qəzəl, qəsidə, həcv, məddahçılıq zəifləməyə başlamışdı. Əski şerin yuxulaması yenisinin yaranmasına şərait yaradırdı. Mövhumatçı, epiqonçu şairlər sıradan çıxırdılar. Romantiklər Şərqin bədbəxtliyini sxolastik, köhnə ilahiyyatçı fəlsəfələrdə görür, Şərqin Qərbə nisbətdəki bədbəxtliklərini onların kasıblığı, ətaləti ilə bağlayır, yeni fikirləri təbliğ edir və bu yolda ədəbiyyatı mübarizə vasitəsi sayırdılar.

Romantiklərin əsas mövzuları milli azadlıq ideyaları, bədbəxt adamların hüquqlarının müdafiəsi, xalqın azad gələcəyinin, xüsusən də qadın azadlığının tərənnümü idi. Onlar qadın əsarətinə, çadra əleyhinə çıxır, dilənçilərin, xəstələrin, qızların, qadınların faciəsini ədəbiyyatda əks etdirirdilər.

Həmin dövrdə Hüseyn Cavid özünün «Qadın» şerində yazmışdır.

*Anasız millət, əvət öksüzdür.*
*Sənin aləmdə vəzifən, hissən.*
*Nə böyük, həm nə ağırdır bilsən?*

(Cavid H. Əsərləri dörd cilddə, 1-ci cild. Bakı, Yazıçı, 1982, s.39).

Cavidin qadınla bağlı o zamankı şerləri onun gələcək dramlarındakı qadın obrazlarının mikromiqyaslı nümunələri idi.

«Onun (H. Cavidin – N.Ə.) 1913-cü ildə çap olunan ilk kitabının «keçmiş günlər» adlandırılması da təsadüfi deyildir. Əslində «Keçmiş günlər» geniş mənada tarixi yaddaş və hətta uzaq gələcəyin də əsası olan bir yaddaşdır. Və elə bu vaxt «Iqbal» qəzeti H. Cavidi Qafqazın ən füsunkar mühərrir və şairlərindən biri hesab edirdi. Çünki şairin qələmində Şəfiqənin ağrıları dil açır («Məsud və Şəfiqə»), açılmadan solan bir gözəlin qüssəsi dalğalanır («Otuz yaşında»), öz sevgilisinə çatmayan gənc oğlanın hönkürtüləri eşidilir, («Gecəydi»), uyuyan qadını mübarizəyə çağırış nidaları səslənirdi («Qadın»). Bu əsərlərin oxucuları H. Cavidin obrazlarına təəccüblənmirdilər, onları arayıb axtarmağa vaxt sərf etmirlər. Çünki «Kiçik sərsəri» də, «Öksüz Ənvər» də elə hamının tanıdığı adamlardır. (Əliyev K.H. Hüseyn Cavidin şəxsiyyəti və poetikası. Bakı, Yazıçı. 1997, s. 12). H. Cavid elə ilk şerlərində Şərq qadınının halına acımış, onu düşdüyü vəziyyətdən çıxarmaq üçün yollar axtarmışdır. Onun «Qadın», «Qız məktəbində», «Şərq qadını», «Vərəmli qız», «Bir qızın

son fəryadı» və s. şerləri öz səciyyəsinə görə bu qəbildən olan əsərlərindəndir.

Şairin «Şərq qadını»nın miskin taleyinə həsr etdiyi şeri elə həmin qadının öz dili ilə qələmə alınmışdır: «Pək gözəlsən» - qaniçən sultanlar, məni əyləncə yapar. Çox zamanlar da bağışlar birinə, «Ən nəfis işvəli bir qüvvə» -deyə, Oh, nə miskincə həyat? Yeri gəldikdə atalar Nilə, Yaxud atəşgədəyə… (H. Cavid əsərləri dörd cilddə, 1-ci cild. Bakı., Yazıçı, 1982 s.57).

XX əsrin əvvəllərində artıq romantiklərin əsərlərində lirik, epik və dram janrı xüsusi inkişaf mərhələsinə qədəm qoymuşdu. Ziyalılar təbiəti insana tabe etmək, təbiəti fəth etməklə, panislamizm, pantürkizm ideyalarına öz münasibətlərini aydınlaşdırırdılar. Tərəqqi, təkamül-ağlın möcüzələri ilə bağlı yazılar nəşr edilirdi. H.Cavidin «Salik», (bir yol ilə gedən), «Arif», «Gülçin», «H. Naxçıvanlı», «H.R. Naxçıvani», «H. Rasizadə» və s. təxəllüslərlə yazdığı «Keçmiş günlər», «Bahar şəbnəmləri» kitabları H. Cavid, S. Vurğun, C. Cabbarlı, S. Hüseyn, M. Müşfiq və başqa ədiblərimiz milləti qüvvətli olmağa, həyat mübarizəsində qalib gəlməyə, millətlər arasında dostluğa, qardaşlığa səsləyirdilər. Onların hər birinin, xüsusən də H. Cavidin məsləki, məzhəbi, insana məhəbbət, qadına məhəbbət, insanlar arasında məhəbbət, maarifə, mədəniyyətə can atma, mütərəqqi ideyalara meyl, bədxahlığa, iblisliyə ikrah hissi, insanlaşdırmağa çağırış idi.

*20 iyul 2001-ci il, «Elm» qəzeti*

# 10. HÜSEYN CAVİD DRAMATURGİYASINDA QADIN TİPLƏRİ

«Məhəbbət özündən başqa hisslər doğurur. Onlar da öz növbəsində məhəbbətə öz təsirini göstərir. Sevgili ilə bağlı məğrurluq hissləri məhəbbəti möhkəmləndirir, sevgiliyə görə utanmaq isə məhəbbət hisslərini öldürür». (Luk N.A. Emoçii i liçnost, Moskva, Znanie, 1982, s.88.)

Qadınlar sevgililərində gözəl məhəbbət hissləri yaratmağın xətrinə, onları öz gözəllikləri ilə həyəcanlandırmaq üçün tez-tez geyimlərini, bəzək əşyalarını-imiclərini dəyişə bilsələr də yaddaşlarındakı xəyanət və sədaqət, heyranlıq və peşmanlıq, məğrurluq və məyusluq, həzz və iztirab hisslərini-məhəbbətlə bağlı psixologiyalarını dəyişə bilmir, bəzən də bu hisslərin əsirinə çevrilirlər. Hər bir qadının (insanın) daxilində tanrı və iblis başlanğıcı olduğu üçün onlar mühitə uyğun olaraq bu və ya digər istiqamətlərdə iblis sınaqlarından keçərkən burulğanlara düşürlər. Büdrəmələr zamanı qadınların öz taleyi ilə bağlı seçimləri nəzərə alınmaqla, onlar müxtəlif dövrlərdə bu və ya digər istiqamətlərdə müxtəlif yozumlarla qruplaşdırılmışlar. I.P. Pavlov insanın sinir sisteminin dörd tipini müəyyən etmişdir: xolerik, sanqvinik, fleqmatik, melanxolik. Insanın təyinedici hisslər spektri (hisslərinin quruluşu) də dörd cürdür. Həmin hisslər də insanın həyatını mənalandırır, istiqamətləndirir.

Qadınlardakı gözəl məhəbbət hissləri sirli, gözəl duyğulara can atmaları ilə bağlıdır. Onlar sevərkən, sevilərkən tərəf müqabillərindən öz talelərinə təsir edəcək yaxşılıqlar gözləyirlər. Hər kəsin öz əslinə-nəsəbinə xas ruhu-qabiliyyətləri, vərdişləri olur. Onlar sevib-sevilərkən həm şüurlu, həm də şüursuz olaraq öz ruhlarını kamilləşdirmək məqsədinə xidmət edirlər. Buna görə də, qadınlar sevilərkən daha çox öz ruhlarına uyğun olan şəxsə can atır, onlar ilə uzunmüddətli əlaqəyə (kəbinə) nail olmaq istəyirlər. Qadınların bir qismi onları mübarizəyə səsləyənə, digəri halallığa-evə, başqa birisi yaradıcılığa, kamilliyə və s. məqsədlərlə bağlı onlara kömək edən şəxslərə məhəbbət hissləri bəsləyirlər. Bu

hisslər özü də, gizli və aşkar şəkildə əks etdirilir. Qadınların tipləri ilə bağlı ilkin məlumata ilk yazılı dastanımız olan «Kitabi Dədə-Qorqud» kitabında rast gəldik.

Dastanda Ozan deyir: «Arvadlar dörd cürdür; 1- birisi soy sordurandır (nəsil korlayan – N.Ə.), 2- birisi toy doldurandır (evini yiyəsiz qoyub, qapıları gəzən, qeybət, şayiə yayan-xəbərçi- N.Ə.), 3- birisi evin dayağıdır (evdardır, qənaətcildir, təmizkardır, sədaqətlidir – N.Ə.), 4 – birisi də, necə deyərlər bayağıdır (iş görməmək üçün hər cürə bəhanə gətirəndir – N.Ə.). (Kitabi Dədə-Qorqud, Bakı, Yazıçı, 1988, s.132.)»

Qadınların tipləri ilə bağlı ağızdan-ağıza keçən qədim bir əfsanə də vardır: Bir peyğəmbərin aman-zaman bir qızı varmış. Qız həddi-büluğa çatanda peyğəmbərin gözləmədiyi bir vaxtda üç hörmətli kişi eyni gündə bir-birindən xəbərsiz öz oğlanları üçün peyğəmbərin qızına elçi gəlirlər. Peyğəmbər nə edəcəyini bilmir. Elçilərin hər birinə xüsusi hörməti olduğu üçün onları özündən narazı eləmək də istəmir. Nə edəcəyini bilməyən peyğəmbər vaxt qazanmaq üçün qızını dırnaq içindəki «nəcib» bir heyvanla itin saxlandığı tövləyə salıb qapını bağlayır və qayıdıb elçilərə deyir: - Qızım evdə yoxdur. Sabah gələndə soruşaram, hansınızın oğlunu bəyənsə, mən də ona öz razılığımı bildirərəm. Elçilər bu cavabdan razı qalıb sabaha qədər gözləməyə razılaşırlar. Sabah olcaq peyğəmbər qızını gətirmək üçün tövləyə gedir və görür ki, tövlədə qızının eyni olan üç qız var. Peyğəmbər Allahın bu möcüzəsinə mat qalır və bu sirri açmadan elçilərin üçünə də öz razılığını bildirir. Evlənmək mərasimi başa çatdıqdan sonra peyğəmbər özünün əsl qızını təyin eləmək üçün bir-bir qızları yoxlamaq niyyətinə düşür. Beləliklə gəlib qızlardan birinin evinə düşür. Peyğəmbərin kürəkəni çox sevinib, arvadına deyir: Dur çay gətir. Atan bizə qonaq gəlib. Qız mızıldansa da heç yerindən də qalxmaq istəmir. Peyğəmbər barmağını dişləyir. «Bunun qabırğası qalındır. Bu uzunqulaqdır» deyir. Peyğəmbər ikinci gün o biri qızının evinə gedir. Peyğəmbəri görcək kürəkəni

həyəcanlanır, sevincək arvadına deyir: «Dur çay gətir. Atan bizə qonaq gəlib». Ikinci qız etiraz əlaməti olaraq ərinin üstünə çımxırır. Peyğəmbər yenə barmağını dişləyir. «Bu da itdi» - deyir.

…Üçüncü qızın evində səliqə-səhman, sağlam əhval-ruhiyyə hökm sürürmüş. Qız atasının yerini rahatlayan kimi bütün dəm-dəstgahı ilə süfrəyə çay, şirniyyat, meyvə gətirir. Peyğəmbər öz qızını tanıyır.

Əfsanəyə görə həmin qadınların nəsli özlərinə oxşar törəmələrlə çoxalıb, artmaqdadır.

Dünya ədəbiyyatında və praktikasında məhəbbət və intim həyatla bağlı qadınların səkkiz tipi qeydə alınmışdır: 1. Ilahi; 2. Iblisanə; 3. Yüksək zümrələrə mənsub yüngül əxlaqlı; 4. Müğənni qadınlar; 5. Gürzə tipli qadınlar; 6. Qabırğası qalın; 7. Meymun; 8. Qarğayan qadınlar. (Iskusstvo lyubvi (metodiçeskoe posobie dlya molodojenov) Tri vetvi persika. Kama Sutra, Literaturno-xudojestvennoe objedenie. Planeta, 1990, s.45). Bunların hər birinin qeyd olunan özünəməxsus xüsusiyyətləri qabarıqdır. Qadın barəsində ağıllıdır, ağılsızdır, zalımdır, rəhmdildir, əxlaqsızdır deyə qəti hökm başqa qadınlarla müqayisədə verilir. Ümumiyyətlə qadın psixologiyası bütün keyfiyyətləri özündə birləşdirən çevik, tez-tez dəyişən, ən ümdəsi də ruhundan və dünyagörüşündən asılı olaraq fərdi **qıcığa** (kursiv bizimdir - N.Ə.) malikdir.

«Mühitin müxtəlif amillərindən asılı olaraq eyni adamda bir-birindən fərqli, bir-birinə zidd duyğular yarana bilər və nəticədə şəxsiyyət öz sabit xarakterinə uyğun gəlməyən, gözlənilməz hərəkətlərə yol verə bilər (Qinzburq. L. O psixoloqiçeskoy proze xudojestvennaə literatura Leninqradskoe otdelenie, 1977. s.308). Bu nöqteyi nəzərdən H. Cavid dramaturgiyasındakı qadınlar tarixin müxtəlif dövrlərinə məxsusluqları ilə yanaşı həm də daxilən zəngin, öz mövqelərinə, genlərinə, seçdikləri obyektə qarşı xüsusi psixologiyaya malik olanlardır.

Beləliklə, H. Cavid dramaturgiyasında qadınların dörd əsas tipi kimi əsas aşağıdakıları qeyd etmək olar: 1. ilahi; 2. iblisanə; 3. cariyə və 4. adi həyatları ilə barışan qadınlar.

1. Ilahi tipli qadınlar dünyagörmüş, böyük ürəkli, haqqın qalib gələcəyinə inanan, xeyirxah, barışdıran, sülhpərvər və sevilən olurlar. Onlardan «Ana»da Səlmi ana, «Maral»da Nazlı bacı, Humay, «Topal Teymur»da Dilşad xanım, «Səyavuş»da Firəngiz, «Xəyyam»da Sevda, «Şeyx Sənan»da Xumar, «Iblisin intiqamı»nda Sima və b.

2. Iblisanə qadınlar məkrli, hiyləgər, xain, ənənədən kənara çıxan, qarşısındakını hərəkətə sövq edən, özünə güvənən, başqasının heysiyyətinə biganə olan, məhəbbət oyunlarında aktivlik göstərən olurlar. «Afət»də Afət, «Peyğəmbər»də Şəmsa, «Səyavuş»da Südabə, «Iblis»də Rəna, «Knyaz»da Jasmen və b. belələrindəndir.

3. Üçüncü tipə cariyə tipli rəqqasə qadınlar mənsubdurlar. Belə qadınlar müsiqini, gülü, bahalı daş-qaşı sevir və tez-tez də öz pərəstişkarlarını dəyişirlər. «Uçurum»da Anjel, başqa dramlardakı rəqqasələr bu tipə daxildirlər.

4. Dördüncü tipə adi həyatları ilə barışan qadınlar daxildirlər, «Şeyx Sənan»da Zəhra, Əzra, Nina, «Afət»də Alagöz, Altunsaç, «Knyaz»da Lena, «Xəyyam»da Vəfa, Səfa, «Iblisin intiqamı»nda Ema, Natella və b. onlara misal ola bilər.

*8 avqust 2001-ci il,*
*«Elm» qəzeti*

## 11. HÜSEYN CAVİDİN MƏHƏBBƏT KONSEPSİYASI

Insan məhəbbətlə, məhəbbət oyunları ilə yaşayanda həyatındakı, həyatdakı əzab-əziyyətləri duymur. Məhəbbət özü

əzaba çevriləndə isə, insan, xüsusən də qadın bu əzablara tab gətirmir.

Nadir mətanət və dəyanət sahibi olan H.Cavid qadın qəlbinin güzgüsü olan dramlarında, qadın psixologiyasının təzadlı məqamlarını, risk etmək həvəslərini, həyatlarındakı psixoloji yeknəsəkliyi, özünə bəraəti ustalıqla açmışdır.

Çox vaxt əxlaqın və mənəviyyatın sınaq məqamlarında büdrəyən qadınlar məhəbbətin özünü görməkdə «kor olurlar». Bu «korluq»dan çıxmaq üçün onlar məhəbbətlə bağlı şirin sözlərdə məhəbbət axtarırlar. Qadınların hamısında-müqəddəsliyindən, dindarlığından, şəhanəliyindən, gözəlliyindən, mövqeyindən, adiliyindən asılı olmayaraq kişilərdəki vədlərə, şirin sözlərə – «məhəbbət»ə aludəlik, maraq vardır. Məhəbbət əzablarından xəbərsiz olanlar, onun nədən ibarət olduğunu anlamaq, dərk etmək, bilmək istəyirlər. Elə çox vaxt da, özləri də bilmədən bu marağın, bu riskin, bu məhəbbətlə bağlı bilginin qurbanına çevrilirlər. Belə məhəbbətlər əksər hallarda qeyri-qanuni olaraq doğulur.

Nəinki həyatda, hətta həyatı əks etdirən ədəbiyyatda da bu şirin dil kişilərdə məhəbbət axtaran qadınların hamısının əli boşa çıxıb, sonda Əli aşından da olublar, Vəli aşından da.

Istər H. Cavidin ilk şerlərindən olan «Hübuti-Adəm» (7) şerində, istərsə də , bəşəriyyət ilk anlarından Adəmlə Həvvanın bolluqdakı, firavanlıqdakı – ikilikdəki həyatlarını cənnət adlandırmışdır. Iblis (bu şər mələyinin adı Rafaeldir) (5) araya girənə qədər onlar cənnətdə xoşbəxt bir həyat yaşamışdılar. Iblisin şirin və yalan vədlərinə inanan, uyan Həvva nənəmiz qadağan olunmuş ağacın (məhəbbət, elm, idrak, günah) meyvəsindən dadandan sonra cənnətdən qovularaq Adəmdən ayrılmış və düz yetmiş il bu hicranın peşmançılığı ilə bağlı göz yaşları axıtmışdır.

Qəbul edilmiş əxlaq normalarına zidd çıxanlar üçün həmişə haqqın qəzəbi, xalqın töhməti olmuşdur. Qəzəblə töhmət üst-üstə düşəndə isə cəmiyyət özünün haqlı iradları ilə qadını

qiymətdən salır və bu ölümdən də acı hökmdən sonra qadın nəinki özü üçün, hətta ən yaxınları üçün də töhmətin mənbəyinə çevrilir. Bədbəxt qadınlar üçün bəlalı məhəbbət oyunları (!) gecələr qəm gətirir, gündüzlər sitəm. Onlar bu bəladan qaçmaq üçün nə qədər yollar axtarsalar da, sonda daha dəhşətlisi ilə təkbətək qalırlar.

Qadınlar seviləndə gül ləçəklərinə, atılanda püskürən vulkana bənzəyirlər. Bu zərifliklə kin arasındakı **qıcıq** qadın heysiyyəti, qadın ləyaqəti ilə bağlı hissdir. «Simvolistlərə görə, qadın insani vəhşilikdən qoruyan, onu şər qüvvələrdən xilas edən yeganə varlıqdır.

Qadın nəvazişi, qadın ülfəti kobud, vəhşi hissləri yumşaldır və yox edir. Humanist hisslər oyadır və inkişaf etdirir» (3).

Sevənlər arasında məhəbbət əvvəlcədən proqramlaşdırılmır və iki sevənin arasında üçüncü şəxs peyda ola bilmir. Məhəbbət hər şeydən əvvəl halallıqdır, zəhmətdir, qurbangetmədir. Bu hisslərlə mükafatlandırılmayan tərəf, uduzduğunu, aldandığını dərk edəndə (!) artıq verdiyi həzzləri, qurban getmələri geri almaq (haram eləmək) üçün hər şeyə əl atır. Turxan bəy Maralı («Maral»), Afət («Afət»), Qaratayı, Almaz («Topal Teymur»), Orxanı, Zəhra («Şeyx Sənan»), Sənanı, Arif («Iblis»), Rənanı və b. günahlandırır.

Qeyd edək ki, ədəbiyyatda çox vaxt qadınlar öz ərlərini yaşlı olduqlarına görə sevməmişlər; «Yusif və Züleyxa» dastanında Züleyxa Misir hökmdarı Əzizi, Lev Tolstoyun «Anna Karenina» romanında Anna əri Aleksey Karenini, Südabə («Səyavuş») Keykavusu, Maral («Maral») Turxanbəy, Afət («Afət») Özdəmiri və b. Doğrudur müəyyən məqamlarda bu cütlər yaş fərqinə görə, biri digəri üçün anlaşılmaz olmuşdur. Yaşlı kişilərin ağır təbiəti, dərin düşüncəsi onları cavan qadınları üçün dözülməz etmişdir. Ikinci tərəfdən adı çəkilən yaşlı kişilər öz qadınlarına məhəbbət oyunlarındansa, firavanlıq, diqqət, qayğıkeşliklə sıx bağlı olan məhəbbətin özünü bəxş etmişdir. Hər kəs üçün ailədə, məhəbbətdə geriyə

qayıtmaq (məhəbbət oyunlarından sonra) ya mümkünsüzdür, yaxud da ki, əbədi əzabdır. Bu səbəbdən də uduzmuşlar, aldanmışlar özlərini birincinin yox, ikincinin uğurunda öldürmüşlər. Anna Karenina əri Alekseyin yox, Vronskinin, Afət Özdəmirin yox, Qaratayın, Maral Turxanbəyin yox, Arslanbəyin və s.

«Kor»luqdan sonra gözü açılan Anna Kareninaya görə artıq: «Məhəbbət ülvi hiss deyil. Onlar (təzə sevənlər N.Ə.)» məhəbbətin nə qədər kədərli, nə qədər təhqirli olduğunu bilmirlər (6). Elə Anna özü də etiraf edir ki, bir vaxt əri Alekseyi də sevmişdir. Bu səbəbdən də «Mən onun gözlərinə baxa bilmirəm» (6) – deyir. Yuxarıdakı səbəblərdən Anna Vronski ilə qaçmağa məcbur olur, Afət Özdəmiri zəhərləyir və s. Relsdən çıxmış qadınlar vicdani hisslərini ört-basdır eləmək üçün (!) hər cürə qurban verərək daha çox sevdiklərini isbat etməyə çalışsalar da nəticədə özləri-özlərini aldatmış olurlar. Və xaraktercə güclü ərin təzyiqindən sonra xaraktercə zəif olan kişilərin qəniminə çevrilirlər… Bunlar olmasın deyə, məhəbbətdə bərabərlik mütləqdir.

Qadınlarda məhəbbətlə bağlı qüsurlar onların biliksizliyinin nəticəsidir. Onlar sevdiklərini öyrənib, öz biliklərində kamilləşəndə artıq onların özləri tərəfindən əks tərəf ifşa olunur.

Yaşla bağlı ziddiyyətlərdə bir çox hallarda yanlışlıqlar vardır. Orta əsr sxolastiklərinə görə «bədən gözəlliyi yalançı, saxta gözəllikdir. O, günah, aldanış, rəzalət mənbəyidir. (Buna görə də qadın, iblis damardır)» (4). Məhəbbət iki ruh, iki can arasında anlayışdır. Şeyx Sənanla («Şeyx Sənan») Xumar arasında, Xəyyamla («Xəyyam») Sevda arasında böyük yaş fərqi olmasına baxmayaraq həm də çox böyük məhəbbət vardır.

Beləliklə H.Cavidin məhəbbət konsepsiyasında məhəbbət çox ali duyğudur. Sevənlər arasında bu duyğular öz təmizliyini itirəndə, yüksək harmoniya pozulanda məhəbbətlə bağlı

hisslər, duyğular böhran prosesi keçirir. Və, bu ali duyğular təhqirdənsə, məhvə məhkum edilir. Belə hallarda qarşılıqlı olmayan məhəbbət, tərəflər arasında təzyiqə tab gətirmir, boğulur. H.Cavid dramaturgiyasında qadınlar bu hissin qarşısında aciz qalanda, məhəbbətin əlində oyuncaq olanda, ən acı təhqir obyektinə çevriləndə, artıq qəti ölümlə üz-üzə dayanmağa məcbur olurlar. Və bu acınacaqlı ömrü susdurmaq üçün qadınlar özünün və başqalarının fiziki bədəninə belə rəhm etmir, qəti ölüm hökmü ilə öz sarsıntılarına son qoyurlar.

H.Cavidin faciə qəhrəmanları olan qadınlar hər şeydən əvvəl hörmətli, mənsəbli qadınlardır. Hörmətli olan kəs də icazə verməz ki, onunla hörmətsiz davransınlar. Beləliklə, özünü öldürmək bir çox hallarda məhəbbəti öldürməkdən asan olur. Buna görə də, Südabə Səyavuşu, Şəmsa Peyğəmbəri yaxud də əksinə, Afət Qaratayı, Anna Karenina özünü, Turxanbəy Maralı və b. güc tətbiq etməklə öldürmüşlər.

Məhəbbətlə bağlı mübarizələr də müxtəlifdir. Bir var iki sevənin onlara qarşı mübarizəsi, bir də var iki sevənin bir-birinə qarşı mübarizəsi. Südabənin Səyavuşla («Səyavuş»), Şəmsanın Peyğəmbərlə («Peyğəmbər»), Afətin Qaratayla («Afət») və b. məhəbbətləri qarşılıqlı olsaydı, bax bu məhəbbət olardı. Qarşılıqlı olmadığı üçün məhəbbət deyil, məhəbbətlə bağlı oyundur. Oyun olduğu üçün də ucuz əyləncədir, vaxt itkisidir, rüsvayçılıqdır. Məhəbbətdə harmoniya pozulanda xaos yaranır. H.Cavid də öz dramlarında bu məhəbbət oyunlarını, bu xaosu həyatiləşdirərək canlandırır, ibrət almaq üçün oxucu-tamaşaçının göz güzgüsünə təqdim edir. «Böyük sənət əsəri də sənətkar dünyaya yayılan ağrını və əsəbi səhvsiz, əbədi dalğada tutanda (yalnız bu zaman) və poetik haraya çevirəndə yaranır» (1).

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Qarayev Y. İlyas Əfəndiyev. Bakı. 1987, s.3

2. Qəhrəmanov S., Xəlilov Ş., «Yusif və Züleyxa» (poemanın mətni və tarixi qramatik oçerk) Bakı 1998

3. Əfəndiyev A. Müdriklik səlahiyyəti. Bakı, «Gənclik», 1976, s.26

4. Əhmədov Ə. Etiklik və estetikliyin qarşılıqlı münasibəti, Bakı, Maarif, 1997, s.18.

5. D. Milton. Poteryannıy ray. bax: Andreev Çelovek i neçistaya sila. S-Peterburq, 1914, s.6

6. Tolstoy L.N. Əsərləri 14 cilddə, 9-cu cild. Anna Karenina. 2-ci kitab. V-VIII hissələr. Bakı. Yazıçı, 1981, s. 339, 309.

7. H. Cavid. Əsərləri. 4 cilddə, I cild, Bakı. Yazıçı, 1982.

8. H. Cavid. Əsərləri. 4 cilddə, II cild, Bakı. Yazıçı, 1982.

9. H. Cavid. Əsərləri. 4 cilddə, III cild, Bakı, Yazıçı, 1984

10. H. Cavid. Əsərləri. 4 cilddə, IV cild, Bakı. Yazıçı, 1985.

*28 avqust 2001-ci il,*

*«Elm» qəzeti*

## 12. «İBLİS» YOXSA «PEYĞƏMBƏR»?

Klassikimiz və müasirimiz olan H.Cavidin «Iblis»i nifaq salmaqla həqiqiliyini, ucuz həzz verməklə nəfsinin zəifliyini imtahan edən sərt, mətin ruhdur, mələkdir. O, öz ağıl və zəhmətindən deyil, başqasının zəhməti və təcrübəsi ilə əldə etdiyi ağıl və sərvətdən asan yolla istifadə etmək istəyən insanlara tükürpədən, amiranə gülüşlərlə gülür. Onların tez-gec bədbəxt olacaqlarına haqq qazandırır və inanır.

Dünya romantizm tarixini vərəqləyərkən, Ibislərin hamısının insanı bədbəxtliyə sürüklədiyi aşkarlanır. Onların məqsədləri bir olsa da, getdikləri yol həmişə müxtəlif və orijinal səciyyə daşımışdır.

Cavidşünas alimlərimizin əksəriyyəti konkret olaraq Iblisin mənfi, yoxsa müsbət obraz olmasını qətiləşdirə bilməmişlər.

«Iblis» bir tərəfdən ictimai mühiti, (çoxluğu) naqislikləri qamçılayır, digər tərəfdən nəfsinə qul olan zəif insanları bədbəxtliyə sürükləyir. Elə buna görə də konkretlik alınmır.

Qədim Yunanıstanda demoniklik, iblislik, dahilik mənasında işlənmişdir. Romantiklər çətinlik qarşısında qalan insan taleyini həll edərkən Iblislikdən istifadə etmişlər.

«Peyğəmbər»də isə göydən enən mələk vasitəsiylə müşküllər açılaraq həll edilmişdir.

H. Cavidin bütün əsərlərində ikilik var idi. Şübhəçilik və inam fəlsəfəsi biri digərinin ardı və yekunu olan əsərlərin hamısındakı bu ideyalar «Iblis» faciəsində – aldanışlar və axtarışlar dünyasında həll edilir. Sonda halallığa, allaha inam qalib gəlir və bu ideyalar da öz əksini H. Cavidin «Peyğəmbər» dramında tapmışdır.

Dünyanın nur, işıq başlanğıcı tanrıdır. Tanrı təkdir prinsipi də elə bu istiqamətdəki baxışlardan yaranmışdır. Bu nöqteyi-nəzərdən qəti demək olar ki, oddan törənmişlər… nurun tərkibindən ayrılaraq uzun uzadı tərəqqi keçib və kamilləşərək kainatı dövr edir və təmizlənmiş halda yenidən nura qovuşur. Qüdrətin sirrini özündə gəzdirən insanın da daxilində bu proses daimi olaraq dövr edir.

«Iblis» faciəsində ilk pərdə açıldıqda bir neçə zabit durbinlə uzaqlara – müharibə səhnələrinə baxırlar. Durbinin gözlərinin birində Iblis, digərində Mələk görünür. Cavid məhz bu nöqtədən Iblis, yoxsa Peyğəmbər, daha dəqiq desək Allah haqlıdır, yoxsa Iblis probleminin həllinə başlamış və Iblisin törətdiyi qanlı müharibələr, ədalətsizliklər, əxlaqa və mənəviyyata zidd hadisələr çözüldükcə çözülmüşdür.

Aləmləri qarışdırmaq üçün həqiqət axtaran Iblis sonda ifşa edilmişdir. Nəhayət böyük Cavid durbinin ikinci gözündəki şəxsi mələyi-peyğəmbəri-Allahı aydınlaşdırmışdı. Beləliklə, o özünün «Peyğəmbər» pyesini doğurmuşdur. Dünyada harmo-

niya yaradan, dünyanın barışığa «din birliyi»nə çağıran «Peyğəmbər»ə üstünlük vermişdir. Qarışdırana lənət, barışdırana rəhmət oxunmuşdur.

«Iblis» faciəsində ara qarışdıranlar, suyu bulandıranlar aşkar edildikdən sonra səbəblər saf-çürük edilir. Yaralar görünür və sağalmaq ehtimalı yaranır. «Peyğəmbər»də isə daxili ziddiyyətlər örtülü qalır. Bir daha yaraların dərinə işləməsinə şərait yaranır. «Olum, yoxsa ölüm?», «Iblis» yoxsa «Peyğəmbər»dəki problemlər də məhz bu baxımdandır…

Problem dünyanın özü kimi, xristian-müsəlman dini kimi öz paralelliyini qoruyur. Əbədi mübarizə isə həmişə xaosa qarşı harmoniyadır. Iblisə qarşı peyğəmbərdir. Üçüncü orta yol dünyanın və insanın öz daxili dünyasıdır ki, buna da hər kəs öz üzərində nəfsinə qalib gəlməklə, ümumi harmoniya prinsiplərinə əməl etməklə, vətəndaşlıq intizamına xoşluqla dərrakə ilə tabe olmaqla nail ola bilər. Dünyanın və insanın daxili dünyası hisslərin, qıcıqların, qısqanclıqların xaosa məxsus dünyasıdır ki, bu dünya bitsə, yaşayış özü adiləşər, mənasızlaşar doğulan və yaşayan hər bir kəs də istər-istəməz mübarizəsiz cənnət dünyasına düşər. Lakin cənnət də, cəhənnəm də məhz bu xaosun aydınlaşdırılması nəticəsində qazanılmalı və qiymətləndirilməlidir. Cavidin yerdə qalan bütün əsərləri «Iblis»lə «Peyğəmbər» arasındakı harmoniyaya qarşı haqqa, ədalətə zidd hadisələrdir. Beləliklə demək olar ki, Cavidin şah əsəri «Iblis» faciəsidir.

Hüseyn Cavidin müraciət elədiyi mövzular yeni orijinal mövzular deyildir. Cavidin daim mərkəzdə olması onun qeyri-qanuni işləri işıqlandırması, həyat əleyhinə qəbul edilmiş əxlaq normalarına narşı çıxan hadisələri yazması idi.

H. Cavid həmişə insanın içərisindəki nüvəni, naqisliyin nüvəsini içəridən dağıtmaq, yoxa çıxartmaq, kökünü kəsmək istəyirdi. Onun hər sözünün xüsusi mənası vardır. Bəlkə də buna görə o, hər şeyin, hər sözün üstündə əsirdi, naşı barmaqlara xəbərdarlıq edirdi. «Imlasına toxunulmasın». Hər bir insan

doğulur, yaşa dolur, kamilləşir və dünyasını dəyişir. Rahat həyat sürənlərin, qocalaraq dünyasını dəyişənlərin əzabları da o dünyada rahatlıqla çürüyür, əzabla ölənlər isə cəhənnəm əzabı çəkir. Cavid dramaturgiyasında bu motivlər həyatla əlaqəli şəkildə qabardılmışdır. Faciə-cəmiyyətin qəbul etdiyi qanunlar pozulanda baş verir.

«Şeyx Sənan» milli mentalitetə zidd gedərək xristian qızına vurulur. Öz əqidəsinin ziddinə gedir, XX əsr Azərbaycan ədəbiyyatının şah əsəri olan «Iblis» faciəsində Iblis ən aliyə, ən müqəddəsə Allaha qarşı çıxıb. Onun bütün sirrlərini açıb hörmətdən salır. «Afət» Allahın kölgəsi olan ərə qarşı, Səyavuş xaqanlara qarşı, Südabə yasaq olunmuş bir ənənəyə qayıdaraq öz oğulluğundan ehtirasına cavab gözləyir. «Şeyda» kasıbların xeyrinə marselyoza yazır və s.

Faciə qəhrəmanları olan qadınlar bir qayda olaraq özlərindən güclüsü ilə «sevişirlər» və məhşurlaşırlar. Iblis kimi onlar da özlərindən güclüsünə qalib gəlməkdən ötrü ölümə də meydan oxuyurlar. Güclünün sevimlisi olmaq, ona uymaq əbədi təhlükəsizliyin təmin olunmasıdır, xoşdur, şirindir. Lakin bu güclüdə çox adamın gözü var, bu çoxluqda qadınlar uduzurlar. Yeri gəlmişkən onu da qeyd edək ki, «Uçurum» dramında Ildırımın Cəlalı Anjeldən uzaqlaşdırmaq üçün Anjelə eşq elan etməsi, onun hiyləgərliyi, mənəviyyatsızlığı, başqasının bədbəxtliyində öz xoşbəxtliyini qurması, hadisələri süni sürətdə qızışdırmışdır.

Edmonun Anjelə qarşı prinsipial asılılığı ən azı iyrənc təəssürat bağışlayır. Qarşılıqlı olmayan münasibətləri daha da kəskinləşdirir. «Afət»də gənc zabitlər Kaplan və Qorxmazın qısqanclıq məqsədi ilə Afətlə eşqə qurşanması da ətrafın onlara olan münasibətlərini daha da pisləşdirir. «Maral»da Arslan bəyin yenidən peyda olması Maralı bədbəxt və rüsvayçı bir ölümə düçar edir. «Topal Teymur»da Olqa ilə Orxanın izdivacı Teymur sarayındakı daxili xəyanətdən xəbər verir.

Çox vaxt da Cavid tədqiqatçılarının bəziləri tərəfindən bu məhəbbət oyunları səhvən məhəbbət kimi təqdim edilib gənc nəsildə, oxucuda çaşqınlıq yaradır.

Ata ilə oğul («Maral»da) ərlə arvad («Afət»də, «Uçurum»da) qardaşla qardaş («Iblis»də) və s. bir-birinə düşmən olan ideyalarda bu dramlardakı toqquşmaları daha da kəskinləşdirmişdir. Cavidin də ehtirazı məhz bu məqamlaradır. O demək istəyir ki, hər bir kəs yaşadığı cəmiyyətdə başqalarının xoşbəxtliyinə hörmət etməyi bacarmalı, bu müqəddəs qanunlarla ehtiyatlı davranmalıdır. Subay kəs «Sevirəm» kəlməsi ilə öz şəxsiyyətini alçaldıb, ailə dağıtmamalıdır. Belə sevgilərdən məhəbbət yox, olsa-olsa intriqa hissləri göyərər, məhkumluqlar, bədbəxtliklər yaranar. «Afət»də Qaratay kimi, «Peyğəmbər»də Şəmsa kimi, «Uçurum»da Anjel kimi. Burada sevirəm kəlməsi qeyri münasib səslənir. Təmizlik olmayan yerdə sevgi bitməz. Xoşbəxt olmaq üçün cəmiyyətə uyğun yaşamaq lazımdır. Ağılsız hissi ehtiras insanı bədbəxtliyə, məhəbbətdən doğulan həzzlər isə insanı sağlamlığa, xoşbəxtliyə aparar. Xoşbəxt olmaq üçün insan ardıcıl və halal həzzlərlə öz ruhunu kamilləşdirməlidir. Məhəbbətdə həmişə bir-birinə zidd olan duyğular olur. Buna görə də münasibətlərdə, ünsiyyətlərdə bal ilə zəhəri bir-birindən ayırmaq zəruriyyəti yaranır. H.Cavid bütün dramlarında əsas mübarizə insan və tale problemi, orada cəmiyyətin rolu, təmiz və yüksək məhəbbət ehtirası uğrundadır.

Məhəbbət həm millətlər arasında, həm qadınla kişi arasında davam və inkişafda verilmişdir. Məhəbbət insanlar arasında bu və ya digər istiqamətlərdə daima hərəkətdə verilir. Məhəbbət cəmiyyətə və ayrı-ayrı fərdlərə hərəkət istiqaməti göstərir. Və bu duyğular xaos harmoniyaya çevrilənə qədər nəzarətdə saxlanılır. Beləliklə demək olar ki, Cavidin bütün dramlarındakı əsas ideya məhəbbət ideyasıdır. Qəhrəmanların da xoşbəxt ola bilməsinin əsas səbəbi dini təəssübkeşlik, bir-

birinə zidd olan dünyagörüşlər, zidd xarakterlərdir. Buna görə də təmiz məhəbbət ehtirası, nifrət və intiqam, varlanmaq ehtirası qarşısında təbii olaraq sarsılmışdır.

Cavid dramaturgiyasında məhəbbətin dörd əsas prinsipi vardır. Intensivlik, davamiyyət, doğruluq, yaxşılıq, yaxud da yaxınlıq. Cavidə görə bəşəriyyəti bütün bəlalardan xilas edəcək bir qüvvə varsa o da halallıqdır, gözəllikdir, sevgidir. Bu hisslər sosial yapışqanlarla cəmiyyəti yaşadır və inkişaf etdirir.

H. Cavid bütöv şəxsiyyətdir. O, öz yaradıcılığı boyunca yerdən göyə qədərki poblemləri bir sistem halında həll etmişdir. Onun hər bir əsərindəki konkret nəticə də halallıq, zəhmətə və məhəbbətə bağlılıq, sülh, dostluq, qardaşlıq-beynəlmiləl ideyalar insanlığa və insanlaşdırmağa çağırışdır.

*Elmi axtarışlar, VIII toplu,*
*Bakı, 2002, s. 239-243*

## 13. H. CAVİD DRAMATURGİYASINDA ROMANTİK QƏHRƏMAN ANLAYIŞI ("İBLİS", "ANA")

Romantik anlayış, bir az da geniş götürsək romantizm (1.s99) nə deməkdir?

Hər şeydən əvvəl romantizm nəzərdə tutulmuş haqq yolu, doğru yolu, müsbət amalı, gələcəyə olan baxışları yaxud da əksinə, ideallaşdırmaq və bu istiqamətləri hiss və duyğularla sözə, fakta, ədəbi hadisəyə, parlaq obrazlar sisteminə çevirən məktəb, üslub, forma, sezmə, uzaqgörənlikdir.

Insan ata və anasındakı mürəkkəb cövhərdən, əmələ gəldiyi üçün təbii olaraq ikili xarakterlə doğulur. Və ata-anasındakı hər hansı üstün təsir illər keçdikcə özünü həmin insanın

xarakterində, haqqa, haqsızlığa meyilliliyində daha qabarıq şəkildə aşikar və gizlin halda birüzə verir.

Nisbətən qətiyyətli kəslər bu ikililiyin nisbətən ziyanlı tərəfindən silkinməyi bacarır, özünü tərbiyə edə bilir.

H. Cavidin "Iblis" faciəsindəki Iblis obrazı belə qüvvətli mənfi obrazdır. Sırf mənfi obraz olmasına baxmayaraq Iblis özü də ikili xarakterə malik, həm mifik, (göylərdən peyda olaraq enən) həm də real insan obrazıdır.

Iblis onun təklif etdiyi tanrıya zidd yolla getməyəni, ona əyilməyəni, onu qiymətləndirməyəni qəsdən, bilərəkdən səhv yola şirnikləndirməklə oyuncağa çevirir, normal həyat tərzi yaşamayan, normal sistemlə davranmayan ümumharmoniyaya zidd hər bir kəsi zəlil edərək adiləşdirib, heçə endirir, nahaqq yolla getmək istəyənlər üçün mayaka çevrilib, yol göstərir.

"Allah ilə bir zikr edilir namü-nişanım"-(2.s258) deyən Iblisin yolu Allahın buyurduğu haqq yolun, doğru yolun tam əksidir.

Evləri yandıqdan sonra ata-anasının günahlarına cavab axtaran, üstəlik sağ qalan kiçik qardaşını da itirən Arif mədəni aləmi, şəhəri tərk edərək kəndə üz tutmuş, burada yandırılmış evlərinə görə insandan və Allahdan narazı bir ömür sürməyə başlamışdır.

Arifin bu incikliyi həssas və fəhmli Iblisin gözündən yayınmamışdı. O, Arifin özünü "Şərqin mütərəddüd cocuğunu, Şərqin əsəbi yavrucuğunu"(2.s.281) imtahan edərək sınaqlara salıb çıxartmağa qərar vermişdir.

Artıq iblisləşmiş Ibn Yəminə görə Arif şübhəli bir kəsdir. Daha konkret isə;

**İbn Yəmin**

(Rənaya)

*Bu hərif feyləsofmu, ya dəlimi?*

*Sanki həp cəhldir bunun elmi*

yaxud da " Iştə bir gəcnəzər, zəki sərsəm" (2.s.263) dir Arif. Ibn Yəmin bu həssas, zəki, öz fikrindən dönməyən artıq şübhələnmiş tərsdən-Arifdən uzaq olmağı özünə faydalı hesab edir. Şahid əsgərlə Arifin xoş münasibəti bir daha Ibn Yəmini və onun çavuşunu ehtiyatlı olmağa vadar edir.

Rənanın atasını öldürən Ibn Yəminin həssas Arifdən uzaq olmaq istəyi ən əvvəl onun öz qorxusuna görədir. Ibn Yəmin zahirən bu cocuqdan-Arifdən qorxmur, daxilən isə qorxduğuna görə Rəna ilə birlikdə ondan tez uzaqlaşmaq istəyir.

Bunu duyan Arif sakitcə Rənadan xahiş edir.

**Arif**

*"Burda qal, getmə, həm də sorma neçin?" (2.s.266)*

Hələlik Arif iki güclü şəxsiyyətin Iblisin və Ibn Yəminin düşməni olduğu üçün təhlükədədir.

Ikinci tərəfdən Rənaya meyl etdiyinə görə artıq öz arvadı Xavərlə münasibətləri pozulmaqdadır. Digər tərəfdən Rəna həqiqəti bilmədiyinə görə Arifin təklifini qəbul etmir və onun təhlükəyə doğru getmək istəyi Arifin müvazinətini itirir... və o, qəti qərar verir.

**Arif**

*Ona mən yardım etməsəm gerçək*
*Məni vicdan əzabı məhv edəcək (2.s.269).*

Artıq Arif qovğaya atılmaq istəyir. Yalnız bu zaman Iblis ona pul və silahla yardımçı olur.

Deməli, Arif Iblisə tabe olmadığı üçün taleyi, (yəni ətrafındakı cəmiyyət onu) oyuna qoşur və beləliklə onun dinc həyatına son qoyulur.

**Arif**
(tərəddüd və düşüncədən sonra)

*Heyhat, o mələk qəhr edilirkən,*
*Layiqmi dub seyr edəyim mən?!*

(kəskin bir əzimlə)

*Yox getməliyəm, həm də bu saət,*
*Məndən ona hörmət və məhəbbət... (2. s.274).*

Arif qovğaya atılır. Yəni artıq özgələrin işinə qarışır. Başqa sözlə harmoniyanı pozur. Bunu hiss edən Iblis Arifi daha da çaşqın etdirmək üçün ona "Simli bir atəş; araq" içizdirir. Və Arifi idarə etməyə başlayır. Arifin əski uşaqlıq xatirələri, ilk sevdası yada düşür. Rəna ilə Arifin köhnə sevdası dirilir. Və onların hər anı Iblis tərəfindən izlənilir.

Arif getdikdən sonra onun arvadı da bir xəstə əsgərə qayğı, nəvaziş göstərməli olur. Beləliklə, Xavərlə Arifin arasındakı hicran qətiləşir. Bunu duyan Arif "bir heçliyə doğru" -yolunu davam etdirməyə başlayır.

Rəna yalnız bir şərtlə "babasının qatilini tapanla" ailə qurmaq istəyir. Bu yolda Ibn Yəmin, Arif və Vasif ona kömək etməyə hazırdırlar. Arif Rənayla daha bir addım yaxınlaşan zaman artıq Vasifin də varlığını dərk edir. Ehtiras Arifin gözlərini o qədər dumanlandırır ki, o, öz doğmaca qardaşını da tanıya bilmir.

Üstəlik Iblis Xavərlə-Rənanı bir-biri ilə təkrar görüşdürməklə Arifin Rənaya olan məhəbbətini və Xavərin

heçliyini onlara bəyan edir. Və Arif Rənanın gözəlliyini, onun üstünlüyünü Xavərə anlatmaqdan çəkinmir.

**Arif**

*...Ah,o, Rəna, o nazlı heykəli-nur.*
*Sanki qarşımda çırpınıb duruyor.(2.269)*

Beləliklə etiraz edən Xavər Arif tərəfindən vəhşiliklə boğulub, öldürülür. Və Arif Rəna ilə birlikdə öz evindən bir cani kimi qaçmağa məcbur olur. Və qaçır da. Ancaq nə qədər uzağa qaçsa da Iblis hər yerdə onu izləməkdə davam edir. Indi Xavərin atası dı Arifi axtarıb tapmaq və cəzalandırmaq üçün onu izləyir.

Iblis artıq bir drijor kimi gözü qızmış, qorxaq və məsuliyyətdən qaçmaq istəyən bir yığın cinayətkarı asanca idarə edir və öz qeyri-adi bacarığına güvənərək Şərqdə abid, Qərbdə rahib, mürşüd, qazi, papa ola bilir. Cənnət satır, özünü sadəlöv çoban, azad bir insan, adicə gənc bir oğlan kimi qələmə verə bilir. Üstəlik də o, hadisələrdə iştirakçı deyil, bir şahid sifəti ilə çıxış edir.

Meşəyə çəkilib cinayətkarları mühakimə edən Elxanın tələbi birdir.

Insan hər kimdisə öz xisləti ilə konkret olsun. Ya gözəl, ya çirkin, ya mələk, ya da ki şeytan olsun. Ikili kim varsa Elxan onu "yekrəng" olmadığı üçün güllələyir.

Hadisələr qızışdıqca cinayətkarlar artıq özləri biri-digərini sıradan çıxardır. Vasif Rənanı əldə etmək üçün Ibn Yəmini öldürür. Arif Rənanı əldə etmək üçün Xavəri öldürür.

Elxan müttəhimləri mühakimə edəndə ixtiyar, Arif-Vasif və Rəna yenə Iblisin barmağının tuşlandığı istiqamətdə çaşqınlığa düşürlər.

Artıq ikiləşmiş məcnun, Arif və Vasif, köhnə pərəstişkar və yeni aşiq Rənaya mütləq sahib olmaq üçün cəngə qatılırlar.

Arif öz qardaşını tanımadan bir rəqib kimi atəşləyib, öldürür. Bu zaman artıq Ixtiyar Xavərin intiqamını alsın deyə Elxandan imdad istəyir. Arif ölümə məhkum edilir. Və Iblis məqsədinə çatır.

Üstəlik Arifi uca səslə ittiham edir. Bir zaman onun qarşısında Arifin necə öyündüyünü  Arifə xatırladır. Onun süründüyünü hamıya göstərir. Öz üzaqgörənliyi ilə öyünür. Və öz yerini Arifə-artıq hər sahədə elmli, zirək iblisləşmiş insana bəxş edib,  onları tərk edir.

Insandakı ikililiyin, qərarsızlığın mənfi nəticələrinə ürəkdən inanaraq bir zaman onu saymayan "Əbləhü miskinə", Arifə öz kimliyini isbat edərək yoluna davam edir.

Iblis Arifdən yaşlıdır. Arifə nisbətən qocadır, tədbirlidir, gözü açıqdır və onun nə istədiyi qətidir, konkretdir, tərəddüdsüzdür. Iblis ona baş əyməyənləri sevmir.

Arif gəncdir, kamillik prosesi keçirir. Xavərin evində qaldığı üçün əzilir.

Evləri yandırıldığı üçün tanrıdan və mədəni aləmdən üz çevirmiş bir oğlandır. Arifin Xavərlə üzü gülmür. Xavər Arifə öz keçmişini unutdura bilmədiyi üçün Arif Rəna ilə gedir. Və daha təcrübəli bir mühitdə, cəmiyyətdə güclülər arasında məhv olur.

Iblis rəqibi (Iblisi Adəmə-torpaqdan yaranmış insana baş əyməyə məcbur edən) Tanrını hər kəsdən güclü sandığı üçün ona etiraz edir. Və özünü ona tanrıya rəqib hesab etməklə insanları Tanrıdan, haqq yoldan uzaqlaşdırır.

Qeyd edək ki, bədbəxtliyə düçar olanların hamısını hər yerdə qorxaqlıq hissi izləyir. Onlar öz haqsızlıqları ilə bir-birini izləyir. Hamının gözünə kül üfürən Ibn Yəmin-Rənanı gözdən qoymamaq üçün ona evlənmək istəyir, üstəlik də Arifdən ehtiyat edir.  Və hər ikisini qorxudan aldatmaq  istəyir. Bunu duyan Arif Ibn Yəmini izləyir. Ailəli olduğu üçün Arif də tərəddüd içindədir. Bunu dərk edən Vasif də onu izləyir. Qorxaqlıq haqsızlığa sübutdur. Beləliklə Iblislə əlbir olanlar

Tanrı tərəfindən cəzalandırılır. Haqlının yolu, haqqın yolu uzanır.

Və əsərin əvvəlində Mələyin:

*"Iblisəmi uymuş bəşəriyyət ?" (2.254)*

sualı yenə Mələyin öz dili ilə

***Mələk***

*Başdan-başa həp yer üzü vəhşət,*

*Iblis ilə həmrəngi-siyasət.(2. s.255)-qənaəti* ilə təsdiqlənir. Sonda o da məlum olur ki, əsərdəki obrazlardan təkcə general qızı olan Rəna haqlıdır. O, nə istədiyini (atasının qatilini) konkretləşdirib, öz istəyinin dalısınca gedir. "Babamın kim bularsa qatilini" (2.267) onu sevəcəyəm"-deyir. Sonda qalib gələn də məxsusi ər tinətli, öz yolunda qəti haqlı olan Rəna olur.

Qalanlarda fikir konkretliyi, aydın məqsəd olmadığı üçün onlar təbii olaraq haqsızlığa qarşı haqsızlıqla-Iblislə qarşılaşırlar. Sonda haqq-nahaqqa qalib gəlir. O da məlum olur ki, Arifgilin evlərinin yandırılması onun genindəki, qanındakı, cövhərindəki iki şəxsdən (ata-ana) birinin günahına görə olmuşdur. Həmin günahı Arif də təkrarən yaşadığı üçün o, Iblisin və zamanın qarşısında müttəhim kimi sürüklənir.

Qoca və kifayət qədər təcrübəli Iblisin Arifə göstərdiyi səhv yola görə camaat Iblisə nifrət edir. Arifə isə cavan və təcrübəsizliyinə görə rəhm göstərirlər. Cavidin romantik (uzaqgörən) qəhrəmanı Tanrı özü (peyğəmbər, əvvəldə mələk) konketləşib, qəhrəmanlaşır.

Beləliklə Tanrı hissiyyat şəklində zərrələşir, insanlaşır. Əvvəldə Iblisin dalınca düşən adamlar özləri sonda onu tanıyıb lənətləyirlər. Insanlar onları çaşdırmış Iblisi, haqsızı, dinsizi, dərk edir və onu lənətləyərək qəti qərarla

**Ümum**

(Coşqun Iblisə)

*Qəhr olmalı, məhv olmalı Iblis! (2.s.341).*

deyirlər. Beləliklə də Iblis qəti mənfi obraz kimi çaş-baş olub çoxluğun-Tanrının qorxusundan qeybə çəkilir.

Nəticə olaraq qəti demək mümkündür ki, H.Cavid insanın bədbəxtliyini onun konkretləşdirə bilmədiyi tərəddüdlü sevgisi ilə bağlayır. Və tərəddüdsüz, konkret tanrı eşqinə üstünlük verir.

## "ANA"

"Ana" dramında ana onun oğlu Qanpoladı xəncərlə düşmənçilik məqsədi ilə vurub öldürən Orxanı həbs etdirmir. Onu və onun dostu Muradı cəzalandırmağı Allaha-cəmiyyətə tapşırır və onun cəzalanacağına mütləq inanır, buna oxucu və tamaşaçı da inanır.

Burada qəhrəmanın - Ananın uzaqgörənliyi onun romantik anlayışına, ilkinliyə olan inamına sübutdur.

Fikrimizi reallaşdırmaq üçün Səlma ananın özünü dinləyək.

**Səlma**

(Muradın getdiyi tərəfə doğru hiddətli və həyəcanlı bir səslə)

*Get, namərd qonaq, get! Alçaq mültəci!*
*Get, miskin hərif, get! Cəllad yırtıcı!*
*Get, vicdansız! Özünü qurtar, yaşa!*
*Ancaq vicdansızları bəslər dünya!*

(daha sinirli və qızğın)

*Get, gözüm görməsin! Uzaqlaş, dəf ol!*
*Nə haqsızlıq etdinsə allahdan bul!*
*Get, çəkil get! Dinsiz, allahsız, xain!*
*Murdar izin bu torpaqdan silinsin!*
*Oğlumu söndürdün, yandırdın məni,*
*Get, kamə iydirməsin allah səni! (3.səh. 265).*

**ISTIFADƏ EDILMIŞ ƏDƏBIYYAT:**

1. Rusca-Azərbaycanca lüğət. III cilddə. III-cild. B.,"Elm" nəşriyyatı, 1978.
2. H.Cavid, Əsərləri IV cilddə, II cild. "Iblis". B.,Yazıçı, 1982.
3. H. Cavid. Əsərləri IV cilddə, I cild. "Ana". B., Yazıçı, 1982.

*Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına ədəbiyyat institutu Ədəbi – nəzəri məcmuə II – kitab, Bakı – 2004*

# 14. HÜSEYN CAVİD DRAMATURGİYASINDA HİKMƏTLİ SÖZLƏR VƏ AFORİZMLƏR

Azərbaycan xalqının möhtəşəm dramaturqu böyük Hüseyn Cavid XX əsr Azərbaycan ədəbiyyatına on beş oricinal əsər bəxş etmişdi. Hüseyn Cavidin yaradıcılığı iki dövrü: Oktyabr inqilabından əvvəlki və Oktyabr inqilabından sonrakı 1920-1936-cı il sovet dövrünü əhatə edir.

Nadir ədəbi simalardan olan H.Cavidin dram əsərləri istər ictimai məndəricəsinə görə, istərsə də milli və bəşəri məzmununa görə xüsusi sistem təşkil edən, xüsusi sistemə malik, yerdən göyə qədərki problemlərin cəminə və onların həlli yollarına həsr edilmişdi.

H.Cavid bir çox təxəllüslərlə: Müxbir, Növrəs, Qədirşünas, Gülçin, Arif, Salik (bir yolla gedən), H.Naxçıvanlı, H.R.Naxçıvani, H.Rasizadə, H.S.Rasizadə, H.C., Hüseyn Cavid, Hüseyn Rasizadə Naxçıvani və b. imzalarla yazıb yaratmışdır.

1936-cı ildə Hüseyn Cavidin əsərlərindən ibarət olan külliyyatın birinci iki cildinin çapdan çıxacağı haqqında məlumat verilmişdir.

Həmin incilər aşağıdakılardır:

1.«Balaxanı yollarında», 2. «Ana», 3. «Maral», 4. «Şeyda», 5. «Ata qatili», 6. «Şeyx Sənan», 7. «Iblis», 8. «Uçurum», 9. «Afət», 10. «Peyğəmbər», 11. «Topal Teymur, 12. «Knyaz», 13. «Səyavuş», 14. «Telli saz», 15. «Azər», 16. «Xəyyam», 17. «Şəhla», 18. «Iblisin intiqamı», 19. «Koroğlu» ssenarisi və yerdə qalan daha üç naməlum pyes.

H.Cavid repressiya qurbanı kimi bəraət aldıqdan sonra onun əsərlərinin dörd cildliyi nəşr edilmişdir.

Cavidin dörd cildliyində toplanmış əsərlərin xronologiyasını inqilabdan əvvəl və sonrakı dövrə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

Birinci dövr

1.**«Keçmiş günlər».** Buraya onun on üç şeri daxil edilmişdi. Həmin şerlər Cavidin əsasən 1905-1913-cü illər arasındakı şerlərindən ibarət mikromiqyaslı yaradıcılığının cəmidir.

2.**«Bahar şəbnəmləri»** adı altında toplanmış şerlər Cavidin on doqquz, «**Unudulmuş şerlər»** adlı kitabında isə şairin otuz altı şeri toplanmışdı.

3.Dağıstan xalqının həyatından bəhs edən «**Ana**» dramı H.Cavidin ilk səhnə əsəridir. Bu əsər 1910-cu ildə yazılmış, 1913-cü ildə nəşr edilmişdi.

4.H.Cavidin ikinci səhnə əsəri olan «**Maral**» dramının da mövzusu Dağıstan xalqının həyatından alınmışdır. Bu dramın yazılma tarixi 1912, nəşr tarixi isə 1917-ci ildir.

5.«**Şeyx Sənan**» faciəsini H.Cavid 1914-1915-ci illər arasında Naxçıvanda yazmışdır. Həmin faciə kitab halında 1917-ci ildə nəşr edilmişdi.

6.«**Şeyda**» sayca H.Cavidin altıncı dram əsəridir. Bu əsər 1913-cü ildə nəşr edilmişdir.

7.Ailə-məişət problemlərinə həsr edilmiş «**Afət**» faciəsi 1906-1909-cu illər arasında yazılmışdır.

8. H.Cavidin şah əsəri, şedevr adlandırılan «**Iblis**» faciəsi 1918-ci ildə qələmə alınmışdır.

9.«**Uçurum**» dramı dramaturqun sayca doqquzuncu əsəridir. Bu dram 1917-ci ildə yazılıb, 1926-cı ildə nəşr edilmişdi.

Cavidin BOS inqilabından sonrakı əsərləri 1920-1936-cı illəri əhatə edir.

10.«**Peyğəmbər**» dramı 1922-1923-cü illər arasında yazılmış, 1923-cü ildə nəşr edilmişdir.

11.«**Topal Teymur**» 1925-ci ildə yazılmış, 1926-cı ildə nəşr edilmişdir.

12.«**Knyaz**» 1928-1929-cu illərdə yazılıb nəşr olunmuşdu.

13.«**Səyavuş**» 1932-ci ildə yazılmışdı.

14.«**Xəyyam**» pyesini və «**Azər**» epopeyasını Cavid gənc yaşlarından yazmağa başlamışdı. Şair dramaturq «Xəyyam» pyesini tamamlamamışdı. Yarımçıq qalmış «Azər»i isə 1936-cı ilə qədər yazmışdır.

15.«**Iblisin intiqamı**» üzərində Cavid 1936-cı ilin avqust ayından 1937-ci ilin mart ayınadək işləmişdi.

**«Telli saz»**dan əlimizdə üç şerdən ibarət kiçik bir parça qalmışdı. H.Cavidin «Telli saz» əsəri 1931-1932-ci illər arasında yazılmışdı.

**«Dəli knyaz», «Koroğlu»** adlı əsərləri itmişdir.

H.Cavid eyni vaxtda bir neçə əsər üzərində paralel işlədiyi üçün onun əsərlərində həm paralellik, həm də ardıcıllıq izlənilmişdir.

H.Cavidin dörd cildliyindəki əsərlərinin ardıcıl nəşr tarixi ilə həmin əsərlərdəki hikmətli sözləri Cavidsevərlərə təqdim edirik.

## «KEÇMİŞ GÜNLƏR»

Əmin ol, nerdə nəfs olmuşsa hakim:
Həqiqi eşqi məhv etmiş məzalim (zülm).
Əsiri-nəfs olan – daim zəbundur. s.25.

***

Gecə- gündüz çalışsam, uğraşsam,
Yenə ən son nəticə heçlikdir. s.37.

## «BAHAR ŞƏBNƏMLƏRİ»

Yaşamaq istəsən çalış, çabala. s.93.

***

Şər olmadıqca xeyrə qovuşmaq mahal olur. s.101.

***

Məncə xilqət imdi bir əfsanədir,
Kim ki, həll etmək dilər divanədir. s.105.

## «UNUDULMUŞ ŞERLƏR»

Yaşarsa bir könül az-çox xəyal içində yaşar. s.126.

***

**H.Cavid. Əsərləri, IV cilddə, I cild, Bakı. Yazıçı, 1982.**

## «ANA»DAN

*O məcnundur, ondan bir şey umulmaz. s.10.*

***

*Tikansız qönçə olmaz. s.10.*

***

*Silah mərd oğula bir arkadaşdır. s.15.*

***

*Ah bu qız qız deyil, bir afətdir.*
*Hər bir halı insana dəhşət verir. s.16.*

***

*Mən oğul anası, o bir nişanlı,*
*Lakin o məndən daha istiqanlı. s.23.*

***

*Igid hər zaman igiddir, qardaşım. s.24.*

***

*Mələk ülzü şeytan, incəbel afət! s.24.*

***

*Qəlbi geniş qadından*
*Doğar Qanpolad kimi bir qəhrəman. s.27.*

***

*Düşmənim qanlı taleyimdir, ana. s.34.*

***

*Məhv olsa aləm Qanpolad dirilməz. s.34.*

***

*Sən bir qonaqsan, qatil olsan belə*
*Səlma həlak olur da, verməz ələ. s.35.*

***

*Ah, bir alçağa mərhəmət nə lazım? s.37.*

***

*Ancaq vicdansızları bəslər dünya. s.38.*

**H.Cavid. «Ana». Azərbaycan Universiteti nəşriyyatı, Bakı. 1957.**

**«MARAL»DAN**

Gözəllik zövqə aid bir şeydir. Sərvət isə düşündüyünüz kimi, insanı çox da məsud edəməz. Bir də bir qızı sərvəti üçün deyil, dilxah və tərbiyəli olduğu üçün alarlar. s.27.

Quyruqlu ulduzlar uğradığı yerləri nasıl zəhərlərsə, nasıl yaxıb yıxarsa, əmin olun ki, sərbəst qadınlar da eyni rolu oynayacaq, eyni fəsadı törədəcəkdir. s.300.

**H.Cavid. Əsərləri, IV cilddə, I cild. Bakı. Yazıçı, 1982.**

**«ŞEYX SƏNAN»**

*Şübhədir hər həqiqətin anası,*
*Şübhədir əhli-hikmətin babası,*
*Şübhə etməkdə haqlıdır insan. s.18.*

***

*Mərifət nuru şübhədən parlar. s.19.*

***

*Səni alçaldan ehtiras olacaq. s.25.*

***

*Nə öncə öylə səadət, nə böylə zillət olaydı. s.32.*

***

*Həp cinayət, qadın cinayəti*
*Həp qadın cürmi-ehtirasatı. s.41.*

***

*Həqiqət istərim, yalnız həqiqət. s.50.*

***

*Məhəbbət əhli daima*
*Olur bəlaya aşina. s.53.*

***

*Dinsiz olmaq da bir təriqətdir. s.54.*

***

*Vətənim, cümlə niyyətim, Kəbəm*
*Imdi yalnız, odur o, vaz keçməm. s.66.*

***

*Mənəvi eşqə qarşı hər insan*
*Bir demək… birdir iştə piri cavan. s.67.*

***

*Birsə həq, cümlə din də bir… naçar,*
*Xəlqi yalnız ayırmış azğınlar. s.67.*

***

*Eşqdən başqa hər nə varsa, əvət,*
*Tövbə, min tövbə!.. Eylədim nifrət.*
*Iştə Kəbəm də, cənnətim də budur. s.71.*

***

*Coşqun şərab eşq odunu söndürməz. s.76.*

***

*Məncə fürsət qanadlı bir quşdur*
*Kim ki, əldən uçursa, sərxoşdur. s.82.*

***

*Əbədiyyət mənim məzarımdır,*
*Çünki sultani-eşq yarımdır. s.90.*

***

*Yandım, Allah!.. Nədir bu işgəncə*
*Həm nə dəhşətli, dadlı əyləncə. s.91.*

***

*Çünkü siz korsunuz… O mənbəyi nur. s.102.*

***

*Bir həqiqətdir iştə, gözsüzlər*
*Kor olur, nuri-həqqi görməzlər. s.104.*

***

*Yaşadım bir xəyalə aldanaraq. s.109.*

***

*Ixtilaf, ixtilaf – məzhəbü din…*
*Din bir olsaydı yer üzündə əgər*
*Daha məsud olardı cinsi-bəşər. s.117.*

***

*Həp qadından gəlir nə gəlsə bizə. s.117.*

***

*Yüksələn məhv olar, fəqət enməz*
*Nuri həqq daima yanar, sönməz. s.120.*

***

*Nə qədər şairanə, solğun nur. s.127.*

**H.Cavid. Əsərləri, IV cilddə, II cild. Bakı. Yazıçı, 1982.**

**«ŞEYDA»DAN**

Hər ümüdsüzlükdə bir ümid, hər qaranlıqda bir işıq yaşayır, yalnız səbr və mətanət lazım.

Şaşqınlar daim əsəbi və bədbin olurlar. s.140.

Hissiyyata qapılıb da hər şey üçün maraq edənlər təhlükəni öz əlləri ilə dəvət etmiş olurlar. s.143.

***

Bu dünya çəkişib-çarpışmaq dünyasıdır. s.145.

***

Məhəbbət əsarətdir. s.163.

**H.Cavid. Əsərləri, IV cilddə, I cild. Bakı. Yazıçı, 1982.**

**«AFƏT»DƏN**

Qadınsız bir məclis, gülsüz bahara, bülbülsüz çəmənzara bənzər. s.104.

***

Qadın – həyat, həyat isə qadın deməkdir.
Qadın gah bir çiçək, gah da bir kələbəkdir.
O, həm bir mələk, həm də bir ördəkdir. s.104.

***

Birisi kəndinə düşünməz, kəndinə acımazsa, başqalarından nə uma bilər? s.105.

***

Arslanların saymazlığı şikarı tülkülərə qapdırır. s.110.

***

Mən hər dərdə əlac buldum da yalnız,
Eşqə, məhəbbətə çarə bulamadım. s.113.

***

Ruhşünaslıq da bir növ peyğəmbərlikdir. s.123.

***

Mən sussam da həqiqət susmaz. s.125.

***

Bütün cahanı xilas edəcək iki qüvvət, yalnız iki böyük qüvvət var, o da gözəllik və məhəbbətdən ibarətdir. s.133.

***

Dünyada yalnız bir şer, bir musiqi, bir din mənbəyi var ki, o da təbiətdir. s.134.

***

Çayların, irmaqların ninnisi, dənizlərin, çağlayanların vəlvələsi; arslanların, yıldırımların gurlaması; xəfif rüzgarların, çiçəklərin öpuşməsi, bülbüllərin, ishaqların ötüşməsi həp birər musiqidir. s.134.

***

Dinmi istərsin?

Iştə hər ulduzun incə təbəssümləri, hər günəşin yıldızlı baxışları, hər gün yeni bir din, yeni bir məzhəb doğurur.

Hər qürubun ölgün nəfəsi, hər gecənin səssiz qaranlığı, o günkü günəşlə bərabər o günkü dinin məzar adəmə kömüldüyünü elan edir.

Hər mövsümün, hər ayın, hər həftənin, hər günün allahları da, peyğəmbərləri də, dinləri də, kitabları da bir-birindən ayrı, bir-birinə düşmandır. s.134.

***

Qadın ruhu oxşayacaq bir şey varsa, o da yalnız məhəbbət və pərəstişdir.

Yeni həyata girmək üçün, əskilərə vida etməli. s.139.

***

Ağ günə çıxanlar qara günləri düşünməzlər. Düyün hazırlığı yapanlar, talesizlərin halını bilməzlər. s.140.

***

Ölüm bütün əsrarın anasıdır. s.145.

***

Intiqam vəhşətlərin ən alçağıdır. s.147.

***

**H.Cavid. Seçilmiş əsərləri. III cilddə, II cild. Bakı. Azərnəşr. 1969.**

## «İBLİS»DƏN

Iblis ilə həmrəngi siyasət. s.9.

***

Başdan-başa həp qəhrü qəzəb, tövbə inabə.

***

Həp zəfə əlamət. s.10.

***

Yaşamaq istiyormuson, çarpış. s.17.

***

Turana qılıncdan daha kəskin ulu qüvvət
Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət. s.27.

***

Iblis nədir?
-Cümlə xəyanətlərə bais,
Hər kəsə xain olan insan nədir?
Iblis!.. s.99.

**H.Cavid. Əsərləri. III cilddə, I cild. Bakı. Azərnəşr. 1969.**

## «UÇURUM»DAN

*Görməkdən daha dadlıdır eşitmək. s.191.*

***

*Sərsəm könül fərəhdən*
*Həm rəqs edər, həm sızlar. s.192.*

***

*Hər kömürdən parlar bir atəş. s.220.*

***

*Bahar əldən çıxmadıqca anılmaz. s.223.*

***

*Gedər də hürriyyət, gələr əsarət. s.225.*

***

*Ər kişiyə ümüdsüzlük yaraşmaz. s.249.*

***

*Basbəlli hər qışı izlər bir bahar. s.249.*

***

*Bu çılğın hal ilə əmin ol*
*Fəlakət doğurar hər tutduğun yol. s.249.*

**H.Cavid. Əsərləri. VI cilddə, II cild. Bakı. Yazıçı. 1982.**

## «PEYĞƏMBƏR»DƏN

Parla, yüksək vücudi-mütləqə sən. s.10.

***

Sevgidən xoşmu səncə atəşi kin? s.12.

***

Mən məhəbbət əsiriyəm… hər an. s.12.

***

Hər anın bir zövqü, hər məlalı var. s.13.

***

Hər acıya səbr etməli. s.18.

***

Yüksələn haqqa yaxlaşır ancaq. s.24.

***

Nuru heç dərk edərmi kor, heyhat. s.24.

***

Nerdə parlarsa haq, şərəf, vicdan
Eylilik, doğruluq, gözəllik inan,
Orda var sevgi, orda var iman:
Orda var şübhəsiz böyük yaradan. s.25.

***

Vicdanların nuru sönmüş
Könülləri vəhşət almış. s.27.

***

Ey böyük yalavac, inan ki, sussan,
Basbəlli tarix görər böyük ziyan. s.29.

***

Bir qadın könlü şübhəsiz,
Sayğısız, qızlarınkından
Daha bakir, həm ləkəsiz. s.22.

***

Geniş ruhu sanki fəza. s.26.

***

Qadın gülərsə bu issiz mühitimiz güləcək,
Sürüklənən bəşəriyyət qadınla yüksələcək. s.48.

***

Məhəbbətdir ən böyük din. s.49.
***
Sən nəsən? Iştə bir ovuc torpaq. s.51.
***
Yoxsulluq ən böyük sərvət. s.52.
***
Ölmədin iştə bu dünyaya dəyər. s.58.
***
Zahirin xoşsa da bədbatinsən
Bu gözəlliklə, əvət, çirkinsən.
***
Məni haqq düşməni məsud edəməz
Tanrısız bir qızın eşqində nə həzz? s.59.
***
Xəstə bir üzvə bənzər amili-sər
Kəs də, bulsun şəfa vücudi-bəşər. s.65.
***
Əvət, ən doğru, ən gözəl ayin;
Əhli vicdanə-busə, xainə-kin!.. s.65.
***
Bəlali aşiqəm elimdən ayrı. s.77.
***
Ən gözəl, tanrı nə istərsə odur. s.88.
***
Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü. s.88.
***
Bilgisiz bir qılınc tez-gec qırılar,
Şübhəsiz bilgidə Allah gücü var.
***
Əvət, arif düşünür, haqqı bulur,
Aqibət kəndisi bir tanrı olur. s.92.

**H.Cavid. Əsərləri. VI cilddə, III cild. Bakı. Yazıçı. 1984.**

**«TOPAL TEYMUR»DAN**

Qadınların incə təbəssümləri, dəhşətlərindən daha güclüdür. s.99.

***

Eşq aləminə əğyarın qarışması eyi bir aləm deyil. s.101.

***

Rəncbərlər sıxıldıqca dövlət xəzinəsi azalır. s.103.

***

Siz cəngavərlər insan qanına hərissiniz, biz şairlər gülgün şərabə. Onda vəhşət və dəhşət, bunda zövq və şətarət. Sizin hərb nərələriniz ürəkləri qoparır, insanları parçaladır, anaları ağladır.

Şairlərin eyş-nuş təranələri isə kinləri, kədərləri öldürür. Üzləri, könülləri güldürür. Siz insan qafalarını qırarkən, biz də o qafalardan yapılma qədəhləri bir-birinə vururuz. Siz hərb və vəhşət qalibi, bu eşq və məhəbbət məğlubu. Fəqət bizim bu məğlubiyyətimiz o qalibiyyətdən üstündür. s.105.

***

Insanlar mərhəmət və məhəbbətdən ziyadə vəhşət və qüvvətə tapınırlar. s.105.

***

Şairlər mənəvi həkimdirlər. s.106.

Məhəbbətlə ədavət bir-birinə bağlıdır. s.106.

***

Eşq və gözəllik tarixi yazan şairlər daha yüksəkdir. s.108.

***

Işvəkar bir qaşın çatılması, parlaq bir qılıncın çəkilməsindən daha mənalı, daha kəskindir. s.109.

***

Şairlər adət və qanun çərçivəsini qırıb, parçalamaqdan daha çox zövq alırlar. s.109.

***

Başdan şərab ağrısını yenə şərab çıxarır. s.120.

***

Könül nəyi sevirsə, o gözəldir. s.125.

***

Xəyanət cəzasız qalmaz. s.126.

***

Sərxoşların təsəllisi həzyan, aciz və zəiflərin silahı isə söyüş və qarğışdır. s.139.

***

Qaplanları parçalayacaq daha böyük vəhşilər var ki, o da insanlardır. s.142.

***

Cəsurların həzyanı həzyançıların cəsarəti qədər gülünc və mənasızdır. s.142.

***

Ordu susuz qalınca daha çapuq təslim olur. s.143.

***

Hərb zamanı hiylə də müvəffəqiyyət vasitələrindən biridir. s.143.

***

Qəbahəti məruz (bağışlamaq N.Ə.) görmək, fənalığı tərvic (bağışlamaq) etməkdir. s.146.

***

Ana qəlbi hər şeydən güclü və məhəbbətlidir. s.147.

***

Həyat yoldaşına xəyanət eləmək daha böyük ədəbsizlikdir. s.147.

***

Gövərçinləri də şahinlər parçalar. s.148.

***

Qardaş yarası daha acı, daha qorxunc olur. s.149.

***

Məhəbbət! Məhəbbət!.. Əvət, bütün bəşəriyyəti xilas edəcək yalnız məhəbbətdir. Məhəbbətlə çırpınan bir çoban qəlbi, kin və ədavət püskürən bir sultan qafasından daha şərəflidir. s.150.

***

Əgər dünyanın şanlı çarpışmaları, qanlı vuruşmaları nəticəsində bir məhəbbət, fövqəlbəşər bir məhəbbət doğurmayacaqsa… bütün həyata, bütün kainata nifrətlər olsun! s.150.

***

**H.Cavid. Əsərləri. IV cilddə. III cild, Bakı. Yazıçı. 1984.**

**«KNYAZ»DAN**

Bir günün zövqünə dəyməz dünya. s.154.

***

Hər sevincin sonu müdhiş fəryad… s.155.

***

Hər qadın cilvəsi bir dadlı xəyal. s.157.

***

Şən, gözəl bir qadının xoş baxışı,
Bir mayıs göstərir ən sisli qışı. s.157.

***

Qadın istərsə tikənlər gül açar,
Qızacaq olsa, ölüm fitnə saçar. s.157.

***

Hər baharın sonu matəmli xəzan,
Hər vüsalın sonu issiz hicran. s.158.

***

Badə xoşdur, ola saqi yalnız
Nəşələr yuvası şaqraq bir qız. s.158.

***

Gücsüzün haqqı əzilmək. s.163.

***

Inqilab iştə doğar aclıqdan. s.175.

***

Kimsə möhkəm sinirli, qalib odur,
Ölmək yaşamaqdır,
Sərsəm yaşayış ömrə yamaqdır. s.231.

***

Məhv edən məhv olur, əlbət, bir gün. s.233.

***

Doktorlara aldanmayın əsla,
Onlar – kimi şeytan, kimi tanrı… s.242.

***

Sən bir düri-saf, iştə gözəllik
Sənə heyran. s.244.

**H.Cavid. Əsərləri. IV cilddə. III cild. Bakı. Yazıçı. 1984.**

**«SƏYAVUŞ»DAN**

Gücsüz tanrıdan güclü qəhrəman
Səcdəyə, hörmətə layiq hər zaman. s.261.

***

Haq və ədalətmi?!.. O bir quş olsa,
Şahın sarayında yapamaz yuva. s.271.

***

Xəyanət ləkəsi daha qorxulu!.. s.273.

***

Qulağının dibi zəfəranlıdır. s.283.

***

Gürlama, düşmanı kiçik görənlər
Kiçik göstərənlər çox sürməz, inlər. s.291.

***

Kim üstün gəlirsə, ondadır hünər. s.293.

***

Əvət, qadın incə xilqət
Alçalırsa, heçdir fəqət. s.306.

***

Iki könül birsə, diləklər də bir. s.321.

***

Zalım bağışlansa daha çox azar
Məzlum üçün qazar, ən dərin məzar. s.334.

***

Bütün ehtiraslar olsa həp kəbə
Bir afət doğardı, o da Sübadə. s.343.

***

Sadəlik də abdallığın bir eşi (üzü – N.Ə.) s.352.
***
Dumanlı başlar, haqqı deyil
Haqsızlığı alqışlar. s.353.

**H.Cavid. Əsərləri. IV cilddə. III cild. Bakı. Yazıçı. 1984.**

**«XƏYYAM»DAN**

Aydındır, əvət, mədrəsələr həp,
Hər kərpic altında bir əqrəb. s.22.
***
Əsrinin öksüzüdür dahilər. s.29.
***
Bu gözəl yosmaların çeynədiyi
Hər çiçək bir gözəlin göz bəbəyi. s.33.
***
Saqın, aldırma ki, kor olsa cahan
Günəşin nuruna gəlməz nöqsan. s.39.
***
Içdikcə alov kasələrindən
Hər yıldızı bir şəbhərə sandıq. s.50.
***
Əhv etmə də bir dürlü cəzadır. s.52.
***
Çılğın bəşər iblis ilə həmrah. s.54.
***
Insan nə qədər saçma həqiqət. s.55.
***
Hanki məclisdə ki, yox cinsi-lətif,
Nəşədən zövq almaz bir arif. s.63.
***
Badə gözəldir, məzə həp naz ola,
Xoşdur o afət ki, xoşavaz ola. s.65.
***
Arif odur gülsün içindən bahar. s.71.
***

Yox işimiz şah ilə, sərdar ilə,
Xoş keçər ancaq günümüz yar ilə. s.73.
***
Həp qaranlıqdır, əvət, sirri-həyat,
Qoca xaliq də qaranlın, heyhat! s.94.
***
Oxşarmı gəlin ruhunu ağ saçlı bir aşiq?
Bir xarə bu gül qönçə nə layiq? s.124.
***
Əsil aşiq olur sevgidə sabit. s.125.
***
Məni oxşarkən o süzgün gözlər
Yağdırıb göz yaşı qısqandı bahar. s.128.
***
Beş gün ömrün neçə əfsanəsi var.
Eşqi var, badəsi, peymanəsi var.
Sonu həsrətlə bitərkən, əfsus
Yenə dünya dolu pərvanəsi var. s.131.

**H.Cavid. Əsərləri. IV cilddə. IV cild. Bakı. Yazıçı. 1985.**

**«AZƏR»DƏN**

Zalım əllər nə qədər üstünsə,
Qurtuluş yoxdur əzilmiş cinsə. s.154.
***
Ən fəlakətli böyük yanğınlar
Bir qığılcımlı xətadan başlar. s.154.
***
Qüvvətin varsa, haq sənindir, əvət. s.156.
***
Şərq uğraşır yalnız «ölməyim» deyə
Qərb elləri maildir öldürməyə. s.188.
***
Artdıqca bilgilər artar ehtiras. s.186.
***
Insanların məncə ən uğurlusu
«Yaşatmaq» zövqünü duyan kimsədir. s.186.
***

Yaşamaq bir haqsa, yaşatmaq da haq! s.187.
***
Pudralar, boyalar sarı üzlərdə
Pənbəlik yaradır. s.191.
***
Gözəlin – məncə – ən ülvi sifəti
Incə ruh, əqli zəka səltənəti. s.191.
Qorxun azğın ləkələrdən, qorxun,
Ev yıxan təhlükələrdən qorxun. s.194.
***
Bütün dinlər, qanunlar,
Qadınlara xor baxdı,
Üsyan edincə onlar
Su yerinə qan axdı. s.196.
***
Ölüm var ki, həyat qədər dəyərli,
Həyat var ki, ölümdən də zəhərli. s.199.
***
Hər sönük eşq üçün üzülmək fəna. s.199.
***
Ağlamaq insana miskinlik verir. s.199.
***
Bəxtiyarsan, əgər çəkdiyin əmək
Cahan sərgisinə versə bir çiçək. s.200.
***
Günəş kölgədən uğurlu… çalış nura doğru qoş. s.201.
***
Nəşəsiz bir ömrü ancaq mübarizə güldürər. s.202.
***
Bilgi saçar hər qaranlıq yurda işıq,
Yalnız əmək verir bizə bəxtiyarlıq. s.209.
***
Kimdən vəfa umdum qanımı içdi. s.209.
***
Hər günəşə vardım, ləkəli gördüm,
Hər vicdana girdim kölgəli gördüm.
Parlaq insanları şübhəli gördüm,
Məgərsə hər cilvə bir xülya imiş. s.209.
***
Hər yalan, təməlsiz bir sevda imiş. s.209.
***

Güldü Azər dedi: Tale nə demək!?
Yetişir olsa təşəbbüslə əmək.
Öncə kəşf etməlisən mənliyini,
Etsə, məsud edər ancaq o səni. s.210.

***

Bəşərin uyduğu əxlaq, adət
Bir yığın yıpramış ölgün hikmət. s.211.

***

Lazımsa cəhalətlə güləşmək,
Bir çarə var; ancaq yeniləşmək. s.214.

**H.Cavid. Əsərləri. IV clddə. I cild. Bakı. Yazıçı. 1982.**

**«İBLİSİN İNTİQAMI»NDAN**

Hər gələn bir sevgi yolu seçər, gedər.
Hər kəs əcəl badəsini içər, gedər. s.137.

***

Daimi sülhü özləyə-özləyə hər gün hərbi zavodlar tikilir. s.141.

***

Məni sevən izimdən ayrılmaz. s.143.

***

Çəkişmək də sevişmənin bir növüdür. s.147.

***

Cənab haqq bağışlayanları sevər. s.160.

Biz əgər ümumi və daimi sülh istəyiriksə, yalnız iki yol var: əvvəla heç bir yerdə inqilabi hərəkata yol verməmək, ikinci müharibə qızışdıranlar ilə yumşaq rəftar etmək. s.150.

***

Həqiqi insan hər fənalığı əhv etməlidir. s.162.

***

Hər şərri bir xeyir izlər. s.171.

***

Təzad həyatın ahəngidir. s.171.

***

Günəşin batdığı yerdə yalnız qaranlıqlar çökər. s.171.

***

Hər ölkənin əzilənləri var. s.173.

**H.Cavid. Əsərləri. IV cilddə. IV cild. Bakı. Yazıçı. 1985.**

**MƏQALƏLƏRDƏN**

O kəs ki, elmdən məhrum cəhlilə, «fanatik»dir,
Demə insan o nadana ki, bir heyvani natiqdir. s.178.

***

Bir gün öldür düşməni, bacarığın əgər var,
Qılıncım alov olsa bir dünya onda yanar. s.183.

***

Hissiyat dəniz köpüyündən çox da fərqli olmaz. s.186.

***

Məhəbbət bəşəriyyətin ən dərin, ən ülvü bir təcəlligahıdır.

***

Məhəbbət anlı-şanlı ordulardan, vulkanlı toplardan daha ziyadə qələbə və müvəffəqiyyət ehraz edə bilir. s.212.

***

**H.Cavid. Əsərləri. IV clddə. IV cild. Bakı. Yazıçı. 1985.**

# 1999 - 2005

## MƏQALƏLƏRİN MÜNDƏRİCATI


1. **Hüseyn Cavidin idealı…………………………...** **197**
2. **Cavid «Həqiqət Axtarıcısıdır» …………………....** **200**
3. **H. Cavid ateizmində humanizm…………………...** **201**
4. **Cavid Tədqiqatçıları və onların Cavidi zamanla, dövrlə bağlı əks etdirmək cəhdləri........................** **207**
5. **Cavidi düşündürən problem……………………......** **212**
6. **H. Cavidin bədii-fəlsəfi üçlüyünün ideoloji məqamları…………………………………………….** **215**
7. **H. Cavidin dili…………………………………….** **219**
8. **H. Cavid dramaturgiyasında Insan, Iblis, Tanrı…...........................................................................** **220**
9. **Hüseyn Cavidin ilk əsərlərində qadına münasibət……………………………………………….** **223**
10. **Hüseyn Cavid dramaturgiyasında qadın tipləri…...** **227**
11. **Hüseyn Cavidin məhəbbət konsepsiyası…………..** **231**
12. **«Iblis» yoxsa «Peyğəmbər»? ..............................** **236**
13. **H. Cavid dramaturgiyasında romantik qəhrəman anlayışı ("Iblis", "Ana")…………………………..** **241**
14. **Hüseyn Cavid dramaturgiyasında hikmətli sözlər və aforizmlər…………………………………….** **249**

**NƏZAKƏT ƏZİZOVA**

# *HÜSEYN CAVİD DRAMATURGİYASINDA QADINLARIN TİPLƏRİ VƏ CAVİDİN MƏHƏBBƏT KONSEPSİYASI*

Kompyuterdə yığan: E.Abbasova
Dizayner: Q.Babayev

Çapa imzalanıb 13.12.2005-ci il. Sifariş 242

Sayı 100. Formatı 60x84 1/16

Fiziki ç. v. 17. Hesab n. v. 13,6

Əla növ kağız. Qiyməti müqavilə ilə.

***AzTU-nun mətbəəsi. H.Cavid pr. 25.***